# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

**BEŞİNCİ KİTAB**

**İYUN 2004 - AVQUST 2004**

AZƏRNƏŞR
BAKI - 2010

# İLHAM ƏLİYEV

**ÇIXIŞLAR * NİTQLƏR**

**BƏYANATLAR * MÜSAHİBƏLƏR**

**MƏKTUBLAR * MƏRUZƏLƏR**

**MÜRACİƏTLƏR**

AZƏRNƏŞR
BAKI – 2010

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2010, 392 səh.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin oxuculara təqdim olunan bu cildində ümummilli liderimiz Heydər Əliyev tərəfindən təməli qoyulmuş siyasət – dost və qonşu ölkələr arasında bütün sahələrdə qarşılıqlı faydalı əlaqələrin daha da möhkəmləndirilməsindən və genişləndirilməsindən bəhs edən materiallar toplanmışdır.

Cilddə İlham Əliyevin NATO-nun İstanbul zirvə görüşündə – «Avratlantik ittifaqı yol ayrıcındı» mövzusunda beynəlxalq konfransda çıxışı, AFR-ə ilk rəsmi səfəri zamanı bu ölkənin dövlət və hökumət rəhbərləri ilə keçirdiyi yüksək səviyyəli görüşləri, söhbətləri, Dağlıq Qarabağ probleminin həlli və münaqişənin nizama salınması ilə əlaqədar ölkəmizin prinsipial mövqeyi geniş yer tutmuşdur.

Burada, həmçinin, prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrası ilə əlaqədar ölkəmizin şimal bölgəsinə (Siyəzən, Dəvəçi, Quba, Qusar, Xudat, Xaçmaz rayonları) səfəri zamanı rayon sakinləri ilə görüşərkən Azərbaycanın sürətli inkişafına, xalqımızın rifahı və tərəqqisi naminə aparılan geniş iqtisadi və siyasi islahatlara həsr olunmuş çıxış və nitqləri, materiallar öz əksini tapmışdır.

**İSBN 978-9952-8100-7-3**

$$Ə\frac{0801000000}{M-651(07)-2009}2010$$

**BBK-32**

© Azərnəşr, 2010

**YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ**

*Prezident sarayı*

*20 iyun 2004-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Yunanıstan Respublikasının Prezidenti Konstantinos Stefanopulos Bakıya rəsmi səfərə gəlmişdir.*

*Heydər Əliyev adına beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Yunanıstan prezidenti Konstantinos Stefanopulosu Azərbaycanın Baş naziri Artur Rasizadə qarşıladı.*

*Milli geyimli oğlan və qız Yunanıstan prezidentinə gül dəstəsi təqdim etdilər.*

*Qarşılanma mərasimindən sonra Yunanıstan prezidenti Konstantinos Stefanopulos fəxri motosikletçilər dəstəsinin müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

* * *

*Yunanıstan Respublikasının prezidenti Konstantinos Stefanopulos iyunun 21-də Fəxri xiyabana gəlmişdir.*

*Yunanıstan dövlətinin başçısı ümummilli liderimiz, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin məzarını ziyarət edərək əklil qoymuş, onun ruhu qarşısında baş əymişdir.*

* * *

*Yunanıstan Respublikasının prezidenti Konstantinos Stefanopulos iyunun 21-də Şəhidlər xiyabanını da ziyarət etmişdir.*

*Ali qonaq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanlarımızın xatirəsini ehtiramla yad etdi, «Əbədi məşəl» abidəsinin önünə əklil qoydu.*

*Yunanıstan prezidenti Konstantinos Stefanopulos Şəhidlər xiyabanının xatirə kitabına ürək sözlərini yazdı.*

* * *

*İyunun 21-də Prezident sarayında Yunanıstan Respublikasının prezidenti Konstantinos Stefanopulosun rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Sarayın rəsmi qarşılanma mərasimlərinin keçirildiyi həyətində fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan dövlətinin başçısı İlham Əliyev Yunanıstan prezidenti Konstantinos Stefanopulosu böyük hörmət və səmimiyyətlə qarşıladı.*

*Prezidentlər İlham Əliyev və Konstantinos Stefanopulos fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Yunanıstan prezidenti Konstantinos Stefanopulosa, Yunanıstan nümayəndə heyətinin üzvləri Azərbaycan prezidenti İlham Əliyevə təqdim olundu.*

## YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOS İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*21 iyun 2004-cü il*

*Rəsmi qarşılanma mərasimindən sonra Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Yunanıstan prezidenti Konstantinos Stefanopulosun təkbətək görüşü oldu.*

*Dövlətimizin başçısı İlham Əliyev ali qonağı səmimiyyətlə salamlayaraq onun ölkəmizə səfərinin ikitərəfli əlaqələrin daha da dərinləşməsində yeni mərhələ olacağını vurğuladı. İlham Əliyev bildirdi ki, o, Azərbaycan–Yunanıstan münasibətlərinin inkişafı sahəsində ümummilli liderimiz Heydər Əliyevin siyasətini davam etdirəcəkdir.*

*Azərbaycana rəsmi səfərə dəvətə və yüksək qonaqpərvərliyə görə dövlətimizin başçısına təşəkkür edən Yunanıstan prezidenti Konstantinos Stefanopulos ikitərəfli əlaqələrin möhkəmləndirilməsi və ölkələrimiz arasında daha geniş əməkdaşlığa nail olmaq üçün imkanlar olduğunu söylədi. Dövlət başçıları Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən möhkəm təməli qoyulmuş qarşılıqlı siyasi əlaqələrin səviyyəsindən razı qaldıqlarını və ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladılar. İqtisadi sahədə əməkdaşlıqdan söhbət açan prezidentlər ticarət dövriyyəsinin artırılmasının zəruriliyini qeyd etdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*21 iyun 2004-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Yunanıstan prezidenti Konstantinos Stefanopulosun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş oldu.*

**İ l h a m  Ə l i y e v**: Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz, – deyirəm.

Yunanıstanla Azərbaycan arasında münasibətlər çox sürətlə inkişaf edir. Biz çox istəyirik ki, bu münasibətlər bütün sahələri əhatə etsin. Biz bu gün Sizinlə təkbətək görüşdə bu məsələni müzakirə etdik. Biz çox istəyirik ki, aramızda siyasi dialoq daha da güclənsin. İqtisadi sahədə çoxlu layihələr var, çoxlu imkanlar var. Mən ümidvaram ki, iqtisadi əlaqələrimiz bundan sonra da güclənəcəkdir.

Biz çox şadıq ki, Sizinlə bərabər, Azərbaycana Yunanıstan iş adamlarının böyük bir qrupu gəlibdir və onlar çox səmərəli görüşlər keçirirlər. Humanitar sahədə əlaqələrimiz də çox uğurla inkişaf edir. Bakı Slavyan Universitetində yunan bölməsi fəaliyyət göstərir və ona çox böyük maraq vardır.

Bildiyiniz kimi, enerji sektorunda da uğurlu əməkdaşlıq gedir. Biz bu istiqamətdə ilkin addımları atmışıq. Ümid edirəm ki, gələcəkdə Yunanıstanla Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq daha da yüksək pilləyə qalxacaqdır.

Mən sizi bir daha salamlayır və əmin olduğumu bildirmək istəyirəm ki, bu səfərdən sonra bütün sahələrdə əlaqələrimiz daha da inkişaf edəcəkdir.

**Konstantinos Stefanopulos**: Cənab Prezident, təşəkkür edirəm.

Mətbuat nümayəndələrinin burada olmasından istifadə edərək, Sizi əmin etmək istəyirik ki, biz bu səfərə böyük əhəmiyyət veririk.

İcazə verin, Sizin atanızın əziz xatirəsinə ehtiramımı bildirim. Mən onunla iki dəfə görüşmüşəm və regionda mühüm əhəmiyyət kəsb edən bir çox məsələlər ətrafında, o cümlədən ölkənizin problemləri ilə bağlı fikir mübadiləsi aparmışıq.

Bu gün biz iki ölkə arasında mümkün əməkdaşlıq imkanlarını araşdıracağıq. Ölkəmiz enerji sektoruna maraq göstərir və biz Azərbaycanda təbii qaz yataqlarının səmərəli istifadə olunmasına ümid bəsləyirik. Düşünürük ki, Azərbaycanın təbii qazının digər ölkələrə çatdırılmasında hansı yollarla, vasitələrlə iştirak edə bilərik.

Biz ticarət əlaqələrinin genişlənməsində də çox maraqlıyıq. Mənimlə Bakıya çoxsaylı biznesmenlər gəlmişdir. Biznesmenlərin Bakıya gəlişi də bu istəyi bir daha təsdiq edir. İnanıram ki, ikigünlük iqtisadi forum da uğurlu, səmərəli olacaqdır. Mən sabah forumun nəticələrinin müzakirəsinə dəvət almışam və əminəm ki, bu forum ölkələrimiz arasında əlaqələrdə tərəqqiyə yeni yol açacaqdır.

Yunanıstan böyük mədəniyyətə malik olan bir ölkədir. Biz istəyirik sizinlə mədəni əlaqələrimizi, o cümlədən elm ocaqları, universitetlərimiz və alimlərimiz arasında əlaqələri genişləndirək. Mən Bakı Slavyan Universitetinə dəvət olunmağımdan və mənə universitetin fəxri doktoru adı verilməsindən və Yunan Araşdırmalar Mərkəzinin açılmasından çox məmnunam.

İcazə verin, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bölüşdüyümüz fikirlərə bir daha qayıdım. Ölkəmizin təcrübəsindən çıxış edərək, biz bu problemi tam dərk edirik. Çünki bizim ölkə də eyni problemlə üzləşmişdir. Məlum çətinliklərə baxmayaraq,

tərəflərin səmimi istəyi, səyi və beynəlxalq təşkilatların köməyi ilə problemin tezliklə həll yolunu tapacağına inanmaq istərdik.

Cənab Prezident, Yunanıstan Avropa təşkilatları çərçivəsində bütün mümkün vasitələrdən istifadə edəcəkdir ki, Avropada olan münaqişələrin həllində daha fəal rol oynasın.

Cənab Prezident, sonda icazə verin, səmimi qonaqpərvərliyinizə görə Sizə təşəkkürümü bildirim. Sizi ölkəmizə rəsmi səfərə dəvət etmək istərdim. Səfərin vaxtı, əlbəttə, diplomatik kanallar vasitəsilə müəyyən olunacaqdır. Bir daha inanmaq istərdim ki, bu gün biz səmərə verəcək əhəmiyyətli səylərin təməlini qoyuruq.

* * *

*Prezidentlərin geniş heyətdə görüşü başa çatdıqdan sonra ikitərəfli sənədlərin imzalanması mərasimi oldu. Azərbaycan Respublikası hökuməti ilə Yunanıstan Respublikası hökuməti arasında sərmayələrin qarşılıqlı təşviqi və qorunması haqqında saziş, Azərbaycan Respublikası hökuməti ilə Yunanıstan Respublikası hökuməti arasında beynəlxalq avtomobil daşınmaları haqqında saziş, Azərbaycan Respublikası hökuməti ilə Yunanıstan Respublikası hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında saziş imzalandı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*21 iyun 2004-cü il*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!
Hörmətli qonaqlar!
Hörmətli xanımlar və cənablar!

Mən sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram, sizə bir daha «Xoş gəlmisiniz!» deyirəm.

Yunanıstan prezidentinin Azərbaycana rəsmi səfəri çox uğurla davam edir. Həm təkbətək görüşdə, həm də geniş tərkibdə aparılan danışıqlarda müxtəlif məsələlər – ikitərəfli məsələlər, regional məsələlər müzakirə olunubdur. Müzakirə olunan bütün məsələlərdə bizim mövqeyimiz bir-birinə çox yaxındır. Biz ümid edirik ki, bu səfərdən sonra ölkələrimiz arasında əlaqələr daha da güclənəcəkdir.

Biz iki ölkə arasında aparılan siyasi dialoqun davam etməsində çox maraqlıyıq. Bu gün aparılan danışıqlar deməyə əsas verir ki, Yunanıstanla Azərbaycan arasında bundan sonra bu istiqamətdə yeni ikitərəfli məsələlər ortaya çıxacaq və bu dialoq daha da səmərəli şəkildə aparılacaqdır.

İqtisadi sahədə əlaqələrimiz sürətlə inkişaf edir. Biz Yunanıstan iş adamlarının Azərbaycana böyük marağını görürük, hiss edirik. Bu

gün Azərbaycanda keçirilən biznes forum bunun əyani sübutudur. Azərbaycanda bizneslə məşğul olmaq üçün çox gözəl şərait vardır. Çox gözəl sərmayə mühiti vardır. Biz əminik ki, Yunanıstan şirkətləri Azərbaycanda daha fəal işləyəcəklər, birgə layihələr həyata keçiriləcəkdir. Enerji sektorunda aparılan işlər deməyə əsas verir ki, Azərbaycanla Yunanıstan arasında bu istiqamətdə əlaqələr daha da güclənəcəkdir.

Azərbaycanda həyata keçirilən böyük neft-qaz layihələri Yunanıstan tərəfini də maraqlandırır və aparılan danışıqlar nəticəsində ümid edirəm ki, Azərbaycan və Yunanıstan bu sahədə çox səmərəli əməkdaşlıq edəcəkdir.

Danışıqlar əsnasında regional məsələlər də müzakirə olundu. Regionda mövcud olan problemlərə münasibət bildirildi. Biz iki ölkə arasında mədəniyyət sahəsində əlaqələrə də böyük əhəmiyyət veririk. Mən cənab prezidentə məlumat verdim ki, Bakı Slavyan Universitetində yunan bölməsi fəaliyyət göstərir. Biz çalışacağıq ki, bu sahədə əlaqələr daha da genişlənsin. Əminəm ki, bu səfərdən sonra Yunanıstanla Azərbaycan arasında olan əlaqələr bütün sahələrdə daha da sürətlə inkişaf edəcəkdir.

## Yunanıstan prezidenti Konstantinos Stefanopulosun bəyanatı

Mən cənab prezident Əliyevə çox gözəl qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm.

Yunanıstan bu səfərə böyük önəm verir. Bizim məqsədimiz, sadəcə, səfər etmək deyil, eyni zamanda bütün sahələrdə əlaqələri genişləndirməkdir. İstərdik ki, ölkələrimiz arasında, universitetlər arasında münasibətlər genişlənsin. Alimlər mübadilə aparsınlar və bütün mümkün sahələr əhatə olunsun.

Ümid edirəm ki, məni müşayiət edən biznes nümayəndə heyəti də öz işini lazımi səviyyədə yerinə yetirəcək və əməkdaşlıq üçün lazım olan sektorları axtarıb tapacaqdır. Azərbaycanlı həmkarlarını tapacaq

və onlarla əməkdaşlıq edəcəklər. Hökumət və dövlət olaraq, biz bu işə hər zaman dəstək verməyə hazırıq.

Azərbaycan sürətlə inkişaf edən ölkədir. Biz bunu artıq öz gözümüzlə görürük. Burada çox böyük imkanlar vardır. Neft və qaz sektorunda böyük imkanlar mövcuddur. Lakin bundan əlavə, bizim təkbətək söhbətimiz zamanı prezident məni əmin etdi ki, azərbaycanlılar çox yaxşı biznesmenlərdir. Ümid edirəm ki, bizim biznesmenlərlə azərbaycanlı biznesmenlər arasında münasibətlər qurulacaq və bu, gələcəkdə uğurla davam edəcəkdir. Bu yalnız yunan tərəfinin təkcə istəyi deyil, eyni zamanda təsdiq olunmuş təcrübədir. Bizim böyük təcrübəmiz vardır. Bizim Avropa Birliyində böyük təcrübəmiz vardır. Biz regionu tanıyırıq, Balkan ölkələrində böyük təcrübə keçmişik və azərbaycanlı həmkarlarımıza dost əlini uzatmağa hazırıq.

Ümid edirik ki, biznes forum öz işini çox uğurla davam etdirəcəkdir. Çox keçməz ki, biz bu uğur haqqında, əməli nəticə haqqında eşidəcəyik. Sabah mənim Slavyan Universitetində çox maraqlı görüşlərim olacaqdır. Sizə demək istəyirəm ki, məni burada biznesmenlərlə bərabər, akademiklər, alimlər də müşayiət edirlər. Treys və Fatra universitetlərindən alimlər də gəlmişdir. Mən sabah Slavyan Universitetində görüşlər keçirəcəyəm, orada mənə fəxri doktor adı veriləcəkdir. Mən bütün bunlarla çox fəxr edirəm.

Mən çıxışımın sonunda istərdim ki, mərhum prezidentlə, indiki prezidentin atası ilə keçirdiyim görüşləri xatırlayım. 1995-ci ildə Nyu–Yorkda Birləşmiş Millətlər Təşkilatının 50 illiyində onunla ilk dəfə görüşümüz oldu. Bu çox uzunsürən bir görüş oldu. Birləşmiş Millətlər Təşkilatı bu görüş üçün bizə bir otaq ayırmışdı. Mən orada prezidentlə görüş keçirdim. Prezident Heydər Əliyev Azərbaycanın ən ağrılı problemi – Dağlıq Qarabağ problemi haqqında mənə ətraflı, geniş məlumat verdi. Mən Dağlıq Qarabağ haqqında məlumatı ilk dəfə ondan aldım. Daha sonra biz Buxarestdə görüşdük. Orada da prezidentlə çox gözəl, çox dostyana söhbətimiz oldu. Onun işə ciddi yanaşması və nəhəng təcrübəsi həmişə mənim xatirimdə qalacaqdır. De-

mək istəyirəm ki, onun layiqli davamçısı bu ciddi yanaşmanı və nəhəng təcrübəni burada uğurla davam etdirir. İndi biz Azərbaycanın uğurunu müşahidə edirik.

Sizi inandırmaq istəyirəm və zənnimcə, Azərbaycan tərəfi də bu fikirdədir ki, Yunanıstan tərəfi bu gün keçirilən və sabah keçiriləcək görüşlərə çox ciddi yanaşacaqdır. Məni müşayiət edən nazirlər bu işə ciddi yanaşacaqlar. Bizim tərəfimizdən Azərbaycana maraq çox böyükdür və bu, qarşılıqlı maraqdır. Ümid edirəm, bu səfərin nəticəsi kimi, biz tezliklə uğurlu nəticəni müşahidə edəcəyik.

Cənab Prezident, Sizə demək istəyirəm ki, yunan tərəfi Sizi Afinada, Yay Olimpiya oyunlarında səbirsizliklə gözləyir. Eyni zamanda biz Sizin qarşılıqlı səfərinizi də gözləyirik. Ümid edirik ki, Siz Yunanıstana dövlət səfəri edəcəksiniz və bu səfər də çox uğurlu alınacaqdır.

Cənab Prezident, bizə göstərilən qonaqpərvərliyə, bizə qarşı münasibətinizə görə bütün nümayəndə heyətinin adından Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

Çox sağ olun.

* * *

**S u a l: Mənim sualım Azərbaycan prezidentinədir. Lakin suala keçməzdən əvvəl prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm ki, nümayəndə heyətinə və mətbuat işçilərinə bu qədər diqqət ayırmış və işləmək üçün onlara gözəl şərait yaratmışdır.**

**Sualım belədir: Siz Avropa Birliyinin Azərbaycana marağını necə izah edərdiniz? Məlumdur ki, ötən il Yunanıstan Avropa Birliyinə sədrlik edən dövrdə Azərbaycan Avropa Birliyinə yeni qonşular siyahısına daxil olmuşdur. Avropa Birliyinin Azərbaycana olan bu böyük marağını nə ilə izah edirsiniz?**

**C a v a b:** Həqiqətən, Avropa Birliyi ilə Azərbaycan arasında əlaqələr çox sürətlə inkişaf edir. Biz bu əlaqələrə böyük əhəmiyyət veririk. Biz istəyirik ki, Avropa Birliyi ilə Azərbaycan arasında əlaqələr bütün sahələrdə inkişaf etsin. İlk növbədə, iqtisadi əməkdaşlıq daha da güclənsin.

Azərbaycan öz siyasətini bu istiqamətdə aparır. Biz Avropa ailəsinə, Avropa strukturlarına inteqrasiya edirik və bu proses çox uğurla davam edir. Eyni zamanda Azərbaycan da Avropa üçün çox önəmli bir ölkədir. Azərbaycanın siyasi meylləri, Azərbaycanda aparılan xarici siyasət, ölkəmizin coğrafi-siyasi vəziyyəti və təbii sərvətləri Azərbaycanı Avropa Birliyi üçün çox cəlbedici ölkəyə çeviribdir.

Mən bu yaxınlarda Avropa Birliyinə səfər etmişəm və bu səfər çox uğurlu olmuşdur. Çox müsbət haldır ki, Avropa Birliyi Cənubi Qafqaz üzrə xüsusi nümayəndə təyin edibdir və Azərbaycanı yeni qonşular siyahısına salıbdır. Biz ümid edirik ki, atılan bütün bu addımlar bizi Avropa ilə daha da sıx bağlayacaqdır.

**S u a l: Mənim sualım Yunanıstan prezidentinədir. Cənab Prezident, Sizi bu səfərdə çoxlu sayda iş adamları müşayiət edir. Ümumiyyətlə, Siz Azərbaycanda neft sektorundan savayı, hansı sahələrdə əməkdaşlıq etmək və işbirliyi qurmaq fikrindəsiniz?**

**C a v a b:** Mən elə bilirəm ki, biznes imkanları çox genişdir. Mənim səfərimin əsas uğuru da elə biznes forumun nəticələrindən asılı olacaqdır. Bizim biznesmenlər bunda nə qədər uğurlu iştirak etsələr, nə qədər uğurlu əlaqə yaratsalar, mənim səfərimin qiyməti də bir o qədər artıq olacaqdır. Mən Yunanıstan hökuməti adından demək istəyirəm ki, hökumət biznesmenlərin bu fəaliyyətinə hər cür dəstəyini əsirgəməyəcəkdir. Əminəm ki, neftdən kənarda da sektorlar mövcuddur. Bu sektorları bizim biznesmenlər azərbaycanlı həmkarları ilə birlikdə arayıb axtaracaq və tapacaqlar. Əsas məqsəd ondan ibarətdir ki, qarşılıqlı maraq vardır. Biznesmenlərin fəaliyyəti ölkələr arasındakı münasibətlərdə əsas lokomotiv, mühərrik rolunu oynayır.

**S u a l: Cənab prezident İlham Əliyev, Yunanıstanın əhalisi tam inanır ki, Azərbaycan ərazilərinin bir hissəsi, ermənilər yaşayan bir hissəsi Ermənistan ordusu tərəfindən işğal olunubdur və bu ərazilər işğal altındadır. Biz bunu qanunsuz hesab edirik, lakin eyni zamanda Türkiyə mətbuatı belə məlumatlar yayır ki, guya Azərbaycan prezidenti Denktaşın rəhbərlik etdiyi qeyri-qanuni ərazini tanımağa hazırdır. İndi bizim əlimizə yaxşı fürsət**

**düşmüşdür ki, bu sualın cavabını Sizin özünüzdən soruşaq. Bilmək istəyirik ki, Azərbaycanın bu barədə mövqeyi nədən ibarətdir?**

**C a v a b:** İlk növbədə, demək istəyirəm ki, həqiqətən, artıq bütün dünya ictimaiyyəti bilir ki, Ermənistan Azərbaycan torpaqlarını işğal edibdir. Dağlıq Qarabağı və onun inzibati sərhədindən kənarda Azərbaycanın digər yeddi bölgəsini işğal edibdir. Bu işğal nəticəsində 1 milyona yaxın azərbaycanlı qaçqın-köçkün vəziyyətinə düşübdür. Azərbaycan torpaqlarının 20 faizi işğal altındadır, ölkəmizin ərazi bütövlüyü pozulubdur. Biz haqlı olaraq tələb edirik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun, işğalçı qüvvələr həmin torpaqlardan çıxsınlar. Beynəlxalq hüquq normaları bunu tələb edir. Əlbəttə, dünyanın hər bir yerində beynəlxalq hüquq zəfər çalmalıdır. Biz ümid edirik ki, bu münaqişə öz həllini tapacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq, işğaldan əziyyət çəkən Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıdacaqlar.

O ki qaldı digər məsələyə, bununla əlaqədar Azərbaycanın rəsmi mövqeyi bir neçə dəfə açıqlanmışdır. O cümlədən mən də bir neçə dəfə bəyanatlar vermişdim və bunlar Azərbaycan mətbuatında öz əksini tapmışdır. Bilirəm ki, bu məsələ ilə bağlı müəyyən mətbuat orqanlarında qeyri-sağlam ajiotaj yaradılıbdır. Bunun səbəbləri də bizə bəllidir. Mən bu detallara toxunmaq istəmirəm. Amma onu bir daha demək istəyirəm ki, Azərbaycanın rəsmi mövqeyini Azərbaycan prezidenti və Xarici İşlər Nazirliyi ifadə edir. Müxtəlif mülahizələr ola bilər. Müxtəlif mətbuatda hansısa fərziyyələr irəli sürülə bilər. Amma sizə bu suala görə təşəkkür edirəm ki, ilk mənbədən buna bir daha cavab alacaqsınız.

Biz ümid edirdik ki, Kiprdə keçirilən referendum bu məsələyə son qoyacaqdır. Biz çox istəyirik ki, dünyada, bölgədə əməkdaşlıq olsun, mövcud problemlər öz həllini tapsın. Əlbəttə, biz çox ümid edirdik ki, Kiprdə keçirilən referendumda bu məsələ birmənalı şəkildə öz həllini tapacaqdır. Əfsuslar olsun ki, buna imkan olmadı.

Azərbaycanın mövqeyi ondan ibarət idi ki, əgər referendumdan sonra yeni bir vəziyyət yaranarsa, əlbəttə, Birləşmiş Millətlər Təşkilatı və Avropa dövlətləri öz siyasətlərində düzəlişlər etməli olacaqlar. Əgər belə bir düzəlişlər olarsa, Azərbaycan bunu dəstəkləyəcək və bu məsələdə fəal iştirak edəcəkdir. Hər hansı başqa bir məsələdən söhbət getmirdi və siz bunu keçmişdə verilən bəyanatlarda da görə bilərsiniz.

**S u a l: Cənab Stefanopulos, Azərbaycanla Yunanıstanın beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının perspektivini necə qiymətləndirirsiniz?**

**C a v a b:** İndiyədək Azərbaycanla bizim münasibətlərimizdə heç bir problem olmayıbdır. Beynəlxalq təşkilatlar çərçivəsində birgə əməkdaşlıq etmişik. Mən bu əməkdaşlığa görə Azərbaycan Respublikasının prezidentinə öz minnətdarlığımı bildirirəm. Cənab prezidentə təşəkkür etmək istəyirəm ki, Birləşmiş Millətlər Təşkilatı çərçivəsində Yunanıstanı qeyri-daimi üzv kimi dəstəkləmisiniz. Buna görə çox sağ olun. Yunanıstan isə öz növbəsində, Azərbaycana daim dəstək vermişdir. Siz Avropa Şurasına qəbul olunarkən Yunanıstanın dəstəyini hiss etmisiniz. Avropa Birliyi çərçivəsində Yunanıstan əlindən gələni edir ki, Azərbaycanla əməkdaşlıq artsın. Yunanıstan Avropa Birliyinin bundan sonra genişlənməsində Azərbaycanı da nəzərdən keçirir.

Mən cənab Əliyevin son şərhi ilə bağlı öz fikrimi demək istəyirəm. Prezident Kiprdə yaranacaq yeni vəziyyətlə bağlı danışdı. Bu barədə bildirmək istəyirəm ki, həqiqətən, referendumdan sonra yeni vəziyyət yaranmışdır. Hazırda Şimali Kipr Avropa qurumları tərəfindən dəstəklənir və bunun da səbəbi iqtisadi səbəblərdir. Çünki Şimali Kipr hərbi təcavüz nəticəsində bir o qədər yaxşı inkişaf etmir. Kiprin yunan tərəfində isə inkişaf kifayət qədər hamar gedir. Amma biz istəməzdik ki, şimal tərəf xoşbəxt olmasın, biz bütün adanın inkişafını istəyirik. Biz Yunanıstan olaraq, Şimali Kiprin inkişafı üçün əlimizdən gələn maliyyə yardımını əsirgəməyəcəyik. Çox sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOS «HEYDƏR ƏLİYEV FONDU»NDA

*İyunun 21-də Azərbaycan prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Yunanıstan prezidenti Konstantinos Stefanopulos «Heydər Əliyev Fondu»nda olmuşlar.*

*Burada dövlət başçılarını mehribanlıqla qarşıladılar.*

*Ali qonağa məlumat verildi ki, Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiramın ifadəsi kimi yaradılmış Fondun məqsədi prezident Heydər Əliyevin zəngin irsinin öyrənilməsinə, ölkəmizin tərəqqisi və Azərbaycan xalqının rifahı naminə ondan istifadə olunmasına xidmət edən genişmiqyaslı proqramların həyata keçirilməsini dəstəkləmək, milli-mənəvi dəyərlərin qorunması, azərbaycançılıq məfkurəsinin və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək etmək, müstəqil Azərbaycanın iqtisadi qüdrətinin artırılmasına xidmət edən layihələrin gerçəkləşdirilməsində iştirak etmək, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirləri, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələri dəstəkləmək, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılmasına yardım göstərməkdən ibarətdir.*

*Dövlətimizin başçısı İlham Əliyev Yunanıstan prezidenti Konstantinos Stefanopulosu və onu müşayiət edən şəxsləri müxtəlif dövrlərə aid olan və ulu öndər, türk dünyasının böyük oğlu Heydər Əliyevin şəxsi arxivindən götürülmüş eksponatlar barədə məlumat verdi.*

**Yunanıstan prezidenti Konstantinos Stefanopulosun Fondun fəxri qonaqlar kitabına yazdığı ürək sözləri:**

«Bu gün Azərbaycanın ümummilli lideri Heydər Əliyev kimi tarixi bir şəxsiyyətin adını daşıyan Fondda olmağımdan çox şadam. Mən prezident Heydər Əliyevlə ilk görüşlərimi böyük məmnuniyyətlə xatırlayıram. Bu gün isə Fonda gələrək bu unudulmaz şəxsiyyəti bir daha yada salır, ona Allahdan rəhmət diləyirəm.

***Konstantinos Stefanopulos***
***Yunanıstan Respublikasının Prezidenti***

*21 iyun 2004-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ADINDAN YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*«Gülüstan» sarayı*

*21 iyun 2004-cü il*

Hörmətli cənab Prezident!
Əziz qonaqlar!
Xanımlar və cənablar!

Sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram və sizə «Xoş gəlmisiniz!» deyirəm. Bu gün Azərbaycanla Yunanıstan arasındakı münasibətlərin yeni səhifəsi açılır, səmərəli siyasi dialoq aparılır. Münasibətlərimiz sürətlə inkişaf edir. Biz istəyirik ki, bu münasibətlər bütün sahələri əhatə etsin.

Hörmətli cənab Prezident!

Mən Sizin Azərbaycana rəsmi səfərinizi yüksək qiymətləndirir, bu səfərin ölkələrimiz arasında münasibətlərin yeni mərhələsinə zəmin yaradacağına inanıram. Şübhə etmirəm ki, keçirdiyimiz görüşlər, apardığımız danışıqlar qarşılıqlı fəaliyyət üçün yeni sahələri müəyyən edəcək, əlaqələrimizin bundan sonra daha da genişlənməsinə öz töhfəsini verəcəkdir. Ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar, mədəniyyət, turizm və digər sahələrdə əlaqələrin daha da inkişafı və genişlənməsi xüsusi əhəmiyyət daşıyır. Ümidvaram ki, bu günlər keçirilən Yunanıstan–Azərbaycan biznes forumunda ölkənizin iş adamlarının Azərbaycanın işgüzar dairələri ilə əlaqələri əməkdaşlığımıza

yeni təkan verəcəkdir. Sizin səfərinizdən sonra əlaqələrimiz daha da güclənəcəkdir. Azərbaycan dövləti özünün ümummilli lideri Heydər Əliyevin təməlini qoyduğu daxili və xarici siyasət xəttini davam etdirir. Bu baxımdan Azərbaycanın Avropaya və Avroatlantik strukturlarına, beynəlxalq təşkilatlara inteqrasiyası önəmli yer tutur.

Məhz Heydər Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycan dünyada özünə layiq yer tutmuşdur. Ölkəmiz Avropa Şurasının üzvüdür və «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində NATO və eləcə də Avropa və Avroatlantika strukturları ilə uğurlu əməkdaşlıq edir. Avropa Birliyi Azərbaycanı genişlənmiş Avropa və qonşuları siyasətinə daxil etmişdir. Bu gün dünyanın ən böyük enerji layihələri Azərbaycanda həyata keçirilir. Xəzər hövzəsi enerji daşıyıcılarının Qərbə nəqli, TRASEKA proqramı, Böyük İpək yolunun bərpası, Bakı–Tbilisi–Ceyhan neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihələri bunun parlaq nümunəsidir. Bu layihələrin həyata keçməsi ilə həm Azərbaycanın, həm də region dövlətlərinin inkişafında və Avropaya inteqrasiyasında yeni mərhələ başlayacaqdır. Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin istismarı Azərbaycan–Yunanıstan münasibətlərini daha da genişləndirəcəkdir. Bu kəmər ölkələrimizin iqtisadi tərəqqisi ilə yanaşı, əlaqələrinə də müsbət təsir göstərəcəkdir.

Azərbaycan regionun bütün dövlətləri ilə sıx əməkdaşlıq edir. Yalnız Ermənistan özünü bu əməkdaşlıqdan təcrid etmişdir. Bu ölkənin hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Münaqişə ilə bağlı BMT-nin 4 qətnaməsi, ATƏT-in qərarları icra olunmamış qalır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları çərçivəsində tezliklə aradan qaldırılmalı, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

Əziz qonaqlar, məmnunluqla qeyd etmək istəyirəm ki, olimpiya oyunları bu il öz tarixi vətənində – Yunanıstanda keçirilir. Azərbaycanın həm idmançıları, həm də mədəniyyət və incəsənət xadimləri bu möhtəşəm hadisəyə xüsusi hazırlaşırlar.

Hörmətli cənab Prezident!

Azərbaycana rəsmi səfərinizə böyük əhəmiyyət verdiyimi bir daha ifadə edib, Sizə möhkəm cansağlığı, ölkənizə isə daim inkişaf və tərəqqi arzulayıram.

Cənab Prezident, bu badəni Sizin şərəfinizə, Azərbaycanla Yunanıstan arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafı şərəfinə qaldırıram.

## AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN İNZİBATİ BİNASINDA «OLİMPİYA RUHU» SƏRGİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ* NİTQ

*22 iyun 2004-cü il*

Hörmətli cənab Prezident!
Hörmətli qonaqlar!
Əziz dostlar!

Artıq ikinci gündür ki, Yunanıstan prezidenti cənab Stefanopulos Azərbaycanda rəsmi səfərdədir. Demək olar ki, bu səfər çox uğurlu keçir. Dünən və bu gün keçirdiyimiz görüşlərdə apardığımız danışıqlardan bir daha əmin olduq ki, Yunanıstanla Azərbaycan arasında münasibətlər sürətlə inkişaf edir, bir çox sahələri əhatə edir. Biz əminik ki, bu səfər nəticəsində aramızda olan əlaqələr daha da genişlənəcəkdir.

Səfər çərçivəsində müxtəlif tədbirlər keçirilmişdir. Buna misal olaraq 1-ci Yunanıstan–Azərbaycan biznes forumunu göstərmək olar. Deyə bilərəm ki, cənab prezidentlə ölkəmizə gəlmiş böyük sayda iş adamları Azərbaycanın iş adamları ilə çox səmərəli işləyiblər. Biz ümid edirik ki, iki ölkə arasında olan iqtisadi əlaqələr bundan sonra da güclənəcəkdir.

Cənab prezidentin səfəri çox gərgin keçir. Səfər çərçivəsində Bakı Slavyan Universitetində Yunanıstan prezidentinə fəxri doktor adı verilibdir. Bu gün isə, əziz dostlar, biz sizinlə görüşürük. Çox sevindirici haldır ki, səfər çərçivəsində Milli Olimpiya Komitəsində gözəl sərgi keçirilir. Mən əminəm ki, bu sərgi böyük maraqla qarşılanacaqdır.

---

* Mərasimdə Yunanıstan prezidenti Konstantinos Stefanopulos da nitq söyləmişdir.

Azərbaycanda idmanın inkişafına, olimpiya hərəkatına çox böyük diqqət göstərirlər. İdmanın maddi-texniki bazası güclənir, ölkəmizin müxtəlif bölgələrində yeni müasir idman qurğuları, dünya standartlarına uyğun olimpiya kompleksləri inşa edilir. Azərbaycan idmançıları müxtəlif beynəlxalq yarışlardan, dünya və Avropa çempionatlarından vətənə qələbə ilə qayıdırlar. Xüsusilə qeyd etməliyəm ki, 2000-ci ildə Sidneydə keçirilmiş Olimpiya oyunlarında Azərbaycan idmançıları iki qızıl, bir bürünc medal qazanmış, bununla da dünya ölkələri sırasında 34-cü yeri tutmuşlar.

Deyə bilərəm ki, bizim idmançılarımız, idman ictimaiyyəti Afinada keçiriləcək Olimpiya oyunlarına da çox ciddi hazırlaşır. Nəinki hazırlaşır, hətta deyə bilərəm ki, Olimpiya oyunlarının proqramlarında fəal iştirak edir. Olimpiya oyunlarına hazırlıq proqramı çərçivəsində Azərbaycanda üç idman növü – voleybol, taekvando və boks üzrə təsnifat turnirləri keçirilmişdir. Bu turnirlərdə bir çox ölkələrdən gələn idmançılar Azərbaycanda qarşıdakı Olimpiya oyunlarına vəsiqələr qazanmışlar.

Bir ölkədə üç təsnifat turnirinin keçirilməsi dünya praktikasında nadir hallardan biridir. Biz bunu beynəlxalq idman ictimaiyyətinin Azərbaycana olan diqqətin, hörmətin əlaməti kimi qəbul edirik. Əlbəttə, biz ümid edirik ki, Azərbaycan idmançıları Afinada Olimpiya oyunlarında da ölkəmizi layiqincə təmsil edərək, vətənə qələbə ilə qayıdacaqlar.

Mən əminəm ki, bu iki gün ərzində Yunanıstan və Azərbaycan bir-birinə daha yaxın olublar. Prezident Stefanopulosun səfəri çox uğurlu sayıla bilər. Bu səfərdən sonra iki Ölkə arasında olan münasibətlər bütün sahələrdə uğurla inkişaf edəcəkdir.

Əziz cənab Prezident!

Əziz dostlar, mən sizi bir daha ürəkdən salamlayıram. Sərginin MOK-da təşkilinə görə onun təşkilatçılarına dərin minnətdarlığımı, təşəkkürümü bildirirəm.

## YUNANISTAN TƏRƏFİNİN VERDİYİ ZİYAFƏTDƏ* NİTQ

*Bakı, «Hyatt Park»*

*22 iyun 2004-cü il*

Hörmətli cənab Prezident!

Əziz qonaqlar!

Mən sizi bir daha ürəkdən salamlayıram.

Ümid etdiyimi bildirmək istəyirəm ki, bu səfərdən sonra Azərbaycan–Yunanıstan əlaqələri daha da inkişaf edəcək, ölkələrimiz bir-birinə daha da yaxın olacaqlar. Bu səfər çərçivəsində iki ölkə arasında çox vacib sənədlər imzalanmışdır. 1-ci Azərbaycan–Yunanıstan biznes forumu, Milli Olimpiya Komitəsinin inzibati binasında gözəl sərgi keçirilmişdir. Prezident Stefanopulosun görüşləri olmuşdur. Bütün görülən işlər, aparılmış danışıqlar bizi bir daha əmin edir ki, Azərbaycanla Yunanıstan arasında olan siyasi, iqtisadi, mədəni əlaqələr böyük sürətlə inkişaf edəcək, xalqlarımıza xeyir gətirəcəkdir.

Bu iki gün çox tez keçdi. Ancaq bu iki gün ərzində Azərbaycan və Yunanıstan iş adamları, siyasi xadimlər, mədəniyyət xadimləri dostlaşıblar. Mən ümidvaram ki, bu dostluq bundan sonra da davam edəcəkdir. Bu badəni Yunanıstan prezidenti Konstantinos Stefanopulosun şərəfinə, Yunanıstandan gəlmiş bütün qonaqların şərəfinə, Yunanıstan–Azərbaycan dostluğu şərəfinə qaldırıram.

* * *

*Respublikasının prezidenti Konstantinos Stefanopulos iyunun 22-də Bakıdan yola düşdü.*

---

* Ziyafətdə Yunanıstan prezidenti Konstantinos Stefanopulos da nitq söyləmişdir.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

İnquşetiyada terrorçu qrupların törətdikləri qanlı hadisələrdən son dərəcə hiddətlənir, bu amansız terror əməlləri nəticəsində çoxsaylı insan tələfatından kədərlənirik.

Biz terrorizmi qətiyyətlə pisləyir, onun bütün təzahürlərinə qarşı mübarizəni tam dəstəkləyirik.

Baş vermiş faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, dost xalqınıza, həlak olanların ailələrinə və yaxın adamlarına şəxsən öz adımdan və bütün Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *23 iyun 2004-cü il*

## KALMIKİYA RESPUBLİKASININ PREZİDENTİ, FİDE-nin PREZİDENTİ KİRSAN İLYUMJİNOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*23 iyun 2004-cü il*

**İ l h a m  Ə l i y e v:** Cənab Prezident, Azərbaycana xoş gəlmisiniz. Sizin axırıncı səfəriniz, ümummilli liderimiz Heydər Əliyev ilə görüşünüz Azərbaycan ilə Rusiya arasında qarşılıqlı faydalı münasibətləri daha da möhkəmləndirmiş, ölkələrimiz arasında uğurlu əlaqələr yaranmışdır və bu, bütün istiqamətlərdə – siyasi, iqtisadi və mədəni sahələrdə inkişaf edir. Biz bu əlaqələrin daha da inkişaf etməsi üçün səylərimizi əsirgəmirik.

**K i r s a n  İ l y u m j i n o v:** Cənab Prezident, məni Azərbaycana dəvət etdiyinizə görə öz təşəkkürümü bildirirəm. Sovet dövlətinin, Rusiyanın və Azərbaycanın ictimai-siyasi həyatında misilsiz xidmətləri olmuş prezident Heydər Əliyevi Kalmıkiyada çox səmimiyyətlə xatırlayırlar. Kalmıkiya sakinlərinin, FİDE rəhbərliyinin salamını və ən xoş arzularını Sizə – Azərbaycan prezidentinə yetirirəm. Kalmıkiya ilə Azərbaycanı çox şey – Xəzər dənizi, təbii ehtiyatlar, habelə idmanın qədim növü olan şahmata böyük məhəbbət birləşdirir. Azərbaycanı bütün dünyada şöhrət qazanmış şahmat ölkəsi adlandırmaq olar. Gənc Azərbaycan qrossmeysterləri Teymur Rəcəbovun, Şəhriyar Məmmədyarovun Liviyada şahmatçı kişilər arasında dünya çempionatında uğurla çıxış etdiklərini vurğulamaq istəyirəm. Ümidvaram ki, növbəti dünya çempionu Azərbaycan vətəndaşı olacaqdır.

**İ l h a m  Ə l i y e v:** FİDE-nin çox böyük uğurları vardır. Azərbaycan şahmatçılarına daimi qayğıya görə, Sizə, FİDE rəhbərinə təşəkkür edirəm. Biz inanırıq ki, şahmat tacı Bakıya qayıdacaqdır.

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ**

Hörmətli cənab Prezident!

Ankara və İstanbulda baş vermiş terror aktları nəticəsində insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Biz terrorizmi qətiyyətlə pisləyir, onun bütün təzahürlərinə qarşı mübarizəni daim dəstəkləyirik.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 iyun 2004-cü il*

## SİLAHLI QÜVVƏLƏRİN BİR QRUP GENERAL VƏ ZABİTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*24 iyun 2004-cü il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli zabitlər, generallar!

Sizi ilk növbədə, qarşıdan gələn Silahlı Qüvvələr günü münasibətilə təbrik edirəm. Sizə böyük uğurlar arzulayıram. Azərbaycan ordusu son on il ərzində çox inkişaf edibdir. Xalqımızın ümummilli lideri, Ali Baş Komandan Heydər Əliyevin bilavasitə rəhbərliyi altında ordu quruculuğu prosesi sürətlə gedibdir. Bu gün ordu bütün yüksək standartlara cavab verir. Qarşıda duran mühüm vəzifələri həll etməyə qadirdir.

Ordu quruculuğuna son on il ərzində böyük əhəmiyyət, önəm verilmişdir. Azərbaycanın bütün sahələri inkişaf etmişdir. Bu gün Azərbaycan iqtisadi cəhətdən inkişaf edən, beynəlxalq aləmdə böyük nüfuza malik olan bir ölkədir. Azərbaycanda müxtəlif məsələlər – sosial, iqtisadi məsələlər çox uğurla inkişaf edir. Ölkəmiz böyük uğurlar qazanır. Əlbəttə, orduya prezident Heydər Əliyev tərəfindən göstərilən diqqət, qayğı öz nəticələrini vermişdir. Ordumuz çox güclü qüvvəyə çevrilmişdir.

Azərbaycanda Heydər Əliyev siyasəti davam etdirilir. Ötən ilin oktyabrında keçirilən prezident seçkilərində Heydər Əliyev siyasətinə xalqın iradəsi ilə dəstək göstərilmişdir. Xalqımız birmənalı şəkildə öz seçimini etmişdir. Azərbaycanın prezidenti kimi, mən də bu yüksək məsuliyyəti öz üzərimə götürərək, çox gözəl başa düşürəm ki, mən Heydər Əliyev siyasətinə layiq olmalıyam. Bütün fəaliyyətimdə bunu etməyə çalışıram və şübhə etmirəm ki, Azərbaycan bundan sonra da inkişaf edəcək, ölkəmiz güclənəcək, qüdrətli dövlətə çevriləcəkdir.

Əlbəttə, bunu seçkiqabağı çıxışlarımda da dəfələrlə qeyd etmişdim. Seçkilərdən sonra da demişəm ki, fəaliyyətimin əsas istiqamətlərindən biri də orduya qayğı, ordu quruculuğuna böyük diqqət göstərməkdən ibarət olacaqdır. Artıq görülən müəyyən tədbirlərin nəticəsində ordunun maddi-texniki bazası güclənibdir. Bu yaxınlarda orduda xidmət edən zabitlərin sosial məsələlərinin həlli istiqamətində addımlar atılacaq, orduda xidmət edən şəxsi heyətin əməkhaqları qaldırılacaqdır. Çalışacağıq ki, orduda qulluq edən zabitlərə bütün başqa sahələrdə də, bütün istiqamətlərdə də kömək, qayğı göstərək.

Ordu müstəqil Azərbaycanımızın ən mühüm atributlarından biridir.

Əlbəttə, heç kəs üçün sirr deyil ki, güclü ordu ancaq iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə olur. Bizim də istəyimiz məhz Azərbaycanı iqtisadi cəhətdən inkişaf etdirmək, iqtisadi islahatları davam etdirmək və beləliklə, həm ölkəmizi inkişaf etdirmək, həm də ordumuzu daha yüksək səviyyəyə gətirib çıxarmaqdır.

Bu siyasətin məntiqi nəticəsi kimi, mən bu gün sizi yeni mənzillərlə mükafatlandırıram. Mən bilirəm ki, hər bir insan, ailə üçün onun yaşayış şəraiti çox önəmli şərtlərdən biridir. Xüsusilə də orduda xidmət edən zabitlər üçün. Çünki sizin peşəniz çox şərəfli, eyni zamanda çox ağır peşədir. Siz ölkəmizin müxtəlif bölgələrində, çətin şəraitdə və ləyaqətlə xidmət edirsiniz.

Bu gün burada əyləşən generallar, zabitlər Azərbaycan ordusunda ləyaqətlə xidmət edirlər və mən də bunu qiymətləndirirəm.

Mən istəyirəm ki, yüksək nəticələr göstərmiş, Vətənimizə ləyaqətlə qulluq edən insanlar, onların əməyi, xidməti layiqincə qiymətləndirilsin. Bu gün mən sizə yeni mənzillərin orderlərini təqdim edəcəyəm. İstəyirəm ki, siz gözəl, yeni binalarda, təzə tikilmiş mənzillərdə xoşbəxt yaşayasınız. Ailə səadəti olsun. Siz buna layiqsiniz. Ümid edirəm ki, siz bundan sonra da ölkəmizə, Vətənimizə ləyaqətlə xidmət edəcək, Azərbaycanın müdafiə potensialını gücləndirəcəksiniz. Sizi qarşıdan gələn bayram münasibətilə, eyni zamanda, yeni mənzillərin orderlərinin təqdim olunması münasibətilə bir daha təbrik edirəm.

* * *

*Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev general-leytenant Kərəm Mustafayevə, general-mayor Dağlar Abdullayevə, general-mayor Çingiz Məmmədova, general-leytenant Yaşar Aydəmirova, general-mayor Rafiq Hüseynova, general-mayor Nizam Osmanova, general-mayor Hikmət Mirzəyevə, general-mayor Fazil Aşumova, general-mayor Heydər Piriyevə, polkovnik Vaqif Məmmədova, polkovnik Lənkəran Əliyevə yeni mənzillərin orderlərini təqdim etdi.*

**Səfər Əbiyev**: Möhtərəm Prezident, cənab Ali Baş Komandan!

İşinizin çox, vaxtınızın az olduğu bir şəraitdə Müdafiə Nazirliyinin zabitlərini, generallarını qəbul etdiyinizə görə Sizə dərin təşəkkürümüzü bildiririk. Siz yaxşı bilirsiniz ki, bu müddətdə Azərbaycan Silahlı Qüvvələri hansı yolu keçib və indi də keçməkdə davam edir. Bu gün Siz bizi dəvət etmisiniz ki, bir neçə generala, zabitə mənzillərin orderini təqdim edəsiniz.

Ümummilli liderimiz, əbədiyaşar Ali Baş Komandan Heydər Əliyev həmişə bu məsələlərə çox vaxt ayırırdı. Siz bu gün Heydər Əliyevin davamçısı kimi, bu işləri davam etdirirsiniz. Biz hesab edirik ki, bugünkü görüş Sizin bu yaxınlarda hərbi hissələrdə keçirdiyiniz görüşlərin davamıdır və heç kim deyə bilməz ki, haçansa Ali Baş Komandan zabitlərə order təqdim edibdir. Bu, ailələrin böyük sevincinə səbəb olacaqdır. Zabitlər bu mənzilləri çoxdan gözləyirdilər. Onların övladları həmişə yada salacaqlar ki, Azərbaycan Respublikasının hörmətli prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev vaxtilə atalarına, babalarına mənzilin orderini təqdim edibdir. Bu xatirə həmişə ailələrin ürəyində yaşayacaqdır.

Cənab Prezident, Ali Baş Komandan!

İki gündən sonra Silahlı Qüvvələr günüdür. Siz bilirsiniz ki, əbədiyaşar Ali Baş Komandan Heydər Əliyev 1998-ci ildə əmr vermişdi ki, hər il iyunun 26-sı Silahlı Qüvvələr günü kimi qeyd edilsin. Biz iki

gündən sonra bu bayramı keçirəcəyik. İcazə verin, şəxsən öz adımdan, burada oturan generalların, zabitlərin adından, Müdafiə Nazirliyinin bütün şəxsi heyəti adından Sizi təbrik edim, Sizə cansağlığı, uzun ömür, işlərinizdə uğurlar arzulayım.

* * *

**İ l h a m Ə l i y e v**: Cənab nazir, siz qeyd etdiniz, doğrudan da bu, hər bir ailə üçün böyük bayramdır. Silahlı Qüvvələr günü Azərbaycanın ən böyük bayramlarından biridir. Çünki, yenə də qeyd edirəm ki, güclü orduya malik olmaq böyük şərəfdir və böyük xoşbəxtlikdir.

İndi Azərbaycan öz ordusunu gücləndirir. Biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı azad edək. Biz sülhün tərəfdarıyıq. Azərbaycan sülh siyasəti aparır. Amma eyni zamanda, biz heç vaxt barışa bilmərik ki, torpağımız işğal altında qalsın. Ordumuz hər an hazır olmalıdır ki, qarşıda duran bütün vəzifələri yerinə yetirsin, torpaqlarımızı azad etsin.

Mən ordu quruculuğu ilə, demək olar, mütəmadi qaydada məşğul oluram. Nazir Səfər Əbiyevlə, demək olar, hər gün əlaqə saxlayıram. Çünki bilirəm ki, orduya diqqət göstərmək, kömək etmək, onu hərtərəfli inkişaf etdirmək Azərbaycan dövlətinin qarşısında duran ən önəmli vəzifələrdən biridir. Çox şadam ki, ordumuz güclənir. Bunu Azərbaycan xalqı da bilir və görür, eyni zamanda bunu dünyada da bilirlər. Bilirlər ki, Azərbaycanın güclü ordusu var. Bu ordunu daha da gücləndirmək üçün gələcəkdə çox önəmli əməli addımlar atılacaqdır.

Bu gün sizin həyatınızda da çox əlamətdar gündür. Çünki qeyd etdiyim kimi, hər bir insan üçün onun yaşayış şəraiti çox önəmli rol oynayır. Biz cənab nazir Səfər Əbiyev ilə bu barədə dəfələrlə danışmışdıq, müzakirə etmişdik. Mən istəyirdim ki, orduda ləyaqətlə xidmət edən zabitləri fərqləndirim. Əminəm ki, həyatınızda, ailələrinizdə olan bu yenilik, əlbəttə, sizin xidmətinizə də müsbət təsir göstərəcəkdir.

Azərbaycan Respublikasının prezidenti kimi, mən çalışıram və çalışacağam ki, ölkəmizin hər bir vətəndaşı daha da yaxşı yaşasın, insanların həyat səviyyəsi daha da yüksəlsin. Əməkhaqları, pensiyalar artsın, digər sosial məsələlər öz həllini daha da sürətlə tapsın. Bu istiqamətdə addımlar atılıb və gələcəkdə də atılacaqdır. Azərbaycanda gedən proseslər, islahatlar, iqtisadi inkişaf bizə imkan verəcək ki, ölkəmizdə hər bir vətəndaş daha da yaxşı yaşasın.

Hər bir ölkədə olduğu kimi, Azərbaycan cəmiyyətində də müxtəlif təbəqələr mövcuddur. Bilirsiniz ki, indi Azərbaycanda özəl sektor çox sürətlə inkişaf edir. Demək olar ki, iqtisadiyyatımızın 75 faizi özəl sektorun hesabına formalaşıbdır. Əlbəttə, bu fəaliyyətlə məşğul olan insanların imkanları da geniş olur. Onlar müxtəlif iqtisadi, ticarət məsələləri ilə məşğul olurlar, sahibkarlığı inkişaf etdirirlər və təbii ki, onların maddi vəziyyəti digər təbəqələrlə müqayisədə daha üstündür. Bu da yaşadığımız dövrün məntiqidir. Biz Azərbaycanı Dünya Birliyinə, dünya iqtisadiyyatına inteqrasiya edirik. İqtisadiyyatımız bazar iqtisadiyyatıdır və bu da təbiidir.

Amma, əlbəttə, orduda xidmət edən şəxslərin belə imkanı yoxdur. Hələlik bizdə bu sahədə və büdcədən maliyyələşən digər qurumlarda əməkhaqqı yüksək deyildir. Mən qeyd elədim ki, bu istiqamətdə yaxın vaxtlarda çox mühüm addımlar atacağam. Hələlik bunu demək istəmirəm. Amma hesab edirəm ki, bu da sizin gündəlik həyatınızda öz təsirini göstərəcəkdir. Amma yenə də dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan insanların hələlik böyük imkanları yoxdur. Yəni bizim ölkəmizin iqtisadiyyatı hələ ki, buna imkan vermir.

Düzdür, son illər ərzində dəfələrlə maaşlar, müavinətlər, pensiyalar, digər sosial ödənişlər qaldırılıbdır, bu istiqamətdə müsbət meyllər davam edir. Amma hələlik bu bizi qane etmir.

Yəni bir sözlə, orduda xidmət edən zabitlərə xüsusi diqqət göstərilməlidir, xüsusi qayğı göstərilməlidir. Mən bunu edirəm və bütün cəmiyyəti də çağırıram ki, orduya kömək göstərsinlər. Orduya böyük hörmət göstərilməlidir. Bu gün Azərbaycan ordusu buna layiqdir. Düzdür, müstəqilliyimizin ilk illərində çətin proseslər gedirdi. Ölkəmiz müstəqil

dövlət kimi təzə yaşamağa başlayırdı. Əlbəttə, müsbət hallarla yanaşı, mənfi hallar da az deyildi. Bütün bu mənfi hallar həm cəmiyyətimizə, həm də ordumuza böyük zərbələr vurmuş oldu. Amma bu gün Azərbaycan ordusu çox yüksək səviyyədədir. Bu məni çox sevindirir. Biz hamımız çalışmalıyıq ki, ordumuzu hərtərəfli inkişaf etdirək. Orduda xidmət edən şəxsi heyət hiss etməlidir ki, həm Azərbaycan rəhbərliyi, həm də Azərbaycan cəmiyyəti onlarla bir yerdədir.

Sizi bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə Vətən qarşısında xidmətinizdə uğurlar arzulayıram. Sağ olun.

* * *

**S ə f ə r  Ə b i y e v:** Cənab Prezident, icazə verin məruzə edim ki, Sizin əmrinizlə bu il Müdafiə Nazirliyində 160 xidməti mənzil paylanıbdır. Sizin əmriniz var, mənə göstəriş vermisiniz ki, biz yeni evlərin tikintisi ilə bağlı hazırlıq görək və Sizə məruzə edək. Biz onu hazırlayıb Sizə məruzə edəcəyik.

**İ l h a m  Ə l i y e v:** Bu çox müsbət bir təklifdir. Siz mənə məruzə etmisiniz. Mən də bunu dəstəklədim. İndi Azərbaycanın hər yerində çox gözəl inşaat işləri gedir. Əlbəttə, orduda xidmət edən zabitlərin həyat səviyyəsini yaxşılaşdırmaq üçün müəyyən şərtlərlə bu işlər görülməlidir.

## HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİNDƏ ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*24 iyun 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak etmək üçün məktəbə gəldi.*

*Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Müdafiə naziri general–polkovnik Səfər Əbiyev və fəxri qarovul dəstəsinin rəisi Ali Baş Komandana raport verdilər. Mərasimdən əvvəl Azərbaycanın ümummilli lideri, əbədiyaşar Ali Baş Komandan Heydər Əliyevin abidəsinin açılışı oldu.*

*Abidənin ucaldılması müstəqil dövlətimizin memarı Heydər Əliyevin ölkəmizdə ordu quruculuğu sahəsində gördüyü tarixi işlərə, milli hərbi kadrların yetişdirilməsi, hərbi təhsil müəssisələrinin yaradılması və inkişaf etdirilməsi sahəsindəki müstəsna xidmətlərinə sonsuz ehtiramın daha bir ifadəsidir.*

Abidənin üstündə aşağıdakı sözlər yazılmışdır:

*«HEYDƏR ƏLİYEV*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında*

*AZƏRBAYCAN RESPUBLIKASI PREZIDENTINİN FƏRMANI*

*Azərbaycan Ali Hərbi Məktəbinə Heydər Əliyevin adı verilsin.*

**İLHAM ƏLİYEV**

**Azərbaycan RespublikasınınPrezidenti**

Bakı şəhəri, *10 mart 2004-cü il».*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev abidənin açılışından sonra Heydər Əliyev adına Ali Hərbi Məktəbin üçüncü buraxılışı münasibətilə mərasimin keçirildiyi stadiona gəldi. Mərasimə toplaşanlar dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar.*

*Ali Hərbi Məktəbin rəisi general-mayor Heydər Piriyev Ali Baş Komandana raport verərək, şəxsi heyətin buraxılış mərasimi münasibətilə düzüldüyünü bildirdi.*

*Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev məzunları «Salam, gənc zabitlər!» sözləri ilə salamladı.*

*Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin və ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.*

**İlham Əliyev**: Əziz kursantlar, zabitlər, generallar!

Əziz məzunlar!

Hörmətli qonaqlar!

İlk növbədə, sizin hamınızı qarşıdan gələn Silahlı Qüvvələr günü münasibətilə ürəkdən təbrik edir, sizə cansağlığı, fəaliyyətinizdə uğurlar arzulayıram.

Bu gün çox əlamətdar bir gündür. Bu gün Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi özünün üçüncü buraxılışını qeyd edir. Bu gün burada yeni zabit kadrları buraxılır. Gözəl hazırlaşmış, təhsil almış zabitlər ordumuza daxil olurlar. Mən sizin hamınızı bu münasibətlə də təbrik edirəm.

Üç il bundan əvvəl Azərbaycan Ali Hərbi Məktəbinin ilk buraxılışı olmuşdur. Biz o günü çox yaxşı xatırlayırıq. Xalqımızın ümummilli lideri Heydər Əliyev o təntənəli mərasimdə iştirak etmiş, öz ürək sözlərini demişdi, məzunları təbrik etmişdi. Üç ildən sonra biz bu gün burada xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini açdıq. Bu çox gözəl abidədir və ümid edirəm ki, Heydər Əliyevin adı verilmiş Ali Hərbi Məktəb bu adı fərəhlə, şərəflə daşıyacaqdır.

Xalqımızın ümummilli lideri orduya, ordu quruculuğuna həmişə böyük diqqətlə yanaşmışdır. Onun fəaliyyətinin ən önəmli istiqaməti məhz orduya diqqət göstərmək, ordu quruculuğuna xidmət etməkdən ibarət idi. Xalqın tələbi ilə 11 il bundan əvvəl, Azərbaycana rəhbərliyə gəlmiş Heydər Əliyev sonrakı illər ərzində Azərbaycana böyük töhfələr vermişdir. Dövlətimizi gücləndirmiş, Azərbaycanın dövlət müstəqilliyini əbədi, dönməz etmişdir. Daim xalqa arxalanaraq Azərbaycanı hərtərəfli inkişaf etdirmişdir. On bir il bundan əvvəl Azərbaycanın iqtisadi, siyasi, sosial vəziyyəti tamamilə başqa idi. Ölkə böhran içində idi, Azərbaycanda çox xoşagəlməz proseslər baş verirdi və ölkənin gələcəyi, müqəddəratı şübhə altında idi. Vətəndaş müharibəsi, qarşıdurma, yaşanan iqtisadi, siyasi, hərbi böhran ölkəmizi çox çətin vəziyyətə salmışdı. Demək olar ki, Azərbaycanın gələcəyi, onun müstəqilliyi böyük təhlükə altında idi. Heydər Əliyevin qətiyyəti, cəsarəti, uzaqgörənliyi, apardığı müdrik siyasət ölkəni bu bəladan qurtardı və Azərbaycan inkişaf etməyə başladı.

Azərbaycanın hər bir sahəsi inkişaf etdi. Bu gün ölkəmiz Dünya Birliyinin layiqli üzvüdür. Azərbaycan iqtisadi potensialına görə bölgədə liderliyi əldə saxlayır və bunu getdikcə gücləndirir. Ölkədə sosial məsələlər, problemlər öz həllini tapır. Əlbəttə ki, ordu quruculuğunda da böyük uğurlar əldə olunmuşdur.

1993-cü ildə orduda vəziyyət çox çətin idi. Demək olar ki, nizami ordu yox idi, ayrı-ayrı silahlı birləşmələr mövcud idi. Müasir, mütəşəkkil ordunu yaratmaq Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri olmuşdur. Bu gün Azərbaycanın güclü ordusu vardır. Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir bir ordudur. Azərbaycanda ordu quruculuğu prosesi bu gün də çox sürətlə gedir.

Bildiyiniz kimi, Azərbaycanda bütün sahələrdə Heydər Əliyevin siyasəti yaşayır və davam etdirilir. Mən prezident seçkiləri ərəfəsində bu siyasətə sadiq olduğumu bəyan etmişdim. Seçkilərdən keçən dövr ərzində əməli-praktiki addımlarla, qəbul etdiyim qərarlarla bu siyasə-

tə sadiq olduğumu təsdiq etmişəm. Azərbaycanda bu siyasətə alternativ yoxdur. Yalnız bu siyasət ölkəmizi daha da inkişaf etdirəcək, ölkəmizi hərtərəfli gücləndirəcəkdir.

Azərbaycan beynəlxalq aləmdə öz yerini möhkəmləndirir, iqtisadi inkişaf baxımından ölkəmiz son 7–8 ay ərzində böyük uğurlar əldə etmişdir. Azərbaycanda sosial məsələlər öz həllini tapır, insanların həyat səviyyəsi yüksəlir.

Əlbəttə, ordu quruculuğunda da görülmüş işlər deməyə əsas verir ki, artıq bu istiqamətdə önəmli addımlar atılmışdır. Mən orduda gedən proseslərlə mütəmadi olaraq maraqlanıram, əlaqə saxlayıram və bu məsələlər daim diqqət mərkəzindədir. Mən çox şadam ki, Azərbaycanın ordusu güclənir, inkişaf edir. Bu yaxınlarda Naxçıvanda və Gəncədə hərbi hissələrdə olarkən bir daha əmin oldum ki, orduda gedən proseslər müsbətdir. Ordunun maddi-texniki bazası güclənir, şəxsi heyətin hazırlıq, peşəkarlıq səviyyəsi yüksəlir. Bu istiqamətdə gələcəkdə də addımlar atılacaqdır. Ordumuzun maddi-texniki bazasının gücləndirilməsi istiqamətində çox önəmli addımlar atılır və bundan sonra da atılacaqdır.

Azərbaycan inkişaf edən bir ölkədir. Heydər Əliyevin siyasəti nəticəsində aparılan iqtisadi islahatlar ölkəmizi iqtisadi cəhətdən gücləndirmişdir. Təbii ki, iqtisadi potensialı güclü olan ölkələrin güclü orduları vardır. Mən bunu dəfələrlə bəyan etmişəm ki, kasıb ölkələrdə güclü ordu ola bilməz. Ona görə Azərbaycan zəngin ölkə olmalıdır. Azərbaycan güclənməlidir. Bunu etmək üçün bütün imkanlar vardır. Xalqın iradəsi var, aparılan siyasətin gözəl nəticələri var və Azərbaycan xalqının dəstəyi vardır.

Azərbaycanda gedən iqtisadi islahatlar, iqtisadi siyasət ölkəmizi daha da gücləndirəcəkdir. On il bundan əvvəl başlanmış Heydər Əliyev neft strategiyası bu gün özünün gözəl nəticələrini verməkdədir. Bu strategiya əsasında görülən işlərin, həyata keçirilən irimiqyaslı layihələrin hesabına ölkə iqtisadiyyatına böyük həcmdə sərmayə gətirilmişdir. 1993-cü ildə boş olan xəzinə bu gün böyük maliyyə re-

surslarına malikdir. Görülən bütün bu işlər imkan verəcək ki, Azərbaycan gələcəkdə də hərtərəfli inkişaf etsin, öz iqtisadiyyatını şaxələndirsin və ordu quruculuğunda da daha böyük nəticələr əldə edə bilsin. Bu bizim məqsədimizdir. Mən şübhə etmirəm ki, biz bu məqsədə nail olacağıq.

Azərbaycanın qarşısında böyük problemlər var. Onların arasında ən böyük problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir.

Qarşımızda duran digər məsələlər öz həllini tapır. Qeyd etdiyim kimi, Azərbaycanın beynəlxalq nüfuzu artır, Azərbaycan beynəlxalq təşkilatlarda çox önəmli yerləri tutur. Dünyada Azərbaycanla hesablaşırlar və apardığımız xarici siyasət bizə imkan verəcək ki, ölkənin milli maraqları daha da böyük həcmdə müdafiə olunsun.

İqtisadi inkişaf istiqamətində aparılan işlər deməyə əsas verir ki, bu problemlər də öz həllini tapacaqdır, Azərbaycan yaxın zamanlarda daha zəngin ölkəyə çevriləcəkdir. Sosial məsələlərin həlli qarşımızda duran ən vacib problemlərdən biridir. Bu istiqamətdə də önəmli addımlar atılır və bundan sonra da atılacaqdır. Əməkhaqlarının, pensiyaların, sosial ödənişlərin artırılması istiqamətində işlər görüləcəkdir. Biz çalışmalıyıq və çalışırıq ki, Azərbaycanın hər bir vətəndaşı ildənilə daha yaxşı yaşasın, onun güzəranı daha da yaxşılaşsın, qarşısında duran sosial məsələlər öz həllini tapsın. Mən şübhə etmirəm ki, biz bu məsələləri də həll edəcəyik.

Amma Azərbaycanın ən böyük problemi, qeyd etdiyim kimi, torpaqlarımızın işğal altında qalmasıdır. Azərbaycan xalqı heç vaxt bununla barışmayacaq, heç vaxt imkan verməyəcək ki, torpaqlarımız işğal altında qalsın. Bizim işimiz haqq işidir. Azərbaycan heç kimin torpağını zəbt etməyibdir. Heç kimin ərazi bütövlüyünü pozmayıbdır. Əksinə, biz bu təcavüzün qurbanlarıyıq. Azərbaycan xalqı bu təcavüzdən əziyyət çəkir. Bu onu göstərir ki, beynəlxalq hüquq bizim tərəfimizdədir.

Əlbəttə, biz çalışmalıyıq və bütün dünya ictimaiyyəti, bu məsələ ilə bilavasitə məşğul olan qurumlar məhz beynəlxalq hüquq normalarını üstün tutmalıdır. Azərbaycanın tam haqqı var ki, öz torpaqlarını azad etsin. Beynəlxalq hüquq normaları bizə belə bir imkan yaradır. Biz istəyirik ki, bunu sülh yolu ilə həll edək. Amma bilirsiniz ki, sülh danışıqları heç bir nəticə vermir.

On ildən artıqdır ki, sülh danışıqları aparılır, ortalıqda da bir nəticə yoxdur. Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışa bilməz. Biz tələb edirik ki, bu məsələ tezliklə, ədalətli, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapsın.

Biz hələ ümid edirik ki, bunu sülh yolu ilə həll edə bilərik. Amma eyni zamanda, hər an torpaqlarımızın azad edilməsi istiqamətində addımlara hazır olmalıyıq. Bunu etmək üçün ordumuz daha da güclü, peşəkar olmalıdır. Ordumuzun maddi-texniki bazası daha da möhkəmlənməlidir. Biz bunu edirik və edəcəyik. Bu gün Azərbaycanın iqtisadi potensialı Ermənistandakından üç-dörd dəfə böyükdür. Ölkədə aparılan iqtisadi islahatlar, iqtisadi siyasət, Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində ölkə iqtisadiyyatı Ermənistandakından on dəfə güclü olacaqdır. Bunun nə demək olduğunu hamımız yaxşı bilirik.

Siz görürsünüz ki, mənim fəaliyyətimin əsas istiqamətlərindən biri də ordunu gücləndirməkdən, onun maddi-texniki bazasını möhkəmləndirməkdən ibarətdir. Biz güclü orduya malikik, amma hər gün, hər an bu istiqamətdə daha da böyük addımlar atmalıyıq. Mən şübhə etmirəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Şübhə etmirəm ki, biz torpaqlarımızı azad edəcəyik. Amma, əlbəttə, biz istərdik bu, sülh yolu ilə həll olunsun.

Qeyd etdiyim kimi, ölkədə sosial siyasət istiqamətində önəmli addımlar atılır. O cümlədən orduda xidmət edən şəxsi heyətin həyat səviyyəsinin yaxşılaşdırılması üçün addımlar atılıbdır. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir.

Bir sözlə, mən bir daha demək istəyirəm ki, prezident seçkilərindən əvvəl xalqa təqdim etdiyim proqramlar uğurla həyata keçirilir.

Azərbaycanın regionları inkişaf edir, qəbul edilmiş sosial-iqtisadi inkişaf proqramı çox uğurla həyata keçirilir. Ölkədə bir neçə ay ərzində minlərlə yeni iş yeri açılıbdır. Büdcədən maliyyələşən təşkilatlarda çalışan insanların əməkhaqları qaldırılır. Ölkəmiz beynəlxalq aləmə daha inamla inteqrasiya edir. Ölkə iqtisadiyyatı böyük addımlarla inkişaf edir. Heydər Əliyevin təməlini qoyduğu, onun əsəri olan Bakı–Tbilisi–Ceyhan neft kəməri uğurla inşa edilir. Biz bunun açılışını gələn il qeyd edəcəyik. Bir sözlə, Azərbaycan inamla addımlayır, çox uğurla inkişaf edir. Bunu təkcə biz deyil, bütün dünya ictimaiyyəti bilir və qəbul edir.

Əziz dostlar!

Bu gün, həqiqətən, Azərbaycanın tarixində çox əlamətdar bir gündür. Heydər Əliyev adına Ali Hərbi Məktəb öz məzunlarını buraxır. Mən üç il bundan əvvəl, burada keçirdiyimiz mərasimi bir daha xatırlatmaq istəyirəm. Mən xatırlayıram ki, xalqımızın ümummilli lideri Heydər Əliyev o mərasimə çox sevinirdi. Çox böyük qürur hissi keçirirdi ki, Azərbaycan ordusunda hazırlıqlı, peşəkar zabitlər xidmət edəcəklər. Artıq üçüncü ildir ki, bu hərbi məktəb öz məzunlarını buraxır. Əminəm ki, onlar ordumuzda ləyaqətlə xidmət edəcəklər.

Mən sizi bu gözəl hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizin hamınıza cansağlığı arzulayıram. Sizə Vətən uğrunda xidmətinizdə yeni-yeni uğurlar diləyirəm. Sağ olun.

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ SEYİD MƏHƏMMƏD XATƏMİYƏ**

Hörmətli cənab Prezident!

Zahedan şəhəri yaxınlığında baş vermiş ağır yol qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

*Allah rəhmət eləsin!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *25 iyun 2004-cü il*

**BELARUS RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB ALEKSANDR LUKAŞENKOYA**

Hörmətli Aleksandr Qriqoryeviç!

Belarus Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün Belarus xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, xalqlarımızın iradəsi ilə Azərbaycan–Belarus münasibətləri ənənəvi olaraq dostluq və əməkdaşlıq ruhunda inkişaf edərək regionumuzda sülhə, sabitliyə və tərəqqiyə xidmət göstərəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Belarus xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *25 iyun 2004-cü il*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ CORC BUŞ CƏNABLARINA

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Dünyada sülhün, sabitliyin təmin edilməsi, bəşəriyyətin inkişafına xidmət edən dəyərlərin bərqərar olunması sahəsində bu gün Amerika Birləşmiş Ştatlarının göstərdiyi çoxşaxəli fəaliyyət böyük rəğbət doğurur. Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin durmadan inkişafı, əlaqələrimizin hərtərəfli genişlənməsi, dövlətlərimizin strateji tərəfdaşlığı qarşılıqlı münasibətlərimizin ən böyük nailiyyətlərindəndir.

Biz Amerika Birləşmiş Ştatlarının beynəlxalq terrorizmə qarşı barışmaz mövqeyini, insanların həyatı üçün böyük təhlükə mənbəyi olan bu bəlaya qarşı mübarizəsini və dünya ictimaiyyətini səfərbər etmək səylərini yüksək qiymətləndirir, tam dəstəkləyir və antiterror əməliyyatlarına öz töhfəmizi verməyə çalışırıq.

Azərbaycanın karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarlarına nəqli ilə bağlı irimiqyaslı beynəlxalq iqtisadi layihələrin gerçəkləşməsində və bu sahədə əldə etdiyimiz uğurlarda Amerika Birləşmiş Ştatlarının rolu və hərtərəfli dəstəyi bizim üçün çox əhəmiyyətlidir.

Xalqımızın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun olaraq sülh yolu ilə ədalətli həlli üçün ATƏT-in Minsk qrupunun həmsədri kimi, ölkənizin ardıcıl səylərinə böyük ümidlər bəsləyirik.

Belə bir əlamətdar gündə Sizə, cənab Prezident, ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Amerika xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *25 iyun 2004-cü il*

**VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HUQO RAFAEL ÇAVEZ FRİASA**

Hörmətli cənab Prezident!

Venesuelanın milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Venesuela münasibətləri daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Venesuela xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *25 iyun 2004-cü il*

## NATO-nun ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN İSTANBULA İŞGÜZAR SƏFƏRİ

*26 iyun 2004-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO-nun zirvə görüşündə iştirak etmək üçün İstanbula işgüzar səfərə yola düşmüşdür.*

*İlham Əliyev həmin gün İstanbula gəlmişdir. Dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı Atatürk adına Beynəlxalq Hava Limanında böyük hörmətlə qarşıladılar.*

* * *

## İSTANBULDA SİSLİ BƏLƏDİYYƏSİ ƏRAZİSİNDƏ HEYDƏR ƏLİYEV ADINA PARKIN VƏ BÜSTÜNÜN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*26 iyun 2004-cü il*

Hörmətli cənab vali!
Hörmətli Şişli bələdiyyəsinin başqanı!
Əziz dostlar, qardaşlar, xanımlar və cənablar!

Mən, ilk növbədə, sizin hamınızı ürəkdən salamlayıram. Sizi görməyimə çox şadam. Bu gün qeyd olundu ki, mən dövlət başçısı kimi, İstanbula ilk səfərdəyəm. İstanbulda dəfələrlə olmuşam. Bu şəhəri çox sevirəm. Bu şəhər bizim hamımız üçün, həm Türkiyədə, həm də Azərbaycanda yaşayanlar üçün çox əziz, doğma şəhərdir. Mənim də həyatımın bir hissəsi İstanbulda keçmişdir. Ona görə mən İstanbulu

çox yaxşı tanıyıram, gözəl xatirələrim var. Mən öz fikrimi demək istəyirəm və siz mənimlə razılaşarsınız ki, İstanbul dünyanın ən gözəl şəhəridir.

Əlbəttə, mənim üçün və bütün Azərbaycan xalqı üçün çox böyük şərəfdir ki, bu gün İstanbulda xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan park açılır. Burada Heydər Əliyevin abidəsi ucaldılıb və sərgi təşkil edilibdir. Bütün bu işlərdə iştirak edən, bunları təşkil edən dostlarımıza, qardaşlarımıza öz dərin təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Heydər Əliyev, həqiqətən, Azərbaycan xalqının ümummilli lideri idi. Azərbaycanın ən çətin anlarında, ən çətin dövrlərində xalqla bir yerdə idi. Xalqı çətin vəziyyətdən irəli, tərəqqiyə, inkişafa aparırdı. Keçən əsrin 70-ci illərində Azərbaycan müstəqil dövlət deyildi, Sovet İttifaqı çərçivəsində bir respublika idi. Amma o illər ərzində Azərbaycanda böyük quruculuq işləri aparılmış, zavod və fabriklər tikilmişdir. Azərbaycan, demək olar ki, öz iqtisadi potensialını məhz o dövrlərdə, məhz 70-ci illərdə, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi zaman yaratmışdır.

Azərbaycanın müstəqilliyinin ilk illəri çox ağır keçirdi. Ölkə böhran içində idi, vətəndaş müharibəsi, qardaş qırğını baş verirdi. Müharibədə Azərbaycan torpaqları işğal olunurdu. Ölkə iqtisadiyyatı çökmüşdü. Ümumiyyətlə, Azərbaycan və onun müstəqil gələcəyi çox böyük təhlükə altında idi. Məhz o zaman, 1993-cü ildə xalqın tələbi və təkidi ilə Heydər Əliyev Azərbaycana rəhbərliyə qayıtmış və qısa müddət ərzində ölkəni böhran vəziyyətindən çıxarmışdır. Bundan sonra Azərbaycan sabitlik əldə etmiş və öz inkişaf yoluna qədəm qoymuşdur.

Bu gün müstəqil Azərbaycan Dünya Birliyinin layiqli üzvüdür. Azərbaycan beynəlxalq təşkilatlarda fəal iştirak edir. Ölkəmizin iştirakı ilə dünyada və bölgədə önəmli regional layihələr həyata keçirilir. Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf edir. Mən sizə deyə bilərəm ki, son yeddi il ərzində iqtisadiyyatımız 90 faiz artmışdır. Hər il iqti-

sadi artım 10 faizdən yuxarıdır. Bu siyasət bundan sonra da aparılacaqdır. Ölkəmizin çoxlu sosial problemləri öz həllini tapır. Bir sözlə, bu gün Azərbaycan inamla irəliyə, gələcəyə baxır.

Ölkəmizin iqtisadi, siyasi potensialı çox güclüdür. Siz bilirsiniz ki, Azərbaycanda həyata keçirilən böyük neft layihələri də Heydər Əliyevin neft strategiyası ilə bağlıdır. Məhz onun cəsarəti, uzaqgörənliyi və siyasi iradəsi 1994-cü ildə bu strategiyanın təməlini qoymuşdur. Baxmayaraq ki, o illərdə Azərbaycana bu məsələ ilə əlaqədar böyük təzyiqlər olmuşdur. Ölkə daxilində də buna müqavimət var idi. Xaricdə də bəzi dairələr açıq şəkildə bunun əleyhinə çıxırdı. Belə cəhdlər olurdu. Lakin bütün bunlara baxmayaraq, Heydər Əliyevin iradəsi və qətiyyəti nəticəsində bu layihələr həyata keçdi. Türkiyə və Azərbaycanı iqtisadi baxımdan daha da yaxınlaşdıran Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi uğurla davam edir. Bu bir daha onu göstərir ki, Heydər Əliyev ikitərəfli münasibətlərə, Türkiyə–Azərbaycan münasibətlərinə böyük əhəmiyyət verirdi. Mən şübhə etmirəm ki, yaxın zamanlarda Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşası uğurla başa çatacaq və biz bu mərasimi qeyd edəcəyik.

Türkiyə–Azərbaycan əlaqələri Heydər Əliyev siyasətinin əsas istiqamətlərindən biri olmuşdur. O, daim çalışırdı ki, Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr bütün sahələrdə güclənsin və inkişaf etsin. Məhz onun rəhbərliyi altında son 10 il ərzində iki qardaş ölkə arasındakı əlaqələr ən yüksək zirvəyə qalxmışdır. Bu gün bizi siyasi, iqtisadi, mədəni və digər sahələrdə möhkəm tellər bağlayır. Türkiyə və Azərbaycan beynəlxalq aləmdə bir mövqedən çıxış edir, daim bir-birinə dəstək olur. Əlbəttə ki, Azərbaycanın və Türkiyənin xoşbəxt gələcəyi bizim xalqlarımızın birliyindədir. Bu gözəl kəlam Azərbaycanda və Türkiyədə çox məşhurdur. Bu həm həqiqəti, həm də Türkiyə ilə Azərbaycan arasında olan əlaqələri əks etdirir. Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir. Bu şüar bizim hamımız üçün örnəkdir. Bu şüar bizim siyasətimizin əsasıdır. Biz bu dostluğa, bu qardaşlığa sadiqik.

Mən çox şadam ki, ölkə başçısı kimi, bu əlaqələrin inkişafına da öz töhfəmi verirəm. Sizə deyə bilərəm ki, keçən il Azərbaycanın Baş

naziri vəzifəsinə təyin olunduqdan sonra mənim ilk xarici səfərim məhz Türkiyəyə olmuşdur. Mən prezident seçiləndən sonra da Türkiyə–Azərbaycan əlaqələrinə çox böyük əhəmiyyət verirəm və Azərbaycanın müasir siyasətinin prioriteti hesab edirəm. Mən prezident kimi də Türkiyəyə səfər etmişdim. Lakin əfsuslar olsun ki, o zaman vaxt çox məhdud idi və İstanbula gələ bilmədim. Bu gün çox xoşbəxtəm ki, İstanbuldayam, bu gözəl mərasimdə sizinlə birlikdəyəm.

Heydər Əliyevin xatirəsinə belə hörmətlə, belə məhəbbətlə yanaşdığınıza görə mən sizə bir daha öz dərin minnətdarlığımı bildirirəm. Əmin ola bilərsiniz ki, Azərbaycan bu siyasətə, Heydər Əliyev siyasətinə sadiq qalacaqdır. Bu siyasət bütün sahələrdə davam etdirilir. Mən bu siyasətə sadiqəm. Yalnız Heydər Əliyev siyasəti Azərbaycanı xoşbəxt gələcəyə apara bilər.

Mən bir daha qeyd etmək istəyirəm ki, Türkiyə–Azərbaycan münasibətləri çox güclüdür. Aramızda olan qardaşlıq, dostluq çox güclüdür və heç kim bu münasibətlərə təsir edə bilməz. Bu bizim siyasətimizdir, biz də bunu aparacağıq.

Əziz dostlar, qardaşlar, bu gözəl parka Heydər Əliyevin adını verdiyinizə görə, burada bu gözəl abidəni yaratdığınıza görə mən sizə həm Heydər Əliyevin oğlu kimi, həm də Azərbaycan prezidenti kimi bir daha öz minnətdarlığımı, təşəkkürümü bildirirəm.

Yaşasın əbədi, sarsılmaz Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı!

* * *

*NATO-nun zirvə görüşündə iştirak etmək üçün İstanbulda işgüzar səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev iyunun 26-da onun üçün ayrılmış iqamətgahda – «Çırağan» mehmanxanasında ABŞ Senatının xarici əlaqələr komitəsinin sədri Bill Fristi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–ABŞ əlaqələri haqqında ətraflı fikir mübadiləsi aparıldı. Söhbət zamanı respublikamızın Birləşmiş Ştatlarla sıx əməkdaşlığı ilə yanaşı, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrinin*

*inkişaf etdirilməsi və möhkəmləndirilməsi sahəsində apardığı ardıcıl siyasət də vurğulandı.*

*Senator Azərbaycanın NATO-nun zirvə görüşündə iştirakının məqsədi ilə də maraqlandı. Azərbaycanın beynəlxalq və regional təşkilatlarla yaxından əlaqələr saxladığını bildirən prezident İlham Əliyev dedi ki, ölkəmiz Şimali Atlantika İttifaqı ilə birgə layihələrdə də fəal əməkdaşlıq edir. Bu nüfuzlu qurumun dünya siyasətində artan rolunu nəzərə alaraq, ölkəmiz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə ədalətli həllində onun dəstəyinə nail olmağa ümid bəsləyir.*

*Cənab Bill Frist bildirdi ki, ABŞ Senatında Azərbaycanın ədalətli mövqeyini başa düşən senatorların sayı getdikcə artmaqdadır və onlar bu sahədə öz köməyini göstərəcəklər.*

*Görüşdə hər iki ölkənin energetika layihələrində birgə iştirakı, beynəlxalq terrorizmə qarşı mübarizədə əməkdaşlıq barədə fikir mübadiləsi də aparıldı.*

## «AVRATLANTİK İTTİFAQI YOL AYRICINDA» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA* ÇIXIŞ

*İstanbul,*
*«Çırağan» mehmanxanası*

*26 iyun 2004-cü il*

**B r y u s   C e k s o n** (*NATO üzrə Amerika Komitəsinin prezidenti və həmsədri*): Mən istərdim ki, hamınızı Avratlantikanın Qara dəniz hövzəsi ətrafındakı perspektivləri ilə bağlı müzakirələrdə salamlayım. Zənnimcə, elə mövzunun adı kifayət qədər məlumat verir. Burada çıxış edənlər Qərbin münasibətini, məsələyə öz baxışlarını ifadə edəcəklər. İcazə verin, natiqləri sizə təqdim edim.

Azərbaycan prezidenti İlham Əliyev. Onun ölkəsi Avropadan Mərkəzi Asiyaya pəncərə rolunu oynayır, eynilə Türkiyə Avropa ilə Yaxın Şərq arasında pəncərə olduğu kimi, onun ölkəsi Avropanın enerji təhlükəsizliyi mövzusunun əsasını təşkil edir. Eyni zamanda, ölkədə dondurulmuş münaqişə də mövcuddur. Prezident Əliyevin liderliyi ilə Bakıda böyük dəyişikliklər müşahidə olunur.

* * *

**B r y u s   C e k s o n:** Qara dəniz regionu ölkələrinə həqiqi firavanlıq və iqtisadi sərbəstlik gətirən liderlərin sayı çox deyildir. Yəqin

---

* Bryus Cekson konfransda çıxış edərək Gürcüstan prezidenti Mixail Saakaşvilini, Avropada tanınmış xarici işlər nazirlərindən Mirca Coaneni (Rumıniya), Türkiyənin Xarici İşlər naziri Əhməd Davudoğlunu da konfrans iştirakçılarına təqdim etdi.

ki, regionda bunu prezident Əliyev qədər yerinə yetirən digər lider yoxdur. Əvvəlcə bir sənayeçi kimi, indi isə prezident kimi, o bu işləri layiqincə yerinə yetirir. Bakı–Tbilisi–Ceyhan və digər bu kimi layihələrin həyata keçməsi üçün səylərini əsirgəməmiş, ölkəsində region üzrə hamıdan çox böyük ticarət dövriyyəsinə və sərmayə axınına nail olmuşdur. Bu həmin ölkə idi ki, 1989-cu ildən tənəzzül dövrünü keçirirdi. Cənab Prezident, yüksək kürsü sizindir.

**İ l h a m  Ə l i y e v:** Əziz cənab sədr!

Xanımlar və cənablar!

İlk əvvəl mən istərdim ki, vacib beynəlxalq tədbiri hazırladığına görə Marşall Fonduna minnətdarlığımı bildirim. Bu gün mən burada dostlarımla olmağıma sevinirəm. Rumıniyanın Xarici İşlər naziri cənab Coane, dostum Mixail Saakaşvili ilə, lap bu yaxınlarda Gürcüstanda onunla görüşlərimiz oldu. Cənab Bryus Cekson, o, Bakıya bir neçə dəfə səfər edib, bizim çox maraqlı müzakirələrimiz olubdur. Bizim ümumi strateji seçimimizə onun töhfəsini də yüksək qiymətləndirirəm. Əlbəttə ki, ev yiyəsinin nümayəndəsi, Azərbaycanın ən yaxın münasibətləri olan, ən yaxın bağlantıları olan, bu münasibətlərin günü-gündən möhkəmləndiyi Türkiyənin nümayəndəsi cənab Davudoğlu.

Burada, Türkiyədə olmağımdan çox məmnunam. Bu konfransda iştirakımdan çox məmnunam. Azərbaycan Avratlantik strukturlara inteqrasiyasında nəzərəçarpacaq irəliləyiş əldə edibdir. 1993-cü ildə prezidentimiz Heydər Əliyevin müəyyən etdiyi seçim indi də ölkə üçün dəyişməz olaraq qalır. Azərbaycanın strateji xətti beynəlxalq birliyə inteqrasiyadır.

Avropa və Avratlantik strukturlarına inteqrasiya xətti olan bu seçim ölkəmizin o zaman qəbul etdiyi uğurlu qərar idi. Ölkə müstəqilliyini yenicə qazanarkən onun çox ciddi problemləri vardı. Daxildə narahatlıq, toqquşmalar, Ermənistanla müharibə, Ermənistanın Azərbaycana qarşı təcavüzü, iqtisadi böhran, iqtisadi tənəzzül Azərbaycanı dağılmaq ərəfəsinə çıxaran amillər idi. Azərbaycanın gələcək taleyi

şübhə altında idi. Son on ildə prezidentimiz Heydər Əliyevin apardığı siyasət ölkəmizə imkan verdi ki, bütün sahələrdə inkişaf etsin. Biz beynəlxalq birliyin mühüm iştirakçılarından olduq. Azərbaycan Avropa Şurasının üzvü oldu və həmin təşkilatda uğurla fəaliyyət göstərir. Rəsmi qəbul olunma vaxtı üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirir. Azərbaycanın Avropa Birliyi ilə çox gözəl münasibətləri var. Biz çox şadıq ki, Avropa Birliyi Cənubi Qafqaza öz xüsusi nümayəndəsini təyin etmişdir. Bu, Avropa Birliyinin bizim regiona artan marağından irəli gəlir. Artıq 10 ildir ki, Azərbaycan NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramının fəal iştirakçısıdır.

Bu gün biz artıq NATO ilə əməkdaşlığın ikinci mərhələsindəyik. Fərdi əməkdaşlıq planını təqdim etmişik və yalnız iki ölkə bunu etməyə nail olmuşdur – Gürcüstan və Azərbaycan. NATO-nun baş qərargahında olarkən soruşdum ki, nəyə görə Gürcüstan bu məsələdə birinci, Azərbaycan isə ikincidir? Mənə cavab verdilər ki, dostunuz Mixail Saakaşvili sizdən bir ay əvvəl NATO Baş qərargahına səfər etmişdi. Ona görə də gələn dəfə yəqin ki, birlikdə gedərik.

Əslində, qonşularımızla olan münasibətlər, xüsusilə də, Gürcüstanla, Türkiyə ilə olan münasibətlər, yalnız daxili siyasət üçün deyil, regional əməkdaşlıq baxımından da böyük əhəmiyyət kəsb edən amillərdir. Regionun inkişafı üçün vacibdir. Regionun inkişaf istiqamətlərinin müəyyən olunması üçün əhəmiyyət kəsb edir. Bu istiqamətdə Azərbaycan qonşuları ilə fəal əməkdaşlıq edir. Bu gün ölkənin iqtisadi inkişafı uğurludur. Biz iqtisadi problemləri həll etməkdə qərarlıyıq. Son 7 ildə iqtisadiyyat ildə ən azı 10 faiz artımla irəliləyir. Yeri gəlmişkən, son 7 il müddətində ümumi daxili məhsulun həcmi 90 faiz artmışdır. Təkcə keçmiş SSRİ respublikaları arasında deyil, Şərqi Avropa ölkələri də daxil olmaqla, Azərbaycan adambaşına düşən xarici sərmayənin həcminə görə aparıcı mövqedədir. Azərbaycan əla sərmayə mühiti yaradıbdır. Sərmayəçilər özlərini və sərmayələrini burada tamamilə müdafiə olunmuş hesab edirlər. Bu da bizim ölkəyə milyardlarla dollar vəsait yatırılmasının əsas səbəbləridir. Həmin vəsait təkcə neft və qaz sektoruna deyil, iqtisadiyyatımızın digər sahələrinə

də yatırılmışdır. Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik davamlı və uğurlu iqtisadi inkişafın əsas amilidir.

Qonşularımız və dostlarımızla – Türkiyə və Gürcüstanla dünyanın ən iri enerji layihələrini həyata keçiririk. Bu təkcə Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum kəmərləri deyildir. Həm də bizim nəhəng neft və qaz yataqlarının işlənilməsi layihələridir. Biz artıq lazımi proqnozları aparmışıq. Azərbaycanın neftdən nə qədər fayda götürəcəyini bilirik. Bunun nəzərə alınması ilə bir neçə il əvvəl Neft Fondu yaratmışıq. Bu struktur tam şəffaflığı ilə seçilir. Beynəlxalq auditorlar ona nəzarət edir. Neft Fondu Beynəlxalq Valyuta Fondunun tövsiyə və məsləhətləri ilə idarə olunur. Azərbaycan Britaniya Baş nazirinin hasilat sənayelərində şəffaflıq təşəbbüsünə qoşulan ilk ölkələrdən olmuşdur. Ölkədə neft və qaz gəlirlərinin tam şəffaflığına nail olmaq üçün lazımi tədbirlər həyata keçirilir. Bir sözlə, ölkəmizin qarşısında çox problem görmürük. Regional əməkdaşlığı artırmaq lazımdır. Əminəm ki, enerji və nəqliyyat layihələri başa çatdırıldıqdan sonra dünyanın özü də daha təhlükəsiz olacaqdır. Regionda da təhlükəsizlik artacaq, əməkdaşlıq genişlənəcəkdir.

Regiona isə təhlükəsizlik lazımdır. Təəssüf ki, Cənubi Qafqazda baş verən proseslər, xüsusilə də, təcavüzkar separatçılıq, ölkələrimizdə – Gürcüstan və Azərbaycanda baş verən hadisələr bütün regional əməkdaşlığı və təhlükəsizliyin özünü təhlükə altına alır. Azərbaycan separatçılıqdan əziyyət çəkmiş ölkədir. Azərbaycan erməni işğalından əziyyət çəkmiş ölkədir. Bu təcavüzün nəticəsi kimi, Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən zəbt edilib, 1 milyon qaçqın-köçkünümüz var.

Bu, dünyada ölkənin əhalisinin sayına nisbətdə qaçqın-köçkünlərin ən yüksək göstəricisidir. 8 milyon əhalinin 1 milyonu qaçqınlar və məcburi köçkünlərdir.

Təəssüf ki, beynəlxalq ictimaiyyət bu məsələlərə kifayət qədər diqqət yetirmir. Təcavüzkar separatçılıq, beynəlxalq hüquq normalarının pozulması, ərazi bütövlüyünün pozulması beynəlxalq ictimaiyyət tərəfindən pislənməli, lənətlənməli hərəkətlərdir. Həm də bunları yalnız

pisləməklə kifayətlənmək olmaz. Sanksiyalar tətbiq olunmalı, təcavüzə son qoymaq üçün praktiki addımlar atılmalıdır.

Bu gün Cənubi Qafqazda, bizdə qanunsuz ərazilər mövcuddur. Dağlıq Qarabağ onlardan biridir. Gürcüstan ərazisində də qanunsuz ərazilər mövcuddur. Burada beynəlxalq nəzarət, beynəlxalq monitorinq yoxdur və həmin zonalarda qanunun aliliyi qorunmur. Bu cür təhlükə ilə yanaşı necə yaşamalı? Nəzarətsiz ərazilərin törədə biləcəyi təhlükə potensialı hamıya məlumdur. Bu, bütün kriminal elementlər üçün rahat ərazidir və beynəlxalq ictimaiyyətin terrora qarşı mübarizədə birləşdiyi bir şəraitdə, düşünürəm ki, bu qanunsuz ərazilərə də diqqət artırılmalıdır. Çünki bu ərazilərdə terrorizmin çox böyük dayaqları ola bilər. Azərbaycan ərazilərinin itirilməsi ilə heç vaxt razılaşmayacaq, biz bu əraziləri geri alacağıq. Biz bunu sülh yolu ilə etmək istəyirik, amma təəssüf ki, sülh yolu ilə ciddi uğur əldə etməmişik.

Bu gün Azərbaycandakı iqtisadi vəziyyət Ermənistanın iqtisadi vəziyyəti ilə müqayisə oluna bilməz. Bizim iqtisadiyyatın bugünkü gücü Ermənistanınkından 3-4 dəfə böyükdür. Bir neçə ilə fərq 10 dəfəyə çatacaqdır. Əlbəttə ki, bütün imkanların, ehtiyatların istifadə olunması ilə biz sonda ərazimizi azad edəcəyik. Biz digər ərazilərə can atmırıq. Amma Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon Azərbaycanın torpaqlarıdır. Azərbaycanın ayrılmaz hissəsidir və Azərbaycana qaytarılmalıdır.

Mən əminəm ki, məsələ ilə birbaşa məşğul olan beynəlxalq təşkilatlar bunu həll etməkdən ötrü səylərini ikiqat gücləndirəcəklər. Biz istərdik ki, yalnız ATƏT deyil, Avropa Birliyi, Avropa Şurası, digər beynəlxalq təşkilatlar da məsələnin həllində fəal rol oynasınlar. Əlbəttə ki, ATƏT-in Minsk qrupunun məsələni həll etmək üçün mandatı vardır və biz bu mandata hörmətlə yanaşırıq. Amma düşünürəm ki, daha geniş beynəlxalq ictimaiyyətin bu yönümdə fəal rol oynamasının vaxtı çatmışdır.

Əminəm ki, Azərbaycanı gözəl gələcək gözləyir. Qeyd etdiyim kimi, regional əməkdaşlıq çox yaxşı səviyyədədir. Bütün qonşularla çox

yaxşı münasibətlərimiz var. İqtisadi artım üçün gözəl iqtisadi potensial var. Biz sosial problemlərimizi həll edirik. Yalnız bizə deyil, bütün regiona, bütün dünyaya lazım olan ancaq sülhdür. Azərbaycan bütün dünyada sülhün bərqərar olmasına öz töhfəsini vermişdir. Biz regiona sülh gətirilməsi yolunda səylərimizi əsirgəməmişik və bu siyasətimiz dəyişməz qalacaqdır. Mən sizi əmin etmək istəyirəm ki, həyata keçirdiyimiz siyasət, xüsusilə də Avropa strukturlarına, Avratlantik qurumlarına inteqrasiya siyasətimiz davam edəcəkdir. Ölkəmiz ümumavropa işinə öz töhfəsini verməkdə davam edəcəkdir. Çox sağ olun.

* * *

**B r y u s  C e k s o n:** Natiqlərin çıxışından sonra bizim sual-cavab üçün təxminən 22-23 dəqiqəmiz var. Sual verərkən özünüzü təqdim edin. Buyurun.

**S u a l (***Stənford Universitetindən Mayk Makfol)***: Sualım prezident Əliyevədir. Mən Stənford Universitetində demokratikləşmədən dərs deyirəm. Tələbələrimə izah etməyə çalışıram ki, demokratiyaya keçid səhv ifadədir. Demokratiya bütün ölkələrdə daim tərəqqi edən iş tələb edir. Mən özüm Amerika haqqında danışmağa başlasam, bir neçə mövzunun adını çəkərdim ki, onların düzəlməsi ilə Amerikada demokratiyanın səviyyəsi artar. Bəlkə Siz ölkənizə aidiyyatı olan bu məsələlərin adını çəkərdiniz?**

**İ l h a m  Ə l i y e v:** Hər bir cəmiyyətin demokratikləşməsi prosesdir. Sonu olmayan proses. Hər bir ölkə müəyyən şəraitdə yaşayır. Bəzən həmin şərait və mühit ölkənin istəkləri və strategiyasından asılı olmur. Azərbaycan və eləcə də keçmiş SSRİ-nin digər respublikaları 70 il tamam başqa sistemdə yaşamışlar. Siz həmin sistem haqqında universitetdə təhsil zamanı məlumat almısınız. Amma onu şəxsi həyatınızda hiss etməmisiniz. Onu hiss etməkdən ötrü gərək sistemin içərisində yaşayasan. Biz – Mixail və mənim özüm bu sistemdə yaşamışıq. Xoşbəxtlikdən həmin sistem dağılarkən biz kifayət qədər gənc idik. Biz sistemin dağılması ilə yaranan azadlıqdan və müstəqillikdən yaşlı nəsildən

daha çox bəhrələnə bildik. Biz beynəlxalq birliyin üzvü olmaqdan bəhrələnməyi bacardıq. Biz artıq kiçik qardaş, digər millətlərdən asılı millət deyildik. Siyasətini tamamilə müstəqil müəyyən edən millət idik.

Bu gün Azərbaycanın nailiyyətlərindən biri, müstəqillikdən sonrakı bütün çətinliklərə, ərazimizin işğal olunmasına baxmayaraq, daxili çətinliklərə, vətəndaş müharibəsinə və digər təhlükəli proseslərə baxmayaraq, ölkənin həqiqi müstəqilliyini qoruyub saxlaya bilməsidir. Ərazimizdə xarici qoşunlar yoxdur. Siyasətimizi digər qurumların və strukturların maraqlarına uyğun yox, tamamilə milli maraqlarımıza uyğun aparırıq.

Əlbəttə ki, bölgəmizdə demokratikləşmə prosesi davam etməkdədir. Azərbaycanı 10 il əvvəlki şəraiti ilə müqayisə etsəniz, görərsiniz ki, o vaxt ölkə demokratik cəmiyyətin standartları və normalarından çox uzaqda idi. Bu gün məndən soruşsanız ki, Azərbaycan bütün meyarlara cavab verir, yoxsa yox, əlbəttə, Azərbaycan azad dünyanın bir əsrdən çox yaşadığı standartlara cavab vermir. Keçmiş SSRİ respublikalarından Avropa Birliyində olan demokratiya səviyyəsini gözləmək hələ çox tezdir. Amma bu istiqamətdə siyasət aparılır. Strategiya, strateji seçim müəyyən olunubdur. 1993-cü ildən ölkəmiz beynəlxalq birliyə çox uğurla inteqrasiya edir. Demokratikləşmə prosesi də uğurla aparılır.

**S u a l: (***Karen Qazaryan, Ermənistan Xarici İşlər Nazirliyi***): Natiqlərə gözəl çıxışınıza görə minnətdaram. Cənab Əliyev, çıxışınızda Dağlıq Qarabağı nəzarətsiz və qanunsuz ərazi adlandırdınız. Amma Sizə xatırladım ki, Dağlıq Qarabağ öz qurumlarını yaratmışdır. Təsisatları işləyir və regionda sülh və təhlükəsizliyə töhfə verməyə hazırdır. Keçən ay Dağlıq Qarabağda atəşkəsin onilliyi qeyd olundu. Tərəflər özləri buna nəzarət edirlər. Bu, dünyada ən uzun sürən atəşkəsdir, məqsəd də atəşkəsin sülhə transformasiyasından ibarətdir. Mənim sualım belədir: Sizin hökumətiniz nəyə görə ATƏT-in Minsk qrupunun fəaliyyətindən narazıdır? Sizin rəsmilər Bakıda bununla bağlı bir sıra bəyanatlar veriblər.**

**İ l h a m Ə l i y e v:** Mən də xronologiyaya riayət edərək, əvvəlcə sizin şərhinizə münasibətimi bildirim, sonra isə sualınıza cavab verim. Dağlıq Qarabağ dünyada heç kimin tanımadığı bir qurumdur. Bu, tanınmayan, qanunsuz, özü-özünü müstəqil elan etmiş dırnaqarası qurumdur. Dağlıq Qarabağ region üçün ciddi təhlükə mənbəyidir. Səbəblərini mən sadalamışam. Beynəlxalq monitorinq keçirilmir. Narkotik daşınması ehtimalı böyükdür. Bununla bağlı sübut da vardır. Terrorist düşərgələri mövcuddur. Terrorçuların burada himayə olunması məlumdur. Çünki terrorçular harada gizlənməlidirlər? Əlbəttə ki, nəzarətsiz zonalarda. Dağlıq Qarabağ bu ərazilərdən biridir və əlbəttə ki, yalnız Azərbaycan üçün deyil, bütün region üçün təhlükədir.

Vasitəçilərin missiyasının qənaətbəxş olmamasının səbəbi sadədir. Onlar nəticə əldə edə bilməyiblər. Azərbaycanın ərazi bütövlüyü pozulub. Ermənistan, Dağlıq Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazisinin 20 faizini işğal edibdir. Dağlıq Qarabağın inzibati ərazisindən əlavə, Azərbaycanın digər 7 rayonu da işğal altındadır. Sizə məlum olduğu kimi, bu 7 rayonda heç vaxt ermənilər yaşamayıbdır.

Bu 7 rayonda 700 min azərbaycanlı yaşayırdı ki, onlar da ölkə daxilində köçkünə çevriliblər. Üstəgəl, Ermənistan ərazisində yaşayan 250 min azərbaycanlı da etnik təmizləmə nəticəsində oradan çıxarılmışdır. Üstəgəl, hansılar ki, Dağlıq Qarabağın öz ərazisində yaşayan 50 minədək azərbaycanlı da etnik təmizləmə nəticəsində hazırda çadır şəhərciklərində, şəraiti olmayan vəziyyətdə yaşayır. Ermənistanın Azərbaycana qarşı müharibəsinin nəticəsi budur. Uzun illərdir ki, Ermənistan təbliğatı həqiqəti gizlədir. Erməni təbliğatı ona yönəlib ki, səbəb unudulsun və problem həll olunsun. Bu alınmayacaq. Bütün dünya bilməlidir və artıq hamı bilir ki, Azərbaycanda nə baş verir. Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Beynəlxalq hüquq normaları kəskin şəkildə pozulubdur. Biz XXI əsrdə yaşayırıq. Ermənistan və Azərbaycan beynəlxalq təşkilatların, o cümlədən Avropa Şurasının üzvləridir. Beynəlxalq birlik bir ölkənin digər ölkənin ərazisini işğal etməsi və işğal olunmuş əraziləri tərk etməməsi faktı ilə razılaşmamalıdır. Bratislavadakı sammiti xatırlayıram. Orada Ermənistanın Xarici

İşlər naziri iştirak edirdi və o dedi ki, Ermənistan özünə məxsus olmayan torpaqları özündə saxlayır. Bu həqiqətən belədir. Erməni rəsmilərinin ən ciddi və ən doğru bəyanatlarından biri idi. Əgər özünə məxsus olmayan nəyisə özündə saxlayırsansa, onu geri qaytarmalısan. Bu da münaqişənin həll olunmasının yeganə yoludur.

**B r y u s  C e k s o n:** Hamımız razılaşarıq ki, dondurulmuş münaqişələr regionun sabitliyi üçün təhlükədir. Hər iki prezident qeyd etdi ki, sonrakı strategiyanın müəyyən olunmasında münaqişələrin həllinin böyük əhəmiyyəti var.

**S u a l (***Bilkənd Universitetindən Sezer Dilbazoğlu, beynəlxalq münasibətlər üzrə professor***): Gözəl, aydın və məlumatlı çıxışlara görə sizə minnətdaram. Qara dəniz regionunun NATO-nun strateji maraq dairəsinə daxil edilməsi ilə bağlı Rusiyadan nə gözləyirsiniz? Çünki biz hələ 1990-cı illərdə elmi tədqiqat aparmışıq və o zaman Rusiya bərk narahat idi ki, Qara dəniz, bir növ, «NATO gölünə» çevrilə bilər. NATO-nun Cənubi Qafqaz ölkələrinə – Gürcüstana və Azərbaycana təsiri də Rusiyanı narahat edirdi.**

**Ermənistan bir qədər başqa vəziyyətdədir. Bu gün Rusiyadan nə gözləyirsiniz?**

**İkinci sualım isə regional münaqişələrlə bağlıdır. Münaqişələr davam edir və onları necə həll etmək fikrindəsiniz? İndiyə qədər beynəlxalq ictimaiyyətin fəaliyyəti səmərəli olmayıbdır. Rusiya çoxtərəfli sülhməramlıların regionda olmasına razılıq verərdimi? Sonda şərhim də var ki, təəssüflər olsun, Qərb Qara dəniz regionunun önəmini dərk etməkdə çox gec oyanıbdır.**

**M i x a i l  S a a k a ş v i l i:** İlk əvvəl Türkiyənin oynadığı rolu qeyd edim. Türkiyə heç zaman regiondakı münaqişələrdən bəhrələnməyə çalışmayıbdır. Əksinə, çalışıb ki, münaqişələrin həll olunmasında rol oynasın. Məsələn, Acarıstandakı vəziyyət türklər üçün çox həssas bir məsələdir. Acarıstandakı separatçılar həmişə deyirdilər ki, Qars razılığı var və ona əsasən, əgər Gürcüstan hökuməti bizə qarşı qüvvə tətbiq edərsə, türklər əraziyə daxil olacaqlar. Türklər çox birmənalı və aydın dedilər ki, bu, Gürcüstanın daxili problemidir

və biz Gürcüstanın ərazi bütövlüyünü istəyirik, Gürcüstana sülh, sabitlik arzu edirik və məsələ Gürcüstanın paytaxtında həll olunmalıdır. Bu bizə çox yardım etdi. Beləliklə, Türkiyə ədalətli hərəkət edərək, əvvəllərdə bəzi digər ölkələrin etdiyi kimi, daxili gərginlikdən öz xeyrinə necə istifadə etmək yollarını axtarmırdı. Sualın Rusiya ilə bağlı hissəsinə gəldikdə isə, biz, əlbəttə, istəyirik ki, Avratlantik təsisatlara inteqrasiya edək. Amma Rusiyanı da kənarda qoymaq istəmirik. İstəyirik ki, bu inteqrasiya paralel olsun. Rusiyanın özü də demokratikləşmə prosesinə keçməlidir. Mən buraya gəlməzdən əvvəl cənab Rutinlə konkret məsələləri müzakirə etmişəm. Ondan soruşmuşam ki, iştirakçılara konkret bir mesajı var, yoxsa yox? Bilirəm ki, o, dəvəti qəbul etməyibdir. O dedi yox, hamıya salam söylə. Məmnuniyyətlə onun salamını sizə yetirirəm və əlbəttə ki, Rusiya siyasətini müəyyən etməlidir. Bu, Rusiyanın daxili siyasəti üçün çox çətin bir qərardır və Rusiyaya istehza ilə yanaşmaq çox təhlükəlidir. Lakin Rusiyaya anlatmaq da gərəkdir ki, müstəqil ölkələrlə münasibətlər qurur. Onların öz maraqları, daxili siyasətləri, demokratiyaları, əhalisi, öz gələcəkləri var və Rusiya bu fikrə alışmalıdır. Bu, ağıllı bir prosesdir. Burada anlaşma, əməkdaşlıq olmalıdır. Yeni inteqrasiya növləri tapılmalıdır. Elə bilirəm ki, bir sıra məsələlər üzrə Qərb də Rusiya ilə inteqrasiyaya maraqlıdır. Elə bilirəm ki, Türkiyə Rusiya ilə münasibətlərlə Qərblə əməkdaşlıq arasında gözəl tarazlıq yarada bilmişdir. Bu modeldən biz də istifadə edə bilərik və çoxmillətli sülhməramlıların istifadə olunmasında maraqlıyıq. Biz uzun müddətdir ki, xahiş edirik, amma indiyədək Qərb ölkələri bu məsələdə kifayət qədər təsir göstərə bilməmişdir. Rusiya isə özü hər şeyin öhdəsindən gələ biləcəyini düşünmüşdür. Amma artıq belə deyildir. Məsələn, bizə məlumdur ki, qaçaqmalçılıqda Gürcüstan ərazisində xidmət edən rus generallarının əli vardı. Yerli polisi cəlb etdik. Rus generalı dedi ki, sizə 6 saat vaxt veririk, ya yerli polis postunu yığışdırın, ya da o postu əzib keçəcəyik. Onda biz də iki hərbi vertolyotla əraziyə hərbçilərimizi göndərdik və dedik ki, əzə bilirsənsə, əz, biz artıq sizin fikirləşdiyiniz balaca uşaqlardan deyilik.

Onda Kremlin reaksiyası belə oldu ki, general heç bir qərar qəbul etməsin və tabe olsun. Beləliklə, hər şey dəyişir və heç kim üçün əvvəlki oyunun qaydaları ilə oynamaq asan başa gəlmir. Bizə ciddi siyasi qərarlar qəbul etmək və yeni oyunun qaydalarını öyrənmək lazımdır.

**S u a l** (*Kiyevdə Avropa və Beynəlxalq Tədris Mərkəzinin direktoru*)**: İki sualım var: birinci sualım prezidentlərədir. Nəyə görə çıxışlarınızda GUÖAM haqqında heç bir söz demədiniz? İkinci sualım isə cənab Saakaşviliyə və nazir Coanneyədir. Qarşıdakı 5-10 il müddətində yeni qonşuluq siyasətində və Qara dəniz regionunda Ukraynanın oynayacağı rolu necə görürsünüz?**

**B r y u s S e k s o n:** Qalan sualları da eşidək, sonra cavablandırarıq.

**S u a l: Birinci sualım prezident Saakaşviliyə və prezident Əliyevədir. Belə bir fikir aşılanıbdır ki, Gürcüstan və Azəraycan təhlükəsizliyin əsas istehlakçıları olacaqlar. Hazırda isə Gürcüstan və Azərbaycana daha çox təhlükəsizliyi təmin edən tərəf kimi baxırlar. Bununla bağlı fikriniz? Ölkələrinizin NATO üzvü olması həmin əhlükəsizliyə töhfə verəcəkmi?**

**İkinci sualım Moldova ilə bağlıdır. Qara dəniz hövzəsi ölkəsi, Cənub–Şərqi Avropa ölkəsi 10 ildir ki, münaqişədən əziyyət çəkir. Məlumdur ki, Moldovanın kommunist prezidenti Moldovadakı Avropa meylli sivilizasiyalı cəmiyyətin arzusunu ifadə etmir və Dnestryanı münaqişədə də demokratiya və təhlükəsizlik prinsipləri əsasında həll variantına üstünlük verilir. Tələskənliyə yol verilir. Bu da ki, gələcəkdə cənubi Qafqazdakı münaqişələrin həll olunmasına pis nümunə yaradır. Nə etmək lazımdır ki, bu tələskənliyə yol verilməsin?**

**S u a l** (*Sofiya, Regional və Beynəlxalq Araşdırmalar İnstitutu*)**: Sualım professor Davudoğlunadır. 10 ildən artıqdır ki, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı fəaliyyət göstərir. Amma əldə etdiyi nailiyyətlər də çox deyildir. Təşkilatın daha səmərəli işləməsi üçün imkan görürsünüzmü?**

**S u a l (***Boris Tarasyuk, Ukrayna***): Çıxışların hamısı tərifəlayiqdir. İkincisi, kaş ki, yeni müstəqillik qazanmış ölkələrin prezidentləri hamısı bu gün çıxış edən prezidentlər kimi ingiliscə sərbəst danışaydılar. GUÖAM-la bağlı sualım var və bu, hər iki prezidentədir. GUÖAM-ın gələcəyini görürsünüzmü? Yaxın gələcəkdə hansı addımlar atılmalıdır? Növbəti sualım cənab Əliyevədir. Xəzər neftindən ötrü Odessa–Brodı kəmərinə alternativ görürsünüzmü?**

**Ə h m ə d D a v u d o ğ l u:** Rusiyanın rolu və Qara dəniz iqtisadi zonası ilə bağlı şərh verim. Elə bilirəm ki, Qara dəniz iqtisadi zonasına və ümumiyyətlə, Qara dəniz regionuna yeni yanaşmanın əsasında Rusiyanın rolu duracaqdır. Cünki Avropa Birliyi və NATO təsisat kimi fəaliyyət göstərirlər və Qara dəniz bölgəsində də Rusiya kimi vacib tərəf var. Rusiyanın Qafqazdakı təsirini müzakirə etmək istəmirəm. Amma Avratlantik qurumu Qara dəniz siyasətində uğur qazanmaq istəyirsə, Rusiya ilə münasibətləri tənzimləməlidir. NATO–Rusiya Şurası fəaliyyət göstərir. Amma eyni zamanda strateji çərçivə də yoxdur. 20 il əvvəl Türkiyə Qara dənizdə yeganə NATO ölkəsi idi, bütün digərləri Varşava müqaviləsinə daxil olan ölkələr idi. Ona görə də indi elə etməyək ki, bütün digər ölkələr NATO üzvü olsunlar, Rusiya isə təcrid edilsin. Rusiya bu prosesə cəlb olunmalıdır, kənarda qalmamalıdır.

Ona görə də Qara Dəniz İqtisadi Əməkdaşlıq təşkilatının və Qara Dəniz İqtisadi Forumunun işini canlandırmaq lazımdır. Çünki Qara dənizdə həm iqtisadi əməkdaşlıqda, həm də təhlükəsizlik sahəsində əməkdaşlıqda Rusiya prosesin bir hissəsidir. Avratlantika qurumu yeni mexanizmlər, yeni strategiyalar işləməlidir ki, bunların vasitəsilə Rusiya prosesin bir hissəsi olsun. Doğrudur, deyə bilmərik ki, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı uğurlu qurumdur. Amma iki aspekt vardır ki, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının işini çox vacib edir. Çünki nəqliyyat, kommunikasi, yeni tənzimləmələr və sair məsələlərdə birgə iş görmək zərurəti vardır. Digər aspekt isə təsisat aspektidir. Məsələn, Qara Dəniz İqtisadi Əməkdaşlıq

Təşkilatının Parlamentlərarası Assambleyası vardır. Bildiyiniz kimi, ölkələrin qarşısında demokratikləşmə məsələsi durur. Ölkələrin parlamentləri də bu təşkilatın çərçivəsində görüşüb fikir mübadiləsi aparırlar və bundan gələcəkdə cəmiyyətlərin transformasiyası üçün mühüm vasitə kimi istifadə oluna bilər. Amma Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının son illərdəki fəaliyyətinə bir daha nəzər yetirməliyik, onu yenidən qiymətləndirməliyik. Gələcəkdə Qara dənizlə bağlı yeni strategiyamız vardırsa, onu yenidən təşkil etməliyik. Beləliklə, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ümumi işə xidmət edə bilər. Eləcə də Qara Dəniz İqtisadi Forumu.

**İlham Əliyev:** GUÖAM-ın adı ona görə çəkilmədi ki, GUÖAM-ı təmsil edən yalnız iki prezident buradadır və biz azlıq təşkil edirik. Əlbəttə, istərdik ki, GUÖAM daha fəal olsun. GUÖAM-ın Parlamentlərarası Assambleyası yaradılacaqdır. Təşkilat çərçivəsində həyata keçiriləsi konkret layihələr varsa, bu, GUÖAM-ın işinə daha çox dinamizm gətirər. O fikirlə tamamilə razıyam ki, Gürcüstan və Azərbaycan regionda artıq təhlükəsizliyi təmin etməyə başlayıblar. Bizim enerji layihələrimizin, əlbəttə ki, böyük iqtisadi mənası var. Amma regiona təhlükəsizlik gətirməyə də xidmət edəcəkdir. Xəzər dənizindən alternativ marşrutlara gəldikdə isə, bütün mümkün variantları nəzərdən keçirmişik. Məqsədimiz gündə 1 milyon barrel neft hasil etməkdir. Bu həcmi də ki, Bakı–Tbilisi–Ceyhan kəməri daşıyacaqdır. Amma, əlbəttə, əlavə neft olacaqdır ki, gələcəkdə digər marşrutlardan da istifadə etmək olar.

Bilkənd Universitetindən olan xanımın davam edən münaqişə ilə bağlı sualı. Bir məsələni nəzərinizə çatdırmaq istəyirəm. Bu müzakirələrdə Ermənistanın nümayəndəsi yoxdur. Olsaydı, bəlkə də, belə deyərdi: Dağlıq Qarabağ erməniləri öz müqəddəratını təyin etmək istəyirlər. Cavab verim ki, erməni xalqı artıq Ermənistan dövləti çərçivəsində öz müqəddəratını təyin edibdir. Bir çox ölkələrdə erməni azlıqları yaşayır və bu da o demək deyil ki, yaşadıqları ərazilərdə müstəqil dövlət yaratsınlar.

**M i x a i l  S a a k a ş v i l i:** Ukraynanın rolu barədə. Ukraynanın Avropada həm rolu, həm də çəkisi artmaqdadır. Ukraynanın təbii sərvətləri azdır. Amma onun digər sərvətləri var. Möhkəm işləmək qabiliyyəti olan əhalisi var, iqtisadiyyatı çox dinamikdir, hərbi qüvvəsi nəzərəçarpandır. Mən elə bilirəm ki, gələcəkdə Ukrayna Polşa kimi, Avropa üçün mühüm rol oynayacaqdır.

Düşünürəm ki, Qara Dəniz kontekstində də mühüm rol oynaya bilər.

Hesab edirəm ki, GUÖAM-ın və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının fəaliyyətini əlaqələndirməliyik. Onların işinə yeni elementlər əlavə olunmalıdır və Avropa Birliyinə inteqrasiya üçün onların fəaliyyətində müəyyən əlaqələndirməyə nail olmaq lazımdır. Bununla, bizim kimi, Avropa Birliyi də maraqlanmalıdır. Bu halda regional əməkdaşlığın böyük perspektivi ola bilər.

**M i r ç a  C o a n e:** Həm yaxşı xəbər, həm də pis xəbər. Yaxşı xəbər odur ki, başladığımız Qara dəniz təşəbbüsü dayanmaz bir prosesdir. Onu saxlamaq mümkün deyildir. Pis xəbər isə odur ki, bu dəfə NATO-nun genişləndirilməsinin birinci və ikinci raundundan daha çətin olacaqdır. Amma bizim mənəvi strateji və siyasi məsuliyyətimiz və borcumuz var. Bunu həyata keçirməliyik. Bu təşəbbüsü dostlarımızla başlamışıq. Dostlarımızın hamısının adını çəkmək mümkün olmadı. Onların adları bu kitabçada çəkilibdir, hamısına minnətdarlığımı bildirirəm. Daha geniş Qara dəniz regionu haqqında danışarkən, söhbət ikitərəfli yoldan gedir. Bu, Avropanın birləşməsinin növbəti addımıdır və bundan sonra gələn, lakin hələ tamamlanmayan məsələ də Rusiyanın cəlb olunmasıdır və Qərblə inteqrasiyasıdır. Rusiya bu məsələyə cəlb olunmayana qədər, Rusiya Qərbə inteqrasiyada bizimlə birlikdə olacağını dərk etməyənə qədər işimizi tamamlanmış hesab edə bilmərik. Sonrakı addım daha geniş Yaxın Şərqdir. Bu regionda uğurlu olsaq, sabitliyə nail olsaq, bu sabitliyi daha geniş əraziyə yaya bilərik. Türkiyənin fundamental əhəmiyyəti var. Əminəm ki, Avropa Birliyi Türkiyəyə yaşıl işıq yandıracaqdır. Türkiyənin Avropa Birliyinə cəlb olunması ilə bizim

də işimiz asanlaşacaqdır. Üçüncüsü, Ukraynanın böyük əhəmiyyəti var. Zənnimcə, gələcək illərdə Ukrayna Avropa Birliyinə və NATO-ya bu gün düzünüldüyündən daha çox yaxınlaşacaqdır. GUÖAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və Cənubi Qafqaz əməkdaşlığı arasında əlaqələr intensivləşməlidir. Düşünürəm ki, mövcud strukturlardan istifadə etmək, əlaqələri genişləndirmək lazımdır. Moldovadakı qardaşlarımız isə bizə arxayın ola bilərlər. Biz Moldovanı Cənubi Avropa əməkdaşlığına cəlb etmək üçün əlimizdən gələni edəcəyik. Azərbaycan öz sərvətləri və strateji əhəmiyyəti ilə məlumdur. Bizim Gürcüstana yardım etmək kimi mənəvi borcumuz var. Çünki Gürcüstanın dondurulmuş münaqişələrinin həll olunması ümumi mArağa xidmət edir.

## ALMANİYA BUNDESTAQININ KOMİSSİYA SƏDRİ İLƏ GÖRÜŞ

*İstanbul,*
*«Çırağan» mehmanxanası*

*26 iyun 2004-cü il*

*Görüşə görə təşəkkürünü bildirən cənab Rühe Almaniya ilə Azərbaycan arasında əlaqələrin inkişafı baxımından belə görüşlərin əhəmiyyətini vurğuladı.*

*Prezident İlham Əliyev son illərdə Azərbaycanda aparılan iqtisadi islahatlar, neft strategiyasının uğurlu nəticələri barədə ətraflı məlumat verdi. Dövlətimizin başçısı ölkəmizin ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində atılan addımlardan, Azərbaycanın beynəlxalq terrorizmə qarşı mübarizədə fəal iştirakından da söhbət açdı.*

*Azərbaycan prezidenti xatırlatdı ki, ölkələrimiz arasında münasibətlərin yaranması və indiki səviyyəyə çatmasında ümummilli liderimiz Heydər Əliyevin xüsusi xidmətləri olmuşdur və bu siyasət gələcəkdə də davam etdiriləcəkdir. Prezident İlham Əliyevin regionda liderliyini vurğulayan Volfqanq Rühe respublikamızda aparılan islahatları yüksək qiymətləndirdi, Azərbaycanı bölgənin inkişaf etmiş ölkəsi kimi səciyyələndirdi. O bildirdi ki, nəhəng enerji layihələrinin həyata keçirilməsi təkcə Azərbaycan üçün deyil, dünya ölkələri, o cümlədən Avropa üçün faydalı olacaqdır.*

*Söhbət zamanı ikitərəfli münasibətlərin perspektivləri, bir sıra regional və beynəlxalq məsələlər barədə də fikir mübadiləsi aparıldı.*

* * *

*İyunun 26-da Azərbaycan prezidenti İlham Əliyev ABŞ-ın ən nüfuzlu nəşrlərindən olan «Uoll-strit cornel» qəzetinin müxbiri Vladimir Sokora ətraflı müsahibə verdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MƏTBUAT KONFRANSI

*İstanbul,*
*«Çırağan» mehmanxanası*

*26 iyun 2004-cü il*

Mətbuat konfransının aparıcısı: *Xanımlar və cənablar!*

*Hər vaxtınız xeyir. Marşall Fondunun təşkil etdiyi bu görüşdə prezident Əliyevin mətbuat konfransına xoş gəlmisiniz. Bizi gözlədiyinizə görə minnətdaram. Məlum olduğu kimi, prezidentin ölkəsi Azərbaycanda və ümumiyyətlə, regionda canlanma hiss olunur. Azərbaycan sürətlə inkişaf edən dinamik dövlətə çevrilmişdir. İndi dünyada Azərbaycana böyük maraq var. Ona görə də sualların müxtəlifliyi məndə təəccüb doğurmaz. Buyurun, suallarınızı verin.*

**S u a l: Cənab Prezident, Türkiyəyə səfəriniz zamanı demişdiniz ki, ölkəniz Şimali Kipr Türk Cümhuriyyətini tanıyacaqdır. Amma hələ ki, bu yönümdə addım atılmayıbdır. İkinci sualım, Şimali Kipr Türk Cümhuriyyətinə bu yaxınlarda səfər etmək planınız varmı?**

**C a v a b:** Mənim mövqeyim və Azərbaycanın bu mövzu ilə bağlı mövqeyi dəfələrlə rəsmi qaydada elan olunubdur. Qəzetlərdə dərc edilib, televiziyada yayımlanıbdır. Amma mövzuya maraq o qədər böyükdür ki, jurnalistlər eyni sualı dönə-dönə təkrarlayır və həmişə də eyni cavabı alırlar. Azərbaycanın rəsmi mövqeyi mənim Türkiyəyə səfərim zamanı Türkiyə mətbuat nümayəndələri ilə söhbətimdə bildirilibdir. Ondan sonra mənim bəyanatım və Xarici İşlər Nazirliyinin rəsmi bəyanatı olubdur. Rəsmi mövqe belə idi və belə olaraq qalır.

Məlum olduğu kimi, mövqe referendumdan əvvəl bildirilibdir və deyilirdi ki, əgər referendumdan sonra bir tərəf «hə», digər tərəf «yox» deyərsə, dünyada yeni şərait yaranacaqdır. Bu yeni şəraitdə BMT, beynəlxalq ictimaiyyət problemə münasibətlərində dəyişiklik etməli olacaqdır. Mövzu ilə bağlı mövqelərində dəyişiklik etməli olacaqlar və bu dəyişikliklər edilərkən, Azərbaycan bu beynəlxalq səylərə qoşulan ilk ölkələr sırasında olacaqdır. Elə bilirəm ki, bunu başa düşmək bir o qədər də çətin deyildir. Xüsusilə də nəzərə alsaq ki, bu mövqe bir neçə dəfə təkrar olunubdur.

**S u a l: Cənab Prezident, bu gün konfransda çıxışınız zamanı dediniz ki, Avropa Birliyinin Qarabağ münaqişəsi ilə bağlı daha fəal olmasını istərdiniz. ATƏT-in ata bilmədiyi hansı addımları Avropa Birliyindən gözləyirsiniz?**

**C a v a b:** Mən çıxışımda dedim ki, biz mandatla bağlı dəyişiklik etmək istəmirik. ATƏT-in Minsk qrupunun məsələnin həlli ilə bağlı mandatı var və münaqişənin sülh yolu ilə həll olunmasında səylərini davam etdirir. Mən dedim ki, beynəlxalq birliyin prosesə daha geniş cəlb olunmasını istərdik. Burada Avropa Birliyi də, Avropa Şurası da, digər beynəlxalq təşkilatlar da nəzərdə tutulur. Artıq bu yönümdə atılan addımları görürük. Avropa Şurası Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini müzakirə edir, mövzu ilə bağlı məruzə hazırlanıbdır. Avropa Birliyi Cənubi Qafqaza xüsusi nümayəndəsini təyin edibdir. Onun regiona səfərləri zamanı Ermənistan–Azərbaycan münaqişəsi müzakirə olunur. Biz beynəlxalq birliyin daha geniş iştirakını istəyirik. Biz istəyirik ki, beynəlxalq ictimaiyyət həqiqətlə, reallıqla tanış olsun.

Erməni təbliğatı uzun illər boyu şəraiti onlara sərf edən tərzdə qələmə verirdi. Beynəlxalq ictimaiyyətə yalançı faktlar verilirdi. Bu gün şərait dəyişibdir. Bu gün dünya bilir ki, Ermənistan təcavüzkardır, işğalçıdır. Azərbaycan əraziləri işğal altındadır. Mən elə bilirəm ki, Avropa Birliyinin və digər beynəlxalq təşkilatların rolu çox güclü ola bilər. Onlar prosesə təsir də edə bilərlər, sülh əldə olunduqdan sonra proqramlar da təklif oluna bilər və gələcək müzakirələr də yer ala bilər.

**S u a l**: **Siz Avropa Birliyinin daha fəal iştirakını görmək istədiyinizi bildirdiniz. Qarabağ mövzusunu NATO-nun gündəliyinə çıxarmağı planlaşdırırsınızmı?**

**C a v a b:** Mənim Brüsselə – həm Avropa Birliyinə, həm də NATO-ya səfərim zamanı məsələ müzakirə olunubdur. Bu məsələ bütün səviyyələrdə müzakirə edilibdir. Elə bilirəm ki, bu cür müzakirələrin olması problemi bütün tərəflərin anlaması üçün vacibdir. Amma, əlbəttə ki, ATƏT-in Minsk qrupu sülh danışıqları çərçivəsində bu məsələ ilə məşğuldur. Biz hələ də ümidliyik ki, bu danışıqlar nəticə verəcəkdir.

Bəzən belə görüntü yaradılır ki, güzəştlər olmalıdır. Güzəştlər, əlbəttə ki, danışıqların əsas elementlərindəndir. Bu da o halda mümkün olur ki, hər iki tərəf güzəşt etsin. Azərbaycan Ermənistana məxsus olan heç bir şeyi özündə saxlamır ki, güzəştə də getsin. Bizim ərazi bütövlüyümüz isə güzəşt mövzusu ola bilməz. Ona görə də bizim tərəfdən güzəşt haqqında söhbət gedərsə, güzəştimiz yalnız təhlükəsizlik təminatı ola bilər. Biz heç zaman Dağlıq Qarabağın müstəqil olmasına, yaxud da Ermənistanın bir hissəsi olmasına razılıq verə bilmərik və bu mövqeyimiz dəyişməzdir.

**S u a l: Cənab Əliyev, Siz Azərbaycanın Avratlantik strukturlarına inteqrasiya imkanlarını real surətdə necə qiymətləndirirsiniz?**

**İkinci sual, bu Sizə Rusiya ilə qarşılıqlı münasibətlərdə mane olmurmu?**

**C a v a b:** Azərbaycan Avratlantik strukturlarına fəal inteqrasiya edir. Biz «Sülh naminə tərəfdaşlıq» proqramının iştirakçısıyıq. «Sülh naminə tərəfdaşlıq» proqramından sonra Azərbaycanla fərdi fəaliyyət proqramı çərçivəsində işbirliyi nəzərdə tutulur. Daha dərin inteqrasiya siyasətimiz davam etdiriləcəkdir. Əlbəttə ki, həll olunmamış münaqişə, Ermənistanla Azərbaycan arasında problemin mövcudluğu ciddi problemdir. Bizim beynəlxalq təşkilatlarla münasibətlərimizdə çətinliklər doğurur. Ümid edirəm ki, münaqişə həllini tapacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır.

Rusiya ilə münasibətlərdə Azərbaycanın heç bir problemi yoxdur. Bizim bütün istiqamətlərdə – siyasi, iqtisadi və mədəni sahələrdə çox yaxşı əməkdaşlığımız vardır. Bizim aramızda həll edilməmiş problemlər yoxdur. Siyasi dialoqumuzun səviyyəsi çox yüksəkdir və hər iki ölkənin mənafelərinə uyğundur.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN TƏKBƏTƏK GÖRÜŞÜ

*İstanbul,*
*«Həyat» mehmanxanası*

*28 iyun 2004-cü il*

*Azərbaycan prezidentini səmimiyyətlə qarşılayan Türkiyə prezidenti dövlətimizin başçısının NATO-nun zirvə görüşündə iştirak etməsindən məmnunluğunu söylədi və belə görüşlərin əhəmiyyətli olduğunu xüsusi vurğuladı. Cənab Əhməd Necdət Sezər Azərbaycan–Türkiyə münasibətlərinin günbəgün genişləndiyini, iqtisadi–siyasi sahədə əlaqələrin hər iki ölkənin maraqlarına uyğun şəkildə inkişaf etdiyini bildirdi. Türkiyə prezidenti Şimali Kipr məsələsi ilə bağlı öz fikirlərini də söylədi.*

*Prezident İlham Əliyev səmimi görüş üçün təşəkkür edərək NATO-nun zirvə görüşü çərçivəsində İstanbulda olmaqdan böyük şərəf duyduğunu bildirdi, tədbirin yüksək səviyyədə təşkil olunduğunu vurğuladı. Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından söhbət açdı, o cümlədən Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisində işlərin nəzərdə tutulduğu şəkildə getdiyini vurğulayaraq dedi ki, bu layihənin vaxtında başa çatdırılması hər iki tərəfə böyük fayda gətirəcəkdir. Söhbət zamanı ümummilli liderimiz Heydər Əliyev tərəfindən təməli qoyulan neft strategiyasının həyata keçirilməsindəki uğurlar, Türkiyə–Azərbaycan münasibətlərinin indiki səviyyəyə çatmasında xalqımızın dahi oğlunun xidmətləri xüsusi vurğulandı.*

*Tərəflər hər iki ölkəni maraqlandıran regional və beynəlxalq məsələlərə, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair fikir mübadiləsi apardılar. Prezident Əhməd Necdət Sezər Türkiyənin bu münaqişədə Azərbaycanın mövqeyini daim dəstəkləyəcəyini bildirdi.*

## NATO-nun ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNÜN AÇILIŞI MƏRASİMİ

*İstanbul,*
*Lütfü Kırdal adına beynəlxalq konfrans və sərgi sarayı*

*28 iyun 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev açılış mərasimində iştirak edirdi.*

*Görüşü açan NATO-nun Baş katibi Yaap de Hoop Sxeffer iştirakçıları salamlayaraq bu toplantının əhəmiyyətini vurğuladı. O bildirdi ki, zirvə görüşündə 46 ölkənin dövlət və hökumət başçıları, ümumiyyətlə, 3 mindən çox nümayəndə iştirak edir. Bu, NATO-nun genişlənməsindən sonra keçirilən ilk toplantıdır. İştirakçı ölkələrdən 26-sı Alyansın üzvləridir. Qalanları tərəfdaş ölkələrdir. Tədbiri işıqlandırmaq üçün 3500 jurnalist akkreditə olunmuşdur.*

*Baş katib dedi ki, dünyada təhlükəsizliyin təmin olunması baxımından NATO sammitinin keçirilməsi çox əhəmiyyətlidir. Bu tədbirin keçirilməsində əsas məqsəd İraq və Əfqanıstan məsələlərinin müzakirəsi, eləcə də beynəlxalq terrorizmə qarşı birgə mübarizə haqqında fikir mübadiləsi aparmaqdır. Sonra çıxış edən Türkiyə prezidenti Əhməd Necdət Sezər görüş iştirakçılarını səmimi salamlayaraq, ölkəsində onları görməkdən böyük şərəf duyduğunu söylədi və zirvə görüşünün keçirilməsi üçün hər cür şəraitin yaradıldığını bildirdi. O, NATO-nun İraq və Əfqanıstanla bağlı, beynəlxalq terrorizmə qarşı birgə mübarizəyə dair gündəliyə çıxardığı məsələlərin əhəmiyyətini xüsusi vurğuladı.*

*Fransa prezidenti Jak Şirakın çıxışından sonra görüş qapalı şəkildə davam etdirildi.*

* * *

*İyunun 28-də İstanbulun Lütfü Kırdar adına beynəlxalq konfrans və sərgi sarayının fəxri qonaqlar salonunda Azərbaycan prezidenti İlham Əliyevin Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür.*

*Azərbaycan rəhbərini böyük hörmət və ehtiramla salamlayan cənab Rəcəb Tayyib Ərdoğan prezident İlham Əliyevi yenidən görməyindən və onun NATO-nun zirvə toplantısında iştirakından məmnunluğunu ifadə etdi. Baş nazir Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi sahəsində son illər ərzində görülən işlərdən danışdı, eləcə də NATO çərçivəsində keçirilən tədbirlərdə Azərbaycanın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində önəmli fikir mübadiləsi aparıldığını da diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev NATO-nun zirvə görüşündə iştirak etməsini yüksək qiymətləndirdi və bu dəvətə görə təşəkkürünü bildirdi.*

*Söhbət zamanı bir çox beynəlxalq layihələrin həyata keçirilməsində ölkələrimizin əməkdaşlığına toxunuldu, ümummilli liderimiz Heydər Əliyevin memarı olduğu Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisinin gedişi ilə bağlı heç bir narahatlıq olmadığı və onun vaxtında başa çatdırılacağı vurğulandı.*

*Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan–Türkiyə əməkdaşlığının yüksək səviyyəsini qeyd etdi. O, Baş nazirə bir daha təşəkkür edərək dedi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasında Türkiyə əlindən gələni əsirgəmir və Azərbaycan bunu həmişə yüksək qiymətləndirir.*

*Görüşdə regional, beynəlxalq problemlər və ölkələrimizi maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi edildi.*

*NATO-nun zirvə görüşünün proqramına uyğun olaraq iyunun 28-də İstanbulun məşhur Topqapı sarayında Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın adından Avratlantik Tərəfdaşlıq Şurasına üzv olan*

*ölkələrin dövlət və hökumət başçılarının şərəfinə rəsmi qəbul təşkil edildi.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Topqapı sarayına gəldilər. Dövlətimizin başçısı və xanımı Osmanlı imperiyası dövrünün gözəl memarlıq abidələrindən sayılan sarayla tanış oldular.*

*Amerika Birləşmiş Ştatlarının prezidenti Corc Buş, Fransa prezidenti Jak Şirak, Böyük Britaniyanın Baş naziri Toni Bleyr, Almaniyanın federal kansleri Gerhard Şröder, eləcə də NATO-nun üzvü olan digər ölkələrin dövlət və hökumət başçıları rəsmi qəbulda iştirak edirdilər.*

*Azərbaycan prezidenti İlham Əliyev rəsmi qəbul zamanı bir sıra xarici ölkələrin rəhbərləri ilə görüşərək müxtəlif məsələlər barədə fikir mübadiləsi apardı.*

## NATO-nun İSTANBUL ZİRVƏ GÖRÜŞÜNDƏ ÇIXIŞ

*29 iyun 2004-cü il*

Cənab Baş katib!
Hörmətli həmkarlar!
Xanımlar və cənablar!

Mən bu sammitdə iştirak etməyimdən məmnunam və inanıram ki, sammitin işi alyansın inkişaf etməsinə güclü təkan verəcəkdir.

Mən yeni NATO üzvlərini təbrik edirəm. Onların NATO üzvlüyü meyarlarına uyğun gəlmək üzrə səyləri məntiqi nəticəyə çatmışdır. Mən əminəm ki, NATO-nun ən böyük genişlənməsi ümumilikdə Avratlantik məkanının sülh, təhlükəsizlik və azadlıq sərhədlərinin daha da genişlənməsinə töhfə verəcəkdir.

1994-cü ildən Azərbaycan «Sülh naminə tərəfdaşlıq» proqramında fəal iştirak edir. NATO ilə bizim ikitərəfli əlaqələrimiz çox uğurla inkişaf edir.

«Fərdi tərəfdaşlıq fəaliyyəti» planında iştirakımız Azərbaycanın NATO ilə işbirliyində vacib dönüş nöqtəsidir və bizim təhlükəsizlik siyasətimizin inkişafına nəzərəçarpacaq töhfə verəcəkdir. Azərbaycanın on ildən bəri həyata keçirdiyi Avropaya və Avratlantik strukturlarına inteqrasiya siyasəti bundan sonra da davam etdiriləcəkdir. Biz əminik ki, bu inteqrasiya regionumuza daha çox təhlükəsizlik, insanlarımıza firavanlıq gətirəcəkdir.

Azərbaycan etibarlı tərəfdaş olduğunu artıq yalnız bəyanatlarla deyil, praktiki addımlarla sübuta yetirmişdir. Biz siyasi iradəmizi ifadə edərək həm də ümumi məqsədimiz olan NATO-nun sülhü dəstəkləyən əməliyyatlarına qoşulmağa hazır olduğumuzu bildirdik. Bu gün bizim sülhməramlılar NATO və tərəfdaş dövlətlərin hərbçiləri ilə birlikdə dünyanın müxtəlif bölgələrində sülh və təhlükəsizliyə töhfələrini əsirgəmirlər.

Birləşmiş Ştatlara 11 sentyabr hücumlarından sonra Azərbaycan antiterror koalisiyasına qoşulan ölkələrin ilk cərgəsində durdu. Bu gün bizim ölkəmiz terrora qarşı qlobal savaşa öz əməli töhfəsini verməkdədir.

Erməni terroruna məruz qalmış bir ölkə kimi (32 terror aktı nəticəsində 2 mindən çox adam həlak olmuşdur), biz yaxşı anlayırıq ki, yalnız beynəlxalq ictimaiyyətin ümumi səyləri ilə bu bəlaya qarşı səmərəli mübarizə aparmaq mümkündür.

Ermənistanın on ildən artıq davam edən təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal olunmuşdur ki, bu da bizim regionun sülh və sabitliyinə ən böyük təhlükələrdən biridir. Ermənistanın təcavüzü və apardığı etnik təmizləmə nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və köçkünə çevrilmiş, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və 7 digər rayonu işğal altındadır. Ölkəmizin ərazi bütövlüyü pozulubdur. Ermənistan hərbi birləşmələrinin işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxmasını tələb edən BMT-nin dörd qətnaməsinə Ermənistan hələ də məhəl qoymur. Ermənistan və Azərbaycan arasında on ildən artıq davam edən sülh danışıqları indiyədək heç bir nəticə verməyibdir. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini güzəştə getməyəcəkdir.

Dağlıq Qarabağ Cənubi Qafqazda sülhə və sabitliyə daimi təhlükə yaradan qanunsuz və nəzarətsiz ərazidir.

Biz ümid edirik ki, sammitin nəticələri Avratlantik məkanına və onun qonşuluğunda olan ərazilərə daha çox təhlükəsizlik və sabitlik gətirə bilmək imkanlarımızı artıracaqdır.

Sağ olun.

## BİR SIRA XARİCİ ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARI İLƏ GÖRÜŞ

*İstanbulda keçirilən Avratlantik Tərəfdaşlıq Şurasının zirvə görüşü çərçivəsində iyunun 29-da Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının prezidenti Corc Buş ilə görüşmüşdür.*

*Görüş zamanı Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında son illər dinamik şəkildə inkişaf edən strateji tərəfdaşlıq münasibətlərinin hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.*

*ABŞ prezidenti Azərbaycanda son vaxtlar həyata keçirilən islahatların sürətlə inkişaf etdiyini vurğulayaraq bu prosesləri yüksək qiymətləndirdiyini bildirmişdir. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşası məsələsinə toxunularaq, bu layihənin təkcə Azərbaycan üçün deyil, ümumilikdə bütün bölgədə iqtisadi inkişafın, sülhün və təhlükəsizliyin təmin olunması işinə xidmət edəcəyinə əminlik ifadə olunmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev Bakı–Tbilisi–Ceyhan layihəsinin həyata keçirilməsində ABŞ hökumətinin verdiyi dəstəyə görə prezident Corc Buşa minnətdarlığını bildirmişdir.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuşdur.*

*Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da İstanbulda keçirilən Avratlantik Tərəfdaşlıq Şurasının zirvə görüşü çərçivəsində Böyük Britaniyanın Baş naziri Toni Bleyr, Fransa prezidenti Jak Şirak, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Ukrayna prezidenti Leonid Kuçma, Gürcüstan prezidenti Mixail Saakaşvili,*

*Latviya prezidenti xanım Vayra Vike-Freyberq, Yunanıstanın Baş naziri Konstantinos Karamanlis, Litva prezidentinin səlahiyyətlərini icra edən Arturas Paulauskas ilə görüşmüşdür.*

*Görüşlərdə ikitərəfli əməkdaşlığın vəziyyəti və perspektivləri müzakirə olunmuş, tərəfləri maraqlandıran məsələlərə dair ətraflı fikir mübadiləsi aparılmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün NATO-nun Baş katibinin Əfqanıstan üzrə yüksək səviyyəli mülki nümayəndəsi Hikmət Çətin və Türkiyənin Doğru Yol Partiyasının sədri Mehmet Ağar ilə də görüşmüşdür.*

* * *

*İyunun 29-da axşam Azərbaycan prezidenti İlham Əliyevin İstanbula işgüzar səfəri başa çatdı.*

**TÜRKİYƏ RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin şimal-şərqində baş vermiş zəlzələ nəticəsində çox-saylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 iyul 2004-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA SƏFƏRİ

*Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Rusiyaya səfərə yola düşmüşdür. Həmin gün Azərbaycan dövlətinin başçısını Moskvanın «Vnukovo-2» beynəlxalq hava limanında Rusiya Federasiyası Xarici İşlər nazirinin müavini Aleksandr Saltanov, XİN-in MDB departamenti direktorunun müavini Aleksandr Prişşepov, ölkəmizin Rusiyadakı səfiri Ramiz Rizayev və digər rəsmi şəxslər qarşıladılar.*

*Azərbaycan prezidenti hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

*İyulun 2-də Rusiya prezidenti Vladimir Putin, Azərbaycan prezidenti İlham Əliyev və Qırğızıstan prezidenti Əsgər Akayev Moskvanın Böyük Teatrının yeni səhnəsində Dmitri Şostakoviçin «Duru çeşmə» baletinin tamaşasında olmuşlar.*

* * *

*İyulun 3-də Moskvanın mərkəzi Cıdır meydanında Rusiya prezidentinin mükafatı uğrunda ilk atçapma yarışları keçirilmişdir.*

*Rusiya prezidenti Vladimir Putin, Azərbaycan prezidenti İlham Əliyev, Ukrayna prezidenti Leonid Kuçma, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Gürcüstan prezidenti Mixail Saakaşvili, Qırğızıstan prezidenti Əsgər Akayev, Özbəkistan prezidenti İslam Kərimov, Moldova prezidenti Vladimir Voronin, Tacikistan prezidenti İmaməli Rəhmonov, Ermənistan prezidenti Robert Köçəryan yarışları izləmişlər.*

*Həmin gün Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin prezidentlərinin qeyri-rəsmi görüşü keçirilmişdir. Görüşdə bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.*

*Rusiya Federasiyasının prezidenti Vladimir Putinin dəvəti ilə Moskvada səfərdə olan Azərbaycan Respublikasının prezidenti İlham Əliyev iyulun 3-də vətənə yola düşmüşdür.*

**LİTVA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB VALDAS ADAMKUSA**

Hörmətli cənab Prezident!

Litva Respublikasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə Litva arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Əminəm ki, əlaqələrimizin hərtərəfli genişlənməsi üçün qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Litva xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 iyul 2004-cü il*

**MONQOLUSTANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NATSAQİYN BAQABANDİYƏ**

Hörmətli cənab Prezident!

Monqolustanın milli bayramı – Xalq inqilabı günü münasibətilə Sizi və Sizin simanızda dost xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Monqolustan arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monqolustan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 iyul 2004-cü il*

## MOSKVANIN MERİ YURİ LUJKOV BAŞDA OLMAQLA RUSİYA FEDERASİYASI PAYTAXTININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*5 iyul 2004-cü il*

**İ l h a m Ə l i y e v:** Hörmətli Yuri Mixayloviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda salamlamağıma çox şadam, xoş gəlmisiniz.

Moskvanın nümayəndə heyəti həmişə bizim əziz qonağımızdır. Yuri Mixayloviç, sizinlə cəmi iki gün bundan əvvəl Moskvada görüşdüyümüzü xatırlayıram və bu gün sizi Azərbaycanda görməyimə çox şadam. Biz artıq ikitərəfli görüş, təkbətək görüş keçirdik, çox mühüm məsələləri müzakirə etdik. Əlbəttə, biz sənayenin, biznesin müxtəlif sahələrini təmsil edən Rusiya nümayəndə heyətinin səfərini böyük ruh yüksəkliyi ilə qarşıladıq. Bu, Azərbaycanla Moskvanın ikitərəfli iqtisadi münasibətlərin inkişaf etdirilməsinə böyük qarşılıqlı maraq göstərdiyini sübut edir.

Zənnimcə, bunun üçün yaxşı potensial var. Moskva infrastrukturun inkişaf sürətinə görə və ümumən, şəhərin inkişaf dinamikasına görə dünyada xüsusi yer tutur. Azərbaycan da həm iqtisadiyyatın inkişaf sürətinə görə, həm də tikintiyə və infrastrukturun müxtəlif sahələrinə görə dinamik inkişaf edən ölkədir. Bu, hər iki tərəfin rifahı naminə səyləri birləşdirmək və fəal işləmək üçün çox yaxşı zəmindir. Xüsusən də ona görə ki, bunun üçün çox müsbət siyasi əsas var.

Sizə dərin hörmət hissləri bəsləmiş ümummilli liderimiz Heydər Əliyevlə olan münasibətlərinizə çox gözəl bələdəm. Bakıda və Moskvada keçirilmiş görüşlərinizi xatırlayıram. Bu gün biz Heydər

Əliyevin siyasətini ikitərəfli münasibətlərimiz çərçivəsində də davam etdiririk. Yuri Mixayloviç, ona görə də əminəm ki, Sizin səfəriniz, hələ keçiriləcək və artıq keçirilmiş görüşlər iqtisadiyyatın müxtəlif istiqamətlərində, humanitar sahədə yeni nailiyyətlər qazanmağımıza kömək edəcəkdir.

Son bir neçə ildə Rusiya ilə Azərbaycan arasında münasibətlər çox fəal inkişaf edir, biz bütün istiqamətlərdə çox böyük və ciddi tərəqqi olduğunu görürük, siyasi, iqtisadi, humanitar, mədəni sahələrdə ciddi irəliləyiş yaranmışdır. Bu bizi çox sevindirir. Rusiya bizim üçün strateji tərəfdaşdır, biz bu siyasətə sadiqik. Xoşdur ki, indi ölkələrimizin rəhbərliyi arasında, müvafiq idarələr, nazirliklər arasında çox konstruktiv, yaxşı münasibətlər mövcuddur. Təbii ki, biz həmişə bu münasibətlərin daha da inkişaf etməsinə çalışacağıq. Bu baxımdan Sizin səfərinizin çox mühüm rolu olacaq və ölkələrimiz arasında münasibətlər daha da inkişaf edəcək və dərinləşəcəkdir.

Bir daha səmimi-qəlbdən sizi salamlamaq və ümidvar olduğumu bildirmək istəyirəm ki, Moskva nümayəndə heyətinin üzvləri evə yaxşı təəssüratlarla qayıdacaqlar.

**Yuri Lujkov**: Çox hörmətli İlham Heydəroviç!

Sizinlə görüşmək, ümumi məqsədlərimiz olan məsələləri müzakirə etmək imkanına görə Sizə Moskva şəhərinin nümayəndə heyəti adından ürəkdən təşəkkür edirəm. Əlaqələrimizin inkişaf etdirilməsi üçün Heydər Əliyeviçin yaratdığı birgə komissiyanın işini lazımınca qiymətləndirirəm. Abbas Aydınoviç bu komissiyanın həmsədridir. Hesab edirəm ki, komissiya çox fəal, səmərəli işləyir. Bizim işimiz bir neçə istiqamətdə gedir. Onlardan biri humanitar sahədir. Burada yaxşı nəticələrimiz var. Görülmüş işlərin sadalanması çox vaxt aparar, ona görə də qarşılıqlı fəaliyyət mühitini formalaşdıran keyfiyyətli nəticələrdən danışacağam.

Mədəniyyət sahəsinə gəldikdə, biz mədəniyyət günlərinin keçiriləcəyi 2005-ci ili səbirsizliklə gözləyirik. Əminəm ki, mədəniyyət günləri çox yüksək səviyyədə keçəcək və çox gözəl rəy doğuracaqdır.

Təhsil sahəsində çox yaxşı irəliləyişimiz var. Bakı Slavyan Universiteti bu cəhətdən əsas mərkəzlərdən biridir. Biz orada «Moskva auditoriyası» yaratmışıq, onu təchiz etmişik, ona klassik və müasir müəlliflərin çoxlu əsərlərini, əyani ədəbiyyat vermişik. Ümumtəhsil sahəsində əməkdaşlığımız da yaxşı gedir. Biz tədrisin rus dilində aparıldığı məktəblərə dərsliklər sarıdan kömək edirik. Bizdə, Moskvada da Azərbaycan məktəbləri fəaliyyət göstərir.

Biz səhiyyə sahəsində əməkdaşlığımızdan da razıyıq. Keçmiş İttifaqın paytaxtı kimi və əvvəllər bütün hospitalların, avadanlığın cəmləşdiyi şəhər kimi, Moskva öz üzərinə mənəvi öhdəliklər götürmüşdür. Ona görə də biz cərrahiyyə əməliyyatları baxımından, terapiya sahəsində mürəkkəb vəziyyətlərdə kömək etməliyik. Bizdə Azərbaycandan təkcə rəsmən 4,5 mindən çox xəstə qeydiyyata alınmışdır. Biz burada naftoterapiya filialı yaradılmasından da danışdıq. Ortopedik sümük xəstəliklərindən əziyyət çəkən xəstələrin müalicəsi üçün mənə çox maraqlı bir təklif oldu. Biz bu təklifdən mütləq istifadə edəcəyik.

Biz mədəniyyət sahəsində də əməkdaşlığı fəallaşdırmaq niyyətindəyik. Bu sahədə gözəl əlaqələrimiz vardır. Ümumi mədəni məkanımızı dəstəkləmək qarşımızda duran vəzifədir. Bu məsələdə Azərbaycan Mədəniyyət nazirinin fəaliyyəti çox yaxşıdır.

Əməkdaşlığımızın üçüncü hissəsinə gəldikdə, indiki halda o, səfərimizin proqramında əsas məsələlərdən biridir.

Mən mütəxəssislərimizdən, biznesmenlərimizdən buraya bizdən əvvəl gəlməyi xahiş etmişdim. Onlar azərbaycanlı həmkarları ilə birlikdə işləmişlər. Əminəm ki, imkanlarımızdan heç də tam istifadə olunmur. Artımın yaxşı olmasına baxmayaraq, 500 milyon dollarlıq əmtəə dövriyyəsi, hər halda, azdır. Məlumat üçün deyim ki, bizim Belarusla əmtəə dövriyyəmiz 18 milyard dollardır və bunun 60 faizi Moskvanın payına düşür. Bu baxımdan Azərbaycanın, ilk növbədə, maşınqayırma, kimya sənayesi, ən yeni texnologiyalar sahəsində çox güclü potensialı var. Amma biz bu potensialdan zəif istifadə edirik. Burada mən iki məqam görürəm.

Bizə, ilk növbədə, profilə uyğun olan və dəyişikliklərlə əlaqədar vəziyyəti çətinləşmiş sənaye sahələrini inkişaf etdirən kooperasiyaya qayıtmaq lazımdır. Burada iştirak edən Kimya Sənayesi nazirinin keçmiş birinci müavini Qolubkov ölkəmizin ən ciddi kimyaçılarından biridir. O hazırda Rusiyada kimya sənayesinə hamıdan yaxşı bələddir. Biz birgə sərmayələr ayırmaqla, əvvəllər fəaliyyət göstərdiyimiz sahələrdəki layihələri həyata keçirə bilərik. Biz Azərbaycandan yod-brom, kalsium-xlorid almağa hazırıq.

Moskva şimalda yerləşən paytaxtdır və biz qış aylarında qarla mübarizə aparırıq. Əvvəllər bu məqsədlə xörək duzundan istifadə edirdik, o da hər şeyi korlayır, külli miqdarda ağacı məhv edirdi. Biz bundan imtina etməyə məcbur olduq və kalsium-xloridə keçdik. Beləliklə, hər yaz 140 min ağac əkmək məcburiyyətindən xilas olduq. Biz 5 min ton kalsium-xlorid almağa hazırıq. Bizə şəhər təsərrüfatında işlətmək üçün zəruri olan 20 min ton alüminium sulfatı lazımdır. Bu, suyun təmizlənməsini və onun tərkibindəki zərərli konsentratların faizinin aşağı salınmasını asanlaşdırır. Biz, eyni zamanda Azərbaycanda kifayət qədər çox istehsal olunan poliefir qətranı alınması sahəsində də əməkdaşlıq etmək niyyətindəyik.

Xörək duzunun membran üsulu ilə elektrolizi istehsalını yaratmaq və bazarda yüksək qiymətləndirilən yod-brom almaq da lazımdır. Hesab edirəm ki, kauçuk istehsalının bərpa edilməsi də son dərəcə vacibdir. Bütün bunlar cənab Qolubkov ilə birgə üzərində işlədiyimiz məsələlərin heç də tam siyahısı deyildir. Bu işdə səfir Ramiz Rizayev bizə kömək etmişdir. Mən təkcə onun hörmətli səfirlərdən biri kimi bacarığından istifadə etməmişəm, o, kimya elmini və kimya sənayesini heç də yaddan çıxarmamışdır. Bütün bu məhsulun illik həcmi 50 min tondur. Mən özüm də 29 il kimya sənayesində işləmişəm. Vaxtilə mənim rəisim olmuş Sergey Qolubkovun tapşırığı ilə aylarla Sumqayıtda olmuşam. Orada biz bu problemlərlə məşğul olurduq.

Bizim texniki vasitələrimizin baş konstruktoru Yuri Solomonov tərəfindən irəli sürülmüş bir sıra təkliflər vardır. O, külək enerjisindən istifadə üçün 35–60 kilovatt gücündə qurğunun ilk nümunəsini təklif edir.

Biz onu quraşdırmaq niyyətindəyik və birlikdə ilk qurğunun tətbiqi təcrübəsini öyrənəcəyik. Bütün görülən işlər yüksək texnologiyaya cavab verir. Burada hər şey avtomatlaşdırılmışdır və quraşdırma işləri 20 dəqiqə çəkir. Biz artıq bununla Moskvada məşğul oluruq.

Cənab Prezident, iş yerlərinin yaradılması ilə əlaqədar qarşıya qoyduğunuz vəzifə bu layihələrin həyata keçirilməsi nəticəsində yerinə yetiriləcəkdir. Bundan əlavə, Sizin qənnadı məmulatları istehsalının qaydaya salınması ilə bağlı fikrinizi biz işgüzarlıqla qəbul etdik.

Cənab Nosenko buradadır, o bizim ən iri fabrikimizin – Babayev adına kombinatın Baş direktorudur. Fabrik müasir avadanlıqla qənnadı məmulatları istehsal edir. Bu, maraqlı mövzudur. Əvvəla, bu, yeni iş yerləri deməkdir, ikincisi isə burada yerli xammal var. Qoz-fındıq, lazım olan hər şey burada yetişir. Odur ki, burada qənnadı məmulatları istehsalını təşkil etmək sizin üçün çox sərfəlidir. Hamıya məlumdur ki, Moskvanın qənnadı məmulatları bütün dünyada çox yüksək qiymətləndirilir. Çünki biz 150 ildir ki, resepturanı dəyişmirik.

Yeni texnologiyalarla bağlı problemlər də vardır. Bu gün biz Azərbaycan mütəxəssislərinin radio-internet texnologiyalarının tətbiqinə dair təklifi ilə tanış olduq. Bu, azərbaycanlı mütəxəssislərin yeniliyidir və biz Moskva hökumətinin sifarişi ilə onlarla əməkdaşlıq etmək istəyirik.

Axırda meyvə göndərilməsi məsələlərinə toxunmaq istəyirəm. Şəhər hökumətinin naziri Aleksandr Baburin yanımdadır. O, meyvə-tərəvəz satınalmasına dair müqavilələr imzalamaq üçün topdansatış-pərakəndə birliklərin bir qrup rəhbəri ilə buraya gəlmişdir. Zənn edirəm ki, dəmir yolunda tarif siyasətinə və gömrük rüsumlarına təsir göstərmək üçün biz birgə səy göstərməliyik. Belə olarsa, Moskva ilə Azərbaycan, habelə Azərbaycanla Rusiya arasında əmtəə dövriyyəsi daha da artacaqdır. Tariflərdən qazanc əldə etmək istəyən, tarifləri aşağı salmaq və əmtəə dövriyyəsini artırmaqla daha çox gəlir əldə edə bilər.

Nəhayət, ən axırıncısı. Cənab Bakirov da bu gün nümayəndə heyətimizin tərkibindədir. Siz onu da yaxşı tanıyırsınız. Fəaliyyətdə olan yataqların intensivləşdirilməsi üzrə ciddi təklifləri vardir. Bu sənədlər

dövlət orqanlarında baxıldıqdan və təsdiq edildikdən sonra həyata keçirilə və yaxşı nəticələr verə bilər. Bu təkliflər neft və qaz hasilatında Azərbaycan üçün əlavə imkanlar yaradacaqdır. Təkliflərin müəllifi görkəmli mütəxəssis və Rusiya geologiyasının, necə deyərlər, «sonuncu mogikanlarından» biridir.

**İ l h a m  Ə l i y e v**: Möhtərəm Yuri Mixayloviç, çox sağ olun. Həll oluna biləcək məsələləri belə müfəssəl şərh etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Məsələlərin məhz konkret şəkildə qoyulmasını və onların həllinin konkret yollarının göstərilməsini eşitmək mənə çox xoş idi. Mən bu planların həyata keçirilməsinə yönəldilmiş bütün təşəbbüsləri tamamilə dəstəkləyirəm. Bundan ötrü bizim qarşılıqlı istəyimiz vardır. Sadəcə olaraq, iqtisadi məqsəd bütün bu layihələrin tezliklə həyata keçirilməsini tələb edir.

Haqqında danışdığınız layihələrin, əsasən, yaxşı bazası – onların gercəkləşdirilməsi və modernləşdirilməsi üçün Azərbaycandakı mövcud infrastruktur, habelə Rusiyadakı mövcud bazar vardır. Məlum olduğu kimi, hazırda bazar bütün bu proseslərin əsas komponentidir. Azərbaycanda elə müəssisələr var ki, onlar çoxdandır boş dayanmışdır, işləyə bilmir, çünki ya bazarlar itirilmişdir, ya avadanlıqları köhnəlmişdir, yaxud da texnoloji prosesin modernləşdirilməsi problemləri mövcuddur. Sizin dediyiniz bütün bu istiqamətlər Azərbaycan üçün çox mühümdür. Siz iş yerləri yaradılmasına dair proqramımızı da qeyd etdiniz. Bu, indi ölkəmizin qarşısında duran başlıca problemlərdən biridir. Yeni iş yerləri yaradılması işsizliyi xeyli azaltmağa və hətta tamamilə aradan qaldırmağa, insanları əmək haqqı ilə təmin etməyə imkan verəcəkdir. Bununla əlaqədar, planlarımıza idxalı azaltmaq və onu öz istehsalımız olan məhsulla əvəz etmək də daxildir. Təbii ki, bütün bunlar inzibati üsullarla edilə bilməz, çünki hər şeyi bazar tənzimləyir. Ölkələrimiz yeni şəraitdə – bazar iqtisadiyyatı şəraitində yaşayır, bazar proseslərinin stimullaşdırılması, qarşılıqlı surətdə faydalı iqtisadi əməkdaşlıq üçün lazımi infrastruktur yaradılması – bax, biz

məhz bununla məşğul olacağıq. Zənnimcə, sadalanmış istiqamətlərdən hər birinin bizim üçün böyük əhəmiyyəti var və uğurla həyata keçirilə bilər.

Bundan əvvəl komissiya çərçivəsində bir çox məsələlərin müzakirə edildiyindən, əməli yolların və atıla biləcək addımların müəyyənləşdirildiyindən xəbərim var. Burada sırf sərmayə xarakterli layihələr, məsələn, qənnadı fabriki tikilməsinə dair layihə də mövcuddur. Həm də bunu regionlarda həyata keçirmək nəzərdə tutulur ki, bu da onların inkişafına dair siyasətimizə və proqramımıza tam uyğundur. Azərbaycanda yeni sahələrin yaradılmasına, yaxud unudulmuş, köhnə sahələrin dirçəldilməsinə və Moskvanın tələbatının ödənilməsinə yönəldilmiş layihələr də mövcuddur.

Mən bütün bu təklifləri dəstəkləyirəm və hökumətə, nazirliklərə müvafiq göstərişlər verəcəyəm ki, hər şeyi ətraflı və qısa müddətdə işləyib hazırlasınlar və Sizin kimi konkret şəkildə təqdim etsinlər, onların yaxın vaxtlarda həyata keçirilməsi üçün bütün tədbirləri görsünlər. Hesab edirəm ki, bu, tamamilə mümkündür. Bundan ötrü iqtisadi və intellektual potensial, ən başlıcası isə, bütün istiqamətlərdə birlikdə işləmək üçün siyasi iradə və istək vardır.

Əminəm ki, bütün bu planlar həyata keçirildikdən sonra Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsində böyük irəliləyiş yaranacaqdır. Mən Sizinlə tamamilə razıyam ki, əmtəə dövriyyəsinin mövcud həcmi ölkələrimizin real potensialını əks etdirmir. Lakin qeyd etmək lazımdır ki, əvvəllər əmtəə dövriyyəsi daha az idi. 2003-cüilədək o, təxminən 40 faiz artmışdır. Cari ilin birinci yarısında isə böyük artım vardır. Mən bu ilin əvvəllərində Moskvada olarkən biz özümüz üçün belə bir məqsəd müəyyənləşdirdik – əmtəə dövriyyəsini bir milyard dollara çatdırmaq və onu ikiqat artırmaq lazımdır. Düşünürəm ki, biz buna nail olacağıq. İndi gündəlikdə duran layihələr bunu daha tez etməyə, Moskva ilə bu gün o qədər də intensiv olmayan əməkdaşlığı gücləndirmək hesabına ölkələrimiz arasında əmtəə dövriyyəsini xeyli artırmağa imkan verəcəkdir. Bir sözlə, belə təkliflərə və əməkdaşlığa

görə sizə çox minnətdaram. Bir qədər əvvəl buraya mütəxəssislər göndərdiyinizə görə də minnətdaram. Onlar gəlib kimya, neft sahəsində, Azərbaycanın meyvə və tərəvəzinin Moskvaya ixracı sahəsində də bütün məsələlərlə məşğul oldular. Demək istəyirəm ki, bütün bu sahələrdə yaxşı baza var. Biz, sadəcə olaraq, bunları başa çatdırmalı və artıq konkret addımları müəyyənləşdirməliyik. Biz öz tərəfimizdən bunu edəcəyik.

Mən bu layihələrin gələcəyinə və ümumən, Moskva ilə Azərbaycan arasında münasibətlərə böyük nikbinliklə baxıram. Siz qeyd etdiniz ki, gələn il Rusiyada Azərbaycan ili olacaqdır. Biz buna çox ciddi hazırlaşırıq və yaxşı təmsil ediləcəyik. Azərbaycan ilinə təkcə mədəni tədbirlər deyil, digər sahələr də daxildir. Odur ki, bütün istiqamətlər – iqtisadi, humanitar, sosial, sənaye istiqamətləri üzrə çox fəal işləyəcəyik.

Mən təkbətək görüşümüzdə dedim ki, bu yaxınlarda bizdə Rusiya mədəniyyəti günləri çox böyük uğurla keçdi. Mən açılış mərasimində və gözəl konsertdə oldum. Bu tədbir xalqlarımızın bir-birinə nə qədər yaxın olduğunu, bir-biri ilə ünsiyyət saxlamaq və bir-birini görmək arzusunun necə güclü olduğunu bir daha göstərdi. Bu, ikiqat mühümdür, çünki həm Azərbaycanın, həm də Rusiyanın milli müstəqillik şəraitində yaşamağa başladığı vaxtdan 10 ildən artıq keçmişdir. Fərəhli haldır ki, ölkələrimiz və xalqlarımız arasındakı əlaqələr qırılmayıb, əksinə, daha böyük məna və daha böyük əhəmiyyət kəsb etmişdir. Biz bunu çox əziz tuturuq. Düşünürəm ki, əməkdaşlığımızın tərkib hissəsi olan iqtisadi, siyasi və humanitar sahələr ölkələrimizin daha da yaxınlaşmasına xidmət edəcəkdir. Bir sözlə, biz bu istiqamətdə fəal işləyəcəyik.

**Görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Moskvanın meri Yuri Lujkov, Rusiya nümayəndə heyətinin üzvləri Heydər Əliyev Fondunda**

*Burada moskvalı qonaqlara Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılan fondun məqsədləri barədə məlumat verildi. Bildirildi ki, fondun əsas məqsədləri prezident Heydər Əliyevin zəngin irsinin öyrənilməsinə yönəldilmiş genişmiqyaslı proqramların həyata keçirilməsini dəstəkləməkdən, milli-mənəvi dəyərlərin qorunması, azərbaycançılıq ideologiyasının və Azərbaycan mədəniyyətinin geniş təbliği ilə bağlı işlərin görülməsinə kömək göstərməkdən, müstəqil Azərbaycanın iqtisadi qüdrətinin artmasına xidmət edən layihələrin gerçəkləşdirilməsində iştirak etməkdən, əhalinin rifahının yüksəldilməsinə dair müxtəlif proqramların və tədbirlərin dəstəklənməsindən ibarətdir.*

*Qonaqlar Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən, Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərlə, dünyanın məşhur siyasi liderlərinin bəxş etdikləri hədiyyələrlə, dahi öndərimiz haqqında kitablarla tanış oldular.*

*Sonra Moskvanın meri fondun fəxri qonaqları kitabına ürək sözlərini yazdı: «Azərbaycan xalqının böyük oğlu Heydər Əliyeviç Əliyevin xatirəsi keçmiş Sovet İttifaqının bütün xalqlarının və xüsusən onunla birlikdə olmuş insanların qəlbində əbədi yaşayacaqdır».*

*Prezident İlham Əliyev və qonaqlar fondun eyvanına çıxaraq şəhərin mənzərəsini seyr etdilər. Dövlətimizin başçısı şəhərin inkişafından danışarkən bildirdi ki, hazırda Bakıda geniş miqyasda tikinti işləri aparılır və memarların, inşaatçıların qarşısında qədim paytaxtımızın milli koloritini də qoruyub saxlamaq vəzifəsi qoyulmuşdur.*

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JAK ŞİRAKA

Hörmətli cənab Prezident!

Əziz dost, Fransa Respublikasının milli bayramı – Bastiliyanın alınması günü münasibətilə Sizi və Sizin simanızda dost Fransa xalqını şəxsən öz adımdan və bütün Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Fransa ilə dostluq və hərtərəfli əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Əminəm ki, ikitərəfli əlaqələrimizi bütün sahələrdə genişləndirmək üçün qarşılıqlı səylərimizi ardıcıl şəkildə davam etdirəcəyik.

Xalqımızın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə aradan qaldırılması sahəsində ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransanın fəaliyyətinə böyük ümidlərlə yanaşırıq. Ümidvaram ki, Siz, cənab Prezident, nizamasalma prosesində real irəliləyişə nail olmaq üçün bundan sonra da bütün imkanlardan istifadə etməyə çalışacaqsınız.

Bu əlamətdar gündə Sizə bir daha ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Fransa xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Ən səmimi hisslərlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 *iyul 2004-cü il*

## FRANSANIN «LA LETR DİPLOMATİK» JURNALINA MÜSAHİBƏ

*Parisdə fransız və ingilis dillərində nəşr olunan nüfuzlu «La letr diplomatik» jurnalının 65-ci nömrəsində «Azərbaycan dünyaya çıxır» başlığı altında ölkəmizin prezidenti İlham Əliyevlə geniş müsahibə dərc edilmişdir.*

*Redaksiya Böyük İpək Yolu üzərində, Şərqlə Qərbin qovuşuğunda yerləşən Azərbaycanın Xəzər dənizinin zəngin neft-qaz yataqlarının işlənilməsi sahəsində bölgədə mühüm rol oynadığını vurğulayır, müstəqil Azərbaycan dövlətinin memarı olan ümummilli liderimiz Heydər Əliyevdən sonra onun ideyalarını müvəffəqiyyətlə həyata keçirən prezident İlham Əliyevin müsahibəsində respublikanın gələcək inkişafı üçün öz proqramının əsas müddəaları barədə fransız oxucularına məlumat verdiyini bildirir.*

**– Cənab Prezident, Siz 2003-cü ilin oktyabrında prezident seçilərək Azərbaycan müstəqilliyə qovuşduqdan sonra uzun müddət ölkəyə rəhbərlik etmiş mərhum atanız Heydər Əliyevi bu vəzifədə əvəz etdiniz. Siz onun Azərbaycan üçün qoyub getdiyi irsi necə qiymətləndirirsiniz? Onun işini davam etdirmək istəyinizi nəzərə alsaq, Sizin fəaliyyət proqramınızın üstün istiqamətləri hansılardır?**

– Cənab Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi xidmətlər barədə bir müsahibə çərçivəsində danışmaq çox çətindir, çünki bu çox geniş mövzunu əhatə edən bir məsələdir. Məsələnin mahiyyətinə varmaqdan ötrü cənab Heydər Əliyevin 1993-cü ildə Azərbaycana yenidən rəhbərliyə başladığı dövrə qısa nəzər salaq.

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdiyi ilk günlərdən xalqımız böyük tarixi sınaqlarla üzləşmişdi. Bu

tarixi sınaqları bir sıra amillər şərtləndirirdi: bir tərəfdən, Ermənistanın Azərbaycana qarşı yüz minlərlə soydaşımızın tarixən məskunlaşdığı doğma yurdlarından didərgin düşməsi, şəhər, rayon və kəndlərimizin dağıdılması və digər faciələrlə müşayiət olunan hərbi təcavüzü, digər tərəfdən, Azərbaycanı müstəqil görmək istəməyən xarici qüvvələrin gənc dövlətimizə göstərdiyi təzyiqlər, ölkədə hakimiyyəti müvəqqəti ələ alan qüvvələrin müstəqillik pərdəsi altında Azərbaycanı başqa dövlətlərin təsiri altına salmaq niyyətləri, ayrı-ayrı fərdlərin və hərbi qruplaşmaların bütün vasitələrdən istifadə edərək hakimiyyəti zəbt etmək cəhdləri və s.

Azərbaycan iqtisadiyyatı iflic vəziyyətinə düşmüşdü. Həm dünya erməni lobbisi Azərbaycan əleyhinə güclü dezinformasiya maşınını işə salmış, həm də ölkədə müvəqqəti hakimiyyətdə olan adamların naşı siyasəti nəticəsində Azərbaycan beynəlxalq aləmdən təcrid olunmuşdu. Vətəndaş müharibəsinin başlandığı Azərbaycanda ümumilikdə xaos hökm sürürdü.

Belə bir mürəkkəb vəziyyətdə 1993-cü ildə xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdan cənab Heydər Əliyev çox ağır və tarixi missiyanı öz üzərinə götürərək ilk günlərdən bütün fəaliyyətini xalqımızın fəlakətdən çıxarılmasına yönəltdi. Qısa zaman ərzində ölkədəki hərc-mərcliyə son qoyuldu. Qanunsuz silahlı dəstələr ləğv edildi. Dövlət hakimiyyəti formalaşdı, ictimai-siyasi sabitlik bərqərar oldu. Cəbhə xəttində atəşkəsə nail olundu. Bu, bir tərəfdən, Ermənistanın davam etməkdə olan işğalının törətdiyi müharibədə xeyli sayda günahsız cavanlarımızın məhvinin qarşısını aldı, digər tərəfdən isə, müasir tələblərə uyğun, sərhədlərimizin toxunulmazlığının təminatçısı olan ordumuzun təşkili və quruculuğu baxımından ölkəmizə vaxt qazandırdı.

İflic vəziyyətinə düşmüş iqtisadiyyatımızın sağlamlaşdırılması, yenidən qurulması, ölkəyə yeni texnologiyaların gətirilməsi, xarici sərmayələrin cəlb edilməsi ilə bağlı fəaliyyət planı hazırlandı. Müstəqil Azərbaycan dövlətinin neft strategiyası müəyyənləşdirildi və onun həyata keçirilməsinə başlandı. 1994-cü ildə Azərbaycan Dövlət Neft

Şirkəti ilə dünyanın bir sıra aparıcı neft şirkətləri arasında imzalanmış «Əsrin müqaviləsi» bu proseslərin sürətlənməsinə təkan verdi. Bu müqavilənin imzalanması ölkəmiz üçün təkcə iqtisadi deyil, həm də böyük siyasi önəm daşıyırdı. Bu, Dünya Birliyinin, dünyanın aparıcı dövlətlərinin Azərbaycandakı ictimai-siyasi sabitliyə, ölkənin gələcəyinə olan böyük inamının təzahürü idi. Bütün bunların nəticəsində ölkənin iqtisadi inkişafı üçün möhkəm təməl yaradıldı. Azərbaycan beynəlxalq iqtisadi əlaqələr sisteminə sürətlə inteqrasiya etməyə başladı, regional beynəlxalq iqtisadi layihələrdə fəal iştirak edən dövlətlərdən birinə çevrildi.

Ölkəmizin xarici siyasət xəttinin müəyyənləşdirilməsi və həyata keçirilməsi ilə bağlı da çox mürəkkəb bir prosesin başlanğıcı qoyuldu. Keçmiş SSRİ respublikalarından, ümumiyyətlə, sosialist düşərgəsi məkanında yeni müstəqillik qazanmış bir çox dövlətlərdən fərqli olaraq, Azərbaycanda bu proses, yuxarıda qeyd etdiyim kimi, bir sıra obyektiv və subyektiv çətinliklərlə müşayiət olunurdu.

Belə bir tarixi şəraitdə dövlətimizin başçısı ölkəmizin xarici siyasət strategiyasının formalaşdırılması və həyata keçirilməsi istiqamətində titanik fəaliyyətə başladı. Cənab Heydər Əliyevin ölkə daxilində çox ağır problemlərin həlli ilə bağlı gərgin iş rejimində işləməsi ilə yanaşı, eyni zamanda, dünyanın xeyli sayda dövlət və hökumət başçıları, nüfuzlu siyasətçiləri ilə keçirdiyi görüşlər, mötəbər beynəlxalq təşkilatların tribunalarından etdiyi çıxışlar, dünyanın aparıcı kütləvi informasiya vasitələrinə verdiyi geniş müsahibələr nəticəsində qısa bir zaman ərzində erməni lobbisinin ölkəmizi saldığı informasiya blokadası yarıldı. Azərbaycanın ATƏT, Avropa Şurası, NATO və digər nüfuzlu beynəlxalq təşkilatlara, ümumilikdə Avratlantik strukturlarına sürətlə inteqrasiyası başlandı. Dünya dövlətləri ilə xarici siyasət əlaqələrinin hüquq bərabərliyi və qarşılıqlı fayda prinsipləri əsasında qurulması nəticəsində Azərbaycan beynəlxalq aləmdə, sözün əsl mənasında, müstəqil siyasət həyata keçirən bir dövlət kimi öz layiqli yerini tutdu. Cənab Heydər Əliyevin zəngin siyasi təcrübəsi, bölgədə,

ümumiyyətlə, dünyada gedən siyasi proseslərə qlobal mövqedən yanaşması hətta Azərbaycana qarşı açıq-aydın soyuq münasibət bəsləyən ölkələrlə də əlaqələrin normallaşdırılması və inkişaf etdirilməsinə gətirib çıxardı. Beləliklə, xarici siyasət sahəsində tarazlaşdırılmış münasibətlərin qurulması nəticəsində Azərbaycanın beynəlxalq aləmdə mövqeyi xeyli dərəcədə möhkəmləndi.

Ümumiyyətlə, müasir Azərbaycan dövlətçiliyinin əsasını qoymuş cənab Heydər Əliyevin ölkəmizin müstəqilliyinin qorunub saxlanması, inkişaf etdirilməsində, Azərbaycanın dünya dövlətləri sırasında layiqli yer tutmasında müstəsna xidmətləri vardır.

Bir daha qeyd etmək istərdim ki, yuxarıda sadaladıqlarım cənab Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi xidmətlərin yalnız müəyyən bir hissəsini təşkil edir. Təsadüfi deyil ki, Azərbaycan xalqı özünün ümummilli lideri cənab Heydər Əliyevin əziz xatirəsini yüksək tutur və mən əminəm ki, bütün azərbaycanlılar onun xatirəsini daim öz qəlblərində yaşadacaqlar.

Azərbaycan Respublikasının prezidenti kimi, mən gələcək fəaliyyətimdə də Heydər Əliyevin siyasətini ardıcıl surətdə davam etdirəcəyəm. Bu siyasətin əsas prioritetlərini isə Azərbaycan dövlətçiliyinin daha da möhkəmləndirilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpa olunması, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş soydaşlarımızın öz doğma yurdlarına qayıtması, iqtisadiyyatımızın gələcəkdə daha da inkişaf etdirilməsi, əhalinin sosial vəziyyətinin durmadan yaxşılaşdırılması, ölkəmizin beynəlxalq aləmdə əlaqələrinin daha da genişləndirilməsi, Azərbaycanın Dünya Birliyinə, o cümlədən Avropa xalqları ailəsinə daha sıx inteqrasiya olunması təşkil edir. Qədim tarixə, zəngin iqtisadi və mədəni potensiala malik olan Azərbaycan xalqının gələcək firavanlığı və əmin-amanlığı prezident kimi mənim fəaliyyətimin əsasını təşkil edir və əminəm ki, biz əl-ələ verərək buna nail olacağıq.

**– Azərbaycan MDB-nin ən dinamik inkişaf edən ölkələrindən biridir, 2001-ci ildən başlayaraq bir sıra mühüm struktur islahatları həyata keçirmişdir. İnkişafın daxili amillərini sağlamlaşdırmaq və təkmilləşdirmək üçün nə kimi işlər görülməlidir? Neft-**

**qaz sahəsi Azərbaycan iqtisadiyyatının mühərriki olduğu şəraitdə Siz respublikanın gəlir mənbələrinin genişləndirilməsini nədə görürsünüz? Ölkənizdə hələ də mövcud olan xeyli sosial bərabərsizliyi nəzərə alaraq yoxsulluqla mübarizə tədbirləri nədən ibarətdir?**

– Azərbaycan Respublikası iqtisadi inkişaf sürətinə görə təkcə MDB ölkələri deyil, Şərqi Avropa ölkələri arasında da ön sırada gedən ölkələrdəndir. 1996-cı ildən etibarən Azərbaycanda genişmiqyaslı iqtisadi islahatlara başlanılmış və bunun nəticəsində ölkə qısa müddət ərzində çox böyük uğurlara nail olmuşdur. Belə ki, yeddi il ərzində ümumi daxili məhsulun orta illik artımı təxminən 10 faiz təşkil etmişdir. Ötən il bu göstərici 11 faizdən artıq olmuşdur. İnflyasiyanın səviyyəsi uzun illərdir ki, 2-3 faizdən yuxarı qalxmır. Əhalinin pul gəlirləri ildən-ilə artır. Azərbaycana böyük məbləğdə xarici sərmayələr qoyulur ki, bu da sərmayəçilərin ölkəmizə olan inamının və əlverişli sərmayə mühitinin mövcudluğunun göstəricisidir. Azərbaycanın neft-qaz sektorunun inkişafında da böyük nailiyyətlər qazanılmışdır. Xəzərin Azərbaycan sektorundakı yataqlara milyardlarla ABŞ dolları məbləğində sərmayə qoyulmuşdur ki, bu da artıq öz müsbət nəticəsini verir, gələcəkdə isə gəlirlərin çox böyük axınına gətirib çıxaracaqdır.

Azərbaycanda torpaq islahatı uğurla aparılmış və bunun nəticəsində yüz minlərlə kəndli torpaq mülkiyyətçisi olmuşdur.

Dövlət əmlakının özəlləşdirilməsi iqtisadiyyatımızda struktur islahatlarının ən mühüm istiqamətini təşkil edir. Özəlləşdirmə, habelə sahibkarlığın inkişaf etdirilməsi nəticəsində ümumi daxili məhsulda qeyri-dövlət bölməsinin xüsusi çəkisi, 2003-cü ilin yekunlarına görə, 73,4 faizə çatmışdır. Son zamanlar həyata keçirilmiş və ölkənin güclü iqtisadi potensialının tam reallaşdırılmasına yönəlmiş tədbirlər Azərbaycanın dayanıqlı iqtisadi inkişafında daxili amillərin rolunu artıracaq və müvafiq olaraq xarici amillərdən asılılığı azaldacaqdır. Bu tədbirlər sistemi, ilk növbədə, qəbul edilmiş yoxsulluğun azaldılması və iqtisadi inkişaf və regionların sosial-iqtisadi inkişafı və digər dövlət proqramla-

rında ətraflı göstərilmişdir. Bunlar, ilk növbədə, iqtisadiyyatın həm sahəvi, həm də regional baxımından tarazlı inkişafının təmin edilməsi, struktur islahatlarının genişləndirilməsi, qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi, emal müəssisələrinin yaradılmasına dövlət dəstəyinin artırılması, sosial siyasət və sairdir.

Azərbaycanda neft gəlirlərinin səmərəli idarə olunması, bu sahədə şəffaflığın təmin edilməsi məqsədi ilə 1999-cu ildə Azərbaycan Respublikasının Dövlət Neft Fondu yaradılmış, bu qurumun fəaliyyəti ilə bağlı beynəlxalq tələblərə cavab verən zəruri normativ-hüquqi sənədlər təsdiq edilmişdir. Ölkəmizdə gəlir mənbələrinin genişləndirilməsi məqsədi ilə qeyri-neft sektorunun inkişafı istiqamətində böyük işlər görülür. Buraya normativ-hüquqi bazanın təkmilləşdirilməsi, dövlət əmlakının özəlləşdirilməsi, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, qeyri-neft sektoruna sərmayələrin cəlb olunmasının stimullaşdırılması və s. istiqamətləri aid etmək olar.

Azərbaycanda sosial bərabərsizliyə gəlincə isə, bu, bir tərəfdən, bazar iqtisadiyyatına keçid dövrünü yaşayan bütün ölkələrdə mövcud olan amillərlə şərtləndirilə bilər. Eyni zamanda, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində ölkəmizin ərazisinin 20 faizinin işğal olunması və bunun nəticəsində bir milyondan artıq insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi də bu prosesə ciddi təsir edir. Lakin yuxarıda qeyd etdiyim kimi, Azərbaycanda ictimai-siyasi sabitliyin bərqərar olması və uğurlu iqtisadi siyasətin həyata keçirilməsi nəticəsində əhalinin yaşayış səviyyəsi ildən-ilə artır və yoxsulluğa qarşı mübarizə sahəsində ciddi tədbirlər həyata keçirilir. Belə ki, 2003-cü ildə Azərbaycan Respublikası prezidentinin fərmanına əsasən, 2003–2005-ci illər üçün «Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı»nın icra mərhələsinə başlanılmışdır. Proqramda Azərbaycandakı yoxsulluğun səviyyəsi, onun müxtəlif aspektləri təhlil edilmiş, yoxsulluğun azaldılması məqsədi ilə iqtisadiyyatda, sosial sahədə islahatların, institusional dəyişikliklərin əsas istiqamətləri göstərilmişdir. Mən əminəm

ki, bütün bunların nəticəsində yaxın gələcəkdə yoxsulluğun səviyyəsinin xeyli dərəcədə azaldılmasına nail ola biləcəyik.

**– Siz Qafqazın aparıcı iqtisadi qütbünə çevrilməli olan Azərbaycana regionda nə kimi yer ayırırsınız? Ölkəniz xarici sərmayələrə şəraiti yaxşılaşdırmaq üçün hansı tədbirləri həyata keçirmək niyyətindədir? Beynəlxalq maliyyə təşkilatları tərəfindən Sizə yenidən etimad göstərildiyinə əsaslanaraq ölkədə maliyyə şəffaflığının gücləndirilməsi üçün nə kimi addımlar atmaq fikrindəsiniz? Dünya Ticarət Təşkilatına üzvlüyə namizəd olaraq Azərbaycan gələcəkdə beynəlxalq iqtisadi sistemə tam inteqrasiya ediləcəyi vaxtı müəyyənləşdiribmi?**

– Yuxarıda qeyd etdiyim kimi, ümumilikdə bütün MDB məkanında iqtisadi inkişaf sürətinə görə ön sıralarda gedən Azərbaycan təkcə iqtisadi deyil, bütün digər sahələrin inkişafına görə də Cənubi Qafqazın aparıcı dövlətinə çevrilmişdir. Hazırda ölkəmiz regionda həyata keçirilən bütün qlobal iqtisadi layihələrin ən fəal iştirakçılarından biridir. İqtisadiyyata yatırılmış xarici sərmayənin adambaşına düşən həcminə görə də Azərbaycan MDB və Şərqi Avropa ölkələri arasında qabaqcıl yerlərdən birini tutur. Belə ki, son on ildə ölkə iqtisadiyyatına bütün maliyyə mənbələri hesabına 16,9 milyard ABŞ dollarından çox sərmayə qoyulmuşdur. Keçən ilin yekunlarına görə, xarici sərmayələrin həcmi 2002-ci illə müqayisədə 1,8 dəfədən çox artaraq 3,3 milyard ABŞ dolları təşkil etmişdir. Ölkəmizdə sərmayə mühitinin bundan sonra da yaxşılaşdırılması məqsədi ilə qanunvericilik bazasının daha da təkmilləşdirilməsi, qeyri-neft sektorunun, regionlarımızın inkişafı və sair istiqamətlərdə kompleks işlər görülür. Proqnoz hesablamalarına görə, 2004-2008-ci illərdə Azərbaycan iqtisadiyyatına yönəldiləcək sərmayələrin həcmi artmaqda davam edəcəkdir. Bu illər ərzində bütün maliyyə mənbələri hesabına 16,9 milyard ABŞ dollarından çox (son on ildəki qədər), o cümlədən daxili mənbələr hesabına 5,7 milyard ABŞ dolları, xarici mənbələr hesabına isə 11,2 milyard ABŞ dolları həcmində sərmayə cəlb olunacaqdır.

Son on ildə Azərbaycan beynəlxalq maliyyə təşkilatları ilə çox uğurlu əməkdaşlıq edir. Ölkəmizdə aparılan iqtisadi islahatlar beynəlxalq maliyyə təşkilatları tərəfindən müsbət qiymətləndirilmişdir. Azərbaycan hökuməti iqtisadi islahat tədbirlərini həyata keçirərkən bu təşkilatlarla məsləhətləşmələr aparmış, onların texniki və maliyyə yardımından istifadə etmişdir. Hazırda ölkədə makroiqtisadi sabitlik təmin edilmiş, dayanıqlı iqtisadi artıma nail olunmuş, mükəmməl bank və maliyyə sisteminin formalaşdırılması istiqamətində mühüm işlər görülmüşdür.

Şübhəsiz ki, Azərbaycanda son dövrlərdə əldə olunmuş böyük iqtisadi irəliləyişlər nəzərə alınmaqla, ölkəmiz milli maraqlarına əsaslanaraq maliyyə təşkilatları ilə gələcəkdə də əməkdaşlığı davam etdirəcəkdir.

Hazırda maliyyə şəffaflığının gücləndirilməsi ölkəmiz qarşısında duran vacib məsələlərdən biridir. Bu məqsədin reallaşdırılması üçün bir sıra tədbirlərin həyata keçirilməsi, o cümlədən ölkənin maliyyə sisteminin qəbul edilmiş büdcə sistemi haqqında qanuna və ona edilmiş dəyişikliklərə tam uyğunlaşdırılması, xəzinədarlıq sisteminin və dövlət satınalmaları sisteminin daha da təkmilləşdirilməsi, neft gəlirinin istifadəsi ilə bağlı uzunmüddətli strategiyanın qəbul edilməsi və s. planlaşdırılır.

İndi Azərbaycan iqtisadiyyatı beynəlxalq iqtisadi sistemə sürətlə inteqrasiya etməkdədir. Bu baxımdan Azərbaycan dünyanın bir çox iqtisadi təşkilatları, o cümlədən Dünya Ticarət Təşkilatı ilə uğurlu əməkdaşlıq həyata keçirir.

Azərbaycan Respublikasının bu təşkilata üzv olması prosesi 1997-ci ildə Azərbaycan hökumətinin üzvolma istəyini əks etdirən ərizənin DTT-yə təqdim olunmasından və ölkəmizin bu qurumda müşahidəçi statusu əldə etməsindən başlanmışdır. 2003-cü ilin avqust ayında Azərbaycan Respublikasının DTT-yə üzv olmasına hazırlıq işləri üzrə komissiya yaradılmışdır. Komissiyanın yaradılmasından məqsəd Azərbaycan Respublikasının DTT-yə üzv olması prosesini sürətləndirməkdən, DTT ilə aparılacaq danışıqlarda vahid iqtisadi siyasətin

təmin edilməsi üçün əlaqələndirməni həyata keçirməkdən ibarətdir. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə ABŞ-ın Ticarət və İnkişaf Agentliyi arasında imzalanmış «Qrant sazişi»nə əsasən, 2003-cü ilin aprel ayından Azərbaycanın DTT-yə üzv olması üzrə Texniki yardım layihəsi fəaliyyət göstərməkdədir.

**– SSRİ-nin süqutundan sonra Qafqaz regionu keçid dövrünə xas bir çox dəyişikliklərə məruz qalmışdır. Tbilisidə «qızıl güllər» inqilabı nəticəsində hakimiyyətin dincliklə dəyişməsinə Sizin münasibətiniz necədir? Sizcə, bu hadisə Azərbaycan–Gürcüstan münasibətlərində yeni eranın başlanmasına səbəb ola bilərmi?**

– Doğrudan da, SSRİ dağıldıqdan sonra Qafqaz regionu, o cümlədən Cənubi Qafqaz siyasi proseslərin sürətlə inkişaf etməsi, xüsusilə də münaqişə zonalarının yaranması ilə müşayiət olunan transformasiyalara uğramışdır. Bütün bunlara baxmayaraq, Azərbaycanla qonşu Gürcüstan arasında əlaqələr qarşılıqlı anlaşma və dostluq münasibətlərinə söykənərək ilbəil inkişaf etmiş və Gürcüstanda gedən proseslər ölkəmizdə daim maraqla izlənilmişdir. Gürcüstanda bu il keçirilən prezident və parlament seçkiləri də Azərbaycanda diqqətlə izlənilirdi və biz əmin idik ki, Gürcüstanın yeni rəhbərliyi ölkədə gedən proseslərə tam nəzarət edəcək və bu proseslərlə bağlı ortaya çıxan ağır problemlər həll olunacaqdır. Biz çox məmnunuq ki, belə də oldu. Gürcüstanda sabitlik Azərbaycan üçün çox mühümdür. Bu baxımdan Gürcüstanın yeni seçilmiş prezidenti cənab Mixail Saakaşvilinin atdığı addımlar mühüm rol oynayır. Gürcüstanla Azərbaycan qonşu, dost ölkələrdir. Xalqlarımız arasında qarşılıqlı münasibətlərin, mədəni əlaqələrin böyük tarixi vardır. Çox mühümdür ki, əsrlər boyu bu hisslər qorunub saxlanılmış, ölkələrimiz müstəqillik əldə etdikdən sonra isə münasibətlərimiz daha yüksək səviyyəyə qalxmışdır. Siyasi əlaqələrimiz çox fəaldır. Biz regional və dünya xarakterli məsələlərə dair siyasi məsləhətləşmələr aparırıq və demək olar ki, bütün istiqamətlər üzrə baxışlarımız uyğun gəlir. İki ölkəni ümumi iqtisadi layihələr də birləşdirir. Hazırda Azərbaycanda və Gürcüstanda Bakı–Tbilisi–Ceyhan kimi dünya səviyyəli layihə də həyata keçirilir.

Ölkələrimizin ərazi bütövlüyünün bərpası baxımından da ümumi problemləri mövcuddur. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Azərbaycan və Gürcüstan ərazi bütövlüyünün pozulmasına gətirib çıxaran təcavüzkar separatizmə məruz qalmışlar. Lakin biz əminik ki, Gürcüstanın da, Azərbaycanın da ərazi bütövlüyü beynəlxalq hüquq normalarına uyğun şəkildə bərpa ediləcəkdir. İki ölkə arasında əlaqələrin gələcəkdə daha da inkişaf etdirilməsi üçün böyük perspektivlər vardır və mən inanıram ki, münasibətlərimizin xalqlarımızın maraqlarına uyğun şəkildə dinamik inkişafı Cənubi Qafqazda, ümumiyyətlə, bütün bölgədə sülhün və sabitliyin, regional əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə xidmət edəcəkdir.

**– Həm Sizin ölkəniz üçün, həm də bütün region üçün qeyri-sabitlik amili olan Dağlıq Qarabağ problemi Azərbaycanla Ermənistan arasında münasibətlərin inkişafına əngəl törədir. Sizcə, bu münaqişənin həlli hansı amillərdən asılıdır? Siz bu məsələdə Minsk qrupunun vasitəçilik rolunu, xüsusən də Rusiyanın mövqeyini necə qiymətləndirirsiniz?**

– Həqiqətən də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi təkcə ölkəmiz üçün deyil, ümumilikdə Avropa təhlükəsizlik arxitekturasında mühüm rol oynayan Cənubi Qafqaz regionu üçün sabitliyi əngəlləyən bir amilə çevrilmişdir. Uzun tarixçəsi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regionda ən böyük təhlükə mənbəyidir. Məlum olduğu kimi, Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağ və ona bitişik yeddi rayon – ümumilikdə Azərbaycan ərazisinin 20 faizi işğal olunmuş, bir milyondan artıq soydaşımız ata-baba yurdlarından qovularaq qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Faktiki olaraq, bu gün beynəlxalq ictimaiyyətin nəzarətindən kənarda olan və qanunsuzluq zonasına çevrilmiş bu ərazilərdə beynəlxalq səviyyəli mütəşəkkil cinayətkarlıq növləri geniş vüsət almışdır. Qeyri-konstruktiv mövqedən çıxış edən Ermənistan rəhbərliyi BMT-nin məlum dörd qətnaməsinə, ATƏT-in Lissabon sammitində bəyan olunmuş prinsiplərə və digər beynəlxalq təşkilatların Ermənistan silahlı

qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılmasını tələb edən, Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləyən qərar və qətnamələrinə məhəl qoymayaraq bu günə kimi ölkəmizə qarşı işğalçılıq siyasətini davam etdirir. Uzun illərdir ki, ATƏT-in Minsk qrupu ABŞ, Fransa və Rusiyanın həmsədrliyi ilə bu münaqişənin həlli ilə məşğuldur. Əfsuslar olsun ki, indiyə qədər bu istiqamətdə heç bir müsbət dəyişiklik yoxdur və münaqişə həll edilməmiş qalır. Bu baxımdan biz digər beynəlxalq təşkilatların da məsələyə diqqəti artıracağına ümid edirik. Düzdür, bu günə kimi Avropa Şurası, Avropa Birliyi və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş bir sıra qətnamə, qərar və digər rəsmi sənədlərdə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi faktı öz əksini tapmış, ölkəmizin ərazi bütövlüyü və suverenliyi dəstəklənmişdir. Lakin münaqişənin tez bir zamanda sülh yolu ilə həll edilməsi üçün bütün beynəlxalq təşkilatların, ümumilikdə beynəlxalq birliyin səylərinin artırılması vacibdir. Problemin həlli üçün, ilk növbədə, beynəlxalq hüquq normalarına, bu normaların əsasını təşkil edən ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə əməl olunmalıdır və münaqişə yalnız bu norma və prinsiplər əsasında öz həllini tapa bilər. Yəni Azərbaycanın ərazi bütövlüyü bərpa edilməli, Ermənistan silahlı qüvvələri işğal olunmuş Azərbaycan torpaqlarından çıxarılmalı, qaçqınlar, köçkünlər öz doğma torpaqlarına qayıtmalıdırlar.

Ermənistan tərəfi bu təcavüzə və işğala bəraət qazandırmaq üçün, adətən, beynəlxalq hüququn digər bir prinsipindən çıxış etməyə çalışır. Onlar belə hesab edirlər ki, Dağlıq Qarabağ erməniləri öz müqəddəratını təyin etmək hüququna malikdirlər. Lakin mən belə bir faktı vurğulamaq istərdim ki, ermənilər artıq öz müqəddəratını Ermənistan dövləti çərçivəsində təyin etmişlər. Ermənilər müxtəlif ölkələrdə yaşayırlar və onların yaşadıqları hər bir ölkədə öz müqəddəratını təyin etməyə çalışacaqları təqdirdə dünyada nələrin baş verəcəyini təsəvvür etmək çətin deyildir.

Belə bir məsələyə də toxunmaq istərdim ki, Ermənistan rəhbərliyi tərəfindən Azərbaycanla Ermənistan arasında iqtisadi əlaqələrin qurulmasına dair tez-tez çağırışlar səslənir. Bu, cəfəng bir məsələdir. Dünyanın heç bir dövləti onun torpaqlarının bir qismini işğal etmiş başqa bir dövlətlə iqtisadi əməkdaşlıq edə bilməz. Ermənistan məhz özünün təcavüzkar siyasəti nəticəsində bu gün regionda həyata keçirilən beynəlxalq iqtisadi layihələrdən kənarda qalmışdır.

Münaqişənin həll edilməsindən ötrü yardımçı amillərdən danışarkən mən belə bir məsələni qeyd etmək istərdim ki, hazırda bizim ərazimizdə heç bir xarici hərbi baza yoxdur. Əgər Cənubi Qafqazın digər ölkələrində də buna nail olunarsa, əminəm ki, regionda tezliklə sülh və təhlükəsizlik bərqərar olar. Biz sülh şəraitində yaşamaq, iqtisadiyyatımızı, ölkəmizi daha da inkişaf etdirmək istəyirik. Cənubi Qafqaz regionunun sülh, sabitlik və firavanlıq şəraitində yaşamasını arzu edirik. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll edilməyənə qədər bunlara nail olmaq mümkün deyildir.

Buna görə də bir daha təkrar edirəm ki, beynəlxalq birlik Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılması istiqamətində səylərini artırmalıdır.

Qeyd etmək istərdim ki, münaqişənin həlli ilə məşğul olan Minsk qrupunun fəaliyyəti indiyədək heç bir nəticə verməmişdir. Bu baxımdan biz ümid edirik ki, Minsk qrupunun həmsədrləri, o cümlədən Rusiya Federasiyası bu sahədə fəallıqlarını artıracaqlar.

**– Bu ilin fevralında Moskvaya rəsmi səfəriniz zamanı Azərbaycan ilə Rusiya arasında yeni sazişlər imzalandı. Siz iki ölkə arasında bugünkü münasibətləri necə qiymətləndirirsiniz? Siz Rusiyanın region ölkələri ilə, xüsusən ümumi Avrasiya məkanında sıx əlaqələrin bərpa edilməsi üçün, habelə MDB-nin kollektiv təhlükəsizlik müqaviləsinin gücləndirilməsi üçün göstərdiyi cəhdləri necə qiymətləndirirsiniz?**

– Bu gün Azərbaycan ilə Rusiya arasında əlaqələr uğurla inkişaf edir. Bütün istiqamətlərdə çox yaxşı dinamika mövcuddur. Bizim ara-

mızda çox ciddi siyasi dialoq, regional və beynəlxalq siyasət məsələlərində tam qarşılıqlı anlaşma var. İkitərəfli münasibətlərimizdə ildən-ilə böyük tərəqqi və bütün istiqamətlərdə əlaqələrin yaxşılaşması müşahidə olunur. 2000-ci ilin yanvar ayında Rusiya Federasiyasının prezidenti cənab Vladimir Putinin Azərbaycana və bu ilin fevral ayında Azərbaycan Respublikası prezidentinin Rusiyaya rəsmi səfərləri zamanı imzalanmış sənədlər münasibətlərimizin gələcəkdə də inkişaf etdirilməsi baxımından hüquqi bazanın genişləndirilməsində mühüm rol oynamışdır.

Uğurlarımızı təsdiqləyən konkret misallardan danışarkən Xəzər dənizinin statusu ilə əlaqədar Rusiya ilə Azərbaycan arasında siyasi qarşılıqlı anlaşmanı göstərmək olar. Azərbaycan ilə Rusiya arasında milli sektorlarımızı müəyyənləşdirən müvafiq saziş imzalanmışdır.

Hər iki ölkədə iqtisadiyyatın dinamik inkişafı, ümumi daxili məhsulun həcminin sabit şəkildə artması əmtəə dövriyyəsinin həcminin genişləndirilməsi üçün geniş zəmin yaradır.

Yanacaq-energetika sahəsində də əməkdaşlıq qarşılıqlı faydalılıq prinsipi əsasında inkişaf edir. İndi Azərbaycan nefti Rusiyanın Novorossiysk limanına nəql edilir. Ölkəmizə Rusiya ərazisindən qaz və elektrik enerjisi göndərilir.

Regional siyasət məsələlərində çox fəal qarşılıqlı anlaşma var, beynəlxalq siyasətin bir çox məsələlərində baxışlarımız uyğun gəlir.

Qeyd etdiyim kimi, Azərbaycan Rusiya ilə münasibətlərini sıx əməkdaşlıq üzərində qurur. Bu əməkdaşlıq həm ikitərəfli şəkildə, həm də çoxtərəfli münasibətlərdə uğurla həyata keçirilir və biz xalqımızın, dövlətimizin maraqlarının təmin olunması əsasında istər MDB çərçivəsində, istər regional səviyyədə, istərsə də daha geniş məkanda coxtərəfli əlaqələrin inkişafını normal proseslər kimi qiymətləndiririk.

MDB-nin kollektiv təhlükəsizlik müqaviləsinə gəldikdə isə, Azərbaycan bu müqavilənin iştirakçısı deyildir. Bunun əsas səbəblərindən biri Azərbaycana qarşı 15 ildən artıqdır təcavüz siyasətini həyata keçirən Ermənistanın həmin müqavilədə iştirak etməsidir.

**– SSRİ-nin süqutundan sonra ən mühüm coğrafi-iqtisadi problemə çevrilən Xəzər dənizinin hüquqi statusu, habelə onun neft-qaz sərvətlərindən istifadə məsələsi indiyədək öz həllini tapmayıbdır. Bu məsələdə konsensusa nail olmaq üçün Azərbaycanın nə kimi təklifləri var? Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi ilə əlaqədar ölkəniz öz neft-qaz sərvətlərini dünya bazarına çıxarmaq üçün hansı strategiyanı hazırlamışdır?**

– Keçmiş SSRİ zamanı Xəzər dənizinin müvafiq sektorlara bölünməsi prinsipi mövcud idi və müttəfiq respublikalar Xəzər dənizinin mineral ehtiyatlarından istifadə edilməsini orta xətt prinsipi ilə müəyyən edilmiş sektorlar çərçivəsində həyata keçirirdilər. Hazırkı şəraitdə Xəzər dənizinin bölünməsi məsələsinə gəldikdə, Azərbaycan Respublikasının konseptual mövqeyinə görə, dəniz sahilyanı dövlətlərin suveren hüquqları və yurisdiksiyası şamil olunan müvafiq sektorlara bölünməlidir. Bu bölgü sahilyanı dövlətlər arasında orta xətt prinsipi nəzərə alınmaqla, bu dənizdə əldə edilmiş təcrübə, beynəlxalq hüququn hamı tərəfindən tanınmış prinsipləri və sahilyanı dövlətlərin Xəzərdə suveren hüquqlarının tətbiq olunması əsasında həyata keçirilməlidir.

Qeyd olunan prinsiplər Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında 2001-ci ilin noyabr ayında və Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında 2002-ci ilin sentyabr ayında imzalanmış sazişlərdə təsbit edilmişdir. Biz ümidvarıq ki, Xəzərin hüquqi statusu ilə əlaqədar yaxın zamanlarda digər Xəzəryanı dövlətlər də qarşılıqlı anlaşmaya gələcək və dənizin hüquqi statusu məsələsi tam həll olunacaqdır.

Məlum olduğu kimi, 1994-cü ildən başlayaraq Azərbaycan özünün neft-qaz yataqlarının işlənilməsində böyük uğurlar əldə etmiş, Xəzər dənizinin Azərbaycan sektorunda xeyli iş görülmüşdür. Ölkəmizə milyardlarla dollar sərmayə qoyulmuş və 1997-ci ildə «Çıraq» yatağından ilkin neft hasil olunmuşdur. Bakı–Novorossiysk, Bakı–Supsa neft kəmərləri istismara verilmişdir ki, bu da Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasında əhəmiyyətli rol oynamışdır. Əlbəttə,

bütün bu dövrdə biz Azərbaycanda böyük ixrac neft kəmərinin inşasını qarşımıza məqsəd qoymuşduq ki, belə bir kəmər Azərbaycanda böyük həcmdə hasil olunacaq neftin dünya bazarına çıxarılmasına imkan versin.

Bu, artıq reallaşmaqdadır. Hazırda Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşası uğurla aparılır. Bu layihənin təxminən 50 faizi həyata keçirilmişdir. Yaxın zamanlarda Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara veriləcəkdir. Bu ilin fevral ayında Bakı–Tbilisi–Ceyhan layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlər imzalanmışdır. Həmin sənədlərin imzalanması Bakı–Tbilisi–Ceyhan ixrac neft kəmərinin maliyyə məsələsinin son nöqtəsini təşkil etmişdir. Bu baxımdan dünyanın aparıcı qurumları tərəfindən verilən dəstək həm Bakı–Tbilisi–Ceyhan neft kəməri üçün, həm də gələcəkdə digər layihələr üçün böyük əhəmiyyət kəsb edir.

Biz gələcəkdə də Azərbaycanın neft-qaz yataqlarından səmərəli şəkildə istifadə olunmasını qarşımıza məqsəd qoymuşuq. Hazırda «Şahdəniz» layihəsinin həyata keçirilməsi məsələsi gündəlikdə durur.

«Şahdəniz» Azərbaycanın Xəzər dənizindəki sektorunda, demək olar ki, ən böyük və ən zəngin qaz yataqlarından biridir. Bu layihə üzərində iş aparmaq üçün dünyanın müxtəlif ölkələrinin aparıcı şirkətlərindən ibarət konsorsium yaradılmışdır. Mən əminəm ki, biz bu layihənin də həyata keçməsinə nail olacağıq və bütün bu proseslər Azərbaycanı daha da gücləndirəcək, regionda mövcud olan əməkdaşlığın daha da genişləndirilməsi, ümumilikdə bölgədə sülhün və sabitliyin təmin olunması, xalqların həyat səviyyəsinin daha da yaxşılaşdırılması işinə xidmət edəcəkdir.

**– Xəzər hövzəsinin neft-qaz ehtiyatlarının dünya bazarlarına ixracı layihələrinin inkişafı və beynəlxalq terrorizmin genişlənməsi kontekstində regionun təhlükəsizliyi öncül istiqamət olmalıdır. Təhlükəsizlik baxımından ölkəniz hansı regional əməkdaşlıq siyasəti aparmağı nəzərdə tutur?**

– Bəli, Xəzər hövzəsinin zəngin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması və beynəlxalq terrorizmin genişlənməsi

kontekstində regional təhlükəsizliyin təmin olunması məsələsi bu gün ölkəmizin yerləşdiyi bölgə üçün ən önəmli məsələlərdən biridir. Cənubi Qafqaz bölgəsində uzun müddətdir ki, münaqişə ocaqlarının mövcud olması bu məsələnin aktuallığını daha da artırır. Bu gün Azərbaycan regionun və dünyanın qabaqcıl dövlətləri ilə dialoq və siyasi məsləhətləşmələr, təcrübə mübadiləsi apararaq regional təhlükəsizliyin təmin olunması istiqamətində ikitərəfli və çoxtərəfli qaydada uğurlu əməkdaşlıq həyata keçirir, dövlətlərarası və hökumətlərarası sənədlərin hazırlanmasında yaxından iştirak edir. Lakin bir daha qeyd etmək istərdim ki, bölgəmizdə münaqişələrin həll olunmaması bütün bu proseslərə əngəllər törədir. Bu baxımdan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli regional təhlükəsizliyə böyük fayda vermiş olardı. Bu münaqişə həll edilməyənə qədər regionda sülh və sabitlik bərqərar ola  bilməz. Ona görə də beynəlxalq birlik münaqişənin həlli üçün səylərini artırmalı və bu istiqamətdə konkret addımlar atmalıdır.

**– Azərbaycan beynəlxalq terrorizmlə mübarizəyə yaxından qoşulmuşdur. Siz islam terrorizmi, xüsusən İspaniyada, Türkiyədə, Mərakeşdə törədilən son terror aktları barədə nə düşünürsünüz? ABŞ-ın Müdafiə naziri Donald Ramsfeldin 2003-cü ilin dekabrında Bakıya səfəri ilə əlaqədar Siz Birləşmiş Ştatlarla ölkənizin hərbi əməkdaşlığının gücləndirilməsi perspektivlərini necə görürsünüz?**

– Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizədə ən fəal iştirak edən dövlətlərdən biridir. Məlum 11 sentyabr hadisələrindən sonra Azərbaycan rəhbərliyi dərhal beynəlxalq terrorizmə qarşı koalisiyaya qoşulmaq barədə bəyanat verərək bu sahədə real addımlar atmışdır. Azərbaycan Respublikası siyasi, iqtisadi, dini və digər motivlərdən asılı olmayaraq, terrorizmin bütün formalarının pislənməsi mövqeyində qəti durur və beynəlxalq birliyin bu istiqamətdə səylərini tam dəstəkləyir.

Azərbaycan özü terrorizmin qurbanıdır. Ötən əsrin 80-ci illərinin sonlarına doğru Ermənistanın Azərbaycana qarşı təcavüzü başlandığı

dövrdən Azərbaycan ərazisində erməni terrorçuları tərəfindən xeyli sayda terror aktı törədilmiş və bunun nəticəsində yüzlərlə günahsız insan ölmüş və yaralanmışdır. Bu baxımdan beynəlxalq terrorizmə qarşı mübarizə ölkəmiz üçün çox böyük aktuallıq kəsb edir.

Biz İspaniyada, Türkiyədə, Mərakeşdə və digər ölkələrdə baş vermiş terror aktlarını qətiyyətlə pisləyirik. Eyni zamanda qeyd etmək istərdim ki, terrorizmlə mübarizə məsələsində qərəzli yanaşmaya da yol vermək olmaz. Terrorçunun dini və milliyyəti olmadığı kimi, ümumilikdə terrorizm də hansısa ayrılıqda götürülmüş dinə və ya mədəniyyətə aid edilə bilməz. Əks təqdirdə beynəlxalq terrorizm kimi ümumbəşəri bəlaya qarşı mübarizənin səmərəli şəkildə həyata keçirilməsi çətinləşər.

Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında hərbi əməkdaşlığa gəldikdə isə, deyə bilərəm ki, yaxın tərəfdaşlıq münasibətlərində olan ölkələrimizin bu əməkdaşlığı müxtəlif istiqamətlərdə uğurla həyata keçirilməkdədir. Beynəlxalq terrorizmlə mübarizədə yaxından iştirak edən Azərbaycan hərbçiləri Amerika əsgərləri ilə birlikdə beynəlxalq koalisiyanın qüvvələri tərkibində Kosovo, Əfqanıstan və İraqda sülhyaratma əməliyyatlarında iştirak edirlər. NATO çərçivəsində də əməkdaşlıq uğurla inkişaf edir. Müxtəlif səviyyədə qarşılıqlı səfərlər həyata keçirilir. ABŞ-ın Müdafiə naziri Donald Ramsfeldin 2003-cü ilin dekabr ayında Azərbaycana səfəri ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi baxımından mühüm rol oynamışdır. Mən əminəm ki, gələcəkdə də bu əməkdaşlığın davam etdirilməsi beynəlxalq təhlükəsizliyin təmin olunması, beynəlxalq terrorizmə qarşı mübarizənin gücləndirilməsi işinə xidmət edəcəkdir.

**– 2001-ci il yanvarın 21-dən Avropa Şurasının üzvü olan ölkənizlə Avropa Birliyinin yaxınlaşması perspektivləri necədir? Bu baxımdan, AB-nin genişlənməsi Şərqi Avropa ölkələri üçün nə kimi üstünlüklər verir? TASİS və TRASEKA kimi Avropa yardım proqramlarının əməli nəticələri necədir? Sizcə, bu əməkdaşlıq daha hansı sahələri əhatə edə bilər?**

– Avropa ailəsinə sıx inteqrasiya etməkdə olan ölkəmiz bir sıra beynəlxalq təşkilatlarla, o cümlədən Avropa Birliyi ilə uğurlu əməkdaşlıq edir. Azərbaycanın bu təşkilatla hərtərəfli münasibətlərinin hüquqi əsasını 1996-cı ilin aprel ayında Lüksemburq şəhərində imzalanmış «Tərəfdaşlıq və əməkdaşlıq sazişi» təşkil edir. Yenə Lüksemburq şəhərində 1999-cu ilin iyun ayında keçirilən zirvə toplantısı zamanı Avropa Birliyinin Qafqaz ölkələri ilə əlaqələri barədə birgə bəyannamə qəbul olunmuşdur. Həmin saziş Avropa Birliyi və Azərbaycan arasında əməkdaşlığın bütün mümkün, xüsusilə də siyasi və ticarət sahələrini əhatə edir.

Qeyd etmək istərdim ki, son zamanlar Avropa Birliyi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə də böyük diqqət göstərir. Bu bizi çox sevindirir. Bir halda ki, Cənubi Qafqazda yerləşən ölkələr Avropa üçün yeni qonşulardır, əlbəttə, Avropa Birliyinin bu məsələ ilə ciddi məşğul olması təqdirəlayiqdir. Bu istiqamətdə artıq ilk addımlar atılmışdır. Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin təyin edilməsini buna misal göstərmək olar. Avropa Birliyi–Azərbaycan Əməkdaşlıq Komitəsinin 2002-ci ilin iyul ayında keçirilən iclasında və Avropa Birliyinin 2002-ci ilin avqust ayında qəbul etdiyi bəyannamədə Azərbaycanın ərazi bütövlüyünün tanınması və Dağlıq Qarabağ münaqişəsinin həll olunması prosesində Azərbaycanın çıxış etdiyi bir sıra mövqelərin dəstəklənməsi bu məsələnin beynəlxalq hüquq normalarına uyğun şəkildə öz həllini tapması istiqamətində Avropa Birliyinin gələcəkdə də səylərini artıracağına ümid verir. Mən əminəm ki, Azərbaycanın bu təşkilatla əlaqələri bundan sonra daha da inkişaf edəcək və ölkəmiz yaxın gələcəkdə Avropa Birliyinin fəal üzvlərindən birinə çevriləcəkdir.

Biz belə hesab edirik ki, hazırda Avropa Birliyinin Şərqi Avropaya genişlənməsi prosesi, Ümumavropa inteqrasiyasının daha da sürətlənməsi keçid dövrünü yaşayan ölkələrin iqtisadi vəziyyətinin yaxşılaşdırılması və Avropa xalqlarının bir-birinə daha da yaxınlaşması işinə xidmət edir və əminik ki, Azərbaycan da bu proseslərdə daim yaxından iştirak edəcəkdir.

Azərbaycanın Avropa və Asiya arasında strateji mövqedə yerləşməsi onun digər dövlətlərlə iqtisadi əlaqələrinin müəyyənləşdirilməsinə böyük təsir göstərir. Qafqaz bölgəsinin şərq hissəsində, Xəzər dənizinin sahilində yerləşən Azərbaycandan tarixən ticarət yolları keçmişdir. Bu baxımdan Azərbaycan Avropa, Qafqaz və Mərkəzi Asiya arasında, habelə Xəzər dənizinin enerji daşıyıcılarının boru kəmərləri vasitəsilə Qərbə nəql edilməsində körpü rolunu oynamaq imkanına malikdir. Avropa Birliyi bu imkanların inkişaf etdirilməsi üçün TASİS proqramı çərçivəsində texniki yardım vasitəsilə Azərbaycana kömək göstərmək öhdəliyini üzərinə götürmüşdür. Avropa Birliyi TASİS proqramı ilə Avropadan Azərbaycana yeni texnologiyalar gətirən layihələri qrant şəklində maliyyələşdirərək ölkəmizdə bazar iqtisadiyyatının və demokratik cəmiyyətin inkişafını təşviq edir. Avropa Komissiyası Azərbaycan hökuməti və habelə digər təşkilatlar ilə TASİS proqramı çərçivəsində maliyyələşdirməyə ehtiyacı olan əsas sektorları müəyyənləşdirmək üçün birgə fəaliyyət göstərir. Eyni zamanda, bu proqram Azərbaycanda islahatların aparılmasına yardım göstərir. Bununla yanaşı, Avropa Birliyi Azərbaycana TASİS çərçivəsində Fövqəladə yardım proqramı üçün 30 milyon avro məbləğində vəsait ayırmışdır. Bu vəsaitin ayrılmasından məqsəd Azərbaycan şirkətləri tərəfindən həyata keçirilən layihələri maliyyələşdirilmək və bunun nəticəsində dövlətimizin vəsaitlərini sosial məsələlərin həll olunmasına istiqamətləndirməkdir. Avropa Birliyi TASİS Milli proqramı çərçivəsində 2002–2003-cü illər üçün Azərbaycana 14 milyon avro məbləğində vəsait ayırmışdır. Avropa Birliyinin humanitar təşkilatı Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ və digər ərazilərindən olan qaçqınlara və məcburi köçkünlərə indiyədək 92,17 milyon avro məbləğində humanitar yardım göstərmişdir. Qeyd etmək istərdim ki, Avropa Birliyinin ölkəmizə müxtəlif istiqamətlər üzrə ayırdığı vəsaitin ümumi həcmi 370 milyon avro təşkil edir.

«Yeni İpək yolu» adlandırılan TRASEKA Mərkəzi Asiya, Qafqaz və Avropa arasında nəqliyyat əlaqələrini inkişaf etdirmək üçün TA-

SİS tərəfindən həyata keçirilən proqramdır və qədim zamanlardan tarixi İpək yolunun üzərində strateji mövqedə duran Azərbaycan bu layihədə Avropa Birliyinin ən əsas tərəfdaşıdır. TRASEKA-nın məqsədi hazırda mövcud olan yollara əlavə olaraq Avropadan Qara dəniz və Qafqaz vasitəsilə Mərkəzi Asiyaya ən tez və ən ucuz ikitərəfli yolun yaradılmasından ibarətdir. TRASEKA, eyni zamanda, bölgədə avtomobil və dəmir yollarının təkmilləşdirilməsi üzrə layihələri maliyyələşdirir. Azərbaycan TRASEKA-nı konseptual mərhələdən praktiki fazaya keçirən, 1998-ci ilin sentyabr ayında Bakıda zirvə toplantısı zamanı imzalanmış «Avropa–Qafqaz–Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş»in hazırlanmasında fəal iştirak etmiş və proqramın daimi katibliyinin Bakıda yerləşməsi üzrə razılaşmaya nail olmuşdur. Eyni zamanda, TRASEKA proqramı Azərbaycanı Gürcüstan ilə birləşdirən yeni körpünün tikilməsinə və XII əsrə aid qədim Qırmızı körpünün bərpa edilməsinə yardım göstərmişdir.

Azərbaycan–Avropa Birliyi münasibətlərinin gələcəkdə daha da inkişaf etdirilməsi üçün geniş perspektivlər mövcuddur.

Bu münasibətlərin gələcək inkişaf istiqamətləri «Tərəfdaşlıq və əməkdaşlıq sazişi»ndə və Lüksemburq zirvə toplantısı zamanı qəbul olunmuş birgə bəyannamədə təsbit edilmişdir. Əməkdaşlığın əsas istiqamətləri «Tərəfdaşlıq və əməkdaşlıq sazişi»nin həyata keçirilməsindən, ticarətin, sərmayələrin və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin təşviq edilməsindən ibarətdir və Avropa Birliyinin yardımı məhz bu sahələrə yönəldiləcəkdir.Şübhəsiz ki, Azərbaycanın regionda mövqeyinin günü-gündən möhkəmlənməsi və ölkəmizin Cənubi Qafqazda bütün sahələrdə aparıcı dövlət olması faktları yaxın perspektivdə Avropa Birliyi–Azərbaycan əlaqələrinin istiqamət spektrlərinin daha da genişlənəcəyinə əminlik yaradır və Avropa Birliyinin Azərbaycanı uzunmüddətli tərəfdaş kimi qiymətləndirməsi bu proseslərin sürətlənməsinə xidmət edəcəkdir.

**– Azərbaycan Respublikasının prezidenti seçildikdən sonra Sizin bu il yanvarın 22-23-də Parisə ilk rəsmi səfəriniz Azərbaycan ilə**

**Fransa arasında münasibətlərin yüksək səviyyədə olmasının göstəricisidir. Bu seçimin səbəbləri hansılardır? Bu iki ölkəni birləşdirən üstün əhəmiyyətli əlaqələr nədən ibarətdir? Fransız və Azərbaycan xalqlarının bir-birini daha yaxşı tanımasına kömək edən ikitərəfli əməkdaşlığın daha da möhkəmlənməsi üçün öz təcrübənizə arxalanaraq nə kimi tədbirlər görmək lazımdır?**

– Azərbaycan və Fransa xalqları arasında əlaqələrin, o cümlədən mədəni, ticarət əlaqələrinin tarixi çox zəngindir. XX əsrin sonlarına doğru Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra, 1993-cü ildən başlayaraq bu əlaqələr keyfiyyətcə yeni mərhələyə qalxmış və ildən-ilə inkişaf etməyə başlamışdır. Təsadüfi deyildir ki, 1993-cü ildə Azərbaycan prezidenti cənab Heydər Əliyev ilk səfərini Fransaya etmişdir. 2004-cü ildə də Azərbaycan Respublikasının prezidenti ilk rəsmi səfərini Fransaya etmişdir. Bu, artıq ənənə halını almışdır.

Xüsusilə vurğulamaq istərdim ki, prezident Heydər Əliyev 1993-cü ildə yenidən Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan–Fransa əlaqələri daim ölkə başçısının diqqətində olmuş və Fransa ilə münasibətlər Azərbaycan xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil etmişdir. Cənab Heydər Əliyevin Fransanın ən yüksək mükafatlarından olan «Fəxri legionun böyük xaç komandoru» ordeni ilə təltif edilməsi Fransa rəhbərliyinin Azərbaycan liderinin xidmətlərini yüksək qiymətləndirməsinin ifadəsidir.

Ölkələrimizi və xalqlarımızı bir-birinə bağlayan müxtəlif amillər vardır. Məlum olduğu kimi, strateji coğrafi mövqedə yerləşən Azərbaycan Şərqlə Qərb arasında daim körpü rolunu oynamışdır. Öz növbəsində, Fransa Avropanın tarixində ən mühüm rol oynayan ölkələrdən biri olmuşdur. Həm Azərbaycan, həm də Fransa xalqları çox qədim tarixə və zəngin mədəniyyətə malikdirlər. Bu gün ölkələrimiz arasında əlaqələrin gündən-günə inkişaf etməsi, həm qeyd etdiyim bu tarixi-mənəvi dəyərlərlə, həm də ölkələrimizin iqtisadi əməkdaşlıq maraqları ilə şərtləndirilə bilər.

Hazırda ölkələrimiz arasında uğurlu əməkdaşlıq həyata keçirilir. Bu əməkdaşlıq bütün sahələrdə öz gözəl nəticələrini verməkdədir. Siyasi

sahədə əlaqələr qarşılıqlı anlaşma əsasında qurulur. Fransa həm də Avropanın ən aparıcı ölkələrindən biridir. Azərbaycanın da öz gələcəyini Avropa strukturlarına inteqrasiyada gördüyünü nəzərə alsaq, bu baxımdan da ikitərəfli münasibətlərimiz böyük əhəmiyyət kəsb edir. İqtisadi sahədə də əməkdaşlığımız gündən-günə inkişaf etməkdədir. Fransa şirkətləri Azərbaycanın neft-qaz sənayesinə sərmayə qoyuluşunda fəal iştirak edirlər. Mən Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşasında öz payına malik olan «Total» şirkətinin ölkəmizin neft sektorunda fəaliyyətini xüsusilə vurğulamaq istərdim. Ölkələrimiz arasında ticarət dövriyyəsi də xeyli artmışdır. Mədəni sahədə əlaqələrimiz də daim inkişaf etməkdədir. Bir sözlə, Fransa ilə bizi güclü dostluq əlaqələri bağlayır və əminəm ki, gələcəkdə bu əlaqələr daha da güclənəcəkdir. Ölkələrimiz arasında siyasi dialoqun daha da intensivləşdirilməsi, iqtisadi əlaqələrin inkişaf etdirilməsi, ticarət dövriyyəsinin artırılması, humanitar əlaqələrin genişləndirilməsi üçün böyük potensial mövcuddur. Mən əminəm ki, biz bu potensialdan tam şəkildə istifadə edərək qarşımızda qoyulan məqsədlərə nail olacağıq və bütün bu proseslər xalqlarımızın gələcəkdə bir-birinə daha da yaxınlaşması işinə xidmət edəcəkdir.

*Müsahibənin mətni «Azərbaycan» qəzetində*
*(7 iyul 2004-cü il) də çap olunmuşdur.*

## AVROPA BİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Respublika sarayı*

*7 iyul 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev iyulun 7-də Avropa Birliyinin genişlənmə məsələləri üzrə komissarı Yaneş Potoçnikin başçılığı ilə bu təşkilatın nümayəndə heyətini qəbul etmişdir.*

*Qonaqları səmimiyyətlə salamlayan prezident İlham Əliyev Brüsseldə Yaneş Potoçnik ilə keçirdiyi görüşü və apardığı danışıqları məmnunluqla xatırladı. Azərbaycanın Avropa Birliyinin yeni qonşuluq siyasətinin bir hissəsi olduğunu vurğulayan dövlətimizin başçısı, bu təşkilatın ölkəmizə və regiona olan marağını xüsusilə qeyd etdi. O əmin olduğunu vurğuladı ki, ölkəmizin bu proqram çərçivəsində əməkdaşlığı daha uğurlu olacaqdır.*

*Prezident İlham Əliyev Azərbaycanın Avropa strukturlarına inteqrasiyasının siyasətimizin əsas istiqamətlərindən biri olduğunu vurğulayaraq, bu siyasətin gələcəkdə də davam edəcəyini söylədi. O, Avropa Birliyinə daxil olan ölkələrlə təkcə enerji sahəsində deyil, digər sahələrdə də işbirliyinin davam etdiriləcəyini bildirdi, enerji sahəsində əməkdaşlığa dair məsələlərin bu yaxınlarda Bakıda səfərdə olan Yunanıstanın prezidenti və NATO sammiti zamanı Türkiyənin prezidenti və Baş naziri ilə səmərəli şəkildə müzakirə olunduğunu diqqətə çatdırdı. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan sürətlə inkişaf edən ölkədir və hazırda sənayenin bir çox sahələrində böyük uğurlar əldə edilmişdir.*

*Dövlətimizin başçısı görüşdə iştirak edən Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyenin də fəaliyyətini yüksək qiymətləndirdi, Yaneş Potoçnikə Azərbaycana ilk səfərində uğurlar dilədi.*

*Cənab Yaneş Potoçnik ölkəmizdə səmərəli görüşlər keçirdiyini bildirərək dedi ki, Avropa Birliyi Azərbaycanın potensialını yüksək qiymətləndirir. Avropa Birliyinin genişlənməsindən sonra baş verən proseslər barədə prezident İlham Əliyevə məlumat verən qonaq Türkiyənin Avropa ailəsinə yaxınlaşması üçün məsləhətləşmələr aparıldığını da söylədi. Onun sözlərinə görə, Avropa Birliyinin genişlənməsi reallıqlarla hesablaşmağı və qonşularla siyasəti yeni əsaslarda qurmağı tələb edir. Hazırladıqları hesabatda Cənubi Qafqaz ölkələri, xüsusilə mühüm coğrafi-siyasi əhəmiyyətə malik olan Azərbaycanla əməkdaşlığın inkişaf etdirilməsinə geniş yer ayrılmışdır.*

## PAKİSTANIN YANACAQ VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ NAURİZ ŞAKUR XAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 iyul 2004-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının Yanacaq və Təbii Sərvətlər naziri Nauriz Şakur Xanı qəbul etmişdir.*

*Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Azərbaycan tərəfinin Pakistan prezidentinin ölkəmizə qarşıdakı səfərinə böyük əhəmiyyət verdiyini bildirdi və bu səfərin uğurlu olacağına əminliyini söylədi.*

*Azərbaycanla Pakistan arasında dostluq münasibətlərinə söykənən əlaqələrin dinamik şəkildə inkişaf etdiyini bildirən prezident İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəklədiyini xüsusi vurğuladı.*

*Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Pakistan prezidenti Pərviz Müşərrəfin Azərbaycana səfəri ölkələrimiz arasında əməkdaşlığın daha yüksək səviyyəyə qalxmasına təkan verəcəkdir.*

*Səmimi qəbula görə prezident İlham Əliyevə minnətdarlığını bildirən nazir Azərbaycan–Pakistan əlaqələrinin durmadan inkişaf etdiyini vurğuladı. O, bu əlaqələrin inkişafında xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətlərini qeyd edərək, prezident İlham Əliyevin bu siyasəti davam etdirməsini Pakistan tərəfinin yüksək qiymətləndirdiyini söylədi.*

## TÜRKİYƏNİN ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ MEŞƏ TƏSƏRRÜFATI NAZİRİ OSMAN PENE İLƏ GÖRÜŞDƏ* SÖHBƏT

*Prezident sarayı*

*8 iyul 2004-cü il*

**İlham Əliyev:** Sizi səmimi-qəlbdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Ankarada Heydər Əliyev parkının açılışındakı görüşünüzü məmnunluqla xatırlayıram. Çox gözəl mərasimə və parka görə təşəkkürümü bildirirəm. Bizim qardaş ölkələrimiz arasında çox gözəl münasibətlər davam edir. Mən bu yaxınlarda İstanbulda NATO-nun zirvə toplantısında idim, prezidentlə, Baş nazirlə görüşdüm. Çox əhəmiyyətli söhbətlər etdik, öz iradəmizi bir daha bildirdik, nə qədər yaxın olduğumuzu gördük. Bu səfər çərçivəsində İstanbulda xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan parkın açılışı da olmuşdur və orada onun heykəli də qoyulmuşdur.

Əlaqələrimizin sürətlə inkişaf etməsindən bir daha şad olduğumu vurğulayıram. Qarşıda çox böyük vəzifələr durur. Hamımız üçün böyük əhəmiyyət kəsb edən Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi diqqət mərkəzindədir. Eyni zamanda, bütün başqa sahələrdə də əlaqələr inkişaf edir və biz çox istəyirik ki, bu əlaqələr daha da güclənsin. O cümlədən ətraf mühit, ekologiya sahələrində də əməkdaşlığın çox böyük önəmi vardır. Azərbaycan bu baxımdan müəyyən çətinliklər çəkir. Çünki sovet dövründə, ümumiyyətlə, ekologiya anlayışı yox idi. Ölkəmiz müstəqillik əldə etdikdən sonra respublikamızın o qədər böyük iqtisadi-sosial və digər problemləri var idi ki, bu

---

* Görüşdə Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov və Türkiyənin ölkəmizdəki səfiri Əhməd Ünal Çeviköz iştirak edirdilər.

məsələ bir az arxa plana keçmişdi. İndi biz buna çox böyük əhəmiyyət veririk. Bir müddət əvvəl yeni nazirlik yarandı və bu sahədə böyük planlarımız vardır.

İndi öncül məsələyə çevrilən Azərbaycanda ətraf mühitin qorunması barədə mən müvafiq göstərişlər vermişəm və geniş proqram hazırlanır. Ümumiyyətlə, Azərbaycanda, xüsusilə Abşeron yarımadasında ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atılacaqdır. Əlbəttə, buna maliyyə vəsaiti lazımdır, təşkilatçılıq məsələləri öz həllini tapmalıdır və beynəlxalq məsləhətlər, tövsiyələr çox lazımdır. Bu baxımdan Türkiyə ilə Azərbaycan arasında əməkdaşlıq bu istiqamətdə çox uğurlu inkişaf edə bilər. Mən sizin səfərinizi məhz bu baxımdan qiymətləndirirəm.

**Osman Pepe:** Cənab Prezident, səmimi qəbula görə minnətdarlığımı bildirirəm. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin adını daşıyan, Ankarada açılışı mərasimində iştirak etdiyimiz park Türkiyə paytaxtının çox mənzərəli və gözəl gəzinti yeri olacaq və bu böyük insanın tarixi xidmətləri hamı tərəfindən xatırlanacaqdır. Biz ölkələrimiz arasında Heydər Əliyevin qurduğu çox güclü dostluq və qardaşlıq əlaqələrinin mövcudluğunu və bunun inkişafı yolunda zati-alinizin göstərdiyi fəaliyyəti təqdirlə qarşılayırıq.

Mən azərbaycanlı həmkarımla görüş zamanı səmərəli müzakirələr apardım və bununla əlaqədar protokolun imzalanacağını bildirirəm və gələcəkdə bunların icrası üçün çalışacaq, mövcud təcrübələri birlikdə bölüşəcəyik.

Mənimlə birlikdə Bakıya Türkiyənin nüfuzlu iş adamları da gəlmiş, burada lazımi layihələr həyata keçirmək niyyətindədirlər. Azərbaycanın güclü olması, xalqın firavan yaşaması böyük lider Heydər Əliyevin ideyaları olmuşdur və bilirik ki, bu ideyanı yaşatmaq prezident İlham Əliyevin də məqsədidir. Ölkələrimiz arasındakı qardaşlığı sadəcə, sözdə yox, müştərək layihələrlə, bölgədə sülhü möhkəmləndirməklə, Azərbaycanın və Türkiyənin mənafeyini qorumaqla, mütəxəssislərimizin peşəkarlığından bəhrələnməklə yaşatmaq lazımdır. Ümid edirəm, iki qardaş ölkə arasındakı son dərəcə yaxşı münasibətlər hökumətlərimizin fəaliyyəti ilə çox güclü şəkildə irəliyə gedəcəkdir.

## PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN AZƏRBAYCANA SƏFƏRİ

*İyunun 8-də Pakistan İslam Respublikasının prezidenti Pərviz Müşərrəfin Prezident sarayında rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Sarayın rəsmi qarşılanma mərasimlərinin keçirildiyi həyətində fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının prezidenti İlham Əliyevə raport verdi.*

*Fəxri qarovul dəstəsinin rəisi Pakistan dövlətinin başçısına raport verdi.*

*Prezidentlər İlham Əliyev və Pərviz Müşərrəf fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Pakistan prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Pakistan prezidenti Pərviz Müşərrəfə, Pakistan nümayəndə heyətinin üzvləri Azərbaycan prezidenti İlham Əliyevə təqdim olundu.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏF İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*8 iyul 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Pakistan prezidenti Pərviz Müşərrəf ilə təkbətək görüşü oldu.*

*Görüş zamanı dövlət başçıları Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən möhkəm təməli qoyulmuş qarşılıqlı surətdə faydalı əlaqələrin səviyyəsindən razı qaldıqlarını vurğuladılar. Bildirildi ki, ölkələrimiz arasında münasibətlər müxtəlif sahələrdə uğurla inkişaf edir. Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyinin rəsmi İslamabad tərəfindən daimi dəstəklənməsi faktını məmnunluqla vurğuladı.*

*Görüşdə ikitərəfli əməkdaşlığın daha da dərinləşməsi, Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq perspektivləri, beynəlxalq və regional təhlükəsizlik problemləri və tərəfləri maraqlandıran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*8 iyul 2004-cü il*

**İ l h a m  Ə l i y e v**: Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizi bir daha ürəkdən salamlayıram və «Azərbaycana xoş gəlmisiniz!» deyirəm. Bizim dəvətimizi qəbul edib ölkəmizə səfər etdiyinizə görə sizə minnətdaram.

Ölkələrimiz arasında münasibətlər çox sürətlə inkişaf edir. Bu bizi çox sevindirir. 1996-cı ildə xalqımızın ümummilli lideri Heydər Əliyev Pakistana rəsmi səfər etmişdir. Həmin səfərdən sonra ölkələrimiz arasında münasibətlər bütün istiqamətlərdə inkişaf etməyə başlamışdır. Bu gün həm siyasi, həm də iqtisadi və mədəni sahələrdə ikitərəfli əlaqələr çox uğurla inkişaf edir. Pakistanla Azərbaycan beynəlxalq aləmdə daim bir-birini dəstəkləyir və bu dəstəyə görə Sizə öz minnətdarlığımı bildirirəm. Xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ölkəmizin ədalətli mövqeyini dəstəklədiyinizə görə Sizə minnətdaram.

İqtisadi sahədə əməkdaşlığımızın çox gözəl perspektivləri vardır və biz bunu Sizinlə müzakirə etdik. Hökumətlərarası birgə komissiya çox gözəl işləyir və ümidvaram ki, bu səfərdən sonra iqtisadi sahədə əlaqələrimiz daha da güclənəcəkdir.

Əlbəttə ki, humanitar sahədə əməkdaşlığımız da güclənməlidir. Bizim xalqlarımız bir-birinə böyük hörmət və rəğbətlə yanaşırlar. Əminəm ki, bu səfərdən sonra xalqlarımız arasında olan münasibətlər də durmadan inkişaf edəcəkdir.

Bir daha Sizi salamlayıram, xoş gəlmisiniz deyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bu səfərdən sonra Pakistan–Azərbaycan münasibətləri bütün sahələrdə sürətlə inkişaf edəcəkdir.

**P ə r v i z  M ü ş ə r r ə f:** Hörmətli Prezident!

Mən də əvvəlcə «Xoş gördük!» demək istəyirəm. Biz Azərbaycana gəlişimizdən çox məmnun olduq.

Cənab Prezident, dəvətə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Çox sağ olun ki, məni və nümayəndə heyətini Azərbaycana dəvət etdiniz. Biz qardaş ölkədə olmağımızdan çox məmnunuq. Həqiqətən də burada olmaq bizim üçün böyük başucalığıdır. Azərbaycana gəldiyimiz dəqiqədən burada olan qonaqpərvərliyi və səmimiliyi hiss edirik.

Cənab Prezident, Sizinlə təkbətək görüş zamanı məlum oldu ki, bizim ümumi maraqlarımız çoxdur. Bu maraqlar həm siyasi sahəyə aiddir və müzakirə etdiyimiz bütün məsələlər üzrə biz ümumi məxrəcə gəldik. Hesab edirəm ki, iqtisadi sahədə də bizim ümumi maraqlarımız böyükdür.

Siyasi məsələlər üzrə bizim maraqlarımız üst-üstə düşür. Cənab Prezident, Kəşmir məsələsində Pakistanın mövqeyini dəstəklədiyinizə görə Sizə öz minnətdarlığımı bildirirəm. Bəyan etmək istərdim ki, Pakistan hər zaman Azərbaycan xalqı ilə birlikdə olacaqdır, Dağlıq Qarabağ məsələsində sizin xalqınızın haqlı tələbini və mövqeyini dəstəkləyəcəkdir.

Bir halda ki, bizim ölkələrimiz və xalqlarımız arasında oxşarlıq vardır və tarixi baxımdan eyni köklərə malikdir, mədəniyyətlərimiz çox oxşardır, xalqlarımız eyni dinə qulluq edirlər, hesab edirəm ki, bütün bunlara söykənərək iqtisadi və ticarət əlaqələrini daha da genişləndirmək, bu sahədə imkanlar axtarıb tapmaq lazımdır.

Müdafiə sahəsində də bizim ümumi maraqlarımız çoxdur. Biz uzun zaman apardığımız araşdırmalardan sonra bu qənaətə gəlmişik və bu sahədə sizə işbirliyi təklif etmək istəyirik. Biz sizin Müdafiə Nazirliyinizin nümayəndə heyətini böyük məmnuniyyətlə Pakistanda qəbul edəcəyik.

Onlar bizim ölkədə həm təlim keçə, həm də istehsal olunan hərbi avadanlıqla tanış ola bilərlər.

İqtisadi sahədə əməkdaşlıq üçün geniş imkanlar mövcuddur. Hər şeydər əvvəl, düşünürəm ki, neft və qaz sahəsində işbirliyi üçün böyük potensial vardır. Biz burada birgə müəssisələr aça bilərik və Pakistan neftçiləri sizin neftçilərin zəngin təcrübəsindən faydalana bilərlər. İqtisadiyyatın digər sahələrində də imkanlar olduqca genişdir. Bizim maliyyə, bank sahələrində zəngin təcrübəmiz vardır. Bu qurumları təmsil edən şəxslər mənim nümayəndə heyətimə daxildirlər. Eyni zamanda, bizim sığorta sahəsində də geniş təcrübəmiz vardır. Biz sizə toxuculuq sahəsində işbirliyi təklif edə bilərik. Bilirik ki, Azərbaycan pambıq istehsal edən ölkədir. Nəzərinizə çatdırmaq istəyirəm ki, Pakistanda bu sahədə özəl sektor olduqca yaxşı inkişaf etmişdir. İnformasiya texnologiyaları və telekommunikasiya sahəsində də böyük təcrübəmiz vardır və bu sahədə də sizə əməkdaşlıq təklif edirik.

Sonda diqqətinizə çatdırmaq istəyirəm ki, müasir dövrdə, XXI əsrdə heç bir dövlət informasiya sahəsində mübadilə olmadan inkişaf edə bilməz. Ona görə də biz sizə elm sahəsində də təcrübə mübadiləsi təklif etmək istəyirik və bu bizim xalqlarımızın inkişafına xidmət edəcəkdir. Onu da əlavə edim ki, biz beş nəfərin Pakistana gələrək bank və maliyyə sahəsində təhsil almaları üçün şərait yaratmağa hazırıq. Eyni zamanda, informasiya və kommunikasiya sahəsində biz sizin tələbələrin Pakistanda təhsil alması üçün 10 yer ayırmağa hazırıq.

Müdafiə sahəsində də sizin mütəxəssislər Pakistana gələ bilər və orada təcrübə keçə bilərlər. Bununla da biz əməkdaşlığımızı daha da möhkəmləndirərik.

Çox sağ olun.

* * *

*Prezidentlərin geniş heyətdə görüşü başa çatdıqdan sonra Prezident sarayında ikitərəfli sənədlərin imzalanma mərasimi oldu.*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının prezidenti Pərviz Müşərrəf birgə bəyannamə imzaladılar.*

*Azərbaycan Respublikası hökuməti ilə Pakistan İslam Respublikası hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası hökuməti ilə Pakistan İslam Respublikası hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında saziş, Azərbaycan Respublikası hökuməti ilə Pakistan İslam Respublikası hökuməti arasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizədə əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası hökuməti ilə Pakistan İslam Respublikası hökuməti arasında beynəlxalq terrorizmə və mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə əməkdaşlıq haqqında saziş imzalandı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN BİRGƏ MƏTBUAT KONFRANSI

*Prezident sarayı*

*8 iyul 2004-cü il*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən Azərbaycana rəsmi səfərə gəlmiş Pakistan İslam Respublikasının prezidenti cənab Pərviz Müşərrəfi və onu müşayiət edən nümayəndə heyətinin bütün üzvlərini bir daha salamlayıram, «Azərbaycana xoş gəlmisiniz!» deyirəm.

Qardaş Pakistan prezidentinin Azərbaycana səfəri iki ölkə arasında olan çox əlamətdar bir hadisədir. Pakistanla Azərbaycan arasında çox gözəl əlaqələr mövcuddur. Siyasi, iqtisadi, mədəni sahələrdə bizim ölkələrimiz çox səmərəli və uğurlu əməkdaşlıq edir. Pakistan və Azərbaycan bütün beynəlxalq tədbirlərdə, ümumiyyətlə, beynəlxalq aləmdə bir-birini daim dəstəkləyir, bir-birinə kömək edirlər.

Pakistan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini daim dəstəkləyir və mən bu dəstəyə görə bir daha hörmətli cənab prezidentə bütün Azərbaycan xalqı adından öz təşəkkürümü bildirirəm. Azərbaycan da əvvəllər olduğu kimi, bundan sonra da Pakistanı daim dəstəkləyəcəkdir, öz siyasi dəstəyini verəcəkdir.

Belə gözəl bir şəraitdə, əlbəttə, iqtisadi əlaqələrin inkişafı bizim ölkələrimizi daha da yaxından birləşdirəcəkdir. Biz çox istəyirik ki,

iqtisadi əlaqələr inkişaf etsin, güclənsin və hər iki ölkəyə fayda gətirsin. Hökumətlərarası komissiyanın iclasında bu məsələlər müzakirə olunubdur və ümidvaram ki, bu səfərdən sonra iki ölkə arasında olan iqtisadi əlaqələr daha da güclənəcəkdir.

Yanacaq, energetika, kənd təsərrüfatı, turizm, digər sahələrdə əməkdaşlıq üçün çox gözəl zəmin vardır. Əlbəttə, humanitar, mədəni sahələrdə bizim əlaqələrimiz çox uğurla inkişaf edir, xalqlarımız bir-birinə böyük hörmətlə, rəğbətlə yanaşırlar.

Pakistan və Azərbaycan müttəfiq ölkələrdir. Biz bir-birimizi çox yaxşı başa düşürük. Beynəlxalq, regional məsələlərdə bizim mövqeyimiz üst-üstə düşür. Mən əminəm ki, bu səfərdən sonra aramızda olan əlaqələr daha da güclənəcək, xalqlarımız bir-birinə daha da yaxın olacaq və ümumiyyətlə, Pakistanla Azərbaycan arasında olan münasibətlər inkişaf edəcəkdir.

Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha salamlayıram və əminəm ki, bu səfər, onun nəticələri də çox uğurlu olacaqdır.

## Pakistan prezidenti Pərviz Müşərrəfin bəyanatı

Bismillahir-rəhmanir-rəhim!

Cənab Prezident, çox sağ olun ki, Pakistan və Azərbaycan dostluğu haqqında bu qədər xoş sözlər dediniz. Ondan başlamaq istəyirəm ki, məni Azərbaycana dəvət etməyinizdən çox məmnunam. Böyük ehtiram hissi və başucalığı ilə nümayəndə heyətinə rəhbərlik edirəm və Azərbaycana, Sizin böyük ölkəyə gəlmişəm.

Pakistan və Azərbaycan ümumi mədəniyyətə malik ölkələrdir. Bizim insanlarımız eyni dinə sitayiş edirlər.

Ona görə də bundan çıxış edərək ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələri daha da genişləndirmək üçün böyük imkanlar mövcuddur.

Biz cənab prezidentlə təkbətək görüşdə və nümayəndə heyəti ilə görüşdə bir sıra məsələləri müzakirə etdik. Bu müzakirələr zamanı qərara alındı ki, bütün mümkün sahələrdə əməkdaşlığı genişləndirmək lazımdır və bunun üçün imkanlar da vardır.

Siyasi sahədə bizim münasibətlərimizin xüsusiliyi ondan ibarətdir ki, biz bir-birimizə qarşılıqlı hörmətlə yanaşırıq və bütün məsələlərdə bir-birimizi daim dəstəkləyirik. Bu özünü Azərbaycanın Kəşmir məsələsinə münasibətində göstərir və eləcə də Dağlıq Qarabağ məsələsində Pakistanın Azərbaycanın düzgün mövqeyini daim dəstəkləməsində özünü büruzə verir.

Dağlıq Qarabağın və onun ətrafında olan rayonların Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi hər bir adi pakistanlını narahat edir. Mən bu gün Azərbaycan prezidentinə söz vermək istəyirəm ki, biz bu münaqişədə Azərbaycanın ərazi bütövlüyünü və düzgün mövqeyini daim dəstəkləyəcəyik.

Beynəlxalq məsələlərə baxışda bizim mövqelərimiz bütün məsələlərdə eynidir. Xüsusilə də islam dünyasının üzləşdiyi bütün problemlərdə biz eyni mövqedən çıxış edirik. Bu həm Fələstin, həm Kəşmir, həm də İraq və Əfqanıstanda olan məsələlərə aiddir. Qərara alınmışdır ki, bundan sonra ölkələrimiz bu sahədə əməkdaşlığı daha da gücləndirsinlər və əlaqələndirsinlər.

Məlum olduğu kimi, bizim yaşadığımız dövr, XXI əsr iqtisadiyyat əsridir. Burada da biz prezidentlə razılaşdıq ki, ümumi maraqları müəyyən edək və birgə iqtisadi komissiya ümumi maraqlar üzərində işləsin, məsələləri araşdırsın. Beləliklə, biz bütün imkanları inkişaf etdirək.

Mən imzalanmış sənədlərdən olduqca razıyam, olduqca məmnunam. Ümid edirəm ki, bu gün prezidentlə aramızda imzalanan sənədlər ölkələrimizi, xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaq və xalqlarımız arasında əməkdaşlıq bundan sonra yüksələn xətlə davam edəcəkdir.

Cənab Prezident, Pakistan bütün mümkün sahələrdə əməkdaşlığı genişləndirmək və dərinləşdirməyin tərəfdarıdır. Sonda sizin qarşınızda bəyan etmək istəyirəm ki, mən böyük məmnuniyyətlə cənab prezidenti Pakistana rəsmi səfərə dəvət etmişəm. O da Pakistana gəlməyə razılıq veribdir. Minnətdarlığımı bildirmək istəyirəm ki, bu da bizə Azərbaycanın nümayəndə heyətinə burada bizə qarşı göstərilən qonaqpərvərliyi Pakistanda eyni ilə təkrar etməyə imkan yaradacaqdır. Bəyan etmək istəyirəm ki, Azərbaycan ilə Pakistan arasında münasibətlər davam edəcək və daha da güclənəcəkdir. Mən hesab edirəm ki, biz tərəfdaş deyilik, biz qardaşıq. Pakistan hər zaman Azərbaycanla olacaqdır. Çox sağ olun.

Yaşasın Azərbaycan–Pakistan dostluğu!

* * *

**S u a l: Mənim sualım Azərbaycan prezidentinədir. Cənab Prezident, məlum olduğu kimi, Azərbaycanla Pakistan arasında çox güclü siyasi əlaqələr mövcuddur. Siz Pakistan prezidenti ilə bu siyasi münasibətləri iqtisadi müstəviyə keçirmək haqqında müzakirələr aparmısınızmı?**

**İ l h a m Ə l i y e v:** Bu barədə geniş fikir mübadiləsi aparılmışdır. Həm təkbətək görüşdə, həm də nümayəndə heyətləri ilə görüşdə bu məsələ müzakirə olunmuşdur. Bu sahədə böyük imkanlar var. Azərbaycan və Pakistan iqtisadi əməkdaşlıq edirlər. Amma bu, istənilən səviyyədə deyildir. Biz çox ümid edirik ki, bu səfərdən sonra iqtisadi əlaqələr daha da güclənəcək və biz konkret layihələr üzrə işləyəcəyik.

Bu əməkdaşlıq müxtəlif sahələrdə mümkündür. Bu məsələlər müzakirə olunubdur. Əminəm ki, ilk növbədə, neft-qaz sektorunda, kənd təsərrüfatında, turizm sahəsində və digər sahələrdə əlaqələr güclənəcəkdir. Biz çox istəyirik ki, bizneslə məşğul olan şirkətlər, iş adamları bir-birinə daha yaxın olsunlar, qarşılıqlı səfərlər etsinlər. Çünki həm Azərbaycanda, həm də Pakistanda qarşılıqlı surətdə faydalı əməkdaş-

lıq üçün gözəl şərait var. Şübhəsiz ki, gözəl siyasi münasibətlər iqtisadi əlaqələrin güclənməsinə öz töhfəsini verəcəkdir. Mən əminəm ki, bu səfərdən sonra bu sahədə biz gözəl nəticələr görəcəyik.

**S u a l: Mənim sualım Pakistan prezidentinədir. Cənab Prezident, hər iki ölkənin dövlət başçısı iqtisadi əlaqələri gücləndirmək niyyətini ifadə etdi. Konkret olaraq soruşmaq istəyirəm ki, neft-qaz sahəsində Pakistanla Azərbaycan arasında iqtisadi əməkdaşlığın perspektivlərini necə görürsünüz?**

**P ə r v i z M ü ş ə r r ə f:** Bəli, həqiqətən də bu bizim müzakirə etdiyimiz çoxsaylı məsələlərdən yalnız biridir. Bizə məlumdur ki, Azərbaycan neft və qaz sahəsində böyük təcrübəyə malikdir. Çox istərdik ki, Azərbaycanın bu təcrübəsindən faydalanaq, bu sahədə birgə müəssisələr açaq, Azərbaycanla birlikdə çalışaq, Azərbaycandan öyrənək. Bu səfər zamanı məni Pakistanın Neft naziri müşayiət edir. O öz azərbaycanlı həmkarı ilə görüşəcəkdir və konkret layihələr haqqında fikir mübadiləsi aparılacaqdır.

**S u a l: Mənim sualım belədir: Kəşmir və Dağlıq Qarabağ məsələləri prezidentlərin görüşündə müzakirə olunmuşdur. Bu məsələdə tərəflər öz hərəkətlərini, bundan sonra atılacaq addımları əlaqələndirə bilərlərmi ki, bu sahədə daha çox səmərə əldə olunsun?**

**İ l h a m Ə l i y e v:** Bu sahədə əlaqələndirmə var. Biz qeyd etdik ki, bu məsələ müzakirə olunmuşdur. Bildiyiniz kimi, bütün beynəlxalq təşkilatlarda Pakistanla Azərbaycan bu məsələlərdə bir-birini dəstəkləyir, öz siyasi dəstəyini verir. Biz istəyirik ki, beynəlxalq hüquq normaları işləsin, istəyirik ki, ədalət bərpa olunsun. Biz istəyirik ki, bu məsələ sülh yolu ilə öz ədalətli həllini tapsın. Amma beynəlxalq hüquq normaları əsasında.

Birləşmiş Millətlər Təşkilatının qətnamələri var və bunlar icra olunmur. Əlbəttə, biz tələb edirik ki, bunlar icra olunsun və tezliklə bu münaqişələr öz həllini tapsın. Gələcəkdə də bu məsələlərlə əlaqədar iki ölkə bir-birini dəstəkləyəcəkdir.

**P ə r v i z  M ü ş ə r r ə f:** Mən cənab prezidentin dediklərinə əlavə etmək istəyirəm ki, həqiqətən, biz bundan sonra da bu məsələlərdə bir-birimizi dəstəkləməkdə davam edəcəyik.

**S u a l: Mənim sualım Pakistan prezidentinədir. Cənab Prezident, İslam Konfransı Təşkilatının iclası zamanı Siz maarifçi-liberalizm ideyasını irəli sürmüşdünüz. Bu ideya nədən irəli gəlmişdir?**

**P ə r v i z  M ü ş ə r r ə f:** Məlum olduğu kimi, hazırda bütün dünya inkişaf edir. Lakin eyni zamanda, bütün dünya çox təhlükəli bir yerə çevrilmişdir. Bu dünyanın sakinləri kimi, bizim də hamımızın əsas məqsədimiz, borcumuz ondan ibarətdir ki, dünyanı daha da təhlükəsiz məkana çevirək. İkinci tələbat ondan irəli gəlir ki, hazırda bütün müsəlman dünyasında sosial sektor çox zəif inkişaf edibdir və əhali arasında savadın səviyyəsi olduqca aşağıdır. Ona görə də İslam Konfransı Təşkilatının bir üzvü kimi, biz istərdik ki, müsəlman xalqları, islam dininə sitayiş edən xalqlar savadlarını artırsınlar.

Mən maarifçi-liberalizm dedikdə iki məsələni nəzərdə tuturam. Birincisi, müsəlman dünyası özü-özünə yardım etməlidir. Biz ekstremizmdən azad olmalıyıq və sosial inkişafa doğru getməliyik. İkincisi isə, Qərbdən daha çox asılıdır. İlk növbədə Birləşmiş Ştatlar, Qərb ölkələri yardım etməlidirlər ki, biz bu siyasi münaqişələrdən yaxa qurtaraq. Bu siyasi münaqişələrin həll olunmasında onlar bizə yardım etməlidirlər. Əlbəttə, ədalətli əsaslarla. Onlar bundan sonra bizim sosial və iqtisadi inkişafımıza yardım əllərini uzatmalıdırlar. Biz düşünürük ki, əgər belə olarsa, burada uduzan tərəf olmayacaqdır. Hamı qalib gələcəkdir. Xüsusilə də müsəlman dünyası. Çox sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*Bakı Əyləncə Mərkəzi*

*8 iyul 2004-cü il*

Pakistan İslam Respublikasının prezidenti zati-aliləri cənab Pərviz Müşərrəf!

Hörmətli xanım Müşərrəf!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Pakistan İslam Respublikasının prezidenti, hörmətli cənab Pərviz Müşərrəf Azərbaycana səfər etmişdir. Deyə bilərəm ki, bu səfər çox uğurlu səfərdir. Biz bu səfəri çoxdan gözləyirdik və indi artıq demək olar ki, bu səfər iki ölkə arasında olan münasibətlərə çox böyük təsir göstərəcəkdir.

Pakistanla Azərbaycan müstəqil ölkələrdir. Biz bir-birimizə çox yaxınıq və siyasi sahədə əlaqələrimiz çox yüksək səviyyədədir. Qeyd etməliyəm ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra Pakistan onu tanıyan ilk dövlətlərdən biri idi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1996-cı ildə Pakistana rəsmi səfər etmişdi və bu səfərdən sonra iki ölkə arasında münasibətlər yeni bir pilləyə qalxmışdır. Keçən ilin sentyabr ayında mən Amerika Birləşmiş Ştatlarında Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin sessiyasında cənab Pərviz Müşərrəflə görüşmüşdüm və bu görüş çox uğurlu olmuşdur.

Mən çox məmnunam ki, cənab prezident bizim dəvətimizi qəbul edib Azərbaycana rəsmi səfərə gəlmişdir.

Apardığımız danışıqlarda bir daha əmin olduq ki, müstəqil ölkələrimizin siyasi, iqtisadi, mədəni sahələrdə əməkdaşlığı uğurla davam edir. Bu gün iki ölkə arasında çox önəmli sazişlər imzalanmışdır və ümid edirəm ki, bunlar gələcək əməkdaşlıq üçün daha gözəl şərait yaradacaqdır. Bildiyiniz kimi, Pakistanla Azərbaycan beynəlxalq aləmdə daim bir-birinə dəstək verir. Azərbaycan Pakistanı Kəşmir məsələsində dəstəkləyir və bundan sonra da dəstəkləyəcəkdir. Pakistan isə ölkəmizi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində daim dəstəkləyir və buna görə biz Pakistan xalqına, onun hökumətinə və şəxsən prezidentə minnətdarıq. Müzakirə etdiyimiz bütün məsələlərdə bizim mövqeyimiz üst-üstə düşür.

Mən əminəm ki, bu səfərdən sonra iqtisadi, hərbi, mədəni sahələrdə, turizm sahəsində bizim əlaqələrimiz daha da genişlənəcəkdir. Əsrlər boyu bir-birinə böyük hörmətlə, rəğbətlə yanaşan xalqlarımız bundan sonra daha da yaxınlaşacaqlar.

Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha salamlayıram. Sizə, xanım Müşərrəfə, bütün qonaqlarımıza uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun!

## PAKİSTAN RESPUBLİKASININ PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN AZƏRBAYCANA SƏFƏRİ

*İyulun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının prezidenti Pərviz Müşərrəf M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında incəsənət ustalarının konsertində iştirak etmişlər.*

* * *

*İyulun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf Heydər Əliyev Fonduna gəldilər. Burada prezident Pərviz Müşərrəfə və nümayəndə heyətinin üzvlərinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılan Fondun məqsədləri barədə məlumat verildi. Bildirildi ki, Fondun əsas məqsədləri prezident Heydər Əliyevin zəngin irsinin öyrənilməsinə, Azərbaycanın tərəqqisinə yönəldilmiş genişmiqyaslı proqramların həyata keçirilməsini dəstəkləməkdən, müstəqil Azərbaycanın iqtisadi qüdrətinin artmasına xidmət edən layihələrin gerçəkləşdirilməsində iştirak etməkdən, əhalinin rifahının yüksəldilməsinə dair müxtəlif proqramların və tədbirlərin dəstəklənməsindən, milli-mənavi də-yərlərin qorunması, azərbaycançılıq ideologiyasının və Azərbaycan mədəniyyətinin geniş təbliği ilə bağlı işlərin görülməsinə kömək göstərməkdən ibarətdir.*

*Dövlətimizin başçısı İlham Əliyev ali qonağa və onu müşayiət edən şəxslərə ümummilli liderimiz Heydər Əliyevin şəxsi arxivindən götürülmüş və müxtəlif dövrlərə aid eksponatlar barədə ətraflı söhbət açdı.*

*Dost ölkənin dövlət başçısı İqtisadi Əməkdaşlıq Təşkilatının 2000-ci ildə Tehranda keçirilmiş iclası zamanı Azərbaycan prezidenti Heydər Əliyevlə birgə çəkilmiş fotoşəklə xüsusi maraqla baxdı.*

***Pakistan prezidenti Pərviz Müşərrəfin Fondun fəxri qonaqları kitabına yazdığı ürək sözləri:***

«Mərhum Heydər Əliyev elə bir nadir rəhbərlər qrupuna daxil idi ki, O öz ölkəsinin tarixinin ən həlledici məqamında meydana gəlmiş və xalqını firavanlıq, tərəqqi yolu ilə aparmışdır.

Şəxsən mən Heydər Əliyevi çox müdrik və uzaqgörən bir dövlət xadimi kimi tanımışam və əminəm ki, onun miras qoyduğu standartlar Azərbaycanın gələcək nəsilləri üçün istifadə ediləcəkdir.

***PƏRVİZ MÜŞƏRRƏF***
***Pakistan İslam Respublikasının Prezidenti***

***9 iyul 2004-cü il».***

## BİR SIRA XARİCİ ÖLKƏLƏRİN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRLƏRİNİN ETİMADNAMƏLƏRİNİ QƏBUL ETMƏ MƏRASİMİNDƏ ÇIXIŞ

*«Ulduz» sarayı*

*12 iyul 2004-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransanın, Kanadanın, Qana Respublikasının, Filippin Respublikasının, Birləşmiş Ərəb Əmirliklərinin, Əlcəzair Xalq Demo- kratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirləri Maykl Lir, Fransis Yahaya Mahama, Ernesto Lamas, Xalid Ğanim Məhəmməd əl-Ğeys və Əbdülhəmid Senuci Bereksinin etimadnamələrini qəbul etmişdir.*

*Səfirlər dövlətimizin başçısı İlham Əliyevə öz ölkələrinin dövlət başçılarının səmimi salamlarını çatdırdılar. Onlar Azərbaycanda öz ölkələrinin diplomatik nümayəndəliklərinin rəhbərləri olmaqdan, inkişaf yolu ilə gedən respublikamızda işləməkdən və etimadnamələrini təqdim etməkdən böyük şərəf duyduqlarını bildirdilər. Diplomatlar dövlətimizin başçısını əmin etdilər ki, öz fəaliyyətləri dövründə təmsil etdikləri ölkələrlə respublikamız arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrin və dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi, möhkəmləndirilməsi üçün səylərini əsirgəməyəcəklər. Onlar beynəlxalq təşkilatlar çərçivəsində aparılan əməkdaşlıqdan danışdılar və vurğuladılar ki, əlaqələrin daha da genişlənməsi üçün yeni imkanlar açılacaq və bu da ölkələrimizi bir-birinə daha da yaxınlaşdıracaq, xalqlarımız üçün faydalı olacaqdır. Filippin Respublikasının səfiri xüsusi minnətdarlıqla dedi ki, biz Sizin Azərbaycanda iqtisadi irəliləyiş əldə etmək, eləcə də ölkəyə sülh gətirmək səylərinizdən yaxşı xəbərdarıq və bunu yüksək qiymətləndiririk.*

*Əlcəzair Xalq Demokratik Respublikasının səfiri prezident İlham Əliyevə müraciətlə dedi ki, Sizin idarəçiliyinizin əsası böyük lider, müdrik dahi rəhbər, yeni respublikanızın yaradıcısı Heydər Əliyevin nailiyyətlərindən götürülmüşdür. Sizin Azərbaycanı gücləndirmək, dövlətçiliyi möhkəmləndirmək, ərazi bütövlüyünü bərpa etmək, iqtisadiyyatı inkişaf etdirmək, beynəlxalq aləmlə əlaqələri daha da möhkəmləndirmək səylərinizi Əlcəzair böyük maraq hissi ilə izləyir.*

*Səfirlərin hər biri öz etimadnaməsini Azərbaycan prezidenti İlham Əliyevə təqdim etdi. Dövlətimizin başçısı səfirlərlə ayrı-ayrılıqda xatirə şəkli çəkdirdi.*

**İ l h a m Ə l i y e v**: Hörmətli cənab səfirlər!

Ölkələrinizin Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri təyin olunmağınız münasibətilə hamınızı ürəkdən təbrik edir, sizə bu fəaliyyətinizdə uğurlar diləyirəm.

Təmsil etdiyiniz ölkələrlə Azərbaycanın çox gözəl münasibətləri vardır və mən ümid edirəm ki, gələcəkdə bu münasibətlər daha da güclənəcəkdir. Azərbaycan yeni müstəqil dövlət kimi, bütün ölkələrlə öz münasibətlərini inkişaf etdirir, beynəlxalq təşkilatlarda iştirak edir. Mən əminəm ki, Azərbaycan bundan sonra da beynəlxalq məsələlərdə təmsil etdiyiniz ölkələrlə qarşılıqlı surətdə faydalı əlaqələri gücləndirəcəkdir.

Azərbaycan iqtisadi cəhətdən sürətlə inkişaf edir, iqtisadiyyatımız ildə 10 faiz artır. Mən çox ümid edirəm ki, sizin təmsil etdiyiniz ölkələrlə iqtisadi əlaqələr inkişaf edəcəkdir.

Azərbaycanda dünyanın ən iri, ən böyük enerji layihəsi həyata keçirilir. Ölkəmizə böyük həcmdə xarici sərmayə qoyulur. Azərbaycan öz neft-qaz yataqlarını xarici şirkətlərlə birlikdə istismar edir. Ümidvaram ki, görülən bütün bu işlər, həyata keçirilən layihələr ölkəmizi iqtisadi cəhətdən daha da gücləndirəcəkdir.

Azərbaycan Dünya Birliyində özünəlayiq yerini tuta bilibdir. Azərbaycan beynəlxalq təşkilatların fəal üzvüdür və bütün dövlətlərlə qarşılıqlı surətdə faydalı, ikitərəfli münasibətlər qurur və bu siyasət bundan sonra da davam etdiriləcəkdir.

Ölkəmizin qarşısında duran ən ciddi məsələ Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal olunub və bir milyondan artıq azərbaycanlı qaçqın-köçkün vəziyyətinə düşübdür. Bütün beynəlxalq səylərə baxmayaraq, Ermənistan işğal olunmuş torpaqlardan geri çəkilmir və beləliklə, münaqişə öz həllini tapmır. Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Biz tələb edirik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun və beynəlxalq ictimaiyyət bu məsələdə öz mövqeyini daha yaxından bildirsin.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normaları əsasında öz həllini tapa bilər. Azərbaycanın ədalətli mövqeyi dünyada müsbət qəbul olunur. Bizim mövqeyimiz daha çox dəstəklənir. Mən əminəm ki, beynəlxalq ictimaiyyətin iştirakı ilə bu məsələ öz ədalətli, beynəlxalq hüquq normalarına əsaslanmış həllini tapa bilər. Əminəm ki, Azərbaycan bundan sonra da beynəlxalq məsələlərdə bütün ölkələrlə qarşılıqlı surətdə faydalı münasibətlərini davam etdirəcək, təmsil etdiyiniz ölkələrlə bizim münasibətlərimiz daha da güclənəcək və sizin fəaliyyətiniz bu istiqamətdə çox uğurlu olacaqdır.

Sizi bir daha təbrik edir, fəaliyyətinizdə uğurlar arzulayıram.

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ**

Hörmətli cənab Prezident!

Misir Ərəb Respublikasının milli bayramı – İnqilab günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə Misir arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Əminəm ki, əlaqələrimizin hərtərəfli genişləndirilməsi üçün bundan sonra da qarşılıqlı səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Misir xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 iyul 2004-cü il*

**KOLUMBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALVARO URİBE VELESƏ**

Hörmətli cənab Prezident!

Kolumbiya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Kolumbiya arasındakı əlaqələr daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kolumbiya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 iyul 2004-cü il*

**BELÇİKANIN KRALI**
**ƏLAHƏZRƏT II ALBERTƏ**

Əlahəzrət!

Belçika Krallığının milli bayramı – Kralın andiçmə günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Belçika Krallığı arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da əzmlə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Belçika xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 iyul 2004-cü il*

**BELÇİKA KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB Gİ VERHOFSTADTA**

Hörmətli cənab Baş nazir!

Belçika Krallığının milli bayramı – Kralın andiçmə günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətləri daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Belçika xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 iyul 2004-cü il*

## «AZBENTONİT» ZAVODUNUN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*14 iyul 2004-cü il*

Hörmətli xanımlar və cənablar!
Əziz dostlar!

Bu gün çox əlamətdar bir gündür. Bu gün yeni müəssisə, yeni zavod açılır. «Azbentonit» zavodu açılır və istifadəyə verilir. Bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm.

Bu zavodun açılması Azərbaycanda son illər ərzində aparılmış iqtisadi siyasətin nəticəsidir. Azərbaycan öz iqtisadiyyatını inkişaf etdirir. Ölkədə iqtisadi islahatlar aparılır. Bu islahatların nəticəsində minlərlə yeni iş yerləri açılıbdır. Yeni müəssisələr, yeni zavodlar, fabriklər açılıbdır. Bu siyasətin təməli 1993-cü ildə qoyulmuşdur. Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıdışından sonra ölkə inkişaf etməyə başladı. Ölkəmizin hər bir sahəsi, o cümlədən iqtisadiyyat inkişaf etdi. Ölkədə sənaye potensialı gücləndi.

Azərbaycanda yaradılmış bu gözəl sərmayə mühitindən istifadə edərək həm xarici, həm də yerli sahibkarlar Azərbaycana sərmayə qoyurlar, yeni müəssisələr, fabriklər açırlar. Bu olduqca əlamətdar bir hadisədir, bu onu göstərir ki, ölkəmiz inkişaf edir, güclənir və iqtisadiyyatımızın inkişafı düzgün istiqamətdə gedir. Bu gün «Azbentonit» zavodunun açılışı və istifadəyə verilməsi məhz bu istiqamətdə atılmış növbəti bir addımdır. Bu zavod nəhəng bir müəssisədir. Burada qeyd olundu ki, zavodun fəaliyyəti nəticəsində 2500 yeni iş yeri açılacaqdır və gələcəkdə, müəssisənin inkişaf proqramı tam miqyasda həyata keçiriləndən sonra işlə təmin olunan insanların sayı 15 minə çatacaqdır.

Zavodda çox müasir avadanlıq quraşdırılıbdır. Demək olar ki, burada ən yüksək dünya standartlarına cavab verən avadanlıq var. Eyni

zamanda, burada elmi-tədqiqat işləri də yüksək səviyyədə aparılır. Bu da çox vacibdir. Azərbaycanın çox güclü və zəngin elmi potensialı vardır. Əlbəttə, çox sevindirici haldır ki, bu potensialdan artıq əməli surətdə istifadə olunur.

Bu zavodun tikintisinə çoxlu sərmayə qoyulubdur və çox sevindirici haldır ki, Azərbaycanda sərmayələr qeyri-neft sektoruna qoyulur. Qeyri-neft sektorunun inkişafı bizim siyasətimizin ən prioritet istiqamətlərindən biridir.

Azərbaycan 1993-1994-cü illərdən sonra əsas diqqəti neft sektorunun inkişafına yönəltmişdi. Bu da təbii idi. Çünki ölkə çox çətin vəziyyətdə idi. Ölkədə iqtisadi böhran yaşanırdı, xəzinə, demək olar, boş idi. Azərbaycanda qeyri-neft sektoruna sərmayələrin cəlb edilməsi məsələsi böyük çətinliklərlə üzləşirdi. Ona görə ölkə rəhbərliyi əsas diqqəti neft sektorunun inkişafına yönəltmişdi və bu da öz gözəl nəticələrini verdi. Azərbaycanın neft strategiyası, Heydər Əliyevin neft strategiyası uğurla icra edildi.

Amma bu gün bizim əsas vəzifəmiz qeyri-neft sektorunun inkişafıdır. Bu istiqamətdə atılan hər bir addım bizi çox sevindirir. Xüsusilə bu cür böyük, nəhəng müəssisənin yaradılması. Bu, demək olar ki, Azərbaycanda yeni sənayenin yaradılmasıdır və bu sənayenin çox böyük perspektivləri vardır. Bu gün burada zavodun fəaliyyəti ilə tanış olarkən bir daha gördüm ki, müəssisə öz inkişafının hələ ilkin mərhələsindədir. Bu zavodun çox gözəl perspektivləri vardır. Əminəm ki, zavod bütün istiqamətlərdə Azərbaycana, Azərbaycanın iqtisadiyyatına öz dəyərli töhfəsini verəcəkdir. Mən zavodun fəaliyyətinə uğurlar arzulayıram. Burada işləyən işçilərə uğurlar arzulayıram.

Bilirəm ki, burada işçilər üçün də çox gözəl şərait yaradılıbdır. Mən bu gün bu şəraitlə tanış oldum. Artıq bu da Azərbaycanın reallığıdır. İşləyən insana, fəhləyə diqqət, qayğı göstərilməli, onun iş şəraiti yüksək səviyyədə qurulmalıdır, standartlara cavab verməlidir. Bu da vardır. Əmək haqqı yüksəkdir. Zavodda işləyənlərin əmək haqqı orta hesabla 850 min manatdır. Bu da çox yüksək göstəricidir. Mən ümid

edirəm ki, zavod daha da geniş miqyasda işə başlayandan sonra bu əmək haqqı da qaldırılacaqdır.

Eyni zamanda, bu gün Azərbaycanın tarixi üçün çox əlamətdar bir gündür. Zavod açılışa hazır olanda mənə məruzə edildi və tarix müəyyən edilməli idi ki, biz onu nə vaxt, hansı gündə açaq. Mən də təklif etdim ki, biz bu zavodu iyulun 14-də açaq. Bunun çox böyük mənası vardır. Məhz 1969-cu il iyulun 14-də xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycana rəhbərliyə gəlmişdi. Düz 35 il bundan əvvəl. O vaxtdan Heydər Əliyevin bütün həyatı, fəaliyyəti xalqa xidmət etməkdən ibarət olmuşdur.

Azərbaycan 1969-cu ildə digər müttəfiq respublikalarla müqayisədə ən pis vəziyyətdə olan respublika idi. Ölkə iqtisadiyyatı zəif idi, demək olar ki, sənaye potensialı, ümumiyyətlə, yox idi və ölkə bir xammal bazası kimi fəaliyyət göstərirdi. Məhz Heydər Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində 1970-ci illərdə–1980-ci illərin əvvəllərində Azərbaycanda güclü sənaye potensialı yarandı, yeni zavodlar, fabriklər quruldu. Azərbaycan üçün, onun gələcəyi üçün və bu gün üçün böyük əhəmiyyət kəsb edən müəssisələr yaradıldı.

Hazırda Heydər Əliyevin neft strategiyası uğurla həyata keçirilir. Amma bilməliyik ki, əgər 1970-ci illərdə Azərbaycanda güclü neft infrastrukturu yaradılmasaydı, bu gün bu strategiyanı həyata keçirmək üçün daha böyük həcmdə vəsait tələb olunardı və əlbəttə, indi bizim işimizi çətinləşdirərdi. O vaxt bütün digər sahələrdə də Azərbaycanın inkişafı çox sürətlə gedirdi və əgər 1969-cu ildə Azərbaycan 15 respublika sırasında axırıncı yerlərdə idisə, 1982-ci ildə birinci yerlərdə idi. Eyni vəziyyət, eyni mənzərə 1993-cü ildə baş vermişdir. 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə Azərbaycana rəhbərliyə qayıdandan sonra ölkə inkişaf etməyə başladı. Amma 1993-cü ilə qədər ölkənin iqtisadiyyatı tamamilə dağıdılmışdı, böhran yaşanırdı, iqtisadiyyat ildən-ilə tənəzzülə uğrayırdı.

10 il ərzində, 1993-cü ildən 2003-cü ilə qədər ölkə inkişaf etməyə başladı. Azərbaycanda çox böyük işlər görüldü. İqtisadiyyat qalxdı, sosial məsələlərin həlli istiqamətində böyük addımlar atıldı. Ölkəmiz

beynəlxalq aləmdə möhkəm yerini tutdu. Heydər Əliyevin neft strategiyası həyata keçirilməyə başladı.

Bu gün Azərbaycan iqtisadi cəhətdən bölgədə qabaqcıl ölkədir. Azərbaycana 17 milyard dollar sərmayə qoyulubdur və bu da adambaşına düşən sərmayənin həcminə görə ölkəmizə nəinki keçmiş Sovet İttifaqında, hətta Avropada qabaqcıl yerləri verir.

Bir sözlə, son on il ərzində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında böyük yol keçmişdir. Bu bir daha onu göstərir ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq, həm keçmişdə, 1970-ci illərdə, Azərbaycan Sovet İttifaqının tərkib hissəsi olduğu dövrdə, həm də müstəqillik dövründə liderin rolu, onun fəaliyyəti həlledicidir. Azərbaycan xalqının böyük xoşbəxtliyidir ki, bu ölkəyə Heydər Əliyev kimi rəhbər başçılıq edibdir.

Bu gün tam qətiyyətlə deyə bilərəm ki, əgər Heydər Əliyev yaşasaydı, ən çox sevinən adam o olardı. Onun üçün ən böyük sevinc gətirən amillər, ən böyük xoşbəxtlik xalqımızın sülh, əmin-amanlıq şəraitində, rifah içində yaşaması idi. Bu gün bu zavod həm burada işləyənlər üçün, həm də, ümumiyyətlə, Azərbaycanın gələcək iqtisadi inkişafı üçün böyük rol oynayacaqdır.

Bu gün bu yeni sənaye yaradılıb və mən şübhə etmirəm ki, bütün başqa sahələrdə olduğu kimi, iqtisadi inkişaf istiqamətində də Azərbaycanı böyük uğurlar gözləyir. Bütün bu uğurlara nail olmaq üçün Heydər Əliyev siyasəti davam etdirilməlidir. Bu siyasət Azərbaycan xalqı tərəfindən dəstəklənir və Azərbaycanda həyata keçirilir.

Prezident seçkilərindən keçən dövr ərzində Azərbaycan hərtərəfli inkişaf edir. Hər bir ölkə üçün, iqtisadi inkişafı təmin etmək üçün ictimai-siyasi sabitlik ən başlıca şərtdir və bu sabitlik Azərbaycanda qorunur. Bunu pozmaq istəyən qüvvələr öz layiqli cavabını aldılar. Biz Azərbaycanda sabitliyin pozulmasına heç cür imkan verə bilmərik və qanunu pozan şəxslər qanun qarşısında cavab verməlidirlər, verəcəklər.

Azərbaycan beynəlxalq aləmdə öz mövqelərini möhkəmləndirir. Ölkəmiz bütün beynəlxalq təşkilatlarda uğurla fəaliyyət göstərir,

Azərbaycanın milli maraqlarını müdafiə edir. Ölkəmiz üçün ən başlıca problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycan öz mövqeyindən dönmür və dönməyəcəkdir. Bu, ədalətli mövqedir və bu münaqişə yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Deyə bilərəm ki, son müddət ərzində bizim mövqeyimiz beynəlxalq aləmdə daha böyük dəyər qazanır.

Azərbaycanda ordu quruculuğunda böyük işlər görülür. Bu istiqamətdə də Heydər Əliyevin siyasəti davam etdirilir, ordumuz güclənir və bildiyiniz kimi, ölkə iqtisadiyyatı uğurla inkişaf etdiyinə görə, büdcədə əlavə vəsait yaranmışdır və bu vəsaitin üçdə bir hissəsi ordu quruculuğuna sərf olunacaqdır. Bu bizim prioritet məsələmizdir və Azərbaycanda güclü ordu var. Bu ordu daha da güclü olmalıdır və olacaqdır.

Azərbaycanın sosial problemləri öz həllini tapır. Ən çətin vəziyyətdə yaşayan qaçqınlar-köçkünlər üçün yeni şərait yaradılır, yeni qəsəbələr salınır. Onların işlə təmin olunması üçün addımlar atılır. Müvafiq fərmanlar verilibdir və onlar icra olunur. Ölkə iqtisadiyyatı inkişaf edir. 2004-cü ilin ötən dövründə iqtisadiyyatımız 10 faiz artıbdır. Biz bu yüksək sürəti saxlayırıq. Sərmayə qoyuluşu davam edir. Ölkədə yeni müəssisələr açılır.

Bilirsiniz ki, qəbul edilmiş sosial-iqtisadi və regional proqramların icrası uğurla gedir. Minlərlə yeni iş yerləri açılır. Burada İqtisadi İnkişaf naziri qeyd elədi ki, son aylar ərzində 40 minə qədər yeni iş yeri açılıbdır. Bu çox böyük rəqəmdir. Mən heç şübhə etmirəm ki, qarşımızda duran məqsədə çatacağıq, Azərbaycanda işsizliyi aradan qaldıracağıq. Biz bütün bunları edirik və bundan sonra da edəcəyik.

Ölkəmizin çox gözəl perspektivləri vardır. Heydər Əliyevin əsəri olan və onun adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəməri gələn il istismara veriləcəkdir ki, bu da ölkəmizə böyük iqtisadi mənfəət gətirəcəkdir. Biz düzgün yoldayıq və bu yoldan dönməyəcəyik. Azərbaycan xalqı bu siyasəti dəstəkləyir. Mən bu dəstəyə güvənirəm, buna arxalanıram və deyə bilərəm ki, Azərbaycan və onun gələcəyi etibarlı əllərdədir.

Əziz dostlar!

Mən sizi bu zavodun açılışı münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

## RUSİYA İTAR–TASS İNFORMASİYA AGENTLİYİNİN BAŞ DİREKTORU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 iyul 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev iyulun 16-da Prezident sarayında Rusiyanın İTAR–TASS informasiya agentliyinin Baş direktoru Vitali İqnatenkonu qəbul etmişdir.*

*Azərbaycan dövlətinin başçısı qonağı salamlayaraq, İTAR–TASS agentliyinin rəhbərliyi ilə Moskvada, habelə Ümumdünya Rus Mətbuatı Konqresi zamanı Bakıda keçirilən görüşləri səmimiyyətlə xatırladı. Prezident İlham Əliyev Azərbaycan–Rusiya əlaqələrindən söz açaraq vurğuladı ki, son illər ölkələrimizin müxtəlif sahələrdə–siyasi, iqtisadi, humanitar və digər sahələrdə münasibətləri uğurla inkişaf edir. Bu yaxınlarda müvəffəqiyyətlə keçən Rusiya–Azərbaycan biznes forumu, Azərbaycanda Rusiya mədəniyyəti günləri, təkcə humanitar sahəni deyil, digər sahələri də əhatə edəcək Azərbaycanda Rusiya ili və Rusiyada Azərbaycan ili keçirilməsinin planlaşdırılması buna parlaq sübutdur. Dövlətimizin başçısı cari ilin əvvəlində Rusiya Federasiyasına rəsmi səfərinin yekunlarından məmnun qaldığını söyləyərək əmin olduğunu bildirdi ki, bu münasibətlər gələcəkdə də ardıcıl surətdə inkişaf edəcəkdir.*

*Prezident İlham Əliyev İTAR–TASS agentliyi ilə Azərbaycanın informasiya agentlikləri arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək, onun daha da genişlənəcəyinə ümid bəslədiyini bildirdi.*

*İTAR–TASS agentliyinin Baş direktoru Vitali İqnatenko səmimi qəbula görə Azərbaycan dövlətinin başçısına təşəkkür edərək Rusiya*

*informasiya agentliyi rəhbərinin indiki səfərini Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Moskvaya rəsmi səfəri zamanı onunla Rusiya Federasiyasının prezidenti Vladimir Putin arasında əldə olunmuş razılaşmaların gerçəkləşdirilməsi kimi qiymətləndirdi. İTAR–TASS agentliyi Baş direktorunun sözlərinə görə, bu müddət ərzində informasiya əməkdaşlığı sahəsində böyük uğurlar əldə edilmişdir. Vitali İqnatenko əlamətdar bir hadisənin – ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərliyə gəlməsinin respublikada geniş qeyd edildiyi günlərdə Azərbaycana səfərini rəmzi səfər adlandırdı.*

*Qonaq səfərinin məqsədindən danışaraq dedi ki, informasiya mübadiləsi sahəsində gələcək qarşılıqlı fəaliyyətin konkret planı hazırlanmışdır. O əmin olduğunu bildirdi ki, dövlətlərimizin başçılarının ciddi diqqəti altında olan Azərbaycan–Rusiya birgə informasiya məkanı səmərəli surətdə inkişaf etdiriləcəkdir.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 iyul 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üzrə ATƏT-in Minsk qrupunun Amerika Birləşmiş Ştatlarından, Rusiyadan və Fransadan olan həmsədrləri Stiven Mənni, Yuri Merzlyakovu və Anri Jakoleni qəbul etmişdir.*

*Qonaqları salamlayan prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun üzvləri ilə Bakıda və digər yerlərdə keçirilmiş görüşləri xatırlatdı. O, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması sahəsində Minsk qrupunun fəaliyyətinin əhəmiyyətli olduğunu söyləyərək, eyni zamanda problemin həlli ilə məşğul olan bu qurumun fəaliyyətinin hələ də heç bir nəticə vermədiyini təəssüflə qeyd etdi. Dövlətimizin başçısı tezliklə bu münaqişənin öz həllini tapacağına ümidvar olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanın mövqeyinin ATƏT-in Minsk qrupunun həmsədrlərinə yaxşı məlum olduğunu, bu mövqenin prezidentlər və xarici işlər nazirləri arasında keçirilmiş görüşlərdə dəfələrlə bəyan edildiyini deyərək, bir daha vurğuladı ki, Azərbaycanın mövqeyi münaqişənin yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında həll olunmasından ibarətdir. Dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kimi təcavüzkar separatizmlə müşayiət olunan bütün digər münaqişələrə də bu cür vahid yanaşmanın vacibliyini vurğulayaraq, yalnız bu halda münaqişələrin öz həllini tapa biləcəyini bildirdi. Azərbaycan prezidenti işğal olunmuş torpaqların qeyd-şərtsiz azad olunması ilə əlaqədar BMT-nin*

*məlum dörd qətnaməsinin hələ də Ermənistan tərəfindən yerinə yetirilmədiyini bir daha diqqətə çatdırdı.*

*ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Anri Jakolen öz həmkarları adından Bakıya növbəti səfərlərindən məmnun olduqlarını söyləyərək, Ermənistanda və Azərbaycanda keçirdikləri görüşlər barədə dövlətimizin başçısına məlumat verdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı ətraflı fikir mübadiləsi aparıldı.*

**MALDİV RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MƏMUN ƏBDÜL QƏYYUMA**

Hörmətli cənab Prezident!

Maldiv Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. Ümidvaram ki, Azərbaycan–Maldiv münasibətləri daim dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Maldiv xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *16 iyul 2004-cü il*

**MƏRAKEŞİN MƏLİKİ**
**ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ**

Əlahəzrət!

Mərakeşin milli bayramı – Taxt-tac günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Mərakeş arasında təşəkkül tapmış münasibətləri bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf etdirmək üçün qarşılıqlı səylərimizi əzmlə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Mərakeş xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *16 iyul 2004-cü il*

## TÜRKİYƏ PARLAMENTİNİN QADIN DEPUTATLARINDAN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 iyul 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev iyulun 19-da Prezident sarayında ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin qadın deputatlarından ibarət nümayəndə heyətini qəbul etmişdir.*

*Qonaqları səmimiyyətlə salamlayan Azərbaycan dövlətinin başçısı Türkiyəyə son səfəri zamanı Böyük Millət Məclisində etdiyi çıxışı və keçirdiyi görüşləri məmnunluqla xatırladı. Prezident İlham Əliyev belə böyük tərkibdə nümayəndə heyətinin ölkəmizə səfərinin qanunvericilik orqanları arasında əməkdaşlığın daha da inkişaf etməsi baxımından əhəmiyyətini vurğuladı.*

*Türkiyə ilə Azərbaycan arasında münasibətlərin siyasi sahədə yüksək səviyyədə olduğunu bildirən prezident İlham Əliyev əlaqələrin iqtisadi, mədəni və bütün digər sahələrdə də sürətlə inkişaf etdiyini söylədi. Dövlətimizin başçısı Azərbaycanla Türkiyənin ali qanunvericilik orqanları arasında əməkdaşlığın durmadan inkişaf etdiyini qeyd edərək bu əlaqələrin beynəlxalq təşkilatlar çərçivəsində uğurla davam etdirildiyini diqqətə çatdırdı. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv olduqdan sonra iki ölkənin bu təşkilatdakı parlament nümayəndə heyətinin üzvləri ilk günlərdən müzakirə olunan məsələlər üzrə eyni mövqedən çıxış etmişlər.*

*Sonra prezident İlham Əliyev Azərbaycanla Türkiyə arasında əlaqələrin, o cümlədən parlamentlərarası münasibətlərin bundan sonra da durmadan inkişaf edəcəyinə əminliyini ifadə etdi.*

*Nümayəndə heyətinin rəhbəri, Türkiyə parlamentində Ədalət və İnkişaf Partiyasının qrup başqan vəkili Haluk İpək səmimi qəbula görə prezident İlham Əliyevə nümayəndə heyəti adından dərin minnətdarlığını bildirərək qardaş ölkənin parlament rəhbərlərinin salamlarını dövlətimizin başçısına çatdırdı. O bildirdi ki, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan bu səfərə böyük əhəmiyyət verir.*

*Nümayəndə heyətinə daxil olan millət vəkillərinin eyni zamanda Azərbaycan parlamenti ilə dostluq qrupunun üzvü olduqlarını diqqətə çatdıran Haluk İpək Türkiyə parlamentindəki bu cür qruplar arasında onun ən çoxsaylı olduğunu bildirdi. Qonaq qeyd etdi ki, Türkiyə parlamentinin qadın deputatları Azərbaycan qadınlarının siyasətdə, xüsusilə ali qanunverici orqanda fəal iştirakı haqqında geniş məlumata malikdirlər. O bildirdi ki, burada iştirak edən hər bir türkiyəli millət vəkili, eyni zamanda Azərbaycanın elçisi kimi, beynəlxalq təşkilatlarda ölkəmizin ədalətli mövqeyini bundan sonra da müdafiə edəcəkdir.*

## AZƏRBAYCANIN ŞİMAL BÖLGƏSİNƏ SƏFƏRİ ZAMANI SİYƏZƏN SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*20 iyul 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev respublikamızın şimal bölgəsinə səfərə getmişdir. Prezident seçkiləri ərəfəsində Azərbaycanın bütün bölgələrinin inkişafına xüsusi diqqət yetirəcəyini bəyan edən İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətə başladığı müddətdə ölkəmizin sosial-iqtisadi inkişafının sürətləndirilməsi üçün gördüyü tədbirlər, o cümlədən regionların inkişafına dair Dövlət proqramının qəbul olunması, əhalinin rifahının yaxşılaşdırılmasına yönələn digər addımlar böyük razılıqla qarşılanmışdır.*

*Prezident İlham Əliyevin Siyəzən sakinləri ilə səmimi görüşü də elə bu mövzularla bağlı idi.*

*Rayon sakinləri prezident İlham Əliyevin yenidən Siyəzənə gəlməsini yüksək qiymətləndirərək dedilər ki, prezident seçkilərindən ötən müddət ərzində rayonda sosial-iqtisadi sahədə xeyli iş görülmüş, yeni iş yerləri yaradılmışdır. Hazırda əlillər üçün beşmərtəbəli bina inşa edilir. Prezident seçkiləri ərəfəsində Sizin iştirakınızla açılmış kərpic zavodunda xeyli işçi çalışır və onların orta hesabla aylıq əmək haqları 493 min manat təşkil edir.*

*Siyəzənlilər 20 il əvvəl ümummilli liderimiz Heydər Əliyevin buraya səfəri zamanı keçirilən görüşləri əks etdirən fotoşəkli prezident İlham Əliyevə təqdim etdilər.*

**Rayon ağsaqqalı prezident İlham Əliyevə müraciətlə dedi:** Hörmətli Prezident, bu gün minlərlə neftçi, əməkçi, ziyalı Sizinlə ürəklərimizi iftixarla dolduran görüşə gəlmişdir. Xalqımızın böyük oğlu, bizim əbədi məhəbbətimizə çevrilmiş Heydər Əliyev də Azərbaycanımızı qarış-qarış gəzər, onun şəhər və rayonlarında olardı.

Onun gəlişindən sonra şəhər və rayonlarda zavodlar, fabriklər, yaşayış binaları inşa olunar, adamlar özlərinə fərdi evlər tikərdi, avtomobillər alar, övladlarına toy edərdilər.

Bu gün bizim həyatımızda ən gözəl, ən yaddaqalan günlərdəndir. Cənab İlham Əliyev prezident seçkiləri ərəfəsində bizi yad etmiş və ondan sonra Siyəzəndə yeni nailiyyətlər əldə olunmuşdur. Sizin iştirakınızla Siyəzən kərpic zavodu istifadəyə verilmiş, neçə-neçə yeni iş yerləri yaradılmışdır və hazırda yeni obyektlər inşa edilir.

Əziz Prezident, Siz xalqımızın böyük oğlu, ümummilli liderimiz Heydər Əliyevin böyük siyasətinin davamçısı olduğunuzu sübut etdiniz. Mən Sizə şərəfli və məsuliyyətli prezidentlik vəzifəsində böyük uğurlar və həyat yollarında Allah-təaladan əmin-amanlıq diləyirəm.

**İlham Əliyev:** Əziz siyəzənlilər!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Burada mənim ünvanıma deyilən bütün xoş sözlərə görə sizə öz təşəkkürümü bildirirəm.

Bu şəkil doğrudan da gözəl xatirədir. Bu şəkil xalqımızın ümummilli lideri Heydər Əliyevin 20 il əvvəl Siyəzənə gəlişini əks etdirir. Burada, onun arxasında mən özümü görürəm. Bu bir növ rəmzi məna daşıyır. Mən seçkilərdən əvvəl Siyəzəndə olarkən, seçicilərlə görüşərkən demişdim ki, əgər mənə etimad göstərilərsə, Heydər Əliyevin yolunu davam etdirəcəyəm. İndi bu yolu davam etdirirəm. Bu şəkil də, bir növ, onun təzahürüdür ki, Heydər Əliyevin siyasəti yaşayır, davam edir. 20 ildən sonra biz məhz həmin yerdə yenə görüşürük.

Azərbaycan 20 il bundan əvvəl də uğurla inkişaf edirdi və bu gün də uğurla inkişaf edir. O vaxt başqa bir ictimai-siyasi quruluş idi, Azərbaycan müstəqil dövlət deyildi. Əlbəttə, öz siyasətini mövcud olan quruluşa uyğunlaşdırmalı idi. Amma buna baxmayaraq, xalqımızın lideri Heydər Əliyev o dövrdə də Azərbaycanın hərtərəfli inkişafı üçün böyük xidmətlər göstərmişdir. Azərbaycanda güclü sənaye potensialı məhz o illərdə yaranmışdır.

O cümlədən neft sənayesində. Siyəzən də neftçilər şəhəridir. Burada böyük mədənlər var, böyük işlər görülübdür. Bu gün Azərbaycan müstəqil dövlət kimi yaşayır, müstəqil dövlət kimi bütün sahələrdə öz siyasətini tam sərbəst, azad şəkildə həyata keçirir.

Mən bizim oktyabr ayındakı görüşümüzü bir daha xatırlatmaq istəyirəm. Siz mənə etimad göstərdiniz, mənə səs verdiniz. Seçkidən keçən dövr ərzində bütün verdiyim vədlər öz həllini tapır. Atılan bütün addımlar Azərbaycan xalqının gələcəyi naminədir. Müxtəlif proqramlar qəbul edilibdir, regional inkişaf proqramı həyata keçirilir. Mənim də regionlara səfərlərim bu proqramların icrası ilə bağlıdır. Bir var ki, proqramı qəbul edəsən, gözəl qərarlar qəbul edəsən, bir də var ki, onun icrası uğurla getsin. Məni ən çox maraqlandıran məhz ikinci cəhətdir. Görürəm ki, bu proqramlar öz həllini tapır.

Regionların inkişafına dair proqramın əsas istiqamətlərindən biri də yeni iş yerlərinin açılmasıdır və bu proses də uğurla gedir. Mənə indi məlumat verildi ki, Siyəzən rayonunda da bu istiqamətdə çox uğurlu addımlar atılıbdır. Burada seçkilərdən əvvəl açılmış kərpic zavodu da fəaliyyət göstərir. Ümid edirəm ki, bundan sonra yeni müəssisələr yaranacaq, insanlarımız işlə təmin olunacaqlar. Sosial məsələlər öz həllini tapacaqdır.

Sizə deyə bilərəm ki, seçkidən keçmiş dövr ərzində bütün istiqamətlərdə uğurlar var. Biz düz yoldayıq, ölkəmizi düzgün istiqamətdə inkişaf etdiririk. Beynəlxalq aləmdə Azərbaycan öz yerini gücləndirir, möhkəmləndirir. Mən heç şübhə etmirəm ki, biz gələcəkdə qarşımızda duran bütün məqsədlərə nail olacağıq, ölkəmizi gücləndirəcək, hərtərəfli inkişaf etdirəcəyik. Mən bu yolda sizin hamınıza uğurlar arzulayıram, cansağlığı, xoşbəxtlik diləyirəm. Sağ olun.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev sonra Siyəzən şəhər mərkəzi xəstəxanasında əsaslı təmir işlərinin gedişi ilə tanış oldu, xəstəxananın ayrı-ayrı otaqlarını gəzdi, təmirin keyfiyyətinin yüksəldilməsi, ən qısa vaxtda başa çatdırılması və müasir tələblərə cavab verməsi üçün tövsiyə və tapşırıqlar verdi.*

**İ l h a m  Ə l i y e v:** Mən seçkilərdən əvvəl buraya gələndə fikirləşirdim ki, bu xəstəxana hazır olacaq və biz bunun açılışını edəcəyik. Sonra mənə məruzə edildi ki, hazır deyildir. Dedim ki, eybi yoxdur, hazır olandan sonra bunu edərik. Amma çox əfsuslar olsun ki, seçkilərdən doqquz ay keçəndən sonra sizinlə söhbət əsnasında mənə məlumat verdiniz ki, bura hələ də hazır deyildir. Bu, xoşagələn hal deyildir. Gərək seçkilərdən sonra bu dərhal tamamlanaydı, yüksək səviyyədə avadanlıq da gətiriləydi. Əgər mən Əli müəllimlə bu barədə söhbət etməsəm, beləcə də qalacaqdı. Bilirsiniz, siz burada işlərinizə baxmamısınız. Yəqin fikirləşmisiniz ki, mən seçkilərdən sonra daha buraya gəlməyəcəyəm. Növbəti seçkilərdə gələcəm. Siz bunu seçkilər ərəfəsində başlamısınız.

Sonra mənə demişdilər ki, burada çox keyfiyyətsiz materiallardan istifadə edirsiniz. Nə üçün belədir? Gərək Azərbaycanda yeni tikilən bütün xəstəxanalar ən yüksək səviyyədə olsun. İstər paytaxtda, istərsə də ən ucqar rayonda. Ona görə siz buna fikir verin. Azərbaycan Dövlət Neft Şirkətinin indi imkanları var, inkişaf edir. Neft strategiyamız inkişaf edir. Ona görə bütün yerlərdə yeni tikilən obyektlər gərək yüksək standartlara cavab versin. Xüsusilə səhiyyə sahəsində.

Biz gələn ilin dövlət büdcəsinə baxacağıq. Orada səhiyyə üçün nəzərdə tutulan vəsait artırılacaqdır. Çünki çox azdır. Ona görə Səhiyyə Nazirliyinin, demək olar, imkanı yoxdur ki, yeni xəstəxanalar, səhiyyə ocaqları tiksin. Buna baxmayaraq, yeni avadanlıq alınır, böyük işlər də görülür. Amma indi Neft Şirkətinin imkanı var. Ona görə gərək siz burada təmiri yüksək səviyyədə aparasınız. İndi görürəm ki, səviyyə aşağıdır – bu lampalar, divarlar, qapılar, pəncərələr... Yəni buraya insanlar gələndə gərək özlərini çox rahat hiss etsinlər. Bakıda necədir, burada da elə olmalıdır. Bakıda deyəndə, mən Bakıdakı müasir səviyyəli səhiyyə ocaqlarını nəzərdə tuturam. Gərək burada xəstələrə yüksək xidmət göstərilsin. Bu, bölgə üçün ən böyük xəstəxana olacaqdır. Hazır olanda bir də gələcəyəm.

* * *

*Sonra prezident İlham Əliyev rayondakı digər obyektlərlə tanış oldu.*

## DƏVƏÇİ SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*20 iyul 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 20-də Siyəzəndən Dəvəçi rayonuna gəldi.*

*Rayon sakinləri dövlətimizin başçısı İlham Əliyevi və onun xanımı Mehriban Əliyevanı Heydər bağında böyük səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.*

**Rayon ağsaqqalı, Sosialist Əməyi Qəhrəmanı Qərib Orucov dövlətimizin başçısına müraciətlə dedi:** Cənab Prezident, Sizin Dəvəçi torpağına gəlməyinizi sevinc hissi ilə qarşılayır və yüksək qiymətləndiririk. Ümummilli liderimiz Heydər Əliyev bizim fəxrimiz idi. Biz onun ideyalarına həmişə sadiq olmuşuq. Dəvəçililər həmişə Heydər Əliyev siyasətini dəstəkləmişlər. Bu gün bir daha əmin ola bilərsiniz ki, biz Heydər Əliyevin çörəyinə sadiq qalaraq onun layiqli davamçısı olan İlham Əliyevin siyasətini dəstəkləyəcəyik. Biz Sizinlə fəxr edirik. Sizin həyata keçirdiyiniz tədbirlər nəticəsində Dəvəçi rayonunda da xeyli iş görülmüşdür. Qəbul etdiyiniz iqtisadi inkişaf proqramlarını ürəkdən bəyənirik. Bunların çərçivəsində burada artıq broyler, xalça fabrikləri işə salınmış, bu müəssisələrdə onlarla dəvəçili işlə təmin olunmuşdur. Biz dəvəçililər Azərbaycan prezidentinin bütün siyasətini bəyənir və xalqımızın rifahı, ölkəmizin tərəqqisi naminə Sizə uğurlar arzulayırıq. Sizi bir daha salamlayır, Sizə cansağlığı, uzun ömür diləyir, bütün bəlalardan uzaq olasınız deyirik.

**İlham Əliyev:** Əziz dəvəçililər!

Əziz dostlar, bacılar və qardaşlar!

Sizin hamınızı ürəkdən salamlayıram.

Buraya sizinlə görüşə gəlmişəm. Biz sizinlə seçkilərdən əvvəl görüşmüşdük. O günü çox yaxşı xatırlayıram. Seçkilərdən ötən dövrdə Azərbaycan inkişaf edir, iqtisadi potensialını gücləndirir. Sosial problemlərin həlli istiqamətində böyük addımlar atılıbdır. Amma yenə də

problemlər çoxdur və bu gün mənə verilən bu məktublara baxacağam. Sizə deyə bilərəm ki, mənə verilən bütün məktublara baxılır və tədbirlər görülür. Siz buna əmin ola bilərsiniz.

Bölgələrdə yeni iş yerlərinin açılması əsas prioritet məsələdir. Mən bu məqsədlə seçkilərdən sonra müvafiq fərmanlar, göstərişlər vermişəm və indi də bu fərmanların, qərarların icrası ilə maraqlanaraq bölgələrə səfər edirəm. Artıq bir neçə rayonda olmuşam və bu səfərlər davam edəcəkdir. Mən özüm mövcud vəziyyətlə tanış olmalıyam, özüm görməliyəm ki, bu proqramlar öz həllini necə tapır. Qərarlar verilib, bütün müvafiq göstərişlər verilibdir. Büdcədə kredit üçün nəzərdə tutulmuş vəsait artırılır. Gələn ilin büdcəsində bu məbləğlər artırılacaqdır. Yerlərdə sahibkarlığın inkişafı üçün şərait yaradılmalıdır. Bunu yerli icra orqanları etməlidir. Əlbəttə, sahibkarlar da çalışmalıdırlar ki, Azərbaycanda müxtəlif sahələrdə yeni istehsal, yeni iş yerləri açılsın. Biz bu istiqamətdə bundan sonra da addımlar atacağıq.

Azərbaycan Heydər Əliyevin yolu ilə gedir və inkişaf edir. Mən seçkilərdən əvvəl sizinlə burada görüşümdə bəyan etdim ki, mən bu yola, siyasətə sadiqəm və bu siyasət Azərbaycanda bundan sonra da aparılacaq və bu işlərə heç kəs mane ola bilməz. Azərbaycan xalqı öz seçimini edibdir. Heydər Əliyev siyasətini dəstəkləyir. Biz hamımız bu siyasəti davam etdirməliyik və edəcəyik.

Mən sizin hamınıza uğurlar arzulayıram. Arzu edirəm ki, sizin həyatınız bundan da yaxşı olsun. Azərbaycan Respublikasının prezidenti kimi, mən əlimdən gələni edəcəyəm ki, biz buna nail olaq. Sağ olun.

## QUBA RAYON KREDİT YARMARKASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*20 iyul 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 20-də Quba şəhərinə gəldi.*

*Dövlətimizin başçısı şəhərin girəcəyində yerləşən «Azkon» müəssisəsi ilə tanış oldu. Azərbaycan rəhbərinə məlumat verildi ki, burada quraşdırılmış müasir avadanlığın köməyi ilə istehsal olunan qənnadı məhsulları yüksək standartlara cavab verir.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün Quba Olimpiya İdman Kompleksində respublika İqtisadi İnkişaf Nazirliyinin dəstəyi ilə Sahibkarlığa Kömək Milli Fondu və banklar tərəfindən təşkil olunmuş kredit yarmarkasının açılışında iştirak etmiş və nitq söyləmişdir.*

**İ l h a m   Ə l i y e v:** Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, mən burada kredit sazişləri imzalayan sahibkarları təbrik etmək, onlara uğurlar arzulamaq istəyirəm.

Bilirsiniz ki, Azərbaycanda aparılan iqtisadi islahatlar nəticəsində ölkə iqtisadiyyatı sürətlə inkişaf edir. Bu inkişafın təməlində xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında yaradılmış ictimai-siyasi sabitlik durur. Əgər Azərbaycanda bu sabitlik olmasaydı, əlbəttə, hər hansı iqtisadi inkişafdan söhbət gedə bilməzdi.

Azərbaycanın iqtisadiyyatı son 7 il ərzində çox böyük templərlə inkişaf edir. Bunu biz də bilirik, bütün beynəlxalq maliyyə qurumları da bilir. Əlbəttə ki, bu bizi çox sevindirir. Ölkəmiz hər cəhətdən inkişaf edir. Aparılmış iqtisadi islahatların nəticəsində, Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi sayəsində ölkəmizə böyük

həcmdə maliyyə resursu daxil olmuşdur. Bilirsiniz ki, Azərbaycanda yaradılmış Neft Fondunda böyük həcmdə vəsait toplanmışdır. Ölkəmizin valyuta ehtiyatları ildən-ilə artır. Əlbəttə, bu bizə imkan verir ki, öz iqtisadi siyasətimizi sərbəst, müstəqil şəkildə aparaq. Azərbaycanın milli maraqlarını, iqtisadi təhlükəsizliyini yüksək səviyyədə qoruyaq. Əgər belə bir imkanlar yaradılmasaydı, əlbəttə, sahibkarlara kreditlərin verilməsi də çətinləşərdi.

Bildiyiniz kimi, Azərbaycanın büdcəsi ildən-ilə artır. Bu il də keçən ilə nisbətən xeyli artmışdır. Bu artım gələn il də gözlənilir. Azərbaycanda iqtisadi sahədə əldə edilmiş bütün uğurlarla yanaşı, sosial məsələlər də öz həllini tapır. İqtisadi və sosial məsələləri bir-birindən ayırmaq da düzgün olmazdı. Çünki bunlar daim bir-biri ilə bağlıdır, bir-birindən asılıdır. Ölkədə iqtisadi vəziyyət yaxşı olarsa, əlbəttə, əhalinin sosial problemləri də yüksək səviyyədə öz həllini tapa bilər.

Biz ölkəmizi bazar iqtisadiyyatı əsasında inkişaf etdiririk və buna baxmayaraq, əgər büdcəyə nəzər salsanız, görərsiniz ki, büdcənin tam əksəriyyəti sosial məsələlərin həllinə yönəlmişdir. Bu yaxınlarda minimum əmək haqqının qaldırılması, büdcədən maliyyələşən təşkilatlarda çalışan insanların əmək haqlarının artırılması məhz bu məqsədi daşıyır. Azərbaycan xalqının rifah halının qaldırılması, insanlar, vətəndaşlar üçün daha da yaxşı şəraitin yaradılması – biz bu siyasətə sadiqik. Bu siyasət Azərbaycanda 1993-cü ildən aparılır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə bu siyasət Azərbaycanda aparılmışdır və bundan sonra da aparılacaqdır.

Özəl sektorun inkişafı bizim üçün prioritet məsələdir. Mən bunu seçkilərdən əvvəl də demişdim. Seçkilərdən sonra da bəyan etdiyim təkliflər, proqramlar öz həllini tapır. Qəbul edilmiş regional inkişaf proqramı uğurla icra edilir və mənim də regionlara səfərlərimin məqsədi budur ki, yerlərdəki vəziyyətlə, mövcud problemlərlə şəxsən özüm tanış olum və lazımi qərarları verim.

Bilirsiniz ki, yeni iş yerlərinin açılması mənim seçkiqabağı proqramımın əsas istiqamətlərindən biri idi. Mən bu məsələ ilə əlaqədar öz fikirlərimi açıq şəkildə demişdim və çox şadam ki, nəzərdə tutulmuş bütün

məsələlər öz həllini tapır. Seçkilərdən sonra keçən dövr ərzində Azərbaycanda 40 minə qədər yeni iş yerləri yaradılıbdır. Çox sevindirici haldır ki, onların böyük hissəsi məhz bölgələrdə açılıbdır. Bölgələrin inkişafı, Azərbaycanın bütün regionlarının inkişafı çox vacib məsələdir.

Mənə məlumat verildi ki, belə bir tədbirin keçirilməsi üçün Quba Olimpiya İdman Kompleksi seçilmişdir. Yəni Qubada bundan böyük salon yoxdur, bundan gözəl şərait yoxdur. Bundan əvvəl Şəkidəki yarmarka da yenə Şəki Olimpiya İdman Kompleksində keçirilmişdir. Yəni mən onu demək istəyirəm ki, bölgələrə olan diqqət, münasibət mənim keçmiş fəaliyyətimdə də mühüm yeri tuturdu. Bölgələrdə yeni idman komplekslərinin tikilməsi Milli Olimpiya Komitəsinin prezidenti kimi, mənim üçün prioritet məsələ idi. İstəyirdim və bu gün də istəyirəm ki, bölgələrdə, rayonlarda istedadlı uşaqlarımız, yeniyetmələrimiz, gənclərimiz idmanla məşğul olsunlar, həm ölkəmizi dünyada təbliğ etsinlər, Azərbaycanın şöhrətini yüksəklərə qaldırsınlar, eyni zamanda Azərbaycanda sağlam nəsil yetişsin. Mənəvi, fiziki cəhətdən sağlam gənc nəsil yetişsin. Çox sevinirəm, çox şadam ki, biz buna nail oluruq.

Mən şübhə etmirəm ki, Azərbaycanda özəl sektor bundan sonra daha da sürətlə inkişaf edəcəkdir. Bu gün ümumi daxili məhsulumuzda özəl sektorun çəkisi 70 faizdən yuxarıdır. Nəzərə alsaq ki, Azərbaycanda iqtisadiyyatın ən qabaqcıl sahəsi neft sənayesidir və bilirsiniz ki, neft sənayesi dövlət inhisarındadır, görərik ki, iqtisadiyyatın qeyri-neft bölməsi, demək olar, tam mənada özəl sektorun əsasında formalaşır.

Mən seçkilərdən sonra sahibkarlarla görüşəndə də onlara öz dəstəyimi bildirdim. Mən çox istəyirəm ki, Azərbaycanda tezliklə orta təbəqə yaransın, yerli istehsal güclənsin. İdxalı əvəz edən istehsal genişlənsin. Əlbəttə, bu, yeni iş yerlərinin açılmasına gətirib çıxaracaq, eyni zamanda Azərbaycanda istehsal edilən malların satışından sonra büdcəyə vergi şəklində vəsait daxil olacaqdır.

Mən çox şadam ki, bu yarmarkalarda sazişlər imzalanır, kreditlər ayrılır. Nəzərdə tutulan kreditlərin həcmi gələcəkdə qaldırılacaqdır. Bu mə-

sələ ilə əlaqədar artıq biz məsləhətləşmələr aparırıq. Bilirik ki, böyük istehsalın yaradılması üçün böyük məbləğdə kreditlərin verilməsi lazımdır. Bu sahədə işlər gedir. Bu il üçün nəzərdə tutulmuş 100 milyard manat, şübhə etmirəm ki, gələn ilin büdcəsində daha böyük səviyyəyə çatacaqdır.

Bir sözlə, mən Azərbaycanın iqtisadi inkişafı qarşısında heç bir problem görmürəm. Mən keçmişdə iqtisadi məsələlərlə şəxsən yaxından məşğul olmuşam və Azərbaycan iqtisadiyyatını çox yaxşı bilirəm. Görürəm ki, potensial haradadır, nədədir. Biz bu potensialı necə canlandırmalıyıq, necə daha da inkişaf etdirməliyik.

Mən əminəm ki, yaxın illərdə Azərbaycan iqtisadi cəhətdən çox qüdrətli dövlətə çevriləcəkdir. Özü də təkcə neft amilinə görə deyil, həm də qeyri-neft sektorunun inkişafı nəticəsində. Qeyri-neft sektorunun inkişafı hamımız üçün ən başlıca məsələ olmalıdır. Neft sənayesində hər şey yolundadır. Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində ölkəmizə milyardlarla dollar sərmayə qoyulubdur, böyük layihələr həyata keçirilir. Təkcə Azərbaycan üçün deyil, bütün dünya üçün çox önəmli irimiqyaslı layihələr reallaşdırılır, Bakı–Tbilisi–Ceyhan kimi nəhəng neft kəməri tikilir. Bu yaxınlarda Bakı–Tbilisi–Ərzurum qaz kəməri tikiləcəkdir. Yəni neft sahəsində qarşımızda duran bütün məsələləri artıq həll edirik. Əminəm ki, yaxın illərdə Azərbaycan xalqı onun əyani nəticələrini daha da böyük həcmdə görəcəkdir.

Qeyri-neft sektorunun inkişafı sizdən, bizdən, dövlətdən və sahibkarlardan asılıdır. Dövlətin borcu sahibkarları müdafiə etmək, onları qorumaq, onları dəstəkləmək, güzəştli kreditlər vermək, infrastruktur yaratmaqdır. Biz bunların hamısını edirik və bundan sonra da edəcəyik. Sahibkarların borcu isə yaranmış vəziyyətdən bəhrələnmək, ayrılmış kreditlərdən səmərəli istifadə etmək, yeni iş yerləri, istehsal sahələri açmaq və əlbəttə, kreditləri vaxtında dövlətə qaytarmaq və vergiləri ödəməkdir. Yəni bu qarşılıqlı fəaliyyət nəticəsində Azərbaycan iqtisadi cəhətdən çox sürətlə inkişaf edəcəkdir. Mən buna şübhə etmirəm.

İstəyirəm sizə bir daha bildirəm ki, mən sahibkarları dəstəkləyirəm və bütün vəzifəli şəxslərdən, yerli icra orqanlarından tələb edirəm ki, sahibkarlara qayğı, diqqət göstərilsin. Çox müsbət haldır ki, yerlərdə yeni iş yerlərinin açılması haqqında mənə məruzələr gəlir. Mən yerlərdə icra hakimiyyətinin başçılarından soruşanda ki, vəziyyət necədir, ilk növbədə deyirlər ki, filan qədər yeni iş yeri açılıbdır. Yəni bu, ümummilli bir məsələyə çevrilibdir. Əminəm ki, biz qarşımızda duran bütün böyük məqsədlərə çatacağıq. Azərbaycan dövlətinin buna imkanı var, siyasi iradəsi var, xalqın dəstəyi var və əlbəttə, sahibkarların həvəsi, marağı, istəyi var. Mən bu yolda hamınıza uğurlar arzulayıram. Əminəm ki, siz ayrılmış kreditlərdən səmərəli istifadə edəcək, öz həyat səviyyənizi yaxşılaşdıracaq, yeni iş yerlərinin açılması üçün çalışacaqsınız ki, biz hamımız birlikdə ölkəmizi daha da gücləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək.

Sağ olun.

* * *

*Dövlətimizin başçısı idman kompleksinin qarşısında respublikamızın qadın voleybolçuları ilə görüşdü.*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev iyulun 20-də Qubada yeni istifadəyə verilmiş "Əli" Ticarət Mərkəzində olmuşdur. Burada dövlətimizin başçısını və onun xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla qarşıladılar, onlara gül dəstəsi təqdim edildi.*

*Prezident İlham Əliyev mərkəzlə, onun ayrı-ayrı mağazaları, köşkləri ilə tanış oldu, burada satılan malların çeşidləri ilə maraqlandı. Dövlətimizin başçısına məlumat verildi ki, mərkəz fəaliyyətə başladıqdan sonra burada xeyli adam işlə təmin olunmuşdur və gələcəkdə iş yerlərinin sayının artırılması üçün tədbirlər görülür.*

## QUBA İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*20 iyul 2004-cü il*

Əziz qubalılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizə öz dərin hörmət və məhəbbətimi bildirirəm.

Mən bu gün səhər Qubaya gəlmişəm. Səhərdən burada müxtəlif tədbirlər, görüşlər keçirilibdir. Mən çox şadam ki, Azərbaycanın qədim torpağı olan Quba inkişaf edir. Bilirsiniz ki, mən seçkilərdən əvvəl Qubaya gəlmişdim. Ondan əvvəlki dövrlərdə də dəfələrlə Qubada olmuşdum. Quba mənim üçün çox əziz bir şəhərdir, çox doğma bir diyardır. Təsadüfi deyil ki, Azərbaycan Milli Olimpiya Komitəsi tərəfindən ölkəmizin müxtəlif bölgələrində inşa edilmiş olimpiya kompleksləri içərisində ən möhtəşəmi məhz Qubada tikilmişdir. Keçən ilin oktyabr ayında biz birlikdə onun açılışını etdik. Məhz bu gün də o kompleksdə çox gözəl tədbir keçirilmişdir. Azərbaycanda sahibkarlıqla məşğul olan şəxslərə kreditlər verilmişdir. Bu, dövlət tərəfindən sahibkarlığın inkişafına yönəlmiş böyük bir addımdır.

Biz çalışırıq ki, sahibkarlıqla məşğul olan insanlar üçün daha gözəl şərait yaradılsın, onlara kreditlər verilsin və onların fəaliyyətinə dövlət tərəfindən daha yüksək səviyyədə qayğı göstərilsin. Bilirsiniz ki, mənim seçkiqabağı vədlərimin içərisində yeni iş yerlərinin açılması, yerli istehsalın güclənməsi, sahibkarlar sinfinin güclənməsi xüsusi yer tutmuşdur. Mən bu siyasətə sadiqəm və çox şadam ki, seçkilərdən keçən bu dövr ərzində Azərbaycanda 40 minə qədər yeni iş yeri açılmışdır. O cümlədən, bu bölgədə – Qubada və qonşu rayonlarda yeni iş yerləri yaradılmışdır.

Mən əminəm ki, bu siyasət Azərbaycana böyük xoşbəxtlik gətirəcəkdir. Azərbaycanın iqtisadiyyatı hərtərəfli inkişaf edəcəkdir. Qeyri-

neft sektoru inkişaf edəcək, Azərbaycanda işsizlik, yoxsulluq aradan qaldırılacaqdır. Bilirsiniz ki, bu istiqamətdə çox böyük addımlar atılmışdır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 1993-cü ildən başlayaraq aparılmış iqtisadi islahatlar Azərbaycana böyük faydalar gətirdi, böyük xeyirlər verdi, ölkəmiz inkişaf etdi. Xalqımız daha da yaxşı yaşamağa başladı. Mən də bu siyasətə sadiqəm.

Burada qeyd olundu ki, bu yaxınlarda qəbul edilmiş qərarlar əsasında Azərbaycanda büdcədən maliyyələşən təşkilatlarda çalışan insanların əmək haqları artırılır. Minimum əmək haqqı qaldırılıb və bundan sonra da qaldırılacaqdır. İmkan daxilində çalışacağıq ki, bütün gücümüzü, səylərimizi insanlarımızın daha da yaxşı yaşamasına yönəldək. Mən əminəm ki, Azərbaycanda aparılan iqtisadi siyasət nəticəsində, sosial siyasət nəticəsində xalqımız daha da yaxşı yaşayacaqdır.

Qaçqınların, məcburi köçkünlərin problemləri bizim ən ağrılı problemimizdir. Bu istiqamətdə də addımlar atılır. Mən bilirəm ki, Qubada da erməni təcavüzündən əziyyət çəkmiş insanlar yaşayırlar. Bilirsiniz ki, böyük proqramlar həyata keçiririk. Qaçqınlar, köçkünlər üçün yeni qəsəbələr, şəhərciklər salınır. Mən söz vermişdim ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Mən bu sözə sadiqəm və əminəm ki, biz bu proqramı həyata keçirəcəyik. Qaçqınlar, köçkünlər müvəqqəti olaraq daha müasir və münasib yerlərə köçürüləcəkdir. Amma hamımız bilməliyik ki, bu, müvəqqəti bir addımdır. Mən şübhə etmirəm ki, Azərbaycanın torpaqları işğaldan azad olunacaqdır. Biz öz torpaqlarımızı nəyin bahasına olursa-olsun azad edəcəyik. Azərbaycanın güclü ordusu var. Bilirsiniz ki, ordu quruculuğuna böyük diqqət göstərilir. Bu yaxınlarda orduya əlavə vəsait ayrılıbdır və şübhə etmirəm ki, biz torpaqlarımızı istənilən yolla azad edəcəyik.

Azərbaycanda qəbul edilmiş regional inkişaf proqramı həyata keçirilir. Mən seçkilərdən əvvəl bildirmişdim ki, bu məsələyə xüsusi diqqət göstəriləcəkdir. Çünki Azərbaycanın hər bir guşəsi, hər bir ra-

yonu, kəndi inkişaf etməlidir. Azərbaycanda gedən uğurlu iqtisadi siyasətin nəticəsini hər bir vətəndaş hiss etməlidir. Bu məqsədlə, bu proqramın necə həyata keçirilməsinə nəzarət etmək üçün mən bölgələrə səfər edirəm.

Mən Qubada doqquz ay bundan əvvəl olmuşam. Bu dövr ərzində Qubada böyük dəyişikliklər baş vermişdir. Bilirsiniz ki, mənim fərmanımla buraya yeni icra hakimiyyəti başçısı təyin olunubdur. Bu gün insanlarla söhbət əsnasında hiss edirəm ki, yeni icra hakimiyyəti başçısının fəaliyyəti bəyənilir və xalq tərəfindən dəstəklənir. Mən icra hakimiyyətinin başçısını təyin edəndə, əlbəttə, onunla Quba haqqında, ümumiyyətlə, bölgə haqqında çox ətraflı söhbət etdik. Mən öz tövsiyələrimi vermiş və demişdim ki, elə işləməlisən ki, xalq səni dəstəkləsin. Get, yaxşı işlə, insanlara qayğı göstər, insanlara kömək et. Bizim siyasətimiz bundan ibarətdir. Mən çox şadam ki, o bütün göstərişləri ləyaqətlə yerinə yetiribdir.

Hər bir rəhbərin əsas vəzifəsi xalqa xidmət etməkdir, xalqa qayğı göstərməkdir. Bu bizim vəzifəmizdir və onu şərəflə yerinə yetiririk. Mən əminəm ki, Azərbaycan növbəti illərdə daha da güclənəcək, öz iqtisadi potensialını gücləndirəcək, ölkəmiz zənginləşəcək, qüdrətli dövlətə çevriləcəkdir.

Qubalıların Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə böyük xidmətləri olmuşdur. Qubalılar müstəqillik uğrunda, torpaqlarımızın qorunması yolunda şəhidlər vermişlər. Qubalılar daim Azərbaycanın müstəqilliyi işinə böyük töhfələr vermişlər. Bu proses indi də davam edir. Mən buna görə sizə öz minnətdarlığımı, təşəkkürümü bildirirəm.

Əziz qubalılar, mən bir daha sizi salamlayıram. Bu görüşə gəldiyinizə görə sizə öz təşəkkürümü bildirirəm. Sizə xoşbəxtlik, cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

* * *

*Azərbaycan prezidenti İlham Əliyevin özəl xalçaçılıq müəssisəsi olan «Qədim Quba» Məhdud Məsuliyyətli Cəmiyyətlə tanışlığı da*

*yaddaqalan oldu. Burada dövlətimizin başçısının xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim edildi.*

*Azərbaycan prezidentinə məlumat verilərək bildirildi ki, burada toxunan məşhur Quba xalçalarına sifarişlər çox olur və onlar xarici ölkələrə də satılır. Burada çalışan 100-dən çox xalçaçının əmək haqları getdikcə artırılır.*

*Prezident İlham Əliyev müəssisənin istehsal gücünün artırılması üçün tədbirlər görülməsi və kreditlərin ayrılması barədə tapşırıqlar verdi.*

**Fəxri qonaqlar kitabına yazdığı ürək sözləri:**

*«Qədim Quba» müəssisəsi ilə tanış oldum. Şirkətin böyük potensialı vardır. Azərbaycanda son illər ərzində aparılan iqtisadi islahatlar yeni iş yerlərinin açılmasına imkan yaradır. Əminəm ki, Qubada yeni iş yerlərinin açılması istiqamətində bundan sonra da uğurlu addımlar atılacaqdır. Şirkətin kollektivinə yeni uğurlar arzulayıram.*

***Azərbaycan Respublikasının Prezidenti***
***İLHAM ƏLİYEV***

*21 iyul 2004-cü il».*

## QUBADA QIRMIZI QƏSƏBƏ SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*20 iyul 2004-cü il*

Əziz bacılar və qardaşlar!

Əziz dostlar!

Sizin hamınızı ürəkdən salamlayıram, sizi öpürəm, qucaqlayıram, bağrıma basıram.

Burada qeyd olundu ki, Azərbaycanda Heydər Əliyev siyasəti yaşayır, davam edir və bundan sonra da davam edəcəkdir. Bu siyasət bütün sahələrdə öz davamını tapıbdır. Azərbaycanın iqtisadiyyatı inkişaf edir. Azərbaycan beynəlxalq aləmdə öz mövqelərini möhkəmləndirir. Azərbaycanda sosial məsələlərin həlli istiqamətində böyük addımlar atılır. Əmək haqları artırılır. Azərbaycanda böyük abadlıq işləri aparılır. Yeni iş yerlərinin açılması istiqamətində böyük tədbirlər görülübdür. Yeni müəssisələr açılır. Yeni istehsal müəssisələri yaradılır, sənaye sahələri yenidən qurulur, yaxud bərpa olunur.

Seçkilərdən keçən dövr ərzində Azərbaycanda 40 minə qədər yeni iş yeri açılıbdır. Bu da çox böyük göstəricidir. Mən seçkilərdən əvvəl Qubada olmuşam, insanlarla görüşmüşəm. Qubada Azərbaycanın ən möhtəşəm idman kompleksinin açılışında biz bir yerdə iştirak etmişdik. Sizə öz sözlərimi o vaxt demişdim, öz proqramımı açıq, aydın şəkildə bəyan etmişdim. Bu gün iftixar hissi ilə deyə bilərəm ki, dediyim bütün sözlərə, verdiyim vədlərə sadiqəm. Verdiyim bütün vədlər yerinə yetiriləcəkdir.

Mən qeyd etdim ki, Azərbaycanda Heydər Əliyev siyasəti bütün sahələrdə davam edir. O cümlədən, millətlərarası münasibətlər sahəsində. Azərbaycanın müstəqilliyinin ilk illərində, əfsuslar olsun ki, bu sahədə keçmiş rəhbərlik tərəfindən böyük səhvlərə, deyə bilərəm, ci-

nayətlərə yol verilmişdi. Ölkədə Azərbaycan xalqına, Azərbaycan cəmiyyətinə xas olmayan, milli zəmində ayrı-seçkilik siyasəti açıq formada aparılırdı. Bu siyasət Azərbaycanı uçuruma aparırdı.

Təsadüfi deyil ki, 1991–1992-ci illərdə Azərbaycanda səriştəsiz, bacarıqsız rəhbərliyin yarıtmaz fəaliyyəti nəticəsində ölkəmiz böhrana düşmüşdü. İqtisadi, siyasi böhran yaşanırdı. Ölkəmiz parçalanma ərəfəsində idi. O zaman Azərbaycan xalqı bir daha müdriklik göstərərək öz liderinə üz tutdu, Heydər Əliyevi Azərbaycana rəhbərliyə dəvət etdi. Xalqımızın ümummilli lideri rəhbərliyə gəldi, bütün xoşagəlməz meyllərə son qoydu və dedi ki, biz hamımız azərbaycanlıyıq, bizim hamımızın bir vətəni var. O da Azərbaycandır!

Azərbaycanda yaşayan dağ yəhudiləri bizim qardaşlarımızdır, mənim qardaşlarımdır. Bu siyasət Azərbaycanda əbədi aparılacaqdır. Bizim hamımızın məqsədi, amalı ölkəmizi inkişaf etdirmək, onun hər bir bölgəsini, rayonunu, qəsəbəsini, kəndini abadlaşdırmaqdır. Mən çox şadam ki, Qırmızı qəsəbədə də abadlıq, quruculuq işləri gedir, inkişaf göz qabağındadır.

Mən bu gün Qubanın digər yerlərində də insanlarla görüşlər keçirmişəm. Çox şadam ki, mənim seçdiyim, təyin etdiyim icra hakimiyyətinin başçısı burada yaxşı işləyir. Ona göstərişlər vermişəm ki, dağ yəhudilərinin yaşadığı yerlərə xüsusi diqqət göstərsin. Mən özüm də vaxtaşırı gəlib bütün məsələlərə şəxsən nəzarət edəcəyəm.

Seçkilərdən əvvəl mən təbii ki, Azərbaycanın bir çox bölgəsində, o cümlədən Qubada da olmuşdum. Amma istəyirəm biləsiniz ki, bu, sadəcə, seçki kampaniyası naminə atılmış addım deyildi. Mən mütəmadi qaydada bu məsələlərlə maraqlanıram. Azərbaycanın hər bir bölgəsi, hər bir rayonu mənim üçün əzizdir, doğmadır. Çox istəyirəm ki, bu beş ili də çox uğurla, şərəflə başa vuraq. Azərbaycanı daha da gücləndirək, hərtərəfli inkişaf etdirək, ölkəmizi yeni bir pilləyə qaldıraq. Buna nail olmaq üçün xalq gərək bir olsun. Xalqımızda birlik vardır. Xalqımızın məqsədi birdir. Bu gün Azərbaycan xalqı Heydər Əliyev siyasətinə başqa alternativ görmür. Çünki bu siyasətə alternativ

ola bilməz. Təsadüfi deyil ki, ötən il keçirilmiş seçkilərdə Azərbaycanda, o cümlədən Qubada seçicilərin tam əksəriyyəti Heydər Əliyev siyasətinə səs vermişlər. Mən buna görə sizin hamınıza minnətdaram və bu böyük etimadı doğruldacağam.

Azərbaycana vaxtaşırı xaricdən, müxtəlif ölkələrdən yəhudilər gəlirlər. Həmişə onlara deyirəm ki, Qubaya gedin, baxın. Azərbaycanın başqa bölgələrinə gedin. Qırmızı qəsəbəyə gedin, görün Azərbaycanda yəhudilər necə yaşayırlar. Biz özümüzü bir-birimizdən heç vaxt ayırmamışıq, heç vaxt da ayırmayacağıq. Biz hamımız Azərbaycan vətəndaşlarıyıq. Hamımızın bir vətəni var. Bu vətən uğrunda hamımız ölümə də getməyə hazırıq.

Dağ yəhudiləri Azərbaycanın müstəqilliyində böyük xidmətlər göstərmiş, şəhidlər vermişlər. Görkəmli yəhudi döyüşçülər, əsgərlər Azərbaycan ordusunda müstəqillik, torpaq uğrunda şəhid olmuşlar. Onların xatirəsi bizim hamımız üçün müqəddəsdir.

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Mən çox şadam ki, bu gün sizinlə birlikdəyəm. Çox şadam ki, biz bu görüşü keçiririk. Mən belə əyani şəkildə sizə öz dərin minnətdarlığımı, hörmətimi, ehtiramımı, məhəbbətimi bildirirəm. Sizə cansağlığı arzulayıram. İstəyirəm ki, daha da yaxşı yaşayasınız, daha da yaxşı şərait olsun. Heç bir şübhə etmirəm ki, biz hamımız buna nail olacağıq. Sizə bir daha cansağlığı, ailə səadəti, xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

*Qəsəbə sakinləri ilə səmimi şəraitdə söhbətini davam etdirən prezident İlham Əliyev onların həyat şəraiti, problemləri ilə maraqlandı. Sosial-iqtisadi sahədə qarşıda duran vəzifələrin öhdəsindən birlikdə gəldiklərini vurğulayan sakinlər Azərbaycan vətəndaşları kimi, beynəlxalq yəhudi təşkilatlarının nümayəndələri ilə görüşlərində Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı problemini daim diqqət mərkəzində saxladıqlarını söylədilər.*

**Q ə s ə b ə  s a k i n i:** Cənab Prezident, biz lobbiçiliyin yaradılmasında çox mühüm rol oynayırıq. Buraya senatorlar, Avropa Şurasından nümayəndələr, iş adamları gəlirlər. Birinci növbədə, Qarabağ məsələsini, ikinci növbədə 907-ci maddənin tam aradan qaldırılması məsələsini diqqətə çatdırırıq.

**İ l h a m  Ə l i y e v:** Bilirəm, mən Amerikada dəfələrlə olmuşam. Hər dəfə orada olarkən yəhudi lobbisinin nümayəndələri ilə görüşmüşəm. Ümumiyyətlə, təkcə Amerikada deyil, başqa ölkələrdə də, məsələn, son dəfə Bratislavada da görüşmüşdüm. Onların Azərbaycana dəstəyi böyükdür, sağ olsunlar. Bilirəm, bu istiqamətdə sizin də fəaliyyətiniz çox müsbətdir. Bir var ki, biz deyək, bir də var ki, burada yaşayan yəhudilər desinlər. Gəlib görsünlər ki, hansı ölkədə belə bir şərait var. Gəlirlər, baxırlar, sonra mənimlə görüşürlər. Hər dəfə böyük ruh yüksəkliyi ilə ayrılırıq. Həqiqətən, Azərbaycanın böyük sərvətidir ki, burada bütün millətlər bir ailə kimi yaşayırlar.

**Y e v d a  A b r a m o v:** Azərbaycan, xüsusilə Quba Qafqazın İsveçrəsidir.

**İ l h a m  Ə l i y e v:** Quba İsveçrəni də keçibdir. Mən İsveçrədə olmuşam. İsveçrədə belə gözəl mənzərə yoxdur.

**Y e v d a  A b r a m o v:** Cənab Prezident, hamımız əlbir olub Qubanı turizm mərkəzinə çevirməliyik ki, xaricilər gəlsinlər.

**İ l h a m  Ə l i y e v:** Bəli, bəli. Biz ən böyük olimpiya kompleksini burada yaratdıq. Adı olimpiya kompleksi olsa da, əslində, bu, turizm mərkəzidir.

**Y e v d a  A b r a m o v:** Tədbirlərdə iştirak etmək üçün oraya gedirik. Xaricilər gəlirlər. Bu yaxınlarda Ərəb Əmirliklərindən gəlmişdilər.

**İ l h a m  Ə l i y e v:** İndi orada boş yer yoxdur. Mən orada idim, boş yer yox idi. Sizə uğurlar arzulayıram. Sağ olun.

**Y e v d a  A b r a m o v:** Cənab Prezident, Siz çox sağ olun ki, bu şərəfi bizə bəxş etdiniz.

## QUSAR ŞƏHƏR SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*21 iyul 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyevv ölkənin şimal bölgəsinə səfəri çərçivəsində Qusar rayonuna gəldi. Dövlətimizin başçısını qarşılamaq üçün on minlərlə sakin Qusar şəhərinin küçə və meydanlarına çıxmışdı.*

*Prezident İlham Əliyev şəhərin Nəriman Nərimanov adına parkına gəldi. Burada əsaslı təmir olunmuş veteranlar evinə baş çəkdi, müharibə və əmək veteranları ilə görüşündə bu insanlara qayğının həmişə ölkə rəhbərliyinin diqqət mərkəzində olduğunu söylədi. Veteranlar dövlətimizin başçısının xarici və daxili siyasətini bəyəndiklərini və lazım gələrsə, torpaqlarımızın azad edilməsi üçün Azərbaycan prezidentinə hər cür dəstək verməyə hazır olduqlarını bildirdilər. Prezident İlham Əliyev torpaqlarımızın tezliklə düşmən işğalından azad olunacağını, qaçqın və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıdacaqlarını söylədi.*

**İ l h a m Ə l i y e v:** Əziz qusarlılar, bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizə dərin hörmət və məhəbbətimi bildirirəm, hamınızı qucaqlayıb bağrıma basıram. Mən seçkilərdən əvvəl Qusara gələ bilməmişdim. Burada qeyd olunduğu kimi, qusarlılarla Qubada görüşmüşdüm. Ona görə də çox istəyirdim ki, seçkilərdən sonra Qusara səfər edim və bu gün mən sizinlə birlikdəyəm.

Qusar Azərbaycanın ən gözəl guşələrindən biridir. Burada yaşayan insanlar Azərbaycan dövlətçiliyinə, onun qurulmasında, müstəqilliyimizin möhkəmləndirilməsində böyük xidmətlər göstərmişlər. Onlar Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhidlər vermişlər. Buna görə

də bütün Azərbaycan xalqı qusarlılara minnətdardır və mən burada bu hissləri sizə çatdırıram.

Azərbaycanın hər bir bölgəsi inkişaf edir. Bilirsiniz ki, xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən başlanmış iqtisadi islahatlar siyasəti ölkəmizə böyük uğurlar gətirmişdir. İqtisadiyyatımız sürətlə inkişaf edir, böyük həcmdə xarici sərmayələr gətirilir, torpaq kəndlilərə paylanmışdır. Bütün bu addımlar Azərbaycanın gələcəyi üçün möhkəm zəmin yaratmışdır. Seçkilərdən sonra bu siyasət davam etdirilir. Mən seçkilərdən əvvəl bildirmişdim ki, Heydər Əliyev siyasətinə sadiq qalacağam və onu bundan sonra da həyata keçirəcəyəm. Son doqquz ay ərzində görülən işlər bu istiqamətdə böyük addımlar atıldığını deməyə əsas verir. Regional inkişaf proqramının qəbul edilməsi, bölgələrdə yeni iş yerlərinin açılması, yerli istehsalın güclənməsi – bütün bu faktlar göz qabağındadır. Prezident seçkilərindən sonra Azərbaycan iqtisadi cəhətdən daha da güclənmişdir. Ölkədə 40 minə yaxın yeni iş yeri açılmışdır.

Dünən mənim Qubada sahibkarlarla görüşüm olmuşdur. Mən orada Qusardan olan sahibkarlarla da görüşdüm və onların istehsal etdiyi məhsullarla tanış oldum. Onlara böyük kreditlər verilibdir və bu, gələcəkdə də davam edəcəkdir. Azərbaycanın maliyyə imkanları yaxşılaşır, xəzinəmiz böyüyür. Heydər Əliyevin neft strategiyasının nəticəsi olaraq Azərbaycana böyük həcmdə vəsait gətirilibdir. Əlbəttə, dövlətin və hökumətin başlıca vəzifəsi xalqa xidmət etməkdir. Bu baxımdan iqtisadiyyatımızı hərtərəfli inkişaf etdirmək üçün növbəti illərdə kreditlər ayrılması daha geniş vüsət alacaqdır. Bu il sahibkarlar üçün 100 milyard manat kredit nəzərdə tutulmuşdur. Gələn il bu məbləğ daha da böyük olacaqdır. Bütün bunlar ölkəmizin daha da inkişaf etməsinə, yeni iş yerlərinin açılmasına, yerli istehsal sahələrinin, fabriklərin, zavodların açılmasına imkan verəcəkdir. Beləliklə, xalqımız daha yaxşı yaşayacaqdır. Şübhə etmirəm ki, bu müsbət meyllər Qusarda da öz əksini tapacaqdır. Burada qeyd olundu ki, mən bu yaxınlarda Qusara yeni icra hakimiyyəti başçısı təyin etmişəm. İki aydır o burada

işləyir və mən çox ümid edirəm ki, siz onun fəaliyyətini bəyənəcəksiniz. Tutduğu vəzifədən asılı olmayaraq, hər bir rəhbərin başlıca vəzifəsi xalqa, millətə xidmət etməkdir. Bu, prezidentə də, icra hakimiyyəti başçısına da, digər vəzifəli şəxslərə də aiddir. Mən vəzifəli şəxslərə onların gördükləri işlərə, xalqın onlara olan münasibətinə görə qiymət verəcəyəm. Əgər siz ondan razı olacaqsınızsa, mən onu tərifləyəcəyəm. Əgər razı olmayacaqsınızsa, mən onu işdən çıxaracağam. Mən onu Qusara icra hakimiyyəti başçısı təyin edəndə tapşırıq verdim ki, yaxşı işləməlisən, elə etməlisən ki, camaat səndən razı olsun. Çünki yerlərdə icra orqanları yaxşı işləyəndə insanların güzəranı da, əhval-ruhiyyəsi də yaxşı olur. İctimai-siyasi durum da, ab-hava da yaxşılaşır. Şübhə etmirəm ki, mənim təyin etdiyim icra hakimiyyəti başçıları öz vəzifələrinin öhdəsindən layiqincə gələcəklər və siz onlardan razı qalacaqsınız.

Biz də öz növbəmizdə, Qusara daim kömək edəcəyik. Artıq burada müəyyən işlər görülməyə başlanıbdır. Mən Qusardan gələn bütün təkliflərə baxacağam. Düzdür, regional inkişaf proqramında rayonda mühüm tədbirlər nəzərdə tutulmuşdur. Amma bu, inkişafın parametrlərini tam mənada əks etdirmir. Buraya daha böyük həcmdə vəsait qoyulacaq, yeni iş yerləri açılacaq, fabriklər və zavodlar tikiləcəkdir. Siz əmin ola bilərsiniz ki, mən Qusara xüsusi diqqət göstərəcəyəm və çalışacağam ki, növbəti beş ildə bu gözəl rayon daha da gözəlləşsin, abadlaşsın.

Bir məsələni də qeyd etmək istəyirəm. Bilirsiniz ki, Milli Olimpiya Komitəsi tərəfindən ölkəmizin müxtəlif yerlərində yeni idman obyektləri tikilib istifadəyə verilir. Bu barədə müxtəlif rayonlardan müraciətlər olubdur və onlar müsbət həll edilibdir. Qubada, Şəkidə, Naxçıvanda, Gəncədə, Lənkəranda və digər yerlərdə bu cür komplekslər tikilibdir. Buraya gələrkən mən düşündüm ki, Qusarda idmanla məşğul olmaq istəyənlərin sayı həmişə çox olubdur. Rayonda çox yaxşı idmançılar olubdur və onlar ölkəmizin idman şərəfini beynəlxalq yarışlarda dəfələrlə qorumuş, Azərbaycanın idman şöhrətini ucaltmışlar. Mən soruşdum ki, burada idmanla məşğul olmaq üçün bir yer varmı?

Cavab verdilər ki, balaca bir yer vardır. Düşünürəm ki, bu, kiçik də olsa, bir nöqsandır. Sizə bəyan etmək istəyirəm ki, Milli Olimpiya Komitəsi Qusarda yeni və gözəl olimpiya kompleksi tikəcəkdir. Xahiş edirəm ki, icra hakimiyyəti başçısı, ağsaqqallar, veteranlar, şəhər ictimaiyyəti birgə fikirləşsinlər və bu kompleks üçün yaxşı bir yer tapsınlar. Bu yer yaxşı görünən və münasib bir ərazidə olmalıdır. Ümidvaram ki, qısa bir zamanda biz burada dünyanın ən yüksək standartlarına cavab verən olimpiya kompleksini tikəcəyik və onun açılışını bir yerdə edəcəyik. Bu, Milli Olimpiya Komitəsi tərəfindən Qusara bir hədiyyə olacaqdır. Amma prezident kimi, mən Qusar camaatı üçün daha böyük işlər görmək istəyirəm. Burada həyat səviyyəsi yüksəlməli, insanlar daha yaxşı yaşamalıdırlar. Ona görə də bir daha demək istəyirəm ki, Qusardan gələn bütün təkliflərə diqqətlə baxılacaq və əminəm ki, qısa zaman ərzində rayon daha da inkişaf edəcək və güclənəcəkdir.

Burada yaşayan insanlar Azərbaycanın çox dəyərli vətəndaşlarıdır. Təəssüf ki, müstəqilliyin ilk illərində ölkəmizdə milli siyasətə əhəmiyyət verilmirdi, ya da ki, bu sahədə böyük nöqsanlara, hətta deyə bilərəm ki, cinayətlərə yol verilmişdir. Xüsusilə 1991–93-cü illərdə Azərbaycanın keçmiş rəhbərliyi tərəfindən milli zəmində aparılmış ayrı-seçkilik, ögey münasibət ölkəni çox böyük fəlakətə sürükləyirdi. Azərbaycanda müxtəlif millətlərə mənsub insanların əsrlər boyu bir ailə kimi yaşaması bizim sərvətimiz olmuşdur. Bu siyasət 1970–80-ci illərdə çox gücləndirilmişdi. Xalqımızın ümummilli lideri Heydər Əliyev bu məsələlərə daim diqqət yetirirdi və çalışırdı ki, Azərbaycanda yaşayan bütün millətlər bütün idarəçilik orqanlarında təmsil olunsunlar, onların yığcam şəkildə yaşadığı rayonlar daha da inkişaf etsin. Əfsuslar olsun ki, ölkəmizi böyük bəlalara düçar edən keçmiş hakimiyyət bu sahədə böyük səhvlər, cinayətlər etmişdir. Xalqın tələbi ilə ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra bu sahədə də böyük irəliləyiş əldə olundu. Azərbaycanda yaşayan bütün insanlar, milli mənsubiyyətindən asılı olmayaraq, ölkəmi-

zin dəyərli vətəndaşlarıdır. Mən bu siyasətə sadiqəm və mənim vaxtımda bu zəmində heç vaxt ölkədə heç bir problem olmayacaqdır. Azərbaycanda bütün millətlər bir ailə kimi yaşayacaq və ölkəmizi inkişaf etdirəcəklər.

Əziz bacılar və qardaşlar!

Mən bir daha sizi salamlayıram. Bu görüşə gəldiyinizə və mənə göstərdiyiniz hörmətə görə sizə öz minnətdarlığımı bildirmək istəyirəm. Sizi əmin edirəm ki, mən daim qusarlılarla olacağam, Qusara tez-tez gələcəyəm və biz birlikdə böyük işlər görəcəyik.

Sizin hamınızı qucaqlayıram, bağrıma basıram. Sağ olun və xoşbəxt olun.

## XUDAT SƏRHƏD DƏSTƏSİNİN ŞƏXSİ HEYƏTİ İLƏ GÖRÜŞDƏ NİTQ

*21 iyul 2004-cü il*

*Azərbaycan prezidenti Xudat sərhəd dəstəsinin şəxsi heyəti ilə görüşdü..*

*Dövlət Sərhəd Xidmətinin rəisi, Sərhəd Qoşunlarının komandanı, general-leytenant Elçin Quliyev Azərbaycan prezidentini, Ali Baş Komandanı qarşıladı və ona raport verdi.*

**İ l h a m Ə l i y e v:** Əziz sərhədçilər!

Mən sizin hamınızı ürəkdən salamlayıram, seçdiyiniz şərəfli peşənizdə uğurlar arzulayıram.

Hər bir dövlət üçün sərhəd qoşunları dövlət müstəqilliyinin əsas əlamətlərindən biridir. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra ilk vaxtlar Sərhəd Qoşunları yox idi. Sərhədlərimiz, demək olar ki, qorunmurdu və şəffaf idi. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində bu sahəyə diqqət yetirilmirdi. Azərbaycan müxtəlif xarici ünsürlər üçün açıq ölkəyə çevrilmişdi. O illərdə ölkəmiz terrora məruz qalmışdı, erməni terrorist təşkilatları tərəfindən 32 terror aktı törədilmiş, bunların nəticəsində 2 mindən çox insan həlak olmuşdu. Azərbaycanın sərhədləri qorunmurdu və ölkəmizin müstəqilliyi böyük təhlükə altında idi.

Ümumiyyətlə, 1990-cı illərin əvvəllərində Azərbaycan yalnız formal olaraq dövlət kimi fəaliyyət göstərirdi. Ölkəmiz öz siyasətini azad şəkildə apara bilmirdi və müxtəlif ölkələrin bəzi dairələrinin təsiri altına düşmüşdü. Yalnız və yalnız xalqımızın ümummilli lideri Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan öz dövlət müstəqilliyini qorumağa, möhkəmləndirməyə başladı. Bu gün Azərbaycan

tam mənada müstəqil dövlət kimi yaşayır və fəaliyyət göstərir, dünyada müstəqil xarici, iqtisadi siyasət aparır. Bütün başqa sahələrdə də apardığımız siyasət tam sərbəst və azad şəkildə həyata keçirilir. Biz Azərbaycan xalqının milli maraqlarını qoruyuruq və bu maraqları hər şeydən üstün tuturuq. Bu gün ölkəmizə təsir edə bilən heç bir qüvvə yoxdur. Biz bu müstəqilliyimizi heç vaxt əldən verməyəcəyik. Azərbaycanın prezidenti kimi, mən öz müstəqil siyasətimi aparacağam. Bu siyasət xalqın iradəsi ilə aparılır. Xalqımızın iradəsi və maraqları mənim üçün hər şeydən üstündür.

1993-cü ilə qədər Azərbaycan bütün sahələrdə ağır böhran keçirirdi. İqtisadiyyatımız dağılmışdı, ölkəmiz xaricdə öz mövqelərini qoruya bilmirdi, Ermənistan tərəfindən edilmiş təcavüz torpaqlarımızın itirilməsi ilə nəticələnmişdi, daxildə gedən xoşagəlməz proseslər ölkəmizi içəridən dağıdırdı. Daxili sabitlik pozulmuş və xalqımız böyük bəlalarla üzləşmişdi. Bütün başqa sahələrdə olduğu kimi, Sərhəd Qoşunlarının yaradılması istiqamətində də Heydər Əliyevin siyasəti həlledici rol oynadı. Onun siyasəti nəticəsində Azərbaycan bütün sahələrdə inkişaf etdi – iqtisadiyyat tərəqqi etdi, xarici siyasətdə böyük uğurlar əldə olundu. Ölkəmizdə mövcud olan sosial problemlər öz həllini tapırdı və gördüyünüz kimi, bu siyasət bu gün də davam etdirilir.

Sərhəd Qoşunlarının formalaşdırılmasında Heydər Əliyevin rolu müstəsna olmuşdur. Məhz onun rəhbərliyi altında Azərbaycanda Sərhəd Qoşunları formalaşdı, gücləndi və bu gün ölkəmizin milli maraqlarını çox ləyaqətlə qoruyurlar. Xalqımızın ümummilli liderinin qərarı ilə Sərhəd Qoşunları müstəqil qurum kimi fəaliyyətə başladıqdan sonra bu istiqamətdə çox böyük müsbət dəyişikliklər baş vermişdir. Mən çox şadam ki, bu gün Azərbaycanın Sərhəd Qoşunları bütün yüksək standartlara cavab verir və ölkəmizin sərhədləri etibarlı şəkildə qorunur.

Mövcud olan zəmanənin öz çətinlikləri vardır. Bilirsiniz ki, dünyada ölkələr beynəlxalq terrorizmlə mübarizədə birləşir. Qeyd etdiyim kimi, Azərbaycan da terrora məruz qalmışdır. Ona görə də sərhədlərimizin qorunması bu baxımdan da bizim üçün çox önəmlidir.

Bu gün Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. Ölkəmiz bu baxımdan bölgədə liderdir və onu əldən vermir. Aparılmış iqtisadi islahatların, Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycan öz iqtisadi potensialını gücləndiribdir. Ölkəmizin maddi imkanları gündən-günə yaxşılaşır və bu, mövcud olan sosial problemlərin həll olunmasına şərait yaradır. Azərbaycanda əmək haqları qaldırılır və demək istəyirəm ki, Sərhəd Qoşunlarında xidmət edən şəxsi heyətin əmək haqqı da artırılacaqdır.

Azərbaycanın iqtisadi maraqları çox yüksək səviyyədə qorunmalıdır. Ölkəmizin iqtisadi təhlükəsizliyi etibarlı şəkildə təmin olunmalıdır və bu sahədə Sərhəd Qoşunlarının da böyük rolu vardır. Qaçaqmalçılığın qarşısının alınması, narkotik vasitələrin qanunsuz dövriyyəsinə imkan verilməməsi bizim üçün çox önəmlidir. Əlbəttə, problemlər də mövcuddur və onların aradan qaldırılması istiqamətində böyük addımlar atılır. Əminəm ki, Sərhəd Qoşunları bundan sonra da qarşıda duran bütün vəzifələrin öhdəsindən layiqincə gələcəkdir. Azərbaycanın ən ağrılı problemi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bilirsiniz ki, ölkəmiz uzun illərdir bu məsələni sülh yolu ilə həll etmək istəyir. Əfsuslar olsun ki, aparılmış bütün danışıqlar hələlik nəticə vermir. Vasitəçilik missiyasını öz üzərinə götürmüş tərəflərin fəaliyyəti də nəticəsizdir. Bəzən səslənən təkliflər və çağırışlar reallığı əks etdirmir. Azərbaycanın işi haqq işidir. Bizim torpaqlarımız işğal altındadır və beynəlxalq hüquq bizim tərəfimizdədir. Haqq-ədalət, iqtisadi imkanlar da bizim tərəfimizdədir. Ordu quruculuğunda böyük işlər görülübdür. Bilirsiniz ki, bu sahəyə böyük diqqət göstərilir, lazımi vəsait ayrılıbdır və bundan sonra da ayrılacaqdır. Bir neçə ildən sonra Azərbaycan iqtisadi cəhətdən çox güclü dövlətə çevriləcəkdir. Əlbəttə ki, ölkəmiz hərbi cəhətdən də üstünlüyü daha da möhkəmləndirəcəkdir.

Bir sözlə, bütün beynəlxalq normalar, reallıqlar Azərbaycanın tərəfindədir. Belə olan halda, bəzi çağırışlar, xüsusilə güzəştlə bağlı təkliflər bizim tərəfimizdən müsbət reaksiya ilə qarşılana bilməz. Ərazi bütövlüyü məsələlərində güzəşt ola bilməz! Mən bunu dəfələrlə bəyan etmişəm. Biz heç vaxt ərazi bütövlüyü məsələsində güzəştə getməyəcəyik. Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır. Biz istəyirik ki, bunu sülh yolu ilə edək. Çalışırıq və hələ ki, imkanlarımız, ümidlərimiz tükənməyibdir. Amma hər an, istənilən vaxt torpaqlarımızı başqa yolla, silahlı yolla azad etməyə hazır olmalıyıq. Bunu etmək üçün bizim bütün imkanlarımız – Azərbaycan xalqının birliyi, səfərbərliyi, ölkəmizin güclü ordusu, Azərbaycan rəhbərliyinin və xalqımızın iradəsi vardır.

Azərbaycan dövlətinin və hökumətinin siyasəti xalqımız tərəfindən dəstəklənir və bəyənilir. Bu iki gün ərzində mən bunun bir daha şahidi oldum. Quba, Qusar rayonlarında keçirdiyim görüşlər məni bir daha əmin etdi ki, Azərbaycan xalqı ölkədə aparılan siyasəti dəstəkləyir. Mən bu dəstəyi ötən il keçirilmiş prezident seçkilərində də hiss etdim, gördüm və bu dəstəyə arxalanıram. Seçkilərdən ötən dövr ərzində Azərbaycan bütün istiqamətlərdə çox uğurlu siyasət aparır. Ölkəmizin beynəlxalq əlaqələri inkişaf edir, biz dünyada mövqeyimizi gücləndiririk, ikitərəfli münasibətlər sahəsində çox uğurlu siyasət aparılır, iqtisadi baxımdan Azərbaycan inkişaf edir, əmək haqqı qaldırılır, digər sosial məsələlər öz həllini tapır. Heydər Əliyevin əsəri olan və onun adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəməri uğurla inşa edilir. Mən şübhə etmirəm ki, qarşımıza qoyduğumuz bütün vəzifələr, məqsədlər həyata keçiriləcəkdir.

Mən Sərhəd Qoşunlarının inkişafına böyük önəm verirəm. Qeyd etmək istəyirəm ki, Sərhəd Qoşunlarının komandanlığı ilə mütəmadi olaraq əlaqə saxlayır, məsələlərlə maraqlanıram, mənə məruzələr edilir, təkliflər verilir. İstəyirəm biləsiniz ki, verilən bütün təkliflərə müsbət cavab verilir. Sərhəd Qoşunlarının inkişafına, onun infrastrukturunun yaradılmasına və güclənməsinə vəsait ayrılır. Bu vəsaitdən sə-

mərəli istifadə olunur və beləliklə, Azərbaycanda yeni sərhəd dəstələri, zastavalar yaradılır. Bu proses davam etdiriləcəkdir. Mən qeyd etdim ki, Azərbaycanın Sərhəd Qoşunları qarşıda duran vəzifələri ləyaqətlə yerinə yetirir. Amma biz istəyirik ki, Sərhəd Qoşunları daha da güclənsin. Bunu etmək üçün, əlbəttə ki, maddi vəsait lazımdır və biz bu vəsaiti ayıracağıq. Azərbaycanın iqtisadi imkanları genişlənir. Ölkəmiz ildən-ilə zənginləşir, öz mövqelərini daha da möhkəmləndirir. İlk növbədə, ordu quruculuğuna və Sərhəd Qoşunlarının inkişafına vəsaitlər ayrılacaqdır.

Əziz sərhədçilər, mən sizi bir daha ürəkdən salamlayıram. Vətənimizin sərhədlərini ləyaqətlə qoruyun. Əminəm ki, siz bu vəzifənin öhdəsindən bundan sonra da gələcəksiniz. Sizə yeni-yeni uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram.

* * *

*Görüşdə Prezident İlham Əliyev şəxsi heyətin daha çox fərqlənmiş əsgər və zabitlərinə dövlət mükafatları təqdim etdi.*

## XAÇMAZ RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*21 iyul 2004-cü il*

Əziz xaçmazlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Sizə öz dərin hörmət və məhəbbətimi bildirirəm.

Bu mənim Xaçmaza ilk gəlişim deyildir. Mən Xaçmazda dəfələrlə olmuşam və hər dəfə çox böyük təəssüratla Bakıya dönmüşəm. Xalqımızın ümummilli lideri Heydər Əliyev demişkən, Xaçmaz Azərbaycanın ən gözəl guşələrindən biridir. Bu həqiqətən belədir. Buranın çox gözəl təbiəti, iqlimi var. Amma hesab edirəm ki, Xaçmazın ən böyük sərvəti sizlərsiniz, qəhrəman, vətənpərvər insanlar, zəhmətkeş xaçmazlılardır.

Mən son dəfə Xaçmazda keçən ilin sentyabrında olmuşdum. Burada yeni böyük emal müəssisəsi açılırdı, mən də açılışda iştirak edirdim. O zaman mən bildirdim ki, vaxtilə belə bir müəssisənin yaradılması ilə əlaqədar xalqımızın ümummilli lideri Heydər Əliyevə müraciət olunmuşdu. Onun məsləhətinə ehtiyac var idi ki, bu zavod hansı rayonda tikilsin. Xatırlayıram, Heydər Əliyev demişdi ki, bunu Xaçmazda tikin. Bu zavod Xaçmazda tikildi və bu gün "Qafqaz" konserv zavodu çox gözəl fəaliyyət göstərir. Orada insanlar çalışır, kəndlilər öz məhsulunu zavoda təhvil verirlər. Beləliklə, Azərbaycanda ən yüksək standartlara cavab verən yeni müəssisə yaranmışdır. Mən bu gün oraya gedəcək, zavodun fəaliyyəti ilə tanış olacağam.

Bilirsiniz ki, seçkilərdən sonra Azərbaycanda qəbul edilmiş proqramlar çərçivəsində böyük işlər görülür. Bu işlərin təməli 1993-cü ildə qoyulmuşdur. 1993-cü ildə Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlişindən sonra ölkə iqtisadiyyatına böyük həcmdə xarici sərmayə

qoyuldu. Ölkə iqtisadiyyatı inkişaf etməyə başladı. Xüsusilə kənd təsərrüfatı inkişaf etməyə başladı. Torpaq islahatı aparıldı. Bu gün bu siyasət davam etdirilir, o cümlədən kənd təsərrüfatının inkişafı istiqamətində bu yaxınlarda çox ciddi addımlar atılacaqdır.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının həcmi ildən-ilə artır. Hamımız onu da bilirik ki, texnikamız kifayət qədər yoxdur, bu texnikanın alınması üçün müəyyən tədbirlər görüləcəkdir. Əminəm ki, bu addımlar atılandan sonra bu istiqamətdə daha da böyük işlər görüləcəkdir.

Azərbaycanın hər bir bölgəsi inkişaf edir. Minlərlə, on minlərlə yeni iş yerləri açılır. Seçkilərdən keçən dövr ərzində Xaçmaz rayonunda da iş yerlərinin açılması üçün böyük səylər göstərilmiş, böyük uğurlar əldə edilmişdir.

Dünən Qubada böyük bir tədbir keçirildi. Orada Xaçmazdan olan sahibkarlar da iştirak edirdilər. Mən onlarla da görüşdüm, məhsulları ilə tanış oldum. Görürəm ki, bu meyllər güclənir. Azərbaycanda sahibkarlar sinfi yaranır, güclənir. Bu bizim gələcək inkişafımızın ən başlıca amilidir.

Azərbaycanın neft strategiyası uğurla inkişaf edir və bu istiqamətdə görülmüş işlər göz qabağındadır. Heydər Əliyev tərəfindən həyata keçirilən neft strategiyası uğurla davam edir. Qeyri-neft sektorunun inkişafı, bölgələrin, rayonların inkişafı, abadlaşması indi bizim prioritet məsələmizdir. Bu məqsədlə seçkilərdən sonrakı real vəziyyətlə, problemlərlə tanış olmaq üçün, insanların həyatı ilə yaxından tanış olmaq, problemləri dinləmək üçün bölgələrə səfərlər edirəm. Artıq müxtəlif rayonlarda olmuşam, bu gün də Xaçmazdayam. Dünən Qubadaydım, bu gün səhər Qusarda olmuşam. Dünən səhər gələrkən Siyəzəndə, Dəvəçidə də əhali ilə görüşmüşəm. Hər şeyi öz gözlərimlə görməliyəm. Harada problem varsa, aradan qaldırılmalıdır. Harada uğur varsa, gərək o, təqdirlə qarşılansın.

Mən seçkilərdən əvvəl söz vermişdim ki, Azərbaycanın hərtərəfli inkişafı üçün əlimdən gələni əsirgəməyəcəyəm. Seçkilərdən sonra qəbul olunmuş proqramlar, xüsusilə regional inkişaf proqramı bu gün

uğurla həyata keçirilir. Qarşımıza qoyduğumuz bütün vəzifələr öz həllini tapır. O cümlədən, sosial məsələlər həllini tapır, əmək haqları qaldırılır, minimum əmək haqqı artırılıbdır. Gələn il yenə də qaldırılacaq və ildən-ilə Azərbaycan vətəndaşları daha yaxşı yaşayacaqlar. Beşillik proqram həyata keçiriləndən sonra Azərbaycan iqtisadi cəhətdən daha da güclənəcək, inkişaf edəcəkdir. Bizim məqsədimiz Azərbaycanın dövlət müstəqilliyini daha da möhkəmləndirmək, ölkənin milli maraqlarını daha da yüksək səviyyədə qorumaq, ordumuzu gücləndirməkdir.

Bu gün sərhəd dəstəsində idim. Orada böyük işlər görülübdür. Bizim Sərhəd Qoşunlarımızın da fəaliyyəti çox yüksək səviyyədədir. Bu məni çox sevindirir. Mən istəyirəm ki, Azərbaycanın bütün vətəndaşları – kənd təsərrüfatı ilə məşğul olanlar, müəllimlər, həkimlər, hərbçilər – bir sözlə, hamı ildən-ilə daha da yaxşı yaşasın.

Büdcədən maliyyələşən təşkilatlarda işləyən insanların həyat səviyyəsinin yaxşılaşdırılması üçün onların əmək haqları qaldırılacaqdır. Qeyri-dövlət neft sektorunda çalışanlara, sahibkarlıqla məşğul olanlara da dövlət tərəfindən qayğı göstərilir. Bu il 100 milyard manat kredit nəzərdə tutulmuşdur. Bu kreditdən istifadə nəticəsində minlərlə yeni iş yerləri açılacaqdır.

Azərbaycanın iqtisadi potensialı ildən-ilə güclənir. Büdcəmiz artır. Gələn ilin büdcəsi də artacaqdır. Bu da, öz növbəsində, kreditlərin daha böyük həcmdə verilməsinə imkanlar yaradacaqdır. Mən verdiyim bütün vədlərə sadiqəm. Seçkilərdən əvvəl verdiyim hər bir sözümün üstündə dururam və bunların hamısını da sizlərin dəstəyi ilə yerinə yetirəcəyəm.

Azərbaycanda Heydər Əliyev siyasəti davam etdirilir. Bu siyasət xalqımız tərəfindən dəstəklənir. Prezident seçkilərində mən bu dəstəyi bir daha hiss etdim. Mən bu böyük etimadı doğruldacağam.

Əziz dostlar!

Mən çox şadam ki, bu gün sizinlə birlikdəyəm, Xaçmazdayam, sizinlə görüşürəm. Mən bundan sonra da Xaçmaza gələcəyəm, bütün böl-

gələrə gedəcəyəm. Mənim səfərlərim hansısa təbliğat, yaxud da seçkiqabağı kampaniya xarakteri daşımır. Azərbaycanın prezidenti kimi, Azərbaycan xalqı ilə birlikdə olmalıyam və birlikdəyəm. Azərbaycanın hər bir rayonu, hər bir kəndi mənim üçün doğmadır, əzizdir. Ona görə bundan sonra biz sizinlə tez-tez görüşəcəyik, birlikdə doğma vətənimizi, müstəqil Azərbaycanımızı daha da gücləndirəcəyik.

Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

* * *

*Prezident İlham Əliyev Xaçmaz sakinləri ilə görüşdən sonra Azərsun Holdinq şirkətinin «Qafqaz» konserv zavoduna gəldi. Dövlətimizin başçısı ilk olaraq zavodun yaxınlığındakı nümunəvi tarlaya baş çəkdi və burada yetişdirilən yüksək keyfiyyətli tərəvəz məhsulları ilə tanış oldu.*

*Sonra prezident İlham Əliyev konserv zavodunun sexlərinə gəldi. Burada quraşdırılmış müasir avadanlıqlarla tanış olan dövlətimizin başçısına məlumat verildi ki, indi zavodda istehsal olunan şirələr, ət konservləri, müxtəlif tərəvəz və meyvələrdən hazırlanmış yüksək keyfiyyətli konserv məhsulları nəinki ölkəmizdə, habelə onun hüdudlarından kənarda da yüksək qiymətləndirilir.*

*Konserv zavodu ilə tanışlıqdan sonra prezident İlham Əliyevin səfərdə onu müşayiət edən jurnalistlərin suallarına cavabı:*

**S u a l: Cənab Prezident, Siz regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrasından razısınızmı?**

**C a v a b:** Bəli, razıyam. Bu proqram icra edilir. Yəni bunun müəyyən göstəriciləri vardır – nə qədər yeni iş yerləri açılmalı, müəssisələr yaradılmalıdır. Demək istəyirəm ki, başlanğıc çox yaxşıdır və gərək biz bu templə gedək.

**S u a l: Cənab Prezident, Dağlıq Qarabağ problemi ilə bağlı Sizin bir neçə bəyanatlarınız olubdur...**

**C a v a b:** Burada elə bir yenilik yoxdur. Problemin sülh yolu ilə həlli üçün hələ də imkanlar vardır. Mənim Minsk qrupunun həm-

sədrləri ilə də görüşüm oldu və xarici işlər nazirləri də görüşürlər. Lakin müəyyən məsələlər var və mən dəfələrlə bəyan etmişəm ki, bu məsələlərdə Azərbaycan heç vaxt güzəştə getməyəcəkdir. Bunlar Azərbaycanın ərazi bütövlüyü və suverenliyidir. Bu məsələlər, ümumiyyətlə, müzakirə olunmur. Bunu mən həmsədrlərə də bəyan etmişəm və Ermənistan tərəfi də bu mövqeyi bilir. Bunun xaricində, əlbəttə ki, danışıqlar aparıla bilər.

**S u a l: Siz Minsk qrupunun rusiyalı həmsədri Merzlyakovun bəyanatlarına necə münasibət bəsləyirsiniz?**

**C a v a b:** Mənimlə görüşdə Merzlyakov heç bir bəyanat səsləndirməmişdir. Minsk qrupuna gəldikdə isə, biz bu qrupun yalnız müşahidəçi rolu oynamasına və bəyanatlar verməsinə razı ola bilmərik. Əgər onlar vasitəçidirsə, gərək öz mandatları çərçivəsində vasitəçiliklərini etsinlər. Bu baxımdan mən onların fəaliyyətinin davam etməsini istəyirəm. Hələlik Minsk qrupundan başqa mexanizm yoxdur. Əgər biz bu qrupdan imtina ediriksə, onda, ümumiyyətlə, danışıqları dayandırmalıyıq. Hələlik mən buna ehtiyac duymuram. Qeyd etdiyim kimi, imkanlar hələ tükənməyibdir. Bir daha deməк istəyirəm ki, Azərbaycanın öz tələbləri və şərtləri vardır və bu tələblərdən geri çəkilməyəcəkdir.

* * *

*İyulun 21-də Azərbaycan prezidenti İlham Əliyev Xaçmazda «Xan arx» kanalının çəkilməsi ilə bağlı görülən işlərlə də tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Qusar, Xaçmaz və Dəvəçi rayonlarının suvarma şəbəkələrini özündə birləşdirəcək bu kanalın 32 kilometri Xaçmaz rayonu ərazisindən keçir. Kanal istifadəyə verildikdən sonra rayonun 40700 hektar əkin sahəsinin suvarılmasına imkan yaradacaqdır. Bu o deməkdir ki, Xaçmaz ərazisindəki torpaqların 90 faizinin suvarılma problemi həll olunacaqdır.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev ölkənin şimal bölgəsinə səfərini başa çatdıraraq iyulun 21-də Bakıya qayıtdı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏTBUAT İŞÇİLƏRİNƏ

Hörmətli mətbuat işçiləri!

Sizi 22 iyul – Milli Mətbuat günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzularımı çatdırıram.

130 ilə yaxın tarixi olan Azərbaycan milli mətbuatının zəngin və şərəfli ənənələri vardır. Azərbaycan mətbuatı həmişə qabaqcıl ictimai fikrin, milli tərəqqi ideyasının carçısı kimi çıxış etmiş, xalqımızın azadlıq arzularının güclənməsində, milli şüurun, mədəniyyətin formalaşmasında böyük rol oynamışdır.  XX əsrin sonlarında yenidən öz dövlət müstəqilliyini qazanmış ölkəmizdə milli dövlət ideyalarının və ənənələrinin möhkəmlənməsində, demokratik dəyərlərin bərqərar olmasında, beynəlxalq aləmdə Azərbaycanın rolunun və nüfuzunun güclənməsində mətbuatımızın xidmətləri xüsusi qeyd edilməlidir.

Öz müstəqilliyinin ikinci onilliyini yaşayan Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi uğurla davam edir. Demokratik inkişafın təməl prinsiplərindən olan söz, fikir və məlumat azadlığının təmin olunması, onların daşıyıcısı olan kütləvi informasiya vasitələrinin inkişafı və sərbəst fəaliyyəti üçün optimal şərait yaradılması Azərbaycanın dövlət başçısı kimi, mənim qarşımda duran prioritet vəzifələrdəndir. Biz mətbuata və ümumiyyətlə, kütləvi informasiya vasitələrinə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda, demokratik hüquq və azadlıqların təmin olunmasında güclü vasitə kimi baxırıq, cəmiyyətin aktual problemlərinin ictimailəşməsində, aşkarlığın və şəffaflığın təmin olunmasında, sivil dünyaya inteqrasiya prosesində onun rolunu lazımınca qiymətləndiririk.

Hər bir ölkədə azad mətbuatın əsas vəzifəsi siyasi plüralizmi, söz və fikir azadlığını daha da dərinləşdirmək, vətəndaşların informasiya ehtiyaclarını ödəməkdən ibarətdir. Lakin bununla yanaşı, düşünürük ki, mətbuatımız bu gün öz mütərəqqi ənənələrini davam etdirərək hə-

qiqət carçısı rolunda çıxış etməli, cəmiyyətdəki problemləri və nöqsanları ictimai müzakirəyə çıxarmalı, demokratik proseslərin fəal iştirakçısı olmalıdır.

Milli Mətbuat gününü qeyd edərkən Azərbaycanda vətəndaşların əsas hüquq və azadlıqlarının, o cümlədən söz, fikir və məlumat azadlığının təmin olunmasında ümummilli liderimiz Heydər Əliyevin müstəsna xidmətlərini xatırlamaq hamımızın borcudur. Məhz Heydər Əliyevin siyasi iradəsi və məqsədyönlü tədbirləri nəticəsində mətbuatın sərbəst fəaliyyəti üçün bütün imkanlar yaradıldı. Mətbuatın dövlət tənzimlənməsindən imtina edildi, bu sahədə jurnalist ictimaiyyətinin təşəbbüsləri dəstəkləndi. Mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi üçün təsirli addımlar atıldı, jurnalist hüquqlarının etibarlı surətdə qorunması təmin edildi. Bu gün Azərbaycanda kütləvi informasiya vasitələri sahəsində MDB məkanında və Şərqi Avropada ən demokratik, liberal qanunvericilik bazası mövcuddur, kütləvi informasiya vasitələrinin geniş inkişaf etmiş şəbəkəsi fəaliyyət göstərir.

Azərbaycan Respublikası söz, fikir və məlumat azadlığının inkişafı sahəsində beynəlxalq təşkilatlarla, o cümlədən Avropa Şurası və ATƏT-lə sıx əməkdaşlıq edir, üzərinə götürdüyü öhdəliklərdən irəli gələn vəzifələri yerinə yetirir. Qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq standartlara cavab verən ictimai yayım xidmətinin yaradılması istiqamətində əməkdaşlıq davam etdirilir.Bu bayram günündə mətbuat işçilərini, bütün vətəndaşlarımızı əmin etmək istəyirəm ki, ümummilli liderimiz Heydər Əliyevin vətəndaşların əsas hüquq və azadlıqlarının, o cümlədən söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində siyasəti dönmədən davam etdiriləcək, bu istiqamətdə bütün zəruri addımlar atılacaqdır. Sivil cəmiyyətin vacib atributu olan mətbuata, azad sözə diqqət və qayğı dövlət siyasətinin əsas istiqamətlərindən biri olacaqdır.

Bir daha bayramınızı təbrik edir, hər birinizə cansağlığı, səadət, çətin və şərəfli sənət yolunuzda uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 iyul 2004-cü il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ**

Hörmətli cənab Prezident!

Sakarya şəhəri yaxınlığında sərnişin qatarının qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm. Yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *23 iyul 2004-cü il*

**İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOZEF DAYSA**

Hörmətli cənab Prezident!

İsveçrə Konfederasiyasının milli bayramı – Konfederasiyanın yaranması günü münasibətilə Sizi və Sizin simanızda bütün İsveçrə xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə İsveçrə arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da əzmlə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsveçrə xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *23 iyul 2004-cü il*

**MAKEDONİYA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB BRANKO ÇRVENKOVSKİYƏ**

Hörmətli cənab Prezident!

Makedoniya Respublikasının milli bayramı – Respublika günü münasibətilə Sizi və Sizin simanızda dost Makedoniya xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Makedoniya arasında dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın mənafeyinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Makedoniya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *23 iyul 2004-cü il*

## RESPUBLİKAMIZIN XARİCİ ÖLKƏLƏRDƏKİ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN BAŞÇILARI İLƏ GÖRÜŞDƏ NİTQ

*27 iyul 2004-cü il*

Hörmətli xanımlar və cənablar!

Hörmətli diplomatlar, Xarici İşlər Nazirliyinin əməkdaşları!

Mən bu gün Xarici İşlər Nazirliyinə sizinlə görüşə gəlmişəm. Bilirsiniz ki, belə müşavirənin çağırılmasının təşkili xalqımızın ümummilli lideri Heydər Əliyevin gündəliyində duran məsələ idi. Amma nazirin qeyd etdiyi kimi, onun səhhəti bu müşavirənin keçirilməsinə imkan yaratmadı.

Azərbaycan öz xarici siyasətini çox uğurla həyata keçirir. Əlbəttə, bu gün Azərbaycan diplomatiyası yeni bir mərhələdədir. Azərbaycanın Xarici İşlər Nazirliyində dəyişikliklər baş vermişdir, yeni nazir təyin edilmişdir. Güman edirəm ki, bundan sonra Xarici İşlər Nazirliyi, bütün səfirliklər daha da fəal işləyəcək, müasir zəmanənin tələblərinə uyğun şəkildə çalışacaqlar. Azərbaycanın milli maraqlarını beynəlxalq aləmdə daha da yüksək səviyyədə qoruyacaqlar.

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra ölkəmiz çox çətin vəziyyətdə fəaliyyət göstərirdi. Ölkə daxilində gedən proseslər, Azərbaycanın rəhbərliyində təmsil olunan insanların təcrübəsinin azlığı, səriştəsizliyi bir çox hallarda Azərbaycanı çox çətin vəziyyətə salmışdı. Ölkədə böhran yaşanırdı, iqtisadiyyat, demək olar ki, dağılırdı. Azərbaycan, ümumiyyətlə, parçalanma ərəfəsində idi.

Bildiyiniz kimi, xalqın tələbi ilə 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyev Azərbaycana hakimiyyətə qayıdandan sonra ölkədə vəziyyət dəyişdi. Ölkəmiz inkişaf etməyə başladı və son on ilin ərzində Azərbaycan bütün sahələrdə böyük uğurlar əldə edibdir.

Amma müstəqilliyimizin ilk illərində Azərbaycan xarici siyasət istiqamətində də böyük çətinliklərlə üzləşmişdi. Ölkə, demək olar ki, təcrid edilmiş vəziyyətə salınmışdı. Azərbaycanın əleyhinə erməni təbliğatının aparılması Azərbaycan tərəfindən adekvat addımlarla müşayiət olunmurdu. Azərbaycan bu təbliğatın qarşısında çox aciz siyasət aparırdı. Ölkəmizdə, ümumiyyətlə, xarici siyasətlə məşğul olanların sayı çox az idi və əsas vəzifələrə təcrübəsi o qədər də böyük olmayan insanlar gətirilirdi.

Əlbəttə, təsadüfi deyil ki, məhz o illərdə Azərbaycan beynəlxalq aləmdə öz sözünü deyə bilmirdi, müxtəlif ölkələrdə Azərbaycana qarşı ədalətsiz, Azərbaycanın əleyhinə qərarlar qəbul olunurdu. Siz bunların hamısını yaxşı bilirsiniz. Beləliklə, ölkə xaricdə, beynəlxalq müstəvidə mənfi imicə malik idi. Bu vəziyyət 1993-cü ildən sonra dəyişməyə başladı. Heydər Əliyev diplomatiyası, onun siyasəti Azərbaycanı bu beynəlxalq təcriddən xilas etdi. Azərbaycan beynəlxalq aləmdə öz mövqelərini möhkəmlətməyə başladı. Ölkəmiz ikitərəfli və çoxtərəfli formatlarda çox uğurlu xarici siyasət aparmağa başladı. Bu siyasətin nəticəsində bu gün Azərbaycan beynəlxalq aləmin çox dəyərli üzvünə çevrilibdir.

İkitərəfli münasibətlərimizdə mən heç bir problem görmürəm. Qonşu dövlətlərlə münasibətlərimiz inkişaf edir. Bu münasibətlər çox işgüzar zəmində, qarşılıqlı hörmət zəminində qurulubdur. Bilirsiniz ki, prezident seçkilərindən sonra mən müxtəlif ölkələrə rəsmi səfərlər etmişəm. Bu səfərlər bir daha onu göstərir ki, beynəlxalq strukturlarda, beynəlxalq aləmdə Azərbaycana olan münasibət çox müsbətdir. Azərbaycana hörmət edirlər, Azərbaycanla hesablaşırlar. Azərbaycan regional məsələlərdə lider dövlətə çevrilir. Təkcə qonşu dövlətlərlə deyil, digər dövlətlərlə də ikitərəfli münasibətlərimiz çox uğurludur və Azərbaycanın milli maraqlarına cavab verir. Əlbəttə, biz bundan sonra da çalışacağıq ki, bütün ölkələrlə ikitərəfli münasibətlərimizi daha da gücləndirək.

Bilirsiniz ki, bu yaxınlarda yeni səfirliklərin açılması haqqında qərar qəbul edilmişdir. Bu bizə imkan verəcək ki, öz siyasətimizi, öz

sözümüzü daha geniş ictimaiyyətə çatdıra bilək. Bildiyiniz kimi, Azərbaycan beynəlxalq təşkilatlarda çox uğurla fəaliyyət göstərir. Birləşmiş Millətlər Təşkilatı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dörd qətnamə qəbul etmişdir. Azərbaycan Avropa Birliyi ilə çox səmərəli əməkdaşlıq edir. Bu yaxınlarda Avropa Birliyi Azərbaycanı yeni qonşuluq proqramına daxil edibdir və bu əməkdaşlıq bütün istiqamətlərdə – həm siyasi istiqamətdə, həm də enerji sahəsində aparılır. Mənim bu yaxınlarda Avropa Birliyinə etdiyim səfər bir də onu göstərir ki, bizim aramızda çox gözəl münasibətlər mövcuddur.

Avropa Şurası ilə Azərbaycanın əlaqələri güclənir. Bu təşkilat Azərbaycana böyük diqqətlə yanaşır. Azərbaycan da üç ildən artıqdır ki, bu təşkilatın üzvüdür və çox fəal üzvüdür. Avropa Şurasında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qəbul edilmiş sənədlər həqiqəti əks etdirir. Bu sənədlər beynəlxalq hüquq normaları əsasında qəbul edilmişdir və təbii ki, Azərbaycanın milli maraqlarına cavab verir.

Mən bu yaxınlarda Avropa Şurasına da səfər etmişdim və bu səfər çox uğurlu keçmişdir. Avropa Şurasının Azərbaycana münasibəti çox müsbətdir və təbii ki, əgər belə olmasaydı, Azərbaycan prezidentinə Avropa Şurasında yüksək mükafatlar verilməzdi. Mən ümid edirəm ki, Azərbaycan nümayəndə heyətinin fəaliyyəti nəticəsində Avropa Şurasında müzakirəyə çıxarılacaq Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair məruzə ədalətli məruzə olacaq, beynəlxalq hüquq normalarına əsaslanacaq və beləliklə, geniş Avropa auditoriyasına Ermənistan–Azərbaycan münaqişəsi haqqında bir daha doğru məlumat çatdıracaqdır. Ümid edirəm ki, Avropa Şurası bu məsələ ilə əlaqədar siyasi qərar verəcəkdir.

Bizim digər beynəlxalq təşkilatlarla əlaqələrimiz də inkişafdadır. Azərbaycan NATO ilə uğurlu əməkdaşlıq edir və biz artıq «Sülh naminə tərəfdaşlıq» proqramından hərbi əməkdaşlıq proqramına keçmişik. Bu yaxınlarda NATO-ya etdiyim səfər onu bir daha göstərir ki, bizim aramızda çox gözəl münasibətlər var.

Azərbaycan MDB çərçivəsində də uğurla fəaliyyət göstərir. İslam Konfransı Təşkilatında, GUÖAM təşkilatında və digər beynəlxalq təşkilatlarda bizim mövqelərimiz güclənir. Biz öz gələcək siyasətimizi bundan sonra da beynəlxalq strukturlara inteqrasiyada görürük. Bu siyasətin əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Onun təməli 1993-cü ildə qoyulmuşdur və bu günə qədər Azərbaycana böyük uğurlar gətirir.

Bu gün Azərbaycan haqqında dünyada kifayət qədər ədalətli məlumatlar var. Biz hamımız çalışmalıyıq, əlbəttə, ilk növbədə, Azərbaycanı xaricdə təmsil edən səfirlər, səfirliklərin digər işçiləri çalışmalıdırlar ki, Azərbaycan haqqında reallıqlar o ölkələrdə yaşayan ictimaiyyətə çatdırılsın.

Bir sözlə, Azərbaycanın bütün istiqamətlərdə, qeyd etdiyim kimi, ikitərəfli müstəvidə və beynəlxalq təşkilatlarla əməkdaşlığımızda apardığı xarici siyasət uğurludur. Biz bu siyasəti bundan sonra da davam etdirəcəyik. Mən əminəm ki, Azərbaycan regionda öz mövqelərini gələcəkdə daha da gücləndirəcəkdir. Artıq hamı bilir ki, regionda Azərbaycanın iştirakı olmadan nə siyasi, nə də iqtisadi sahələrdə əməkdaşlıq mümkün deyildir. Azərbaycan bölgənin çox vacib ölkəsinə çevrilibdir. Burada təkcə bizim coğrafi-siyasi vəziyyətimiz, yaxud enerji resurslarımız rol oynamır. Halbuki, bu amillər də çox vacibdir. Azərbaycanın siyasəti, beynəlxalq aləmə inteqrasiyası, beynəlxalq aləm üçün çox vacib ölkəyə çevrilməsi, Azərbaycanın daxilində gedən proseslər, ictimai-siyasi sabitlik, sabit inkişaf və digər amillər burada böyük rol oynayır.

Biz çalışmalıyıq ki, bundan sonra da həm Azərbaycan haqqında həqiqətləri dünya ictimaiyyətinə daha dolğun şəkildə çatdıraq, eyni zamanda, apardığımız xarici siyasət vasitəsilə Azərbaycanın dünyadakı mövqelərini möhkəmləndirək və milli maraqlarımızın daha yüksək səviyyədə qorunmasına nail olaq. Əlbəttə, səfirlərin və səfirliklərin bu istiqamətdə rolu çox mühümdür. Xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında xaricdə fəaliyyət göstərən diplomatlar daha da fəal olmalıdırlar.

Bilirsiniz ki, Azərbaycan bu məsələnin həllində sülh yolunun tərəfdarıdır. Biz bu məsələni danışıqlar yolu ilə həll etmək istəyirik. Ümid edirəm ki, bu danışıqlar yolu bizə uğur gətirəcəkdir. Amma eyni zamanda, mən dəfələrlə bildirmişəm ki, Azərbaycan heç vaxt öz torpaqlarının itirilməsi ilə barışmayacaqdır. Əgər danışıqlar yolu bir səmərə verməsə, Azərbaycan bütün başqa, o cümlədən hərbi yoldan istifadə edib öz torpaqlarını azad edəcəkdir.

Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bizim torpaqlarımız işğal olunubdur. Haqq-ədalət bizim tərəfimizdədir. İqtisadi potensial və digər məsələlər də Azərbaycanın xeyrinədir. Mən şübhə etmirəm ki, bu məsələ öz ədalətli həllini tapacaqdır. Bəzən güzəştlər haqqında təkliflər səslənir. Amma mən artıq bunu bir neçə dəfə demişəm ki, ərazi bütövlüyü məsələlərində güzəştdən söhbət gedə bilməz. Bu o vaxt olur ki, hər bir tərəf nəyisə, hansısa məsələdəsə güzəştə gedir. Azərbaycanın əlində bir şey yoxdur ki, güzəştə getsin. Azərbaycanın torpaqları işğal altındadır. Bu işğaldan bir milyon adam əziyyət çəkir. Ona görə bu məsələdə bizim qətiyyətli mövqeyimiz dəyişməz olaraq qalacaqdır.

Sizin də vəzifəniz ondan ibarətdir ki, bu məsələnin mahiyyətini çalışdığınız ölkələrin rəsmi dairələrinə, ictimaiyyətinə daha dolğun şəkildə çatdırasınız. Təəssüflər olsun ki, bəzi hallarda bu məsələ ilə əlaqədar beynəlxalq aləmdə dəqiq təsəvvür yoxdur. Bunun müəyyən səbəbləri var. Əlbəttə, erməni təbliğatı burada böyük rol oynayır. Amma onu da etiraf etməliyik ki, biz də bəzi hallarda bu məsələni, onun mahiyyətini beynəlxalq aləmə lazımi səviyyədə çatdırmırıq. Burada ilk növbədə, səfirlər və səfirliklərin işçiləri daha fəal olmalıdırlar. Bu məsələni daim gündəliyə salmalıdırlar.

Mən bilirəm ki, diplomatiyada təkrara o qədər də çox yol verilmir. Ümumiyyətlə, mən də bir şeyin təkrar olunmasına o qədər də meylli deyiləm. Amma bu məsələ istisna təşkil edir. Bu məsələ daim təkrar olunmalıdır. Bütün tədbirlərdə yeri gəldi-gəlmədi, bu məsələ daim diqqət mərkəzində olmalıdır və rəsmi dairələrə, müxtəlif ölkələrin parlamentlərinə, ictimaiyyətə çatdırılmalıdır. Mən bununla əlaqədar

ümid edirəm ki, Prezident Aparatı ilə birlikdə Xarici İşlər Nazirliyi tərəfindən xüsusi bir plan, proqramlar hazırlanmalı, tövsiyələr verilməlidir. Bu proqram çərçivəsində səfirlər öz fəaliyyətini qurmalıdır. Bütün beynəlxalq tədbirlərdə, konfranslarda, ictimai tədbirlərdə bu məsələ ilk növbədə yada salınmalıdır. Beləliklə, ümid edirəm, biz informasiya sahəsində daha böyük uğurlar əldə edəcəyik.

Biz informasiya hücumuna keçməliyik. Bəzən bizi günahlandırırlar ki, Azərbaycan bu baxımdan özünü çox davakar aparır. Ola bilər, amma bizim davakarlığımız hələ ki, yalnız informasiya sahəsində özünü büruzə verir. Bizim başqa yolumuz yoxdur. Əlbəttə, Ermənistan maraqlıdır ki, bu məsələyə ümumiyyətlə, toxunulmasın. Ona görə mən xatırlayıram, Avropa Şurasında biz məsələ qaldırılanda ki, bu barədə məruzə dinlənilsin, Ermənistan tərəfi bunun əleyhinə çıxırdı. Nə üçün? Bu məsələnin müzakirə olunmasını istəmirdi. Çünki bilirlər ki, əgər müzakirəyə çıxarılarsa, onda hər şey açıq-aydın görünəcəkdir. Hamı da görəcəkdir ki, işğalçı kimdir, işğalın qurbanı kimdir. Ona görə bütün tədbirlərdə, bütün sahələrdə bu məsələnin mahiyyəti açıqlanmalıdır və informasiya sahəsində də güclü olmalıyıq. Bütün imkanlardan istifadə etməliyik ki, Ermənistanın işğalçı siyasətini ifşa edək, onların bu təcavüzü haqqında bütün dairələrə məlumat çatdıraq.

Əlbəttə, Azərbaycan üçün ən ağrılı problemlərdən olan qaçqınların və məcburi köçkünlərin vəziyyəti haqqında məlumatlar daha dolğun şəkildə yayılmalıdır. Məsəl üçün, mən fikir verirəm, xaricdən gələn bəzi rəsmi qonaqlar qaçqınlarla görüşəndə dəhşətə gəlirlər. Deyirlər, biz bilmirdik ki, Azərbaycanda bu qədər qaçqın var və onlar belə ağır vəziyyətdə yaşayırlar. Təbii ki, xaricdə bu məsələ ilə əlaqədar kifayət qədər informasiya yoxdur, məlumat yoxdur. Bunu biz bilirik və bizimlə sıx əlaqədə olan dairələr, qurumlar bilir. Amma geniş beynəlxalq ictimaiyyət bu haqda bilmir. Bu bizim səhvimiz, nöqsanımızdır.

Mən bilirəm ki, bu haqda Dövlətqaçqınkomun sədri çıxış edəcək, məlumat verəcəkdir. Siz də bunu bilməlisiniz. Nəinki bilməlisiniz, çalışdığınız ölkələrdə gərək bu məsələni gündəlik fəaliyyətinizdə diqqət

mərkəzinə çevirəsiniz. Orada fotosərgilər təşkil oluna bilər, seminarlar, müxtəlif konfranslar təşkil oluna bilər. Bu, humanitar fəlakətdir və bilirsiniz ki, dünyada qaçqınların probleminə çox böyük diqqət göstərilir. Müxtəlif xeyriyyə fondları mövcuddur. Onu da deməliyəm ki, əfsuslar olsun, beynəlxalq humanitar təşkilatlar Azərbaycana ayrılan vəsaitin həcmini azaldırlar. Mən bu məsələ ilə bağlı dəfələrlə görüşlər keçirmişəm. Bakıda keçirilmiş konfransda iştirak edib öz sözümü demişəm və onları da çağırmışam ki, bu yardımların həcmini azaltmayın. Belə olan halda yeni mənbələr axtarılmalıdır. Xüsusilə inkişaf etmiş ölkələrdə xeyriyyə fondları var. Amma bu fondların bəziləri, bəlkə də böyük əksəriyyəti Azərbaycandakı problemin mövcudluğundan xəbərsizdir. Nə üçün?! Çünki onlara məlumat verilmir. Əgər onlara məlumat verilərsə, əlbəttə, onlar bu məsələni nəzərə alarlar. Yəni səfirliklər bu məsələyə çox böyük diqqət göstərməlidirlər. Xeyriyyə fondları ilə, digər humanitar təşkilatlarla işlər daha fəal şəkildə qurulmalıdır. Mən demək istəmirəm ki, bu işlər aparılmır. Amma lazımi səviyyədə deyil və bütün ölkələrdə bu işlər lazımi səviyyədə aparılmır. Siz gərək bu məsələyə daha da böyük diqqət yetirəsiniz.

Xaricdə yaşayan azərbaycanlılar bu və digər məsələlərdə səfirliklərə öz köməyini göstərə bilərlər. Bilirsiniz ki, Heydər Əliyev tərəfindən Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılıbdır. 2001-ci ildə Bakıda dünya azərbaycanlılarının birinci qurultayı keçirilibdir. Bu gün bizim müxtəlif diasporalarımız güclənir, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında daha fəal rol oynayır. Biz də bunu dəstəkləyirik. Mən, demək olar, səfər etdiyim əksər ölkələrdə Azərbaycan diasporunun nümayəndələri ilə görüşlər keçirmişəm. Biz, bir tərəfdən, onları qorumalıyıq, müdafiə etməliyik. Çalışmalıyıq ki, onlar yaşadıqları ölkələrin bütün təbəqələrində təmsil olunsunlar. Həm icra orqanlarında, həm qanunvericilik orqanlarında, həm də biznes sahəsində onların mövqeləri daha da güclənsin. Yəni bu bizim vəzifəmizdir. Eyni zamanda, onlar da öz doğma vətənlərinə xidmət etməli, kömək göstərməlidirlər.

Ona görə də səfirliklər Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi ilə sıx əlaqədə olmalıdırlar və xaricdə yaşayan soydaşlarımızla işlər daha yüksək səviyyədə qurulmalıdır. Mən bilirəm ki, bu iş bir çox ölkədə gedir. Səfirliklər bu baxımdan işləyirlər. Mən bunu bilirəm. Amma əlbəttə, istərdik ki, bunun böyük nəticəsi, səmərəsi olsun.

Azərbaycan haqqında reallıqlar, həqiqətlər dünya ictimaiyyətinə çatdırılmalıdır. Ümumiyyətlə, mən xarici mətbuatı mütəmadi qaydada izləyirəm. Görürəm ki, Azərbaycan haqqında məlumatlar çox birtərəflidir. Azərbaycan yalnız neft ölkəsi kimi təqdim edilir, yaxud da ölkəmiz haqqında Ermənistan–Azərbaycan münaqişəsi ilə əlaqədar məlumatlar verilir. Amma Azərbaycanın qədim tarixi var, Azərbaycanın çox zəngin mədəniyyəti, mədəni irsi var. Bu haqda dünyada mövcud olan məlumatlar, informasiyalar çox azdır, çox aşağı səviyyədədir. Bu sahədə də böyük işlər görmək lazımdır. Müxtəlif ictimai-siyasi tədbirlər keçirilməlidir, Azərbaycandan nümayəndə heyətlərinin səfərləri təşkil olunmalıdır. Mədəniyyət xadimlərimizin səfərləri təşkil olunmalı, sərgilər keçirilməlidir. Mən demək istəmirəm ki, bu yoxdur. Var, amma lazımi səviyyədə deyildir. Əgər bu tədbirlər varsa, yalnız hansısa bir məhdud çərçivə bundan xəbər tutur. Yəni bu məsələlər müxtəlif ölkələrin mətbuatında öz əksini tapmır. Amma siz bilirsiniz ki, bu gün mətbuat dünyada çox böyük rol oynayır. Əlbəttə, biz istərdik ki, Azərbaycan haqqında gedən məlumatlar reallığa əsaslansın.

Azərbaycan çox sürətlə inkişaf edən ölkədir. Azərbaycan beynəlxalq aləmdə çox güclü mövqelərə malik olan ölkədir. Azərbaycanda böyük, dünya əhəmiyyətli layihələr həyata keçirilir. Azərbaycanda sosial məsələlər öz həllini tapır. Əlbəttə, yaxşı olardı ki, bütün bu reallıqlar haqqında xarici mətbuata daha böyük həcmdə məlumatlar çatdırılsın.

Ümumiyyətlə, çalışdığınız ölkələrdə mətbuatla işlər çox güclü qurulmalıdır. Bu sahəyə çox böyük diqqət göstərilməlidir. Baxın, bəlkə hansısa xüsusi bir diplomat yalnız bu məsələlərlə məşğul olmalıdır.

Yaxud əgər buna imkan yoxdursa, biz baxaq, bəlkə əlavə bir ştat açmaq haqqında fikirləşək. Mütləq sırf mətbuatla əlaqə saxlayan bir nəfər olmalıdır ki, bu məsələ ilə mütəmadi qaydada məşğul olsun. Əksər hallarda əgər Azərbaycan haqqında hansısa yalan, yaxud da həqiqəti əks etdirməyən məqalə çıxırsa, bundan sonra bizim səfirliklər buna reaksiya verirlər. Bəzi hallarda isə heç reaksiya da vermirlər. Mən bu yaxınlarda nazirə dedim ki, belə hallar olanda səfirliklər mütləq öz sözünü deməlidir. Ən yaxşı halda buna reaksiya verilir, təkzib ötürülür.

Amma bilirsiniz ki, bir var məlumat getsin, bir də var təkzib getsin. Təkziblər də bəzi hallarda dərc olunmur. Dərc olunanda da təkziblərə bir şərh də əlavə olunur və demək olar ki, o, təkzibin əhəmiyyətini tamamilə sıfra endirir. Yəni biz fəal olmalıyıq. Məlumatı biz verməliyik. Həm ölkəmiz haqqında, həm Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında, həm də digər məsələlər haqqında, Azərbaycanın gələcəyi, potensialı haqqında, dünyada, bölgədə rolu haqqında həqiqi məlumatı biz verməliyik, bunu biz etməliyik. Əlbəttə, səfirliklər bu məsələ ilə əlaqədar daha fəal olmalıdırlar.

Bildiyiniz kimi, Azərbaycan iqtisadi cəhətdən inkişaf edir. Bizim bütün iqtisadi göstəricilərimiz yüksəkdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən Azərbaycanda 1993-cü ildən 2003-cü ilə qədər aparılmış iqtisadi islahatlar siyasəti gözəl nəticələr vermişdir. Son 7 il ərzində Azərbaycanın ümumi daxili məhsulu 90 faiz artmışdır. Azərbaycana böyük həcmdə xarici sərmayə qoyulur. Adambaşına düşən xarici sərmayənin həcminə görə Azərbaycan bölgədə birinci yerdədir. Bilirsiniz ki, Azərbaycanda çox gözəl sərmayə mühiti var və bu bizə imkan verir ki, xarici sərmayəçilər qorxmadan, çəkinmədən Azərbaycana vəsait qoysunlar.

Ölkə iqtisadiyyatı inkişafdadır. 2004-cü ilin birinci yarısında iqtisadiyyatımız 10 faiz artıbdır. Bilirsiniz ki, qəbul edilmiş sosial-iqtisadi və regional inkişaf proqramları uğurla icra olunur. Seçkilərdən keçən dövr ərzində Azərbaycanda 40 minə qədər yeni iş yerləri açılıbdır.

Bilirsiniz ki, bu bizim iqtisadi siyasətimizin əsas məsələlərindən biridir. Mən çox şadam ki, nəzərdə tutduğumuz bütün planlar yerinə yetirilir.

Mən şübhə etmirəm ki, Azərbaycan beş ildən sonra iqtisadi cəhətdən daha da güclü, qüdrətli dövlətə çevriləcəkdir. Həm neft sənayesi istiqamətində Heydər Əliyevin neft strategiyasının uğurlu icrası, həm də qeyri-neft sektorunun inkişafı bizə yeni imkanlar yaradacaqdır. Qeyri-neft sektorunun inkişafı bizim üçün, yəni hökumət üçün daha da önəmli olmalıdır.

Bizim neft sektorunda bütün işlər vaxtlı-vaxtında görülübdür. Bilirsiniz ki, bu gün Bakı–Tbilisi–Ceyhan neft kəməri uğurla inşa edilir. Azərbaycanın qaz yataqları istismar olunur və bu yaxınlarda qaz kəmərinin tikintisinə başlayacağıq. Ümumiyyətlə, Azərbaycan Avropanın qaz istehlakçıları üçün çox önəmli ölkəyə çevriləcəkdir. Bütün bunların təməli xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən 1994-cü ildə qoyulmuşdur və uğurla icra edilir, qarşımızda heç bir problem yoxdur.

Qeyri-neft sektorunun inkişafına daha böyük diqqət göstərilməlidir. Çünki Azərbaycanın hərtərəfli inkişafı bu amildən asılıdır. Heç kəs üçün sirr deyil ki, hələ uzun illər Azərbaycanın iqtisadiyyatı neft amilinə söykənəcəkdir. Amma bu o demək deyil ki, buna arxayın olaq və gözləyək ki, nə qədər neft çıxarılacaq, nə qədər neft satılacaqdır. Qeyri-neft sektorunun inkişafı, bölgələrin inkişafı, ümumiyyətlə, Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi bizim prioritet məsələmizdir.

Yəqin ki, siz bunları bilirsiniz. Mən bunları nə üçün deyirəm. Yəni bizim xaricdəki nümayəndəliklər bu istiqamətdə də fəaliyyət göstərməlidirlər. Azərbaycanın iqtisadi maraqları həm ölkə daxilində, həm də ölkənin xaricində qorunmalıdır.

Bilirsiniz ki, Azərbaycana müxtəlif işgüzar dairələrdə böyük maraq var. Azərbaycanda bir çox sahələrdə iş görmək, sərmayə qoymaq istəyən çoxlu şirkətlər var. Onlar Azərbaycana gəlirlər, işləyirlər. Yaxşı olardı ki, bizim səfirlərimiz bu məsələ ilə əlaqədar daha da fəal olsunlar. Azərbaycanın iqtisadi maraqlarına uyğun şəkildə fəaliyyət

göstərsinlər. Bu məsələ ilə əlaqədar müşavirədə söhbət aparılacaqdır. İqtisadi İnkişaf naziri burada çıxış edəcək, öz tövsiyələrini əməli şəkildə verəcəkdir.

Mən sizə demək istəyirəm ki, ümumiyyətlə, bu məsələyə böyük diqqət göstərilməlidir. Azərbaycan iqtisadi potensialını gücləndirir. Əlbəttə, daxildə imkanlar bizə kifayətdir ki, ölkəmizi sürətlə inkişaf etdirək. Amma bu o demək deyil ki, biz bununla kifayətlənək və xaricdə olan imkanlardan istifadə etməyək. Böyük şirkətlərin Azərbaycana gəlməsi bizim üçün lazımdır və zəruridir. İri sərmayəçilərin, firmaların Azərbaycanda fəaliyyət göstərməsi ölkəmiz üçün çox vacibdir. Baxın, neft sektorunda dünyada elə bir tanınmış şirkət yoxdur ki, Azərbaycanda sərmayə qoymasın. Bu, ölkəmiz üçün çox faydalıdır. Çünki bu, etibarlı tərəfdaşlıqdır. Bu bir gündə yaranmış firma deyil, böyük iqtisadi potensiala malik olan şirkətlər Azərbaycanın neft sənayesində işləyir. Yaxşı olardı ki, digər sahələrdə də dünyanın bir nömrəli şirkətləri, tanınmış, etibarlı firmalar Azərbaycanın qeyri-neft sektorunda da fəaliyyət göstərsinlər. Bunu etmək üçün, əlbəttə, onları cəlb etmək lazımdır.

1994-cü ildə buraya xarici şirkətləri cəlb etmək üçün nə qədər səylər göstərildi. Azərbaycan çox riskli bir zona idi, müharibə gedirdi, daxildə xoşagəlməz proseslər hələ mövcud idi. Sabitlik tam bərqərar olmamışdı. Ona görə xarici sərmayəçiləri cəlb etmək asan məsələ deyildi. Sonrakı dövrlərdə bu məsələ artıq başqa istiqamətdə inkişaf etdi. Əksinə, daha çox tələbat var idi, nəinki imkan. Amma ilk illərdə xarici sərmayəçiləri Azərbaycanın neft sektoruna cəlb etmək bizdən böyük səylər tələb edirdi. Qeyri-neft sektoru da belədir. Gərək böyük şirkətləri biz buraya cəlb edək. Bu sahədə səfirliklərin fəaliyyəti çox önəmli ola bilər.

Bir sözlə, mən bir daha demək istəyirəm ki, Azərbaycanın xarici siyasəti çox uğurludur. Bu siyasətin təməli 1993-cü ildə qoyulmuşdur və xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycanın xarici siyasətinə, Azərbaycanın xaricdə olan imicinə çox böyük diqqət yetirirdi.

Azərbaycan beynəlxalq aləmin üzvüdür, müxtəlif təşkilatlarda fəal iştirak edir.

Mən qeyd etdim ki, bizim Dünya Birliyinə inteqrasiya siyasətimiz dəyişməz olaraq qalır və son müddət ərzində bu istiqamətdə Azərbaycan çox önəmli addımlar atmışdır. Biz dünyaya açıq bir ölkəyik. Belə olan halda, əlbəttə, bizim xarici siyasətimiz, xaricdə Azərbaycanın imici daha da güclənməlidir. Əlbəttə, bunu etmək üçün ölkə daxilində proseslər getməlidir, ölkə inkişaf etməlidir, demokratikləşmə prosesi daha da sürətlə getməlidir, iqtisadiyyat inkişaf etməlidir. Əlbəttə, əgər bunlar olmasa, nə istəyirsən et, Azərbaycan haqqında müsbət imic yaratmaq mümkün olmayacaqdır. Amma bütün bunlar olan halda Azərbaycan Dünya Birliyi üçün çox önəmli bölgəyə çevrilir.

Bilirsiniz ki, Azərbaycanda demokratiyanın inkişafında böyük addımlar atılıbdır. Avropa Şurası ilə əlaqədar məsələlər öz həllini tapır. Baxmayaraq ki, hələ bizim maliyyə imkanlarımız məhduddur, amma sosial məsələlər öz həllini tapır. Azərbaycanın Neft Fondundan qaçqınların, məcburi köçkünlərin yerləşdirilməsinə, onların həyat səviyyəsinin yaxşılaşdırılmasına böyük vəsaitlər ayrılır. Digər sosial məsələlər öz həllini tapır, minimum əmək haqqı qaldırılıbdır. Büdcədən maliyyələşən təşkilatlarda işləyən insanların əmək haqları qaldırılır. Bu proseslər bundan sonra da gedəcəkdir. Mən demişəm ki, Azərbaycan bazar iqtisadiyyatına sadiqdir və bilirsiniz ki, ümumi daxili məhsulun 74 faizi özəl sektorun fəaliyyəti nəticəsində formalaşır. Eyni zamanda, biz sosial məsələlərə biganə qala bilmərik. Ən çətin vəziyyətdə yaşayanlar, təqaüdçülər, büdcədən maliyyələşən təşkilatlar haqqında fikirləşirik və imkan daxilində onların həyat səviyyəsi ildən-ilə yaxşılaşacaqdır. Mən bunu bəyan etmişəm, bu mənim proqramımdır və mən bunu icra edəcəyəm. Yəni demək istəyirəm ki, Azərbaycanda bütün sahələrdə gedən proseslər – həm xarici, həm də daxili siyasətdə gedən proseslər imkan verir ki, Azərbaycan özünü daha da yaxşı tanıtsın, dünya ictimaiyyəti qarşısında özünü daha da gözəl təqdim etsin. Bunu

hər birimiz etməliyik. Buradakı vəzifəli şəxslər, ictimaiyyət, digər qurumlar və əlbəttə, Azərbaycanı xaricdə təmsil edən səfirlər, səfirliklərin işçiləri.

Mən ümid edirəm ki, biz qarşımızda duran bütün məqsədlərə çatacağıq. Azərbaycanın xarici siyasəti bundan sonra da ölkəmizin milli maraqlarına xidmət edəcəkdir. Siz səfirlər ölkəmizi xaricdə təmsil edirsiniz və Azərbaycan haqqında rəylər, fikirlər xeyli dərəcədə sizin fəaliyyətinizin nəticəsində yaranır, formalaşır. Əlbəttə, bu, böyük şərəfdir. Amma eyni zamanda, böyük məsuliyyətdir. Əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz və bundan sonra da doğma vətənimizi xaricdə ləyaqətlə təmsil edəcəksiniz. Bu işlərdə sizə uğurlar arzulayıram. Sağ olun.

## BAKIDA HEYDƏR ƏLİYEV ADINA SARAYIN QARŞISINDAKI PARKDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLARKƏN, PAYTAXT SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*27 iyul 2004-cü il*

*Heydər Əliyev adına sarayın qarşısındakı park bakılıların sevimli istirahət guşələrindən birinə çevrilmişdir. Azərbaycan prezidenti İlham Əliyev burada aparılan yenidənqurma işləri ilə tanış olmuş, sakinlərlə görüşmüşdür.*

*Respublikamızın rəhbərinə Azərbaycan paytaxtının bu yaraşıqlı hissəsində görülən işlər və nəzərdə tutulan tədbirlər barədə ətraflı məlumat verildi. Dövlətimizin başçısı müvafiq tövsiyələrini söyləmiş, konkret tapşırıqlar vermişdir. Sonra prezident İlham Əliyev burada paytaxt sakinləri ilə görüşüb hal-əhval tutmuş, səmimi söhbət etmişdir.*

**İ l h a m Ə l i y e v:** Necəsiniz?

**Ş ə h ə r s a k i n l ə r i:** Cənab Prezident, çox sağ olun. Biz Sizi ürəkdən dəstəkləyirik. Sizə uğurlar, cansağlığı arzulayırıq. Həmişə xalqla bir yerdə olasınız, bütün sahələrdə uğurlar qazanasınız.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Bura da abadlaşacaq, gözəl bir park olacaqdır. Bilirsiniz ki, bu saraya Heydər Əliyevin adı verilibdir. Əlbəttə, bu meydan da yenidən qurulmalıdır. Ona görə gəlmişəm ki, özüm baxım, hansı layihələr var, hansı təkliflər var. Ümumiyyətlə, şəhərimiz abadlaşır, gözəlləşir. Bakı daha da gözəl olmalıdır.

**Ş ə h ə r s a k i n l ə r i:** Cənab Prezident, biz görürük ki, Siz prezident olandan sonra hər yer abadlaşır. Camaatın arasına çıxırsınız, söhbət edirsiniz. Sizə təşəkkür edirik. Biz bilirik ki, bundan sonra vəziyyətimiz lap yaxşı olacaqdır.

**İ l h a m  Ə l i y e v:** Əlbəttə, ölkəmiz inkişaf edir. Prezident də həmişə xalqla bir yerdə olmalıdır. Prezidenti xalq seçir. Prezident də xalqın qarşısında hesabat verməlidir. Ona görə də mən sizinlə bir yerdəyəm.

**Ş ə h ə r  s a k i n l ə r i:** Sizdən hamı razıdır. Sizin xalqla görüşünüz bizdə böyük sevinc hissi yaradır. İndi də burada Sizi görməyimizə görə çox sevinirik. Allah Sizə yar olsun.

**İ l h a m  Ə l i  y e v:** Çox sağ olun.

**Ş ə h ə r  s a k i n i:** İlham müəllim, bu sarayın arxası nə vaxt abadlaşacaqdır? Biz köhnə evlərdə yaşayırıq. Çox həsrətindəyik ki, ora da gözəlləşsin.

**İ l h a m  Ə l i  y e v:** Siz orada yaşayırsınız?

**Ş ə h ə r  s a k i n i:** Bəli.

**İ l h a m  Ə l i y e v:** Yəni istəyirsiniz ki, o yeri kimsə alsın?

**Ş ə h ə r  s a k i n i:** Bəli, istəyirik, təki abadlaşsın.

**İ l h a m  Ə l i y e v:** Hacıbala müəllim, belə bir layihə var?!

**H a c ı b a l a  A b u t a l ı b o v:** Bəli, baş plana uyğun olaraq işlər gedir.

**İ l h a m  Ə l i  y e v:** Olacaqdır.

Siz bilirsiniz ki, mən minimum əmək haqqını qaldırdım. 60 min manat idi, indi 100 min manat olubdur. Gələn ildən də artıracağam. Hər halda, 150 min manatdan aşağı olmayacaqdır.

**M ə c b u r i  k ö ç k ü n:** Cənab Prezident, mən 1993-cü ildən Cəbrayıl rayonundan didərgin düşmüşəm. Neçə ildir qardaşımla bir yerdə yaşayırıq. Bizi məhkəməyə veriblər.

**İ l h a m  Ə l i  y e v:** Yəni siz harasa müraciət etmisiniz?

**M ə c b u r i  k ö ç k ü n:** Bəli, məhkəməyə veriblər, bizi oradan çıxarmaq istəyirlər.

**H a c ı b a l a  A b u t a l ı b o v:** Prezidentin imzaladığı sərəncama görə, 1998-ci ilə qədər hansı məcburi köçkün, qaçqın harada məskunlaşıbsa, məhkəmənin qərarı olsa belə, ona güldən ağır söz deməyəcəklər.

**İ l h a m   Ə l i y e v:** Sizə dəymək olmaz. Hacıbala müəllimə tapşırıq verirəm ki, bu məsələ ilə məşğul olsun.

*Sakinlər ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttini, quruculuq işlərini davam etdirdiyinə görə dövlətimizin başçısına minnətdarlıq etdilər, Bakıda aparılan abadlıq və yenidənqurma işlərini, prezidentin tez-tez xalq arasında olmasını bir daha yüksək qiymətləndirdilər, onu ürəkdən dəstəklədiklərini vurğuladılar.*

*Prezident İlham Əliyev sakinlərin problemləri ilə maraqlandı, arzu və təkliflərini dinlədi, müraciət olunan məsələlərlə bağlı konkret tapşırıqlar verdi.*

**BELÇİKA KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB Gİ VERHOFSTADTA**

Hörmətli cənab Baş nazir!

Ath şəhəri yaxınlığında qaz kəmərində baş vermiş partlayış nəticəsində insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *31 iyul 2004-cü il*

## NƏ? HARADA? NƏ VAXT? ZƏKA OYUNU ÜZRƏ ÜÇÜNCÜ DÜNYA ÇEMPİONATI MÜKAFATÇILARININ TƏLTİF EDİLMƏSİ VƏ BAĞLANIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*Hyatt Recensi–Naxçıvan mehmanxanası*

*31 iyul 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev və Nə? Harada? Nə vaxt? Beynəlxalq Klublar Assosiasiyasının prezidenti, İqra teleşirkətinin Baş direktoru Natalya Stetsenko qaliblərə və mükafatçılara medalları təqdim etdilər.*

*Mükafatlar təqdim olunduqdan sonra çıxış edən Natalya Stetsenko Nə? Harada? Nə vaxt? Beynəlxalq Klublar Assosiasiyası adından Azərbaycan prezidentini seçkilərdə qələbəsi münasibətilə təbrik edərək dedi:*

Burada tez-tez qonaq olduğumuza görə ölkənizdə baş verən bütün hadisələrlə tanışıq, sevincimizi, həyəcanımızı Sizinlə birlikdə bölüşürük. Deməliyəm ki, biz Heydər Əliyeviç Əliyevin Azərbaycan üçün və ümumiyyətlə, bütün dünya üçün necə bir insan olduğunu başa düşürük. Mən açılış mərasimində dedim ki, bizim Nə? Harada? Nə vaxt? hərəkatımızın inkişafında o öz rolunu oynamışdır. Lideri itirməyin nə demək olduğunu biz öz təcrübəmizdən bilirik. Bilirik ki, bu, çox çətindir, həmin an qüssə-kədərə dözmək, sonra isə özündə qüvvə toplayıb irəliləmək çox çətindir. Biz Sizə həm oyunumuzda, həm də başladığınız bu mühüm, çətin yolda uğurlar arzulayırıq.

Həm maliyyə cəhətdən, həm də təşkilati cəhətdən yardım və dəstəyə görə Azərbaycanın Milli Olimpiya Komitəsinə, Gənclər, İdman və Turizm Nazirliyinə təşəkkürümü bildirirəm.

Azərbaycan prezidenti İlham Əliyevi Bakı komandasının qələbəsi münasibətilə təbrik edərək bildirirəm ki, bu komandada çox güclü, fə-

al oyunçular var və oyunun göstərdiyi kimi, onların gələcəyi böyükdür. Mən Olimpiya oyunlarında iştirak edəcək Azərbaycanın yığma komandasına da uğurlar arzulayıram.

İcazə verin, Nə? Harada? Nə vaxt? oyunu üzrə çempionatlardan xatirə olaraq hazırlanmış fotoalbomu prezident İlham Əliyevə təqdim edim.

**İlham Əliyev**: Əziz dostlar!

Çempionat sona yetdi. Əminəm ki, inişil və ötən il olduğu kimi, indi də, Bakının dünya çempionatı iştirakçılarını qəbul etdiyi bu günlər də hamının xatirəsində uzun müddət qalacaqdır. Bu gün mən buraya, final yarışlarına gələrkən ötən ili və inişili, bütün bunların necə başlandığını, göstərilən təşəbbüsü xatırladım. Birinci dəfə Milli Olimpiya Komitəsi, Gənclər, İdman və Turizm Nazirliyi nümayəndələrinin necə həyəcan keçirdiklərini xatırladım. Onlar birinci çempionatın necə keçəcəyi ilə əlaqədar həyəcanlı idilər. Biz çox şadıq ki, dünya çempionatı ildən-ilə daha mütəşəkkil, daha yüksək səviyyədə keçir, buraya dünyanın müxtəlif ölkələrindən daha çox komanda gəlir.

Bu gün Azərbaycan regionda aparıcı ölkədir. Ölkəmiz qonaqpərvərliyi, qonaqlara səmimi, mehriban münasibəti ilə həmişə fərqlənmişdir. Düşünürəm ki, Bakı hər bir bilicinin xatirəsində uzun müddət qalacaqdır.

Mən Nə? Harada? Nə vaxt? klubunun rəhbərlərinə minnətdaram ki, onlar bizim müraciətimizi nəzərə aldılar və artıq üçüncü çempionatı da Bakıda keçirdilər. Xoş ənənələri pozmayaraq, bu gün mən sizə böyük ümidlə bir daha müraciət edirəm və əminəm ki, siz növbəti ildə də Bakıya gələcəksiniz.

Çempionatda iştirak edən, öz intellektini və əzmkarlığını, öz qələbə iradəsini göstərən bütün komandaları təbrik edirəm. Azərbaycan MOK-un rəhbəri kimi, bugünkü gün mənə ona görə xüsusilə xoşdur ki, yeddi il əvvəl, məhz bu gün mən Milli Olimpiya Komitəsinin prezidenti seçilmişəm. Bu gün mənə çox əzizdir. Mən Azərbaycan prezidenti seçildikdən sonra da bu vəzifəni tərk etməmişəm. Düşünürəm

ki, əgər idman ictimaiyyəti mənə bundan sonra da etimad göstərsə, müəyyən müddət ərzində bu vəzifədə qalacağam.

Çempionatın qaliblərini, ikinci və üçüncü yerləri tutan komandaları təbrik etmək istəyirəm. Əlbəttə ki, ilk dəfə çempion olaraq, bizə, bütün Azərbaycana çox böyük sevinc bəxş edən Azərbaycan komandasını da təbrik etmək istəyirəm. Düşünürəm ki, onlar Azərbaycanı bütün beynəlxalq yarışlarda bundan sonra da layiqincə təmsil edəcəklər.

Mən böyük dostum, Rusiya Olimpiya Komitəsinin prezidenti Leonid Tyaqaçovu salamlayıram. Bu gün bizim onunla yaxşı görüşümüz oldu, ikitərəfli müqavilə imzalanmışdır. Ötən dəfə, Sidneydə olduğu kimi, Afinada da biz Rusiya komandasına azarkeşlik edəcəyik, rusiyalılar isə Azərbaycan idmançılarına azarkeşlik edəcəklər. Beləliklə, biz birlikdə qələbəyə doğru gedəcəyik.

Əziz Natalya İvanovna, çempionatın Azərbaycanda keçirilməsinə görə, ölkəmiz haqqında, həyatdan getməsi hər bir azərbaycanlı üçün böyük itki olan ümummilli liderimiz Heydər Əliyev haqqında xoş sözlərinizə görə Sizə bir daha ən səmimi hisslərimi bildirmək istəyirəm. Mənim barəmdə dediyiniz sözlərə görə sağ olun. Mən öz fəaliyyətimdə atamın apardığı, Azərbaycanı ön sıralara çıxarmış, Azərbaycana dinamik, dinc, əmin-amanlıq şəraitində inkişaf etməyə imkan vermiş siyasəti davam etdirəcəyəm. Dostları qəbul edəcəyəm, onlarla ünsiyyətdə olacağam, çalışacağam ki, dostlarımız çox olsun. ümidvaram ki, biz cəmiyyətimizin rifahı naminə, gənclərin rifahı naminə birlikdə işləyəcəyik. Bu gün burada olan və televiziya ilə verilişə baxan gənclər, əlbəttə ki, bu oyuna, idmana, zəka sahiblərinin yarışına qoşulacaqlar.

**SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SELLAPAN RAMA NATANA**

Hörmətli cənab Prezident!

Sinqapur Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Sinqapur münasibətləri daim dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sinqapur xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 avqust 2004-cü il*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ROH MU–HYUNA**

Hörmətli cənab Prezident!

Koreya Respublikasının milli bayramı – Dirçəliş günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Koreya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 avqust 2004-cü il*

**HİNDİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MANMOHAN SİNQƏ**

Hörmətli cənab Baş nazir!

Hindistan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Hindistan əlaqələrinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 avqust 2004-cü il*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB AVUL PAKİR CAYNULABDİN ƏBDÜL KALAMA**

Hörmətli cənab Prezident!

Hindistan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz ikitərəfli əlaqələrimizin genişlənməsinə böyük əhəmiyyət veririk. Əminəm ki, Azərbaycan ilə Hindistan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq daim inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Hindistan xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 avqust 2004-cü il*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM MEQAVATİ SUKARNOPUTRİYƏ**

Hörmətli xanım Prezident!

İndoneziya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə İndoneziya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İndoneziya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 avqust 2004-cü il*

**ƏFQANISTAN İSLAM KEÇİD DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ**

Hörmətli cənab Prezident!

Əfqanıstanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın rifahına, regionda sülhə və sabitliyə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əfqanıstan xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 avqust 2004-cü il*

## XXVIII YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK EDƏCƏK AZƏRBAYCAN İDMANÇILARININ YOLASALMA MƏRASİMİNDƏ NİTQ

*Zuğulba,*
*«Gənclik» Beynəlxalq Turizm Mərkəzi*

*4 avqust 2004-cü il*

Hörmətli xanımlar və cənablar!

Üçüncü dəfədir ki, idmançılarımızın olimpiya oyunlarına yolasalma mərasimi keçirilir. Burada qeyd olundu ki, bu ənənəni xalqımızın ümummilli lideri Heydər Əliyev qoymuşdur və ilk dəfə 1996-cı ildə bu mərasim məhz bu salonda keçirilmişdir. Mən o günü çox yaxşı xatırlayıram. Çünki o mərasimdə iştirak edirdim və bu gün də buraya gələrkən fikirləşirdim ki, ilk dəfə bir idman azarkeşi, həvəskarı kimi həmin mərasimdə iştirak etmişdim. İkinci dəfə Milli Olimpiya Komitəsinin prezidenti kimi iştirak etmişəm, üçüncü dəfə isə Azərbaycan Respublikasının prezidenti kimi iştirak edirəm.

Mən o günü çox yaxşı xatırlayıram. Çünki hesab edirəm ki, Azərbaycanın idman sahəsində əldə edilən uğurlarının təməli məhz o illərdə qoyulmuşdur. Bilirsiniz ki, Azərbaycan 1993-cü ilə qədər çox ağır, çətin vəziyyətdə yaşayırdı. Xalqımızın lideri Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışından sonra ölkədə bütün istiqamətlərdə müsbət proseslər getməyə başladı. Baxmayaraq ki, o zaman 1990-cı illərin ilk yarısında Azərbaycanın iqtisadi vəziyyəti çox çətin idi, amma idmana xüsusi diqqət göstərilirdi. 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradılmışdı və xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən, ümumiyyətlə, olimpiya hərəkatına, idmanın inki-

şafına böyük diqqət daim göstərilirdi. Məhz bunun nəticəsində Azərbaycanda son illər ərzində idmanda uğurlar əldə olundu, idmançılarımız müxtəlif yarışlarda ölkəmizi çox ləyaqətlə təmsil etməyə başladılar. Azərbaycanın idman şöhrətini ucaltdılar.

Bu gün Azərbaycan idmançıları beynəlxalq yarışlarda – Avropa, dünya çempionatlarında və digər mötəbər yarışlarda çoxlu qızıl, gümüş, bürünc medallar qazanırlar.

Sidney Olimpiya oyunlarında idmançılarımız çox uğurla çıxış etdilər. Bildiyiniz kimi, 2 qızıl, 1 bürünc medal qazandılar. Eyni zamanda, digər idmançılar da yüksək yerləri tuta bildilər. Sidney Olimpiadasından bu günə qədər keçən dövr ərzində Azərbaycan idmanı daha da sürətlə inkişaf etdi. Əgər Sidney Olimpiya oyunlarında idmançılarımızın arasında dünya, olimpiya çempionu yox idisə, Afina Olimpiya oyunlarında Azərbaycanı iki olimpiya çempionu və dörd dünya çempionu təmsil edəcəkdir. Zemfira Meftahəddinova və Namiq Abdullayev olimpiya çempionları, Nizami Paşayev, Niyaməddin Paşayev, Ağası Məmmədov və Arif Abdullayev dünya çempionları kimi Azərbaycanı təmsil edəcəklər.

Bu fakt özlüyündə çox şey deyir. Onu göstərir ki, Azərbaycanda idman sahəsində gedən işlər öz nəticələrini vermişdir. Azərbaycan idmanı dünyada layiqli yerini tuta bilibdir. Təsadüfi deyil ki, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti çıxışlarının birində Azərbaycan Milli Olimpiya Komitəsinin fəaliyyətini digər olimpiya komitələri üçün nümunə adlandırmışdır. Bundan yüksək qiymət ola bilməz. Həqiqətən, Azərbaycanda, ümumiyyətlə, idman və olimpiya hərəkatı uğurla inkişaf edir. Milli Olimpiya Komitəsi, Gənclər, İdman və Turizm Nazirliyi, müvafiq federasiyalar, idman cəmiyyətləri vahid bir komanda, vahid bir ailə kimi fəaliyyət göstərirlər.

Mən yeddi ildir Milli Olimpiya Komitəsinin prezidentiyəm və bütün beynəlxalq tədbirlərdə iştirak etmişəm, çoxlu görüşlər keçirmişəm. Deyə bilərəm ki, ölkələrin əksəriyyətində idmanla məşğul olan qurumların arasında sağlam əməkdaşlıq çox nadir hallarda olur. Əksəriyyətində bu qurumlar arasında toqquşmalar da, ziddiyyətlər də

olur. Azərbaycanda bunların heç biri yoxdur. Bu da idmanın uğurla inkişaf etməsində mühüm rol oynayır.

Mən Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra İcraiyyə Komitəsinin ilk toplantısında demişdim ki, biz, idmana rəhbərlik edən şəxslər gərək idmançıların bütün məsələləri ilə məşğul olaq, onlara idmanla məşğul olmaq, beynəlxalq yarışlarda iştirak etmək üçün şərait yaradaq. İdmançılar isə, öz növbələrində, nəticələri ilə gərək xalqımızı, vətənimizi sevindirsinlər. Hesab edirəm ki, bu əməkdaşlıq, görülən işlər uğurlarımızın əsas səbəbidir.

Son dörd il ərzində Azərbaycan beynəlxalq yarışlarda çox uğurla iştirak edibdir. İdmançılarımız beynəlxalq turnirlərdə, Avropa, dünya çempionatlarında qələbələr qazanmışlar. Azərbaycanda bir neçə beynəlxalq səviyyəli mötəbər yarış keçirilmişdir. Azərbaycan həqiqi mənada idman dövlətinə, ölkəsinə çevrilmişdir. Azərbaycanda yeni gənc nəsil yetişmişdir. Biz yeniyetmələrin hazırlığına böyük diqqət göstəririk. Əgər yeniyetmə idmanı olmasa, ümumiyyətlə, ölkədə idman inkişaf edə bilməz.

Biz Sidney Olimpiya oyunlarında komandamızın tərkibinə baxırdıq. Görürdük ki, orada dəvət olunmuş idmançıların sayı kifayət qədər çox idi. Bu dəfə komandamızda, demək olar ki, dəvət olunmuş idmançılar yoxdur. Azərbaycanı təmsil edəcək gənclər Azərbaycanda təhsil almış, Azərbaycanda bütün mərhələləri keçmiş idmançılardır. Əlbəttə, çox sevindirici haldır ki, Sidneydə Azərbaycanı 31 idmançı təmsil etdiyi halda, bu dəfə 38 idmançı təmsil edəcəkdir. Hamımız yaxşı bilirik ki, komandamız çox güclüdür və çox gözəl imkanları var. Mən şübhə etmirəm ki, idmançılarımız Afinada çox uğurla çıxış edəcəklər.

Fəaliyyətimizin digər istiqaməti idmançılara şərait yaratmaqdan ibarət olmuşdur. Mən 2000-ci ildə bəyan etmişdim ki, Azərbaycanda Milli Olimpiya Komitəsi çox geniş proqram həyata keçirəcəkdir. Azərbaycanın müxtəlif bölgələrində yeni idman qurğuları tikilməsi istiqamətində böyük işlər aparılacaqdır. Gördüyünüz kimi, biz bu sözə də əməl etdik. 2000-ci ildən 2004-cü ilədək Azərbaycanda 8 yeni

olimpiya kompleksi ən yüksək səviyyədə tikilib istifadəyə verilmişdir. İndi idmançılarımız bu komplekslərdən çox səmərəli istifadə edirlər. Bizim yığma komandalarımız yeni komplekslərdə təlim-məşq toplanışları keçirirlər. Eyni zamanda, həmin bölgələrdə yaşayan uşaqlar, yeniyetmələr bu komplekslərdən səmərəli istifadə edirlər. Bu bizə imkan verəcək ki, gələcək nəsil də fiziki cəhətdən sağlam olacaqdır. Fiziki cəhətdən, mənəvi cəhətdən sağlam yeni nəsil Azərbaycanı gələcəyə aparacaq bir nəsil olacaqdır. Azərbaycan gənclərinin sağlamlığı ən prioritet məsələlərdən biridir. Siz idmançılar çox yaxşı bilirsiniz ki, idmanla məşğul olan insanlar heç vaxt mənfi hərəkətlərə yol verməzlər. Əksinə, onlar uşaqlar üçün, yeniyetmələr üçün nümunədir, örnəkdir. Bu baxımdan, hesab edirəm ki, apardığımız təbliğat işləri də çox uğurlu olubdur. Azərbaycan cəmiyyətində idmançılara böyük hörmətlə, rəğbətlə yanaşırlar. Bilirəm ki, idmançı olmaq artıq uşaqlar üçün çox cəlbedici bir peşə olubdur. Bu onu göstərir ki, idmanla məşğul olan şəxs, medal qazanan şəxs, Azərbaycanı dünyada ləyaqətlə təmsil edən şəxslər, onların fəaliyyəti layiqincə qiymətləndiriləcəkdir.

Çox sevinirəm ki, bu gün Azərbaycanın idmanı hərtərəfli inkişaf edir. Mən qeyd elədim ki, Azərbaycanın müxtəlif yerlərində 8 olimpiya kompleksi tikilibdir. İndi daha 5 kompleksin tikilməsi nəzərdə tutulur. Beləliklə, biz verdiyimiz sözə sadiq çıxdıq. Azərbaycanın hər bir bölgəsində idmanla məşğul olmaq üçün gözəl şərait var və bu şərait dünya standartlarına cavab verir.

Mən bu yaxınlarda Qubada idim. Orada bizim olimpiya kompleksində görüş keçirildi. Maraqlandım ki, çoxmu, azmı adam gəlir. Mənə dedilər ki, orada mehmanxanada boş yer yoxdur. Nəinki boş yer yoxdur, hətta bir ay qabaq bütün yerlər sifariş olunubdur. Beləliklə, orada yerlərin azlığı artıq problem yaradır. Bu onu göstərir ki, bu komplekslərdən çox səmərəli istifadə olunur. Mən ümid edirəm ki, gələcəkdə də inşa ediləcək olimpiya qurğuları idmançılara çox gözəl xidmət edəcəkdir.

İdmançılarımızın mükafatlandırılması da çox önəmli məsələdir. Biz buna böyük diqqət göstəririk. Son 7 il ərzində onlarca idmançı

təltif olunubdur. Milli Olimpiya Komitəsi xüsusi təqaüd təsis edibdir və bu təqaüdlər verilir. Eyni zamanda, idmançılarımıza, məşqçilərə onların həyat səviyyəsini yaxşılaşdırmaq üçün mənzillər verilir, digər mükafatlar verilir. Yəni, dövlət və Milli Olimpiya Komitəsi daim bu məsələyə böyük diqqətlə, qayğı ilə yanaşır. İdman veteranlarına da diqqət göstərilir, onlar unudulmur, çünki, bilirsiniz ki, idmançının idmanda ömrü uzun deyildir.

İdmançı idmanla məşğul olduğu dövr ərzində bütün bacarığını, imkanlarını işlədir, amma idmandan gedəndən sonra bəzi hallarda unudulur. Bunun qarşısını almaq üçün biz veteranlara da kömək göstəririk. İdmandan gedən idmançıları işlə təmin edirik ki, onlar öz həyatlarını davam etdirsinlər, normal yaşayışla təmin olunsunlar. Beləliklə, həm idmançı kimi, həm də idman veteranı kimi, cəmiyyətdə layiqli yerlərini tutsunlar. Əlbəttə, bundan sonra da bu istiqamətdə işlər aparılacaqdır.

İdmanın hər bir ölkə üçün böyük əhəmiyyəti var. Hər bir ölkənin ictimai həyatında idman çox mühüm rol oynayır. Ölkəni dünyada tanıdır, ölkənin imicini qaldırır. Mən çox şadam ki, Azərbaycanda idman artıq çox mühüm bir ictimai amilə çevrilibdir. İdmançılara çox böyük hörmət var, idmançılar Azərbaycanı çox ləyaqətlə təmsil edirlər. Hər bir azərbaycanlı, hər bir Azərbaycan vətəndaşı görəndə ki, onun ölkəsini təmsil edən idmançı birinci olur, dünya çempionu olur, Azərbaycanın bayrağı qaldırılır, dövlət himni səslənir, o, haqlı olaraq qürur hissi keçirir. Bu, böyük sevinc, böyük xoşbəxtlikdir. Mən şübhə etmirəm ki, idmançılarımız Afina Yay Olimpiya oyunlarında ölkəmizi ləyaqətlə təmsil edəcək və doğma vətənimizə yeni uğurlar gətirəcəklər.

Yeniyetmələrin, uşaqların vətənpərvərlik ruhunda böyüməsi üçün idman çox mühüm rol oynayır. Bu, Azərbaycanda da belədir. Mən bilirəm ki, Azərbaycanı Afinada təmsil edəcək idmançılar bu oyunlara çox yaxşı hazırlaşıblar. Bu yarışlarda böyük ruh yüksəkliyi, qələbə əzmi ilə iştirak edəcəklər. Amma eyni zamanda, qeyd etdiyim kimi, hər bir xidmət, hər bir fədakarlıq, vətən uğrunda atılan hər bir addım

gərək layiqincə qiymətləndirilsin. Bu məqsədlə Milli Olimpiya Komitəsi və Azərbaycan hökuməti müəyyən tədbirlər görübdür.

Mən bu gün Milli Olimpiya Komitəsinin prezidenti kimi, həm də Azərbaycan Respublikasının prezidenti kimi, görülən işlər haqqında sizə məlumat verəcəyəm. İlk növbədə, lisenziya qazanmış hər bir idmançıya pul mükafatı veriləcəkdir. Bu, bu gün veriləcəkdir. Olimpiya oyunlarında iştirak etmək üçün lisenziya qazanmış hər bir idmançı 15 milyon manat məbləğində mükafatlandırılır. Eyni zamanda, Olimpiya oyunlarında birinci yeri tutan idmançı Milli Olimpiya Komitəsi tərəfindən 250 milyon manat məbləğində mükafat alacaqdır. Onun məşqçisi 125 milyon manat alacaqdır. İkinci yeri tutan idmançı 150 milyon manat, məşqçisi 75 milyon manat, üçüncü yeri tutan idmançı 100 milyon manat, məşqçisi isə 50 milyon manat mükafat alacaqdır. Bu, Milli Olimpiya Komitəsi tərəfindən veriləcəkdir.

Əlbəttə, keçən dəfə olduğu kimi, müvafiq federasiyalar da öz mükafatlarını verəcəklər. Ümid edirəm ki, sponsorlar da öz sözlərini deyəcəklər. Eyni zamanda, Azərbaycan Respublikasının prezidenti kimi, bu gün mən sərəncam imzaladım. Sərəncamda deyilir ki, olimpiya oyunlarında birinci yeri tutan idmançı 500 milyon manat, məşqçisi 250 milyon manat mükafat alacaqdır. İkinci yeri tutan idmançı 250 milyon manat, məşqçisi 125 milyon manat, üçüncü yeri tutan 120 milyon manat, məşqçisi isə 60 milyon manat mükafat alacaqdır. Təkcə Milli Olimpiya Komitəsi və Azərbaycan hökuməti tərəfindən birinci yeri tutan idmançıya veriləcək məbləğ 750 milyon manat olacaqdır.

Mən bilirəm ki, bunlar olmasa belə, yenə də idmançılarımız ölkəmizi ləyaqətlə təmsil edəcəklər. Çünki idmançıların əsas stimulu, onlara əsas güc verən amil vətənə məhəbbət, xalqa məhəbbətdir. Bu hisslər, bu duyğular bütün Azərbaycan cəmiyyətini birləşdirir.

Mən Sidneydə yaşanan günləri xatırlayıram. Mən xatırlayıram, olimpiya oyunları bitəndən sonra demişdim ki, mən bu hissləri bir daha yaşamaq istəyirəm. Əminəm ki, biz hamımız birlikdə bu hissləri bir daha yaşayacağıq. Azərbaycan idmançıları qalib gələcəkdir.

Əziz dostlar!

Əziz idmançılar!

Sizin hamınıza olimpiya oyunlarında uğurlar arzulayıram. Əminəm ki, doğma Azərbaycanımızı siz ləyaqətlə təmsil edəcəksiniz və vətənə qələbə ilə qayıdacaqsınız.

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİ AZƏRBAYCANDA

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin dəvəti ilə İran İslam Respublikasının prezidenti Seyid Məhəmməd Xatəmi avqustun 5-də ölkəmizə rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və İranın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*İran prezidenti Seyid Məhəmməd Xatəmini Azərbaycanın Baş naziri Artur Rasizadə, Xarici İşlər naziri Elmar Məmmədyarov və digər rəsmi şəxslər təyyarənin pilləkəni yanında səmimiyyətlə qarşıladılar.*

*Qarşılanma mərasimindən sonra İran İslam Respublikasının prezidenti Seyid Məhəmməd Xatəmi fəxri motosikletçilər dəstəsinin müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

* * *

*Avqustun 5-də Prezident sarayında İran İslam Respublikasının prezidenti Seyid Məhəmməd Xatəminin rəsmi qarşılanma mərasimi olmuşdur. Hər iki ölkənin dövlət bayraqlarının asıldığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan dövlətinin başçısı İlham Əliyev İran prezidenti Məhəmməd Xatəmini böyük hörmət və səmimiyyətlə qarşıladı.*

*Müdafiə Nazirliyinin hərbi orkestrinin ifasında İranın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezidentlər İlham Əliyev və Məhəmməd Xatəmi fəxri qarovul dəstəsinin qarşısından keçdilər. İran prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri İran prezidenti Məhəmməd Xatəmiyə, İran nümayəndə heyətinin üzvləri Azərbaycan prezidenti İlham Əliyevə təqdim olundu.*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və İran İslam Respublikasının prezidenti Məhəmməd Xatəminin təkbətək görüşü keçirilmişdir.*

## AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞDƏ NİTQ

*Prezident sarayı*

*5 avqust 2004-cü il*

**İ l h a m  Ə l i y e v**: Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizi bir daha ürəkdən salamlayıram, «Azərbaycana xoş gəlmisiniz!» deyirəm. Ölkələrimiz arasında olan münasibətlər çox sürətlə inkişaf edir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin İrana rəsmi səfərindən sonra bu münasibətlər daha da sürətlə inkişaf edir. Azərbaycan–İran münasibətləri bütün sahələrdə – siyasi, iqtisadi, mədəni və humanitar istiqamətlərdə inkişaf edir və günü-gündən güclənir. Biz əlaqələrimizə böyük önəm veririk. Azərbaycanda bütün sahələrdə olduğu kimi, xarici siyasətdə, o cümlədən İranla Azərbaycan arasında olan münasibətlərdə də Heydər Əliyev siyasəti davam etdirilir. Biz münasibətlərimizin daha da güclənməsini və bütün səviyyələrdə daha da inkişaf etməsini istəyirik.

Hörmətli cənab Prezident, bu baxımdan Azərbaycanda Sizin səfərinizə böyük əhəmiyyət verilir. Biz əminik ki, bu səfər çox uğurlu olacaq və aramızda olan əlaqələr yeni pilləyə qalxacaqdır. Biz artıq təkbətək görüş zamanı müxtəlif məsələləri müzakirə etmişik, fikir mübadiləsi aparmışıq və şübhə etmirəm ki, bu məsləhətləşmələr müxtəlif sahələrdə yaxından əməkdaşlıq etməyimizə imkan verəcəkdir.

Biz çox şadıq ki, Siz Azərbaycana böyük bir nümayəndə heyəti ilə gəlmisiniz. Ümidvaram ki, nümayəndə heyətinin üzvləri Azərbaycanda səmərəli işləyəcək və bizim ölkənin rəsmi şəxsləri ilə səmərəli danışıqlar aparacaqlar. İran Azərbaycan üçün dost və qonşu ölkədir.

Əminəm ki, bu gözəl münasibətlər davam edəcək, xalqlarımız bir-birinə daha da yaxın olacaqdır.

Bir daha Sizi ürəkdən salamlayıram. Əmin olduğumu bildirmək istəyirəm ki, səfəriniz uğurlu olacaqdır.

**M ə h ə m m ə d  X a t ə m i**: Mən ilk öncə Sizi Azərbaycan Respublikasının prezidenti seçilməyiniz münasibətilə bir daha təbrik edirəm və Sizi inandırıram ki, münasibətlərimiz daha da inkişaf edəcəkdir.

Mən habelə Azərbaycan xalqının ümummilli liderinin ruhunun şad olmasını arzu edirəm.

İran prezidenti Məhəmməd Xatəmi rəsmi nümayəndə heyətinin üzvlərini Azərbaycan prezidentinə təqdim etdikdən sonra dedi:

– Bizim istəyimiz Azərbaycan Respublikasını sabit, iqtisadi cəhətdən inkişaf etmiş və güclü dövlət kimi görməkdir. Siz əmin ola bilərsiniz ki, Azərbaycan Respublikasının iqtisadi inkişafı və sabitliyinin təmin olunması üçün görülən tədbirlərin hamısını alqışlayırıq və bunun üçün əlimizdən gələn köməyi əsirgəməyəcəyik. İran İslam Respublikasının siyasəti və bizim rəsmi şəxslərin fikirləri bundan ibarətdir ki, Azərbaycanla İran arasında münasibətlər inkişaf etdirilməlidir.

Mərhum Heydər Əliyevin prezidentliyi dövründə İranla Azərbaycan arasında münasibətlərin inkişafında mühüm addımlar atılmışdır. Biz inanırıq ki, Sizin prezidentliyiniz dövründə də həmin yol davam etdiriləcəkdir. Ümidvaram ki, Azərbaycan Respublikasına səfərimiz həm ikitərəfli münasibətlərin inkişafında, həm də regionda sülhün və sabitliyin möhkəmlənməsində mühüm rol oynayacaqdır. Biz Azərbaycan Respublikasının ərazi bütövlüyünü bir daha təsdiqləyir və elan edirik ki, Azərbaycanla İranın sərhədləri sülh, dostluq və qardaşlıq sərhədləri olacaqdır. Ümid edirik ki, Xəzər dənizinin hüquqi statusu ilə əlaqədar yaxın zamanlarda sahilyanı ölkələrin hamısının mənafeyini təmin edən və bütün tərəfləri qane edən bir razılığa nail olacağıq. Bu baxımdan Tehranda Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə toplantısı bu istiqamətdə mühüm addım olacaqdır. Biz hesab edirik ki,

ölkələrimiz arasında münasibətlərin hərtərəfli inkişafı üçün geniş imkanlar mövcuddur. Energetika, kənd təsərrüfatı və ticarət sahəsində çox uğurlu əməkdaşlıq edirik. Sadaladığım sahələrdə əməkdaşlıqdan əlavə, digər istiqamətlərdə də işbirliyinin, layihələrin adını çəkə bilərəm ki, bunlar İran–Azərbaycan münasibətlərində yenilikdir.

Bakı–Astara avtomobil yolunun tikintisi və iki ölkənin dəmir yol xətlərinin birləşdirilməsi, Şimal–Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsi və bu xəttin Azərbaycan ərazisindən keçməsi üçün çox mühüm layihələr var ki, bunlar da ölkələrimizi bir-birinə daha yaxından bağlayacaqdır. Naxçıvan Muxtar Respublikasına İran təbii qazının ötürülməsi ilə bağlı layihə də həyata keçiriləcəkdir. İran İslam Respublikasının «Samir» şirkəti vasitəsilə Azərbaycan ərazisində 4 elektrik stansiyasının tikintisi nəzərdə tutulur. Habelə qeyd etməliyəm ki, iki ölkənin sərhəd zonalarında – Astara, Culfa və Poldəşt-Şahtaxtı körpülərinin inşası müzakirə edilir və ümidvarıq ki, bu sahədə də müsbət nəticələr əldə olunacaqdır. Biz Azərbaycanda iqtisadi layihələrin həyata keçirilməsi üçün kreditlər ayırmışıq və çalışırıq ki, sizin ölkənizə birdəfəlik və əvəzsiz yardımlar ayıraq.

Bu gün mən bir daha Allaha minnətdaram ki, qəlbimin dərinliklərindən gələn arzum yerinə yetmişdir və Azərbaycan Respublikasına səfərə gəlmişəm. Bildiyiniz kimi, cənab İlham Əliyev müxtəlif vaxtlarda bizim müxtəlif nümayəndə heyətlərimiz tərəfindən İrana rəsmi səfərə dəvət olunmuşdur. Bu gün mən burada sizin iştirakınızla bir daha cənab İlham Əliyevi İran İslam Respublikasına rəsmi səfərə dəvət edirəm. Sağ olun. Təşəkkür edirəm.

**İlham Əliyev**: Hörmətli cənab Prezident, bu dəvətə görə sağ olun. Mən böyük məmnuniyyətlə İran İslam Respublikasına səfər edəcəyəm.

* * *

*Geniş heyətdə görüş başa çatdıqdan sonra Azərbaycan və İran prezidentlərinin iştirakı ilə ikitərəfli sənədlərin imzalanma mərasimi oldu.*

*«Azərenerji» Səhmdar Cəmiyyəti və İran İxrac İnkişaf Bankı arasında İmişli–Əli Bayramlı–Astara elektrik verilişi xətlərinin və yarımstansiyaların layihələşdirilməsi və tikintisinin maliyyələşdirilməsi üzrə maliyyə müqaviləsi, «Azəriqaz» Qapalı Səhmdar Cəmiyyəti və İran Milli Qaz Satışı Şirkəti arasında təbii qaz mübadiləsi üzrə müqavilə imzalandı.*

*Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və İran İslam Respublikasının Ətraf Mühit Departamenti arasında anlaşma memorandumu, mədəniyyət sahəsində əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası və İran İslam Respublikası dəmir yolları arasında əməkdaşlıq haqqında protokol, Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və İran İslam Respublikasının Nəqliyyat Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında– memorandum, Azərbaycan Respublikası hökuməti və İran İslam Respublikası hökuməti arasında Astara–Bakı yolunun maliyyələşdirilməsinə dair memorandum, Azərbaycan Respublikası hökuməti və İran İslam Respublikası hökuməti arasında sərhədyanı ticarət sahəsində memorandum, Azərbaycan Respublikası hökuməti və İran İslam Respublikası hökuməti arasında ticarət sazişi, Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında təhlükəsizlik və hüquqmühafizə fəaliyyəti sahəsində əməkdaşlıq haqqında saziş imzalandı.*

## SƏNƏDLƏR İMZALANDIQDAN SONRA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD XATƏMİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

*5 avqust 2004-cü il*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün İran İslam Respublikasının prezidenti cənab Xatəminin Azərbaycana rəsmi səfəri başlayıbdır. Deyə bilərəm ki, bu səfər çox uğurlu keçir. Həm təkbətək görüşdə, həm də geniş tərkibdə görüşümüzdə geniş fikir mübadiləsi aparılmış, müxtəlif məsələlər müzakirə edilmişdir. İkitərəfli məsələlər, regionda gedən proseslər müzakirə olunmuşdur. Bildiyiniz kimi, İranla Azərbaycan arasında olan münasibətlər uğurla inkişaf edir.

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra İran Azərbaycanla çox uğurlu əməkdaşlıq edir. Azərbaycan üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində biz İranın dəstəyini daim hiss etmişik və bu gün də hiss edirik.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin İran İslam Respublikasına rəsmi səfərindən sonra bizim ikitərəfli münasibətlərimizə yeni təkan verilmişdir. Biz çox istəyirik ki, bütün sahələrdə münasibətlərimiz daha da inkişaf etsin, əlaqələrimiz güclənsin. Hazırda İranla Azərbaycan arasında siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə münasibətlər inkişafdadır.

Bu gün çox önəmli, böyük əhəmiyyət kəsb edən sənədlər imzalanmışdır. İqtisadi, nəqliyyat, mədəni sahələrdə, energetika, qaz sahəsində çox önəmli sazişlər imzalanmışdır. Bu sazişlərin icrası nəticəsində Azərbaycanda minlərlə yeni iş yeri açılacaqdır. Energetika və qaz sahəsində mübadilə sazişləri bizə imkan verəcək ki, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasını elektrik enerjisi və qazla təmin edə biləcəyik.

Bu gün imzalanan sənədlər iqtisadi baxımdan böyük əhəmiyyət kəsb edir və eyni zamanda, siyasi cəhətdən bu sazişlər iki ölkəni daha da yaxınlaşdıracaqdır. Mən əminəm ki, İran İslam Respublikasının prezidenti cənab Xatəminin Azərbaycana rəsmi səfərindən sonra iki ölkə arasında olan münasibətlər yeni pilləyə qalxacaq və xalqlarımız bir-birinə daha da yaxın olacaqdır.

Mən qeyd etdim ki, bu səfər çox uğurlu başladı. Əminəm ki, uğurlu da davam edəcəkdir. Bu səfərdən sonra İranla Azərbaycan arasında olan münasibətlər daha da güclənəcək, inkişaf edəcəkdir.

## İran İslam Respublikasının prezidenti Məhəmməd Xatəminin bəyanatı

Mehriban və bağışlayan Allahın adı ilə!

Tarix və coğrafiya iki dost və mehriban millət arasında çox böyük bağlılıqlar yaratmışdır. Bu bağlılıqlar siyasi şəxslərin üzərinə çox böyük məsuliyyət qoyur ki, biz siyasi, iqtisadi, mədəni və sair sahələrdəki əməkdaşlığı daha da genişləndirək və möhkəmləndirək. Bizim münasibətlərimizin təminatı müştərək tariximiz, dinimiz və müştərək mədəniyyətimizdir. Bizim sərhədlərimiz qarşılıqlı təhlükəsizliyimizi və inkişafımızı bir-birinə bağlayır.

Mən bu gün hörmətli prezidentlə görüşümüzdə qeyd etdiyim kimi, bir daha deyirəm ki, İran–Azərbaycan sərhədləri sülh, dostluq və qardaşlıq sərhədləridir. Biz Azərbaycan Respublikasının təhlükəsizliyini və inkişafını özümüzün təhlükəsizliyimiz və inkişafımız hesab edirik.

Bunu bir daha bəyan edirəm ki, hər iki ölkənin yüksək səviyyəli siyasi rəhbərliyinin münasibətlərimizin inkişafına böyük iradəsi vardır.

Bu gün imzalanan sənədlərin sayı və müxtəlif sahələri əhatə etməsi onu göstərir ki, bizim münasibətlərimiz bütün istiqamətlərdə inkişaf edəcəkdir. Biz buna əminik, elə bir mövzu yoxdur ki, müzakirələr və məsləhətləşmələr yolu ilə həll olunmasın. Münasibətlərimizi bütün istiqamətlərdə inkişaf etdirəcəyik və Allahın köməyi ilə yaxın zamanlarda Azərbaycan Respublikasının Təbriz şəhərində baş konsulluğunun açılmasının şahidi olacağıq. Mən inanıram ki, bu gün imzalanan sənədlər siyasi, iqtisadi və mədəni münasibətlərimizdəki inkişafı daha da genişləndirəcəkdir.

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin və onun komandasının mənə göstərdiyi yüksək qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm. Azərbaycan xalqına və hökumətinə dərin təşəkkürümü çatdırıram. Azərbaycan xalqının ümummilli lideri mərhum Heydər Əliyevin istəyi var idi ki, Azərbaycan–İran münasibətləri bütün sahələrdə inkişaf etsin. Bu onun davamçıları, yəni bizlər tərəfindən həyata keçirilir və keçiriləcəkdir. Əminəm ki, Azərbaycan Respublikasının prezidenti İlham Əliyev siyasi bacarığı və idarəçilik qabiliyyəti ilə Azərbaycanı günü-gündən daha da inkişaf etdirəcəkdir.

* * *

**S u a l: Hörmətli cənab prezident Əliyev, İran İslam Respublikası prezidentinin Azərbaycana rəsmi səfəri və imzalanan sənədlərdən sonra Azərbaycan–İran münasibətlərinin gələcəyini necə görürsünüz?**

**İ l h a m Ə l i y e v:** Mən qeyd etdim ki, biz bu səfərə çox böyük əhəmiyyət veririk. Biz İranla Azərbaycan arasında olan münasibətlərə böyük önəm veririk. İran bizim üçün qonşu, dost ölkədir. Çox istəyirik ki, iki ölkə arasında olan münasibətlər daha da inkişaf etsin və bütün sahələrdə daha da güclənsin.

Bu gün imzalanmış sənədlər iki tərəfin siyasi iradəsini ifadə edir. Eyni zamanda, sənədlərin böyük əməli-praktiki əhəmiyyəti vardır. Enerji mübadiləsi sazişi, Naxçıvana İrandan təbii qazın ötürülməsi,

Bakı–Astara yolunun yenidən qurulması və digər məsələlər bu sazişlərdə öz əksini tapıbdır. Əminəm ki, bu sazişlərin icrası nəticəsində iki ölkə, xalqlarımız bir-birinə daha da yaxın olacaqlar. Beləliklə, İranla Azərbaycan arasında münasibətlər yeni pilləyə qalxacaqdır. Biz bunu arzulayırıq. Əminəm ki, bu sazişlər bu arzuya çatmaq üçün gözəl zəmin yaradır.

**S u a l: Mənim sualım İran prezidentinədir. Cənab Prezident, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən İslam Konfransı Təşkilatında və digər qurumlarda uğurlu əməkdaşlıq edirlər. Bu əməkdaşlığın gələcəyi barədə nə deyərdiniz?**

**M ə h ə m m ə d X a t ə m i:** Qeyd olunduğu kimi, bizim ikitərəfli münasibətlərimizdən əlavə, beynəlxalq və regional təşkilatlar çərçivəsində də Azərbaycan–İran əməkdaşlığı mövcuddur. O cümlədən İslam Konfransı Təşkilatı çərçivəsində. Təqribən bir aydan sonra həmin təşkilata üzv olan ölkələrin dövlət başçılarının zirvə toplantısı keçiriləcəkdir. Mən belə düşünürəm ki, region ölkələri, o cümlədən müsəlman ölkələri arasında müştərək problemlər, məsələlər vardır. Bunların birgə əməkdaşlıq nəticəsində aradan qaldırılmasına nail olmaq mümkündür. Xüsusilə biz İslam Konfransı Təşkilatı çərçivəsində əməkdaşlığımızı genişləndirməklə, islam dünyasının problemlərinə və məsələlərinə birgə münasibət bildirməklə qarşıya çıxan məsələlərin həllinə nail ola bilərik.

Birgə inkişaf bütün islam ölkələrinin müştərək məsələsidir. Biz gərək birlikdə əməkdaşlıq edək. Xüsusilə də islam dininin elmə, biliyə və inkişafa verdiyi önəmli rola görə əməkdaşlıq etməliyik. Bu gün islam dünyasında səhv və ifrat hərəkətlər baş verir və bu hərəkətlərə görə başqa ölkələr islam dünyasını ittiham edirlər. Biz gərək İslam Konfransı Təşkilatı çərçivəsində sübut edək ki, islam dini sülh, əmin-amanlıq, təhlükəsizlik və inkişafın tərəfdarıdır.

Biz islam dünyasındakı bacı və qardaşlarımızın çəkdikləri əzab-əziyyətə biganə qala bilmərik. Bu sıradan biz Fələstin və İraqda müsəlman bacı-qardaşlarımızın çəkdikləri əzab-əziyyətlərə biganə qalmamalıyıq və bunlara qarşı öz münasibətimizi bildirməliyik. Biz belə

düşünürük ki, Fələstin xalqının öz ədalətli haqqına çatması və orada sülhün bərpa olunması üçün əməkdaşlıq edilməlidir. İslam Konfransı Təşkilatının istəyi bundan ibarətdir ki, İraqda xalq hakimiyyəti qurulsun və xalqın seçdiyi demokratik bir hökumət yaradılsın.

Bizim İƏT çərçivəsindəki əməkdaşlığımızın səviyyəsi çox yüksəkdir. Ümid edirəm ki, yaxın gələcəkdə müsbət nəticələrə çatacağıq.

**S u a l: Bu gün təhlükəsizlik sahəsində əməkdaşlığa dair sənəd imzalandı. ümumiyyətlə, ölkələrimiz arasında bu sahədə əməkdaşlıq və Cənubi Qafqazda təhlükəsizliyin təmin olunması istiqamətində birgə əməkdaşlıq barədə prezident Əliyevin fikirləri necədir?**

**İ l h a m Ə l i y e v:** İmzalanan sənəd böyük əhəmiyyət kəsb edir. Bu bizə imkan verəcək ki, təhlükəsizlik məsələlərində səylərimiz daha da güclənsin və əlaqələndirilsin. Biz çox istəyirik ki, bölgədə sülh, əmin-amanlıq olsun. Amma əfsuslar olsun ki, hələlik regionda buna nail ola bilmirik. Region üçün, bölgədə təhlükəsizliyin təmin edilməsi üçün ən böyük maneçilik törədən problem Ermənistanın Azərbaycana təcavüzüdür. Bu təcavüzün nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal edilib və 1 milyondan artıq azərbaycanlı qaçqın, köçkün vəziyyətinə düşübdür.

Ermənistanın bu işğalçı siyasəti müasir dünyada gedən proseslərlə ziddiyyət təşkil edir. Ermənistan tərəfindən edilən bu təcavüz, əlbəttə, çox çəkə bilməyəcəkdir. Azərbaycan öz doğma torpaqlarını azad edəcəkdir. Biz istəyirik ki, buna sülh yolu ilə nail olaq. Məhz buna görə sülh danışıqlarında iştirak edirik. Biz tələb edirik ki, bu məsələ öz həllini beynəlxalq hüquq normaları əsasında tapsın, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun. Biz bütün başqa ölkələrin ərazi bütövlüyünü tanıyırıq və eyni münasibəti gözləyirik. Əgər bu region üçün ən böyük təhlükə, yəni Ermənistanın işğalı aradan qalxarsa, o zaman bölgəyə sülh, əmin-amanlıq, əməkdaşlıq gələcəkdir. Amma, əlbəttə, Ermənistanın işğalçı siyasətinə görə hələlik tam mənada regional əməkdaşlıq mümkün deyildir. Biz çalışmalıyıq ki, regionda sülhün, təhlükəsizliyin təmin olunmasında öz

səylərimizi birləşdirək. Bu baxımdan imzalanmış sazişlər, İranla Azərbaycan arasında bu sahədə olan əməkdaşlıq xüsusi rol oynayır.

**S u a l: Mənim sualım İran prezidentinədir. Cənab Prezident, Azərbaycanla İran arasında iqtisadi əməkdaşlıq ildən-ilə genişlənir. Sözsüz ki, Sizin bu səfəriniz bu əlaqələrə yeni təkan verəcəkdir.**

**İqtisadi əməkdaşlıq çərçivəsində Naxçıvanda İran tərəfindən xeyli layihələr həyata keçirilir. Ümumiyyətlə, bu səfərinizdən sonra Naxçıvanda yeni layihələrin həyata keçirilməsi nəzərdə tutulurmu?**

**M ə h ə m m ə d X a t ə m i:** Mən bu suala cavab verməzdən əvvəl İslam Konfransı Təşkilatı ilə əlaqədar bir məsələyə toxunmaq istərdim. Bu təşkilat çərçivəsində qəbul olunan qətnamələrdə Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktı tanınır və bu fakt pislənilir. İslam Konfransı Təşkilatının üzvü kimi, İran qəbul olunan qətnaməni dəstəkləyir.

Mən burada bir daha elan edirəm ki, Dağlıq Qarabağ Azərbaycan Respublikasının ərazisidir, Azərbaycan Respublikasına məxsusdur. Biz bu məsələnin həlli istiqamətində zor işlədilməsini pisləyirik. Bu məsələnin həlli istiqamətində aparılan danışıqları və problemin sülh yolu ilə həll olunması üçün göstərilən iradəni alqışlayır və dəstəkləyirik, məsələnin həlli ilə bağlı əlimizdən gələn köməyi əsirgəməyəcəyik. Biz bu sahədə əməkdaşlıq etməyə hazırıq.

İndiyədək İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında əməkdaşlıq çox geniş və müxtəlif istiqamətli olmuşdur. O cümlədən qeyd etmək istərdim ki, mənim səfərim zamanı imzalanan və razılaşdırılan bir çox məsələlərin bir hissəsi də Naxçıvan Muxtar Respublikasına aiddir. Bu da şübhəsizdir ki, bizim münasibətlərimiz gələcəkdə də davam edəcək və indikindən daha geniş şəkildə inkişaf edəcəkdir.

* * *

*Avqustun 5-də «Gülüstan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İran İslam Respublikasının Prezidenti Məhəmməd Xatəminin şərəfinə rəsmi qəbul təşkil edildi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ İRAN PREZİDENTİ MƏHƏMMƏD XATƏMİ HEYDƏR ƏLİYEV FONDUNDA

*6 avqust 2004-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan İran İslam Respublikasının Prezidenti Məhəmməd Xatəmi Heydər Əliyev Fondunun binasına gəldilər.*

*Burada prezident Məhəmməd Xatəmiyə və nümayəndə heyətinin üzvlərinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılan fondun məqsədləri barədə məlumat verildi. Bildirildi ki, fondun əsas məqsədləri prezident Heydər Əliyevin zəngin irsinin öyrənilməsinə, Azərbaycanın tərəqqisinə yönəldilmiş genişmiqyaslı proqramların həyata keçirilməsini dəstəkləməkdən, müstəqil Azərbaycanın iqtisadi qüdrətinin artmasına xidmət edən layihələrin gerçəkləşdirilməsində iştirak etməkdən, əhalinin rifahının yüksəldilməsinə dair müxtəlif proqramların və tədbirlərin dəstəklənməsindən, milli-mənəvi dəyərlərin qorunması, azərbaycançılıq ideologiyasının və Azərbaycan mədəniyyətinin geniş təbliği ilə bağlı işlərin görülməsinə kömək göstərməkdən ibarətdir.*

*Dövlətimizin başçısı İlham Əliyev ali qonağa və nümayəndə heyətinin üzvlərinə ümummilli liderimiz Heydər Əliyevin şəxsi arxivindən götürülmüş və müxtəlif dövrlərə aid eksponatlar barədə ətraflı söhbət açdı. Qonaqlar Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən, Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərlə, dünyanın məşhur siyasi liderlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla tanış oldular.*

*Cənab Məhəmməd Xatəmi Azərbaycan prezidenti Heydər Əliyevlə birgə çəkilmiş fotoşəklə xüsusi maraqla baxdı.*

**İran prezidenti Məhəmməd Xatəmi fondla tanışlıqdan sonra fəxri qonaqlar kitabına yazdığı ürək sözləri:**

«Mən Azərbaycanda, Bakı şəhərində avqustun 5-dən 7-dək olacağım müddətdə Heydər Əliyev Fondunu ziyarət etməyi arzu edirdim. İndi bu fondu ziyarət etmək mənə çoxlu xatirələri yada salır və cənab Heydər Əliyevin Azərbaycanın müstəqil olması, inkişaf etməsi, ölkədə sabitlik və təhlükəsizlik şəraiti yaratması mənim bu xatirələrimi və onunla keçirdiyim görüşləri dirildir. Hamımız bilirik ki, iki qonşu və müsəlman ölkə – İran və Azərbaycan arasında yaranan əlaqələr mərhum Heydər Əliyevin rolunu göstərir və bu rol həmişəyaşardır. Mənim bu səfərim bir daha fürsət yaratdı ki, İran İslam Respublikasının prezidenti kimi, eləcə də İranın mədəniyyətsevən və uzun tarixi olan milləti adından cənab Heydər Əliyevin xidmətlərinə və fəaliyyətinə görə ona öz minnətdarlığımı bildirim».

*Dövlət başçıları və qonaqlar fondun eyvanına çıxaraq, Bakının mənzərəsini seyr etdilər. Prezident İlham Əliyev şəhərdə görülən işlərdən danışdı. İran prezidenti Bakıda geniş miqyasda dəyişikliyin yaranmasını yüksək qiymətləndirdi. Sonra söhbət çay süfrəsi ətrafında davam etdirildi.*

**Prezident Məhəmməd Xatəmi Heydər Əliyev Fonduna böyük zövqlə toxunmuş Təbriz xalçası təqdim edərək dedi:**

İcazənizlə, biz Heydər Əliyev Fonduna xalça bağışlayardıq. Allah ona rəhmət eləsin, ruhu şad olsun. Bu, xalçanın pasportudur. Xalça 2002-ci ildən 2004-cü ilədək toxunubdur, yəni iki il ərzində ərsəyə gəlibdir. Müəllifi Cavad Pasbandır. Qədim Təbriz şəhərində toxunmuşdur. Ölçüsü 6 metrdir və hər bir santimetrində 50 ilmə vardır. Üzərindəki güllər ipəkdəndir, bunların toxunuşunun incəlikləri xalçanın arxasından görünür. Əlbəttə, bu, rəhmətlik Heydər Əliyevin ruhuna kiçik bir hədiyyədir. Amma bunun çox incəlikləri var, onun ruhuna xatirə ola bilən incəlikləri var.

**İlham Əliyev:** Təşəkkür edirəm. Bu hədiyyə bizim üçün çox qiymətli və əzizdir, Heydər Əliyev Fonduna təqdim edilən ilk hədiyyədir. Bu xalçanın burada xüsusi yeri olacaqdır.

*Dövlətimizin başçısı İran prezidentinə Bakıya rəsmi səfərinin ötən hissəsini əks etdirən fotoalbom təqdim edərək, sonrakı görüşlərə dair şəkillərin də veriləcəyini bildirdi.*

*Prezident Məhəmməd Xatəmi fotoalboma görə təşəkkür etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ
## İLHAM ƏLİYEVİN AFİNAYA SƏFƏRİ

*12 avqust 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Yunanıstanda XXVIII Yay Olimpiya oyunlarının açılış mərasimində iştirak etmək üçün Afinaya yola düşmüşdür. Bir həftəlik səfəri çərçivəsində İlham Əliyevin Yunanıstanın rəsmi şəxsləri, habelə Afinaya gələn xarici hökumət nümayəndə heyətləri ilə görüşləri olacaqdır. Dövlətimizin başçısı avqustun 13-ü və 14-də Yunanıstan prezidenti və bu ölkənin Milli Olimpiya Komitəsinin prezidenti adından milli nümayəndə heyətlərinin şərəfinə təşkil ediləcək rəsmi qəbullarda, avqustun 15-də isə Azərbaycan gününə həsr olunacaq mədəni tədbirlərdə iştirak edəcəkdir.*

* * *

*Avqustun 13-də axşam Yunanıstanın paytaxtı Afinanın 72 min tamaşaçı tutan Olimpiya stadionunda XXVIII Yay Olimpiya oyunlarının təntənəli açılış mərasimi olmuşdur. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak edirdilər.*

### İlham Əliyevin ölkəmizin «Lider» telekanalının müxbirinə verdiyi qısa müsahibə

**İ l h a m  Ə l i y e v:** Azərbaycan müstəqil dövlət kimi üçüncü dəfədir ki, Yay Olimpiya oyunlarında iştirak edir. Hər bir qələbəmiz, hər bir uğurlu çıxışımız hər bir Azərbaycan vətəndaşını sevindirir. O cümlədən mən də, tutduğum vəzifədən asılı olmayaraq, həmişə Azərbaycan idmanına böyük diqqətlə yanaşmışam. Çünki bu təkcə idman deyil, həm də ölkənin şöhrətidir, ölkənin dünyada tutduğu yeridir.

Ümid edirəm ki, bizim idmançılarımız bu dəfə də xalqımızı sevindirəcək, ölkəmizi ləyaqətlə təmsil edəcəklər.

**S u a l: Cənab Prezident, ümumiyyətlə, dünyada Azərbaycanın imicinin formalaşdırılmasında, yüksəldilməsində idmanın yerini necə görürsünüz?**

**C a v a b:** Əlbəttə, bu işdə idmanın yeri çox önəmlidir. Azərbaycan burada, Olimpiadada fəal iştirak edir. Bilirsiniz ki, Afinada «Azərbaycan günü» keçiriləcəkdir. 2000-ci ildə də biz Sidneydə «Azərbaycan günü»nü keçirmişdik, çalışdıq ki, Azərbaycan haqqında məlumat iştirakçılara çox dolğun şəkildə çatdırılsın. Bu dəfə də «Azərbaycan günü»nün keçirilməsinə xüsusi önəm veririk. Ümid edirik ki, çoxlu qonaqlar olacaq və onlar Azərbaycanla, ölkəmizin müasir reallıqları ilə tanış olacaqlar.

## XXVIII YAY OLİMPİYA OYUNLARI ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLMİŞ AZƏRBAYCAN GÜNÜ MƏRASİMİNDƏ NİTQ

*Afina*

*15 avqust 2004-cü il*

*Yunanıstanın paytaxtı Afinanın ən gözəl hotellərindən olan «Divani Karovel»də XXVIII Yay Olimpiya oyunları çərçivəsində Azərbaycan günü keçirilmişdir. Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva mərasimdə iştirak edirdilər.*

*Prezident İlham Əliyev burada Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Jak Roqq ilə görüşdü. Səmimi söhbət zamanı BOK ilə Azərbaycan Milli Olimpiya Komitəsi arasında sıx əlaqələrin olduğu və bu münasibətlərin gələcəkdə daha da genişlənəcəyi bildirildi.*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mərasimə dəvət olunmuş qonaqlarla – Avropa Olimpiya Komitəsinin prezidenti Mario Peskante, Ukraynanın Baş naziri Viktor Yanukoviç, BOK-un fəxri prezidenti Xuan Antonio Samaranç, Beynəlxalq Güləş Federasiyasının prezidenti Rafael Martinetti, Beynəlxalq Həvəskar Boks Federasiyasının prezidenti Ənvər Çoudri, Avropa Cüdo Federasiyasının prezidenti Marius Vizir, məşhur idmançı Sergey Bubka, BOK-un vitse-prezidenti Vitali Smirnov, habelə Almaniya, Moldova, Gürcüstan, Tacikistan, Qazaxıstan, Qırğızıstan, Belarus, Türkmənistan olimpiya komitələrinin prezidentləri, idman nazirləri ilə görüşərək səmimi söhbət etdi, Azərbaycanın mədəniyyəti, idmanın inkişafı haqqında qısa məlumat verdi. Qonaqlar respublikamızda olimpiya hərəkatının inkişafını, idmana göstərilən diqqət və qayğını yüksək qiymətləndirdilər.*

*Mərasimin keçirildiyi salon ölkəmizin dövlət bayrağı ilə, Azərbaycana xas milli üslubda zövqlə bəzədilmişdi. Burada quraşdırılmış iri ekranlarda mərasim boyu müstəqil Azərbaycanın bütün sahələrdə inkişafında əvəzsiz xidmətlər göstərmiş ümummilli liderimiz Heydər Əliyevin fəaliyyətindən, xalqımızın mədəniyyət və incəsənətindən, dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin idmançılarla görüşlərindən bəhs edən videomateriallar nümayiş etdirilirdi.*

**İ l h a m Ə l i y e v:** Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Hamınıza bizim Azərbaycan gününə «Xoş gəlmisiniz!» demək istəyirəm. Xüsusilə də, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti, böyük dostumuz Jak Roqqu salamlayıram. Onun təkcə Azərbaycanda deyil, bütün dünyada idmanın, olimpiya hərəkatının inkişafına yardımı və dəstəyinin böyük əhəmiyyəti vardır. Çox xoşbəxtəm ki, Azərbaycan Olimpiya Komitəsinin həmişə gözəl münasibətlərdə olduğu və bu münasibətləri gələcəkdə də davam etdirəcəyi dostları bu gün bizimlədirlər.

Mən iftixar hissi keçirirəm ki, yeddi il müddətində Azərbaycan Olimpiya Komitəsinə rəhbərlik edirəm və bu müddət ərzində Azərbaycan beynəlxalq olimpiya ailəsinin fəal üzvünə çevrilmişdir.

Azərbaycan həmişə öz atletləri ilə məşhur olmuşdur. Amma yalnız müstəqillik qazanandan sonra Azərbaycan suveren ölkə kimi Beynəlxalq Olimpiya Komitəsinin üzvünə çevrilmişdir. Azərbaycanın daxil olduğu olimpiya ailəsi nadir bir ailədir. Bu ailə bütün dünyadan olan insanları birləşdirir. Yalnız idmançıları, atletləri deyil, bütün dünyanı birləşdirir və olimpiada dünyada keçirilən ən böyük beynəlxalq tədbirdir.

Azərbaycanda olimpiya hərəkatı həyatımızın çox vacib, çox mühüm bir hissəsinə çevrilmişdir. Biz olimpizmin, idmanın inkişafına çox böyük fikir veririk. Olimpiya hərəkatının ideallarını inkişaf etdiririk. İdmançılar üçün qurğular yaradırıq.

Son dörd il müddətində Azərbaycanda 10-dan artıq iri idman mərkəzi yaradılmışdır. Bunların hamısı yüksək beynəlxalq standartlar səviyyəsində tikilmişdir.

Azərbaycan idmançıları beynəlxalq yarışlarda uğurla çıxış edirlər. Bizim bir neçə olimpiya çempionumuz, eləcə də dünya və Avropa çempionlarımız var. Amma ən mühümü odur ki, idman Azərbaycanda gənc nəsil arasında çox populyar olmuşdur. Düşünürəm ki, bu bizim ən böyük nailiyyətimizdir. Hazırda  Azərbaycanda idman kütləvi xarakter almışdır. İdman təkcə idmançıların medal, mükafat aldığı yarış deyil, həm də gənclərin, cavanların fiziki cəhətdən möhkəmlənməsi, sağlam olması deməkdir. Əlbəttə ki, yaxşı idmançılar, yaxşı atletlər həmişə ölkədəki cavanlar üçün nümunə olmuşdur.

Azərbaycan olimpiya ideallarına, olimpiya hərəkatına möhkəm sadiqdir. Mən əminəm ki, ölkəmiz gələcəkdə də idmanın inkişafına və olimpiya hərəkatına sadiq olacaqdır. Düşünürəm ki, dostlarımızın dəstəyi ilə, milli olimpiya komitələrinin, indiyədək bizə dəstəyini əsirgəməyən Beynəlxalq Olimpiya Komitəsinin yardımı ilə nəticələri daha da artıracağıq.

Onu da fəxrlə deyirəm ki, son illər ərzində Azərbaycan bir neçə idman yarışlarında ev sahibi kimi çıxış etmişdir. Ölkəmizdə Dünya kuboku yarışları, dünya və Avropa çempionatları, eləcə də üç olimpiya təsnifat turniri keçirilmiş, hamısı da yüksək səviyyədə təşkil olunmuşdur.

Əziz dostlar, bu gün buraya gəldiyinizə görə hamınıza bir daha minnətdarlığımı bildirirəm, Azərbaycan gününə xoş gəlmisiniz. Bu gün biz çalışdıq ki, ekranda nümayiş etdirilən filmlər vasitəsilə ölkəmizin ab-havasını burada canlandıraq. Biz bu gün burada, bu hoteldə özümüzü elə Azərbaycandakı kimi hiss edirik.

İstərdim ki, dostlarımın hamısını ölkəmizə dəvət edim. Yəqin ki, Azərbaycanda olanlar bir daha gəlmək istəyərlər, olmayanları isə Azərbaycana dəvət edirəm. Buraya gəldiyinizə görə hamınıza bir daha minnətdaram və olimpiadada yarışan bütün atletlərə uğurlar diləyirəm. Çox sağ olun!

* * *

*Sonra Qırğızıstanın idman nümayəndə heyəti adından prezident İlham Əliyevə hədiyyə olaraq milli geyim təqdim edildi.*

*Azərbaycan Prezidenti ölkəmizin olimpiya komandasının üzvləri ilə görüşüb qarşıdakı yarışlarla bağlı söhbət etdi, öz tövsiyələrini verdi. İdmançılar və onların məşqçiləri ilə xatirə şəkilləri çəkdirdi.*

## Mərasimdən sonra respublikamızın jurnalistlərinə verdiyi müsahibə

**İ l h a m Ə l i y e v**: Azərbaycan günü çox yaxşı keçdi, görürsünüz ki, çoxlu qonaqlar vardı. Biz çalışdıq ki, bunu yüksək səviyyədə keçirək. Bəlkə xatırlayırsınız, Sidneydə də Azərbaycan günü keçirmişdik, o bizim üçün ilk təcrübə idi. Bu dəfə də bizim mütəxəssislərimiz yaxşı hazılaşmışdılar, Azərbaycanın reallıqlarını əks etdirən gözəl videomateriallar nümayiş etdirildi.

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Jak Roqq, BOK-un fəxri prezidenti Samaranç, federasiyaların rəhbərləri, digər ölkələrdən olan nümayəndələr buradadırlar. Bunun özü də göstərir ki, Azərbaycan beynəlxalq idman ailəsində özünə layiq yerini tutmuşdur və ona böyük hörmətlə yanaşırlar. İdmançılarımızın uğurlu çıxışları, Azərbaycanda idman sahəsində görülən tədbirlər nəticəsində buna nail olmuşuq. İdmançılarımız gərək bundan sonra da Azərbaycanın bayrağını yüksəklərə qaldırsınlar.

**M ü x b i r: Sidneydə gözəl günlər yaşadıq, üç medal qazandıq. İnşallah, bu dəfə medallar daha çox olacaqdır.**

**İ l h a m Ə l i y e v:** Baxarıq, bu idmandır. Əlbəttə, imkan var ki, medallar qazanaq, güclü idmançılarımız var. Boksçularımız dünən iki qələbə qazandılar, bu gün də boksçumuz görüşdə qalib gəldi. Yenə qələbələrimiz olacaqdır.

**S u a l: Cənab Prezident, ilk dəfədir ki, Azərbaycanın «Lider» televiziyası Olimpiya Oyunlarından canlı yayımla verilişlər təşkil edir. Siz bunu necə qiymətləndirirsiniz?**

**C a v a b:** Mən bunu yüksək qiymətləndirirəm ki, ilk dəfədir olimpiya oyunları Azərbaycanın televiziyası ilə birbaşa verilir. Bu onu göstərir ki, ölkəmiz inkişaf edir. Sidney Olimpiadasında belə deyildi, doğrudur, oradan materiallar ötürülürdü, amma bu dəfə «Lider» televiziyası belə bir gözəl tədbir gördü və bizim bütün idman həvəskarlarımız bu cür fürsət əldə etdilər. Çox müsbət haldır. Milli Olimpiya Komitəsinin prezidenti və Azərbaycan Respublikasının prezidenti kimi sizə minnətdarlığımı bildirirəm.

Bilirsiniz ki, Azərbaycanda idmana böyük maraq, hörmət var. Sağ olun ki, sizin sayənizdə tamaşaçılarımız belə gözəl fürsət əldə ediblər.

**S u a l: Bunlar, əslində, Sizin sayənizdə mümkün olubdur. Azərbaycanın bütün sahələrdə inkişafı televiziyada da öz əksini tapmışdır. İcazənizlə, Almaniyaya qarşıdakı səfərinizlə bağlı sual verərdim. Ümumiyyətlə, bu ölkəyə səfərinizi necə qiymətləndirirsiniz?**

**C a v a b:** Bu səfər vacibdir. Almaniya ilə çox gözəl iqtisadi əlaqələrimiz var, siyasi cəhətdən də ölkələrimiz arasında münasibətlər yüksək səviyyədədir. Bilirsiniz ki, Almaniya dünyanın və Avropa Birliyinin aparıcı ölkələrindəndir və çox istəyirik ki, bizim aramızda müxtəlif sahələrdə olan münasibətlər daha da inkişaf etsin. Almaniya iqtisadiyyatı çox böyük sürətlə inkişaf edir və dünyada aparıcı iqtisadiyyat kimi tanınmışdır. Azərbaycanın da iqtisadiyyatı inkişaf edir, irəliləyir. Ona görə də ikitərəfli əlaqələrin genişlənməsi hər iki ölkənin maraqlarına cavab verir.

**M ü x b i r: Afinada Azərbaycandan daha çox azarkeşlər təmsil olunmuşdur...**

**İ l h a m Ə l i y e v:** Bu bir daha onu göstərir ki, ölkəmiz inkişaf edir. Yəni son dörd il ərzində Azərbaycanda bütün sahələr, o cümlədən idman inkişaf etmişdir. İnsanlarımızın həyat səviyyəsi yaxşılaşır, ölkə daha da inamla irəliləyir. Əlbəttə ki, buraya gəlmək üçün müəyyən vəsait tələb olunur. Bu onu göstərir ki, Azərbaycan vətəndaşları belə imkanları əldə ediblər. Eyni zamanda bu göstərir ki, biz düz yoldayıq. Ümid

edirəm ki, növbəti, Çində keçiriləcək olimpiya oyunlarında daha da çox idmançılarımız və azarkeşlərimiz olacaqdır.

* * *

*XXVIII Yay Olimpiya Oyunlarını izləmək üçün Afinada səfərdə olan Azərbaycan Respublikasının prezidenti İlham Əliyev avqustun 16-da Olimpiya kəndinə getdi.*

*Olimpiya kəndində idmançılar üçün yaradılmış şəraitlə tanış oldu. Azərbaycan prezidenti burada Rusiya Dövlət Bədən Tərbiyəsi və İdman Komitəsinin sədri, məşhur xokkeyçi Vyaçeslav Fetisovla görüşdü. Söhbət zamanı ölkələrimiz arasında idman əlaqələrinin bundan sonra da inkişaf edəcəyi vurğulandı. V.Fetisov respublikamızın idmançılarına Afina Olimpiadasında uğurlar arzuladı.*

*Azərbaycan prezidenti sonra avtobusla Olimpiya kəndini səyahət etdi, burada tikilmiş müxtəlif komplekslərlə tanış oldu. Dövlətimizin başçısı daha sonra Azərbaycan idman nümayəndə heyətinin məskunlaşdığı yerə gəldi, olimpiyaçılarımızın yaşayış şəraiti ilə maraqlandı. İdmançılarımızın Afina Olimpiadasında parlaq qələbələr qazanacağına ümidvar olduğunu bildirən Azərbaycan prezidenti onlara müvəffəqiyyətlər dilədi. İlham Əliyev milli komandamızın üzvləri ilə xatirə şəkli çəkdirdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN YUNANISTANIN BAŞ NAZİRİ KONSTANTİNOS KARAMANLİSLƏ GÖRÜŞÜ

*Afina*

*16 avqust 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Azərbaycanın dövlət başçısı Afina Olimpiadasının yüksək səviyyədə təşkil olunduğuna görə Baş nazirə minnətdarlığını ifadə etmişdir.*

*Öz növbəsində ikitərəfli münasibətlər məsələsinə toxunan cənab Karamanlis Yunanıstan prezidenti Konstantinos Stefanopulosun bu ilin iyun ayında ölkəmizə səfərinin uğurla həyata keçdiyini vurğulayaraq, dövlət başçımızın Yunanıstanda Azərbaycan səfirliyinin açılması barədə qərarını ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsi işinə xidmət edən bir addım kimi yüksək qiymətləndirmişdir.*

*Regionda sülhün və təhlükəsizliyin təmin olunması sahəsində ölkəmizin atdığı mühüm addımlardan bəhs edən prezident İlham Əliyev bu proseslərə böyük təhlükə törədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı söhbət açmışdır. Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu və bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü vurğulayan dövlətimizin başçısı bu münaqişənin yalnız beynəlxalq hüquq normaları və prinsipləri, ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həllinin mümkün olduğunu bildirmişdir.*

*Azərbaycan–Yunanıstan münasibətlərinin hazırkı vəziyyətinə toxunan dövlətimizin başçısı iqtisadi əlaqələrin, o cümlədən enerji və*

*digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etməsindən məmnun qaldığını vurğulamışdır.*

*Sonra ölkələrimizi maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

* * *

**Azərbaycan Respublikasının prezidenti İlham Əliyev avqustun 16-da Afinada Beynəlxalq Birləşmiş Müqavilələr Şirkətinin (Si-Si-Ay-Si) vitse-prezidenti Nəcib Xurini qəbul etmişdir.**

*Görüşdə Nəcib Xuri xarici şirkətlərin Azərbaycanda sərbəst fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını vurğulayaraq təmsil etdiyi şirkət tərəfindən ölkəmizdə son illər həyata keçirilən işlər barədə dövlətimizin başçısına məlumat vermişdir.*

*Prezident İlham Əliyev ölkəmizdə fəaliyyət göstərən xarici şirkətlər və iş adamları üçün bundan sonra da daim dövlət qayğısının göstəriləcəyini bildirmişdir.*

*Sonra neft sektorunun infrastruktur təşkili ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YUNANISTANIN TURİZM NAZİRİ İLƏ GÖRÜŞÜ

*18 avqust 2004-cü il*

*Afinada səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev avqustun 18-də Yunanıstanın Turizm naziri Dimitris Avramopulos ilə görüşmüşdür.*

*Səmimi şəraitdə keçən söhbət zamanı Azərbaycan prezidenti Afinada XXVIII Yay Olimpiya oyunlarının yüksək səviyyədə təşkil edildiyini bildirərək, bu məsul işdə Yunanıstan hökumətinin səmərəli fəaliyyətini vurğuladı.*

*Ölkələrimiz arasında ikitərəfli münasibətlərdən söhbət açan prezident İlham Əliyev iqtisadi əlaqələrin inkişaf etdirilməsinin zəruriliyini bildirdi. Turizm sahəsində geniş imkanları olan Yunanıstanın bu perspektivli sahədə respublikamızla əməkdaşlığını xatırladan dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, tezliklə Azərbaycan da dünyanın inkişaf etmiş turizm ölkələrindən birinə çevriləcəkdir.*

*Cənab Avramopulos Azərbaycanda idman və turizmin inkişafına dövlət səviyyəsində göstərilən qayğını yüksək qiymətləndirdi. Yunanıstan naziri Dünya Turizm Təşkilatının son vaxtlar Azərbaycana marağının artdığını da xüsusi vurğuladı.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə də fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Yunanıstanın turizm nazirini Azərbaycana səfərə dəvət etdi. Cənab Avramopulos dəvəti məmnunluqla qarşıladı.*

## OLİMPİADANIN AĞIRLIQQALDIRMA ÜZRƏ YARIŞLARININ KEÇİRİLDİYİ KOMPLEKSDƏ YARIŞ BAŞLANMAZDAN ƏVVƏL TÜRKİYƏNİN TRT TELEVİZİYA KANALI MÜXBİRİNİN SUALLARINA CAVAB

*Afina*

*18 avqust 2004-cü il*

**M ü x b i r: Hörmətli cümhurbaşqanı, xoş gəlmisiniz. Ağırlıqqaldırma üzrə keçiriləcək yarış barədə düşüncələrinizi bilmək istərdik.**

**İ l h a m  Ə l i y e v:** Ağırlıqqaldırma Azərbaycanda məşhur idman növüdür. Son zamanlar çox inkişaf edibdir. Bildiyiniz kimi, bizim ağırlıqqaldırma üzrə dünya çempionumuz var. Ona görə ümid edirik ki, idmançılarımız burada yaxşı nəticə göstərəcəklər.

*Sonra prezident İlham Əliyev yarışı izlədi. 69 kiloqram çəki dərəcəsində çıxış edən Azərbaycan atleti Turan Mirzəyev dünyanın ən güclü idmançıları ilə gərgin mübarizə apardı. O birdən və təkanla ağırlıqqaldırmada 332,5 kiloqram nəticə göstərərək Çin, Koreya və Xorvatiya idmançılarından sonra dördüncü yeri tutdu.*

*Yarışdan sonra Türkiyə telekanalının müxbiri Azərbaycan prezidenti İlham Əliyevə bir daha müraciət etdi.*

**S u a l: Cənab Prezident, axşamınız xeyir, izlədiyiniz yarış barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Çox gözəl yarış idi. Bizim idmançı da yaxşı nəticə göstərdi və dördüncü oldu. Medal qazanmağa az qalmışdı. Amma...

Sizi də təbrik edirəm. Türk idmançıları yaxşı nəticə göstərirlər. Bu bizi çox sevindirir. İki qızıl medal, bir bürünc medal var. İnanıram ki, daha da yaxşı olacaqdır.

*Sonra prezident İlham Əliyev Azərbaycan jurnalistlərini maraqlandıran suallara da cavab verdi.*

**S u a l: Cənab Prezident, İradə Aşumovanın çıxışını necə qiymətləndirirsiniz?**

**C a v a b:** Böyük uğurdur, böyük nəticədir. Hesab edirəm ki, bu, komandanın bütün digər üzvlərinə də yaxşı təsir bağışlayacaqdır. Mən zəng etdim, İradəni təbrik etdim. Çox çətin vəziyyətdə, güclü rəqibləri qabaqlayaraq Azərbaycana ilk medalı qazandı. Ümid edirəm ki, bundan sonra medalların sayı çoxalacaqdır.

**S u a l: Cənab Prezident, gördüyünüz kimi, bu gün son mübarizədə Turan Mirzəyev medala çox yaxın idi. Ümumiyyətlə, Azərbaycan idmançıları bu yarışlarda çox ciddi rəqib kimi qəbul olunurlarmı?**

**C a v a b:** Əlbəttə, məsələn, Mehman Əzizov da medala çox yaxın idi. Mehman əslində dördüncü oldu. Amma beşinci yer kimi sayılır. Yelena Jemayeva da səkkizdə bir final yarışlarında iştirak edirdi. Bu gün Turan Mirzəyev medala çox yaxın idi. Bu, Azərbaycanda idmanın səviyyəsini göstərir. Əlbəttə, hamımız istəyirik ki, medalların sayı çox olsun. Amma dördüncü yer, beşinci yer də çox şərəfli yerlərdir. Yəni biz deyə bilərik ki, medallara yaxınlaşırıq.

**S u a l: Cənab Prezident, bunu uğursuzluq kimi qiymətləndirmirsiniz ki?**

**C a v a b:** Xeyr, xeyr. Qətiyyən, qətiyyən. Məsələn, Mehman Əzizov çox gözəl yarışdı. Yəni üçüncü görüşdə məğlub oldu, amma ondan sonra bir neçəsində qalib gəldi. Üçüncü yer uğrunda mübarizədə də qələbəyə yaxın idi. Yəni bunlar qətiyyən uğursuzluq deyildir. Bu bizim uğurumuzdur. Medallar olacaq, bundan sonra daha çox olacaqdır.

**S u a l: Cənab Prezident, güləşçilərimizin, taekvondoçularımızın finala çıxacağına inanırıq, Siz onların final görüşlərini izləyəcəksinizmi?**

**C a v a b:** Çalışacağam ki, izləyim.

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yunanıstanın paytaxtı Afinaya səfərini başa çatdıraraq avqustun 19-da Bakıya yola düşdü.*

**UKRAYNANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB LEONİD KUÇMAYA**

Hörmətli Leonid Daniloviç!

Ukraynanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda dost Ukrayna xalqını şəxsən öz adımdan və bütün Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Müstəqillik yolu ilə inamla irəliləyən Ukraynanın uğurları bizi sevindirir. Dövlətçiliyin möhkəmləndirilməsi, demokratik islahatların həyata keçirilməsi, Dünya Birliyi ilə inteqrasiya sahəsində nailiyyətlər dost Ukraynaya layiqli nüfuz qazandırmışdır.

Azərbaycan ilə Ukrayna arasındakı münasibətləri də hər cəhətdən nümunəvi hesab etmək olar. Əminəm ki, ikitərəfli əlaqələrimiz bundan sonra da ənənəvi dostluq və əməkdaşlıq ruhunda inkişaf edərək xalqlarımızın rifahına, regionumuzda sülhün və sabitliyin bərqərar olmasına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Ukrayna xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 avqust 2004-cü il*

**URUQVAY ŞƏRQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB XORXE BATLE İBANESƏ**

Hörmətli cənab Prezident!

Uruqvay Şərq Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Uruqvay arasında dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyinə uyğun olaraq daim inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Uruqvay xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 avqust 2004-cü il*

**MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR VORONİNƏ**

Hörmətli Vladimir Nikolayeviç!

Moldova Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün Moldova xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Şadam ki, bu gün demokratiya və tərəqqi yolu ilə irəliləyən suveren Moldova Dünya Birliyi ilə inteqrasiya xəttini tutaraq beynəlxalq aləmdə nüfuzunu artırmaqdadır.

Müstəqillik illərində Azərbaycan–Moldova münasibətləri yeni məzmun kəsb etmiş, ənənəvi dostluq və əməkdaşlıq əlaqələrimiz daha da inkişaf etmişdir. Əminəm ki, bu istiqamətdə səylərimizi ardıcıl şəkildə davam etdirəcəyik.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Moldova xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 avqust 2004-cü il*

**QIRĞIZISTAN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB ƏSGƏR AKAYEVƏ**

Hörmətli Əsgər Akayeviç!

Qırğızıstan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün Qırğızıstan xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Sevindirici haldır ki, müstəqilliyinin növbəti ildönümünü qeyd edən dost Qırğızıstan bu gün Dünya Birliyinin tamhüquqlu üzvü kimi beynəlxalq həyatda fəal iştirak edir.

İkitərəfli münasibətlərimiz, daim genişlənən əlaqələrimiz və əməkdaşlığımız böyük məmnunluq doğurur. Əminəm ki, dövlətlərarası münasibətlərimizin ardıcıl inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Qırğızıstan xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 avqust 2004-cü il*

## MALAYZİYANIN ALİ BAŞÇISI
## ƏLAHƏZRƏT TUANKU SEYİD
## SİRACUDDİN PUTRA CAMALULLAİLƏ

Əlahəzrət!

Malayziyanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Malayziya arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərini inkişaf etdirmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Malayziya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 avqust 2004-cü il*

**MALAYZİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULLA ƏHMƏD BADAVİYƏ**

Hörmətli cənab Baş nazir!

Malayziyanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlər bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 avqust 2004-cü il*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA**

Hörmətli İslam Əbdüqəniyeviç!

Özbəkistan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Müstəqillik illəri ərzində dost Özbəkistan dövlətçiliyin möhkəmləndirilməsi, dərin sosial-iqtisadi islahatlar aparılması, Dünya Birliyi ilə inteqrasiya sahəsində mühüm nailiyyətlər əldə etmişdir.

Azərbaycan ilə Özbəkistan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri də bu dövrdə keyfiyyətcə yeni səviyyəyə yüksəlmişdir. Əminəm ki, xalqlarımızın mənafeyinə uyğun olaraq istər ikitərəfli əlaqələrimizi, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyətimizi genişləndirmək üçün bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Hörmətli cənab Prezident, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Özbəkistan xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *23 avqust 2004-cü il*

**LİVİYA İNQİLABININ RƏHBƏRİ,
LİVİYA ƏRƏB SOSİALİST
XALQ CƏMAHİRİYYƏSİNİN
BAŞÇISI, ZATİ-ALİLƏRİ
CƏNAB MÜƏMMƏR ƏL-QƏZZAFİYƏ**

Hörmətli cənab başçı!

Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsinin milli bayramı – Böyük İnqilab günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Liviya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyinə uyğun olaraq daim inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Liviya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *23 avqust 2004-cü il*

**VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB ÇAN DİK LIONQA**

Hörmətli cənab Prezident!

Vyetnam Sosialist Respublikasının milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Vyetnam arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Vyetnam xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *23 avqust 2004-cü il*

**SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İVAN QAŞPAROVİÇƏ**

Hörmətli cənab Prezident!

Slovakiya Respublikasının milli bayramı – Konstitusiya günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi- qəlbdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Slovakiya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *23 avqust 2004-cü il*

## QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİYƏ

Əlahəzrət!

Qətər Dövlətinin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Qətər xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *23 avqust 2004-cü il*

## «LA POLİTİQUE İNTERNATİONALE» JURNALINA MÜSAHİBƏ

**A l ə n  Ş e v a l e r i a s:** Cənab Prezident, Bakıya gələn Qərb səyahətçisi qəribə bir təəssüratla üzləşir. Bizi buradan, İranla sərhəddən 200 kilometrdən də az məsafə ayırır. Lakin buna baxmayaraq, buradakı ab-hava islam mühitinə uyğun gəlmir. Siz bu qəribəliyi necə izah edərdiniz?

**İ l h a m  Ə l i y e v:** Müqayisə aparmaq həmişə çətin olur. Biz praktiki olaraq, müstəqil Azərbaycanı bütün sahələrdə öz dəyərlərimizə uyğun qurmaqdayıq. Ölkədə güclü inkişaf gedir. Bu, şübhəsiz ki, sizin təəssüratınızı izah edə bilər.

**A l ə n  Ş e v a l e r i a s:** Siz keçmişdə islamçı ünsürlərin təsiri ilə üzləşmişdiniz. Bu məlumatı təsdiqləyirsinizmi?

**İ l h a m  Ə l i y e v:** Xeyr. Azərbaycan dünyəvi dövlətdir. Əlbəttə, islam dini Azərbaycanda dərin kök salmışdır və biz bu dinə hörmət edirik. İslam bizim ümumi kimliyimizin bir hissəsidir. Lakin eyni zamanda biz dini və ya etnik səbəblərdən asılı olmayaraq, hər hansı ayrı-seçkiliyə qarşıyıq.

**A l ə n  Ş e v a l e r i a s:** Necə oldu ki, Sizin ölkəniz bir sıra qonşularınızın düşdüyü təhlükələrdən xilas oluna bildi?

**İ l h a m  Ə l i y e v:** Mənim başqalarının daxili işlərinə qarışmaq fikrim yoxdur. Əgər bütün dövlət başçıları bizim kimi siyasət həyata keçirsəydi, onda əminəm ki, dünya daha da sakit olardı. Məni maraqlandıran məsələ – inkişaf üçün lazımi zəmin yaradan sabit iqtisadi mühitin və əhali üçün yaxşı sosial müdafiənin təmin edilməsidir. Düşünürəm ki, əmin-amanlıq olmadan sivil cəmiyyət yaratmaq mümkün deyildir. Məhz bu səbəbə görə də iqtisadiyyat bizim əsas prioritetlərimizdən biridir.

**A l ə n  Ş e v a l e r i a s:** Əgər mən Sizi düzgün başa düşdümsə, Azərbaycanda hər şey yaxşılığa doğru gedir. Elə çıxır ki, Sizin heç bir probleminiz yoxdur?

**İ l h a m  Ə l i y e v:** Mən öz ölkəmi sevirəm. Normal haldır ki, mən yalnız müsbət aspektləri göstərirəm. Amma məlumdur ki, bizim problemlərimiz də var və onların əksəriyyəti sovet dövrü ilə bağlıdır. Sosialist sistemindən bazar iqtisadiyyatına keçid mürəkkəbdir. İslahatlar iqtisadi xarakterli çətinliklərlə üzləşir və həmçinin burada mentalitet də rol oynayır.

**A l ə n  Ş e v a l e r i a s:** Sizin üzləşdiyiniz ən böyük çətinliklər hansılardır?

**İ l h a m  Ə l i y e v:** Ən ciddi problem Azərbaycan torpaqlarının bir hissəsinin Ermənistan tərəfindən işğal edilməsidir. Bu problem hələ 1988-ci ildə, hər iki ölkənin Sovet İttifaqının tərkibində olduğu dövrdən başlayıb. Bu gün torpaqlarımızın 20 faizi, o cümlədən Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon erməni işğalı altındadır. Bu səbəbdən əhalinin böyük bir qismi öz yurd-yuvalarından məhrum olmuşdur. Nəhayət, artıq məqam yetişib, beynəlxalq hüquqa hörmət olunmalıdır və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Bu problem bizi ən çox narahat edən məsələdir və Ermənistan silahlı qüvvələri öz ərazilərinə çəkilməyənəcən onun həlli mümkün deyildir. Bu münaqişə ilə müqayisədə digər çətinliklər o qədər də böyük deyildir.

**A l ə n  Ş e v a l e r i a s:** Sizdə vəziyyətin çətin olduğunu daha da şişirtmək meyli varmı?

**İ l h a m  Ə l i y e v:** Mən bu fikrin tam əleyhinəyəm. Biz hazırda qaçqın-köçkünlərin sayına görə dünyada birinci yerdəyik: 8 milyon əhalinin 1 milyonu qaçqın-köçkündür. Bu da əhalinin 12,5 faizini təşkil edir. Hökumət bu insanların problemləri ilə məşğul olmalı, onların minimum həyat şəraitini təmin etməli, onlara qayğı ilə yanaşmalı və qida ilə təchiz etməlidir. Bütün bunlar çox baha başa gəlir və təəssüflər olsun ki, Azərbaycan bəzi qonşularına nisbətən o qədər də böyük beynəlxalq yardım almır. Amma belə bir acınacaqlı vəziyyət yalnız

mənfi nəticələr vermir: öz imkanlarımıza arxalanmağa məcbur etməklə, bu vəziyyət bizi daha da güclü edir.

Görəcəyimiz işlər hələ də çoxdur, lakin onu xatırlatmaq lazımdir ki, biz lap əvvəldən başlamışıq. Ötən əsrin 90-cı illərinin əvvəllərində Sovet İttifaqının süqutu iqtisadiyyatın tamamilə dağılması və bizim gəlir mənbələrimizin tükənməsi ilə müşayiət olundu. On il sonra biz ikirəqəmli göstərici ilə iqtisadi artıma nail olduq və Cənubi Qafqazdakı qonşularımızdan fərqli olaraq, iqtisadi baxımdan tamamilə müstəqil ölkəyə çevrildik.

**Alən Şevalerias:** Adambaşına düşən ümumi daxili məhsul (ÜDM) bir o qədər də böyük deyildir.

**İlham Əliyev:** Ermənistanla müqayisə edin: siz böyük fərqi görəcəksiniz! Son yeddi il ərzində 90 faizlik iqtisadi inkişafa nail olmuşuq və bu illərdə inflyasiya çox zəif olub, dövlət büdcəsi kifayət qədər artıbdır. Hazırda bizim dövlət büdcəmiz Ermənistanın büdcəsindən 3 dəfə çoxdur. Təbii ki, bütün bunlar cəmiyyətin normal inkişafı və hər kəsin yaxşı məvacibi olan işlə təmin edilməsi üçün kifayət deyildir. Buna görə də biz yeni proqram hazırlamışıq və bu proqrama əsasən, gələn 5 il ərzində 600 min yeni iş yerinin açılması nəzərdə tutulur. Bu rəqəm 8 milyonluq əhalisi olan ölkə üçün kiçik göstərici deyildir. Göstərilən səylər öz bəhrəsini verməkdədir: seçkilərdən 6 ay sonra biz artıq minlərlə yeni iş yerləri açmışıq. Sizi əmin edirəm ki, Azərbaycan çiçəklənən ölkəyə çevrilməkdədir.

**Alən Şevalerias:** Bu iş yerləri hansı sektorlarda açılıb?

**İlham Əliyev:** Azərbaycanda neft sektorunda ən çox iş yerlərinin olduğunu desəm, yəqin ki, sizi təəccübləndirməyəcəm. Doğrudur, hasilatın həcmi hələ ki, o qədər yüksək deyil, lakin biz yeni böyük neft hasilatı mərhələsi qarşısındayıq. Bununla belə, neft özlüyündə yeganə vasitə deyildir. Karbohidrogen yataqlarının istismarından əldə olunan gəlirlərdən iqtisadiyyatın müxtəlifləşdirilməsinin maliyyələşdirilməsi üçün istifadə edirik. Bu məqsədlə xüsusi bir fond yaradılmışdır.

Biz çalışırıq ki, həmin vəsaitlər hesabına bütün fəaliyyət sahələrində özəl sərmayəçiləri cəlb etmək üçün yaxşı mühit yaradaq.

Biz artıq torpağı özəlləşdirmişik və hazırda kənd təsərrüfatı məhsullarının həcminin artırılmasına çalışırıq. Karbohidrogen məhsullarından asılı olmamaq məqsədi ilə biz istehsalı artırmaq istəyirik və bunu yalnız öz ehtiyaclarımızın ödənilməsi üçün yox, eyni zamanda ixrac üçün də edirik.

İqtisadi inkişafdan yalnız paytaxtın bəhrələnməsinə yol verməmək məqsədi ilə biz rayonlarımızda regional inkişaf proqramı həyata keçiririk.

Adambaşına düşən xarici sərmayələrin həcminə görə bizim ölkə keçmiş sovet məkanında və Şərqi Avropada öndə gedir. Hazırkı vəziyyəti aydınlaşdırmaq üçün sizə belə bir məlumat verim – bu günə kimi Azərbaycana 17 milyard dollar sərmayə yatırılmışdır.

**A l ə n Ş e v a l e r i a s:** Konkret olaraq, yeni sərmayələri cəlb etmək üçün Siz hansı işlərin görülməsini planlaşdırırsınız?

**İ l h a m Ə l i y e v:** Biz infrastrukturu və nəqliyyat dəhlizlərini inkişaf etdiririk. Yeni elektrik stansiyaları tikirik. Biz həmçinin qanunvericilik bazasını təkmilləşdiririk. Sərmayəçilər əmin olmalıdırlar ki, onların kapitalı qorunur.

**A l ə n Ş e v a l e r i a s:** Azərbaycan hansı ölkəni özünə daha yaxın tutur?

**İ l h a m Ə l i y e v:** Biz Türkiyə, Gürcüstan, Rusiya və əlbəttə ki, İranla dostluq münasibətləri saxlayırıq. Təbii ki, bunu Avropa ölkələrinə, birinci olaraq, Fransaya şamil etmək olar. Prezident seçkilərindən sonra mənim ilk rəsmi səfərim məhz sizin ölkəyə olmuşdur. Avropaya inteqrasiya siyasətinə marağımızı nəzərə alaraq, Parislə diplomatik münasibətlər bizim üçün prioritet xarakter daşıyır.

**A l ə n Ş e v a l e r i a s:** Türkiyə Sizi xüsusən maraqlandırır?

**İ l h a m Ə l i y e v:** Təbii. Bizim bir çox oxşarlıqlarımız var: tarix, mədəniyyət, etnik mənsubiyyət. Bundan başqa, Azərbaycan öz

müstəqilliyini əldə etdiyi vaxtdan Türkiyə ölkəmizə çox kömək etmişdir. Türkiyə bizi tanıyan ilk dövlət olmuşdur. Biz bir-birimizə çox yaxınıq.

**Alən Şevalerias:** Nəyə görə prezident seçiləndən sonra ilk səfərinizi Fransaya etdiniz?

**İlham Əliyev:** Atam, prezident Heydər Əliyev də 1993-cü ildə prezident seçildikdən sonra ilk rəsmi səfərini Fransaya etmişdir.

**Alən Şevalerias:** Nəyə görə o məhz Fransanı seçmişdir?

**İlham Əliyev:** Fransa və Azərbaycan siyasi və iqtisadi sahələrdə bir-birinə çox bağlıdır. Atam kimi mən də Jak Şirakla şəxsi və dostluq münasibətlərini saxlayıram. Onun bizim regional problemlərdə iştirakını yüksək qiymətləndirirəm.

Unutmayın ki, Fransa Minsk qrupunun həmsədridir və bizim Ermənistanla olan münaqişəmizi həll etməyə çalışır. Bir sıra fransız şirkətləri Azərbaycanda çox fəaldırlar. Siz görürsünüzmü, Fransaya səfərin həyata keçirilməsinin nə qədər əsasları var.

**Alən Şevalerias:** Əgər Sizin Fransa ilə münasibətləriniz bu qədər yaxşıdırsa, ölkənizə sərmayə qoyan dövlətlər arasında Fransanın 7-ci yerdə olmasını necə izah edərdiniz?

**İlham Əliyev:** Əvvəla, 7-ci yerdə olmaq o qədər də pis deyil! İkincisi, bu rəqəm onu göstərir ki, sərmayələrin böyük hissəsinin məhz karbohidrogen məhsulları sektoruna qoyuluşu davam edir. Bu, ümumi sərmayələrin 70 faizini, yəni 17 milyard dollardan 12 milyardını təşkil edir. Beləliklə, biz öz neft və qaz yataqlarımızı qiymətləndirməyə başlayanda, amerikan və ingilis şirkətləri burada fəaliyyət göstərməyə birinci gəldilər. Lakin sizi əmin edirəm: bizim bir ölkə ilə mövcud olan münasibətlərin keyfiyyəti yatırılmış sərmayələrə proporsional deyildir. Burada fəaliyyət göstərən bir çox fransız şirkətləri sərmayə qoymaqla məşğul olmur, daha çox xidmət sahəsində çalışırlar.

**Alən Şevalerias:** Tutaq ki, mən iş adamıyam. Bu halda Siz mənə Azərbaycan iqtisadiyyatının hansı sahəsinə sərmayə yatırmağı təklif edərdiniz?

**İ l h a m  Ə l i y e v:** Əlbəttə ki, bu sizin bacarığınızdan asılı olacaq, lakin güman ki, mən sizi kənd təsərrüfatı sahəsinə istiqamətləndirərdim. Neft və qaz sahəsində bizim ehtiyaclarımız ödənilib və sərmayələrimiz kifayət qədərdir. Əksinə, aqrar-sənaye sahəsində mövcud olan avadanlıqlarımız sovet dövründən qalıb. Onlar köhnədir və zəif işləyir. İstehsalın yerindəcə artırılması və beləliklə, kənd təsərrüfatçılarımıza yeni imkanların yaradılması məqsədilə avadanlıqları müasirləşdirmək lazımdır.

**A l ə n  Ş e v a l e r i a s:** Əcnəbilər Azərbaycanda torpaq əldə etmək hüququna malikdirlərmi?

**İ l h a m  Ə l i y e v:** İcarəyə götürə bilərlər. Torpaqların özəlləşdirilməsi sayəsində kənd təsərrüfatı məhsullarının istehsal həcmi çox artmışdır.

**A l ə n  Ş e v a l e r i a s:** Siz Rusiya ilə bir çox ikitərəfli sazişlər imzalamısınız. Amerikalılarla, xüsusilə də *bp* şirkəti ilə böyük neft müqavilələri bağlamısınız. Bununla belə, Avropa məkanına inteqrasiya olunmaq istəyirsiniz. Bu hər istiqamətə yönəlmiş müttəfiqlik siyasətidir, yoxsa Siz riskləri bölüşməyə çalışırsınız?

**İ l h a m  Ə l i y e v:** Neft sahəsinə sərmayələr 1994-cü ildə bizim xarici kapitala açıq olduğumuzu bəyan etdikdən dərhal sonra ən fəal şirkətlər tərəfindən yatırılmışdır. Vaxt var idi bizim heç neft quyusu qazmağa belə pulumuz yox idi; hətta bu günlərdə də yatırılmış həmin 12 milyard dollarımız da yoxdur. Biz istəyirik ki, burada təmsil olunmuş bütün şirkətlər sərmayə qoyuluşu sahəsində bərabərlik prinsipi əsasında işləsinlər. Eynilə biz istəyirik ki, əhatəmizdə olan bütün dövlətlərlə, o cümlədən Rusiya ilə də yaxşı münasibətlərimiz olsun. Biz bu cür tarazlaşdırılmış siyasətdən tam məmnunuq.

**A l ə n  Ş e v a l e r i a s:** Sizə elə gəlmirmi ki, maraqların toqquşduğu vəziyyətlə üzləşə bilərsiniz? Sizin torpaqlarınızda müharibə aparan Ermənistanı dəstəkləyən Rusiya ilə vəziyyət belə olmayıbmı?

**İ l h a m  Ə l i y e v:** 1990-cı ildə Rusiya Ermənistanı dəstəkləyərkən bizim Moskva ilə heç bir hərbi müqaviləmiz yox idi. Bizə təcavüz edən ermənilərə yardım göstərməklə Rusiya rəhbərləri böyük

səhvə yol verdilər. Lakin Vladimir Putinin hakimiyyətə gəlməsindən sonra münasibətlərə yeni dinamika gətirildi. Dağlıq Qarabağ məsələsi ilə bağlı Rusiyanın mövqeyi daha qərəzsiz forma aldı.

İki ölkənin tarixində ilk dəfə olaraq, Rusiya prezidenti Azərbaycana rəsmi səfərə gəldi. Bundan əvvəl isə mənim atam Rusiyaya rəsmi səfər etmişdi. Bu yaxınlarda isə mənim Rusiyaya səfərim olmuşdur. Bu səfər Xəzər dənizi, enerji məsələləri, onların nəqli ilə bağlı bizim aramızda olan bütün mübahisəli məsələləri sahmana salmağa imkan yaratmışdır.

**Alən Şevalerias:** Moskva ilə hərbi sahədə yaxınlaşmağı nəzərdə tutursunuzmu?

**İlham Əliyev:** Biz heç bir blokun üzvü deyilik və aramızda qarşılıqlı müdafiə ilə bağlı heç bir müqaviləmiz yoxdur. Bizim ərazimizdə heç bir xarici hərbi qüvvə yoxdur və belə də davam etməyi planlaşdırırıq.

**Alən Şevalerias:** Sizi dinlədikcə, məndə elə bir təəssürat yaranır ki, İsveçrə haqqında danışırsınız...

**İlham Əliyev:** Baxın görün, bizim gölümüz heç də pis deyil! O, hətta Cenevrədəkindən də böyükdür. O, Xəzər dənizi adlanır.

**Alən Şevalerias:** İraqda Vaşinqton və London tərəfindən aparılan müharibə haqqında nə fikirləşirsiniz?

**İlham Əliyev:** 11 sentyabr 2001-ci ildən etibarən ABŞ tərəfindən başlanılan terrorizmə qarşı mübarizəyə Azərbaycan da qoşulmuşdur. Biz özümüz də bu bəladan əziyyət çəkmişik. 1990-cı illərin əvvəllərində erməni təşkilatları tərəfindən Azərbaycanda törədilən 30-dan çox terror aktı nəticəsində 2000-dən artıq azərbaycanlı öldürülmüşdür. İnanın mənə, biz bilirik terrorizm nə deməkdir.

**Alən Şevalerias:** İraqa edilən müdaxilənin yalnız terrorizmlə mübarizə istəyi ilə bağlı olmasını hesab edirsinizmi?

**İlham Əliyev:** Bu, hər halda, amerikalıların bütün dünyaya təqdim etdikləri formadır. Başqa mülahizələr də mümkündür. Lakin, zən-

nimcə, burada vacib əhəmiyyəti bugünkü reallıq daşıyır. Çalışmaq lazımdır ki, tezliklə iraqlılar üçün elə bir şərait yaradılsın ki, onlar özlərini idarə edə bilsinlər.

Terroristin yaxşısı, pisi olmur. Harada olmalarından asılı olmayaraq onların hamısını eyni səylə axtarıb tapmaq lazımdır. Azərbaycan bu mübarizədə qətiyyətlə iştirak edir. Ermənistanla mübarizədə biz tək idik. Belə olanda isə çox çətin olur!

**Alən Şevalerias:** Soros Fondu Azərbaycanda nə kimi rol oynayır?

**İlham Əliyev:** Bir il bundan əvvəl Corc Soros Azərbaycanda olmuşdur. Mən o vaxt bu vəzifədə deyildim, amma onunla görüşdüm. Bizim konstruktiv fikir mübadiləmiz oldu. Mənə elə gəlir ki, o mənimlə söhbətdən, xüsusilə də ölkəmizin apardığı neft siyasətindən razı qaldı. O, prezident Heydər Əliyevlə də görüşdü və bu ona çox böyük təəssürat bağışladı. Mən şadam ki, onun özü ölkənin necə inkişaf etdiyini gördü. İqtisadiyyatın şəffaflığı məsələsi Soros Fondunu narahat edən əsas işlərdən biridir və bu baxımdan, Azərbaycan nümunə rolunu oynaya bilər. Söhbətimizin əvvəlində sizə dediyim kimi, biz beynəlxalq audit altında Neft Fondu yaratmışıq və bu qurumu Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlıq şəraitində idarə edirik.

**Alən Şevalerias:** Gürcüstanda bəziləri Eduard Şevardnadzenin devrilməsinin və icraedici hakimiyyətin dəyişilməsinin Corc Sorosla bağlı olan təşkilatların təsiri altında baş verdiyini iddia edirlər. Bu haqda Siz necə düşünürsünüz?

**İlham Əliyev:** Mən bunların heç birini eşitməmişəm. Mən fikirləşirəm ki, Gürcüstanda baş verən hadisələr xalqın istəyi ilə olmuşdur. Hər halda, xalq tərəfindən dəstəklənməyən hökumət uzun müddət hakimiyyətdə qala bilməz. Bu, demokratiyanın qanunudur.

**Alən Şevalerias:** Siz demokratiyadan danışdınız. Bu baxımdan Sizin ölkədəki durum necədir? Bir sıra müşahidəçilər bu mövzu barədə müxtəlif fikirdədirlər...

**İ l h a m Ə l i y e v:** Bizdə müxalifət mövcuddur. O, seçkilərdə və bu yaxınlarda keçirilmiş prezident seçkilərində iştirak etmişdir. Siyasi fəaliyyət və mətbuat azaddır. Azərbaycanda əllidən çox siyasi partiya mövcuddur.

**A l ə n Ş e v a l e r i a s:** Partiyaların çox olması demokratiya olması demək deyil...

**İ l h a m Ə l i y e v:** Düzdür, lakin biz keçid dövrünü yaşayırıq. Partiyanı yaratmaq o qədər asandır ki, bəzi hallarda bir ailənin üzvləri, sadəcə, səfirliklər tərəfindən təşkil edilən qəbullara dəvət olunmaq və ya xaricdən maliyyə yardımı almaq məqsədi ilə siyasi təşkilat adı altında Ədliyyə Nazirliyində qeydiyyatdan keçirlər! Bəziləri hətta bunu biznes kimi istifadə edirlər. Lakin bunları ümumiləşdirmək olmaz. Yaxşı ki, bir çox "normal" partiyalar da var.

**A l ə n Ş e v a l e r i a s:** Regiondakı çətinlikləri nəzərə alaraq Siz Azərbaycanın gələcəyi ilə bağlı narahatsınızmı?

**İ l h a m Ə l i y e v:** Əksinə. Gələcək parlaq, hətta çox parlaq olacaqdır. Bu məndə heç bir şübhə doğurmur: Azərbaycan iqtisadi baxımdan möhkəmlənəcəkdir. Biz nəhəng bir layihənin son mərhələsinə qədəm qoyuruq. Bakı–Tbilisi–Ceyhan boru kəmərinin çəkilməsi neftimizi nəql etməyə və Avropanı təchiz etməyə imkan yaradacaqdır. Lakin bu yeni sərvətin yaradacağı imkanların həmvətənlərimiz arasında bərabər şəkildə paylanmasına nəzarət etmək lazım gələcək.

**A l ə n Ş e v a l e r i a s:** Bu il mayın 24-də prezident Şirak Sizə Azərbaycanın genişlənmiş Avropaya inteqrasiyası ilə bağlı istəyinizi əks etdirən məktub ünvanlamışdı. Ölkənizin Avropanın bir hissəsi olmasını hesab edirsinizmi?

**İ l h a m Ə l i y e v:** Tamamilə belədir. Coğrafi nöqteyi-nəzərdən biz də, habelə Cənubi Qafqazdakı qonşularımız da Avropadayıq. Artıq üç ildir ki, Azərbaycan Avropa Şurasında təmsil olunur. Hər halda, bir məsələ aydındır: əgər Türkiyə və Gürcüstan Avropaya inteqrasiya olunurlarsa, onda Azərbaycanın da orada öz yeri var.

**A l ə n Ş e v a l e r i a s:** Beləliklə, Azərbaycan hansı istiqamətdə gedəcək: Birləşmiş Ştatlar, Avropa, yoxsa Asiya?

**İ l h a m Ə l i y e v:** Bizim xarici siyasət yalnız Azərbaycanın maraqları və onun tarixi əlaqələri əsasında müəyyən edilir. Ümumiyyətlə, biz əməkdaşlıq və dostluğa üstünlük veririk. Kimlər ki, hər yerdə qarşıdurma üçün yer axtarırlar, onlar bunu burada yox, digər yerdə axtarsınlar. Misal üçün, bizim həm İranla, həm də Birləşmiş Ştatlar ilə yaxşı münasibətlərimiz var. Bunlar o iki ölkədir ki, əgər belə demək olarsa, aralarında heç də yaxşı münasibətlər yoxdur! Bizim Gürcüstanla tarixi münasibətlərimiz var. İranla – mən bunu təkrar edirəm – qədim tariximiz var, orada çoxlu azərbaycanlı yaşayır. Rusiya ilə çoxdankı münasibətlərimiz mövcuddur. Biz elə bir alternativ qarşısında deyilik ki, kiminlə əməkdaşlıq etməliyik. Biz, sadəcə, öz mövqeyimizi müdafiə edirik, vəssalam.

**A l ə n Ş e v a l e r i a s:** Əgər atanız sağ olsaydı, o da eyni siyasəti davam etdirərdimi?

**İ l h a m Ə l i y e v:** Bəli, mən buna əminəm. Bu siyasət öz səmərəliliyini nümayiş etdirdi. Bu siyasət sülh, əmin-amanlıq və iqtisadi inkişaf gətirdi. Bunun alternativi yoxdur. Hər hansı digər seçim fəlakətli ola bilər və özlüyündə vətəndaş müharibəsi, parçalanma ilə nəticələnə bilər. Artıq on beş ildir ki, Ermənistan bu kartdan istifadə etməyə çalışır. Lakin azərbaycanlılar artıq bunu bilirlər.

*Müsahibənin*
*mətni «Azərbaycan» qəzetində*
*(24 avqust 20004-cü il) də dərc olunmuşdur.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Tu-134 və Tu-154 sərnişin təyyarələrinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*25 avqust 2004-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYA FEDERATİV RESPUBLİKASINDA

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev avqustun 24–26-da Almaniya Federativ Respublikasına rəsmi səfərdə olmuşdur.*

*Avqustun 24-də Almaniyanın paytaxtı Berlinin «Tegel» hava limanında hər iki ölkənin dövlət bayraqları ilə bəzədilmiş, Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Almaniya hökumətinin yüksək vəzifəli şəxsləri, respublikamızın Berlindəki səfiri Hüseynağa Sadıqov, səfirliyin əməkdaşları, Almaniyanın Bakıdakı səfiri Klaus Qrevlix, Azərbaycan diasporunun nümayəndələri səmimiyyətlə qarşıladılar. Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.*

*Azərbaycan Prezidenti hava limanından fəxri motosikletçilər dəstəsinin müşayiəti ilə Berlində onun üçün ayrılmış iqamətgaha gəldi.*

## BERLİNDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ

*25 avqust 2004-cü il*

*Almaniya Federativ Respublikasında ilk rəsmi səfərdə olan Azərbaycan Respublikasının prezidenti İlham Əliyev AFR-in Federal Prezidentinin iqamətgahında – Şarlottenburq sarayında rəsmi qarşılanma mərasimi keçirildi.*

*Sarayın üzərində Almaniyanın və Azərbaycanın dövlət bayraqları qaldırılmış, meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Almaniya Federativ Respublikasının Federal prezidenti Horst Köler Azərbaycan Respublikasının prezidenti İlham Əliyevi sarayın önündə səmimiyyətlə qarşıladı.*

*Almaniyanın dövlət və hökumət nümayəndələri Azərbaycan prezidentinə, ölkəmizin nümayəndə heyətinin üzvləri Almaniya prezidentinə təqdim olundu.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidenti İlham Əliyevə raport verdi. Hərbi orkestrin ifasında Azərbaycanın və Almaniyanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Azərbaycan prezidenti İlham Əliyev sarayın fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ALMANİYA PREZİDENTİ HORST KÖLERİN GÖRÜŞÜ

*Prezident Horst Köler Azərbaycanın dövlət başçısı İlham Əliyevin Almaniyaya ilk rəsmi səfərini yüksək qiymətləndirdi və bunun ölkələrimiz arasında əməkdaşlığın, o cümlədən iqtisadi əlaqələrin daha da inkişafına müsbət təsir göstərəcəyini vurğuladı.*

*Almaniyaya səfəri zamanı ona göstərilən qonaqpərvərlikdən məmnunluğunu ifadə edən prezident İlham Əliyev ikitərəfli münasibətlərin bundan sonra da genişlənməsi üçün səylərin artırılmasının vacibliyini bildirdi.*

*Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə Azərbaycanın və Almaniyanın beynəlxalq təşkilatlarda əməkdaşlığı, ölkəmizin Avropa strukturlarına inteqrasiyası, AFR şirkətlərinin respublikamıza sərmayə qoyması və sair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə xüsusi toxunuldu. Cənab Horst Köler bildirdi ki, Almaniya Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləmişdir və bu mövqeyi dəyişməzdir. ATƏT-in üzvü kimi, Almaniya da bu problemin həllində səylərini artıracaqdır.*

*Prezident İlham Əliyev Almaniyanın bu mövqeyini yüksək qiymətləndirdi və cənab Kölerə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı AFR prezidentini ölkəmizə rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.*

## ALMANİYANIN FEDERAL KANSLERİ GERHARD ŞRÖDER İLƏ GÖRÜŞ

*25 avqust 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 25-də Almaniya Federal Kanslerinin iqamətgahına gəldi. Binanın üstündən Azərbaycanın və Almaniyanın dövlət bayraqları asılmışdı. Federal Kansler Gerhard Şröder dövlətimizin başçısı İlham Əliyevi binanın önündə səmimiyyətlə qarşıladı.*

*Sonra Prezident İlham Əliyev ilə Federal Kansler Gerhard Şröder arasında görüş oldu. AFR hökumətinin başçısı Azərbaycan prezidentini Berlində görməsindən məmnunluğunu bildirdi və prezident seçildikdən sonra Almaniyaya ilk rəsmi səfər etməsini yüksək qiymətləndirdi.*

*Prezident İlham Əliyev cənab Şröderə təşəkkür edərək, bu səfərin Almaniya ilə Azərbaycan arasında mövcud olan dostluq münasibətlərinin daha da inkişaf etdirilməsinə mühüm töhfə verəcəyini vurğuladı.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı, qarşılıqlı siyasi əlaqələrin vəziyyəti, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Federal Kansler Gerhard Şröder Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq bildirdi ki, Almaniya Azərbaycanın ərazi bütövlüyünü həmişə olduğu kimi, bu gün də tanıyır və dəstəkləyir. ATƏT-in fəal üzvü olan Almaniya bu münaqişənin Minsk qrupu çərçivəsində tezliklə sülh yolu ilə ədalətli həll edilməsi üçün səylərini bundan sonra da artıracaqdır.*

*Cənab Şröder Azərbaycanın Almaniyadan aerobus təyyarələri almaq niyyətini iqtisadi sahədə əməkdaşlığın təzahürü kimi dəyərləndirdi və bildirdi ki, Almaniya Azərbaycana təkcə sərmayə qoymağı yox, həm də yeni texnologiyalar gətirməyi planlaşdırır. Bu ilin sonunda*

*və ya gələn ilin əvvəlində Berlində Azərbaycana sərmayə qoyulmasına dair konfrans keçiriləcəkdir.*

*Səmimilik şəraitində keçən görüşdə Azərbaycanın regionda qlobal enerji layihələrində iştirakı da yüksək qiymətləndirilmişdir.*

## ALMANİYA – AZƏRBAYCAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ALMANİYANIN FEDERAL KANSLERİ GERHARD ŞRÖDERİN BİRGƏ MƏTBUAT KONFRANSI

### Gerhard Şröderin bəyanatı

Hörmətli xanımlar və cənablar!

Bildirmək istəyirəm ki, Azərbaycan prezidenti İlham Əliyevi burada salamlamaqdan çox şadam. Ona görə şadam ki, cənab Əliyev prezident seçildikdən sonra buraya ilk rəsmi səfərə gəlmişdir. Azərbaycanla Almaniya arasında siyasi münasibətlər çox gözəl, yüksək səviyyədədir. Mən belə fikirdəyəm ki, cənab prezident Azərbaycanda hüquqi dövlət yaradılmasında çox maraqlıdır və çox böyük səylər göstərir, nailiyyətlər də əldə edibdir. Ona görə də mən ona çox böyük hörmətlə, ehtiramla yanaşıram.

Cənab İlham Əliyev tərəfindən ölkədə həyata keçirilən islahatlar nəticəsində çox gözəl, yaxşı mənada təəccübləndirici nəticələr əldə olunubdur. Bu da iqtisadiyyatın inkişafına böyük təkan verir və bütün Azərbaycan ictimaiyyəti bundan bəhrələnəcəkdir.

Siyasi məsələyə gəldikdə isə deyə bilərəm ki, əvvəllər olduğu kimi, Almaniya bu gün də Azərbaycanın tərəfdaşıdır və Azərbaycanın ərazi bütövlüyünü tanıyıb və tanıyacaqdır. Biz buna çox böyük hörmətlə yanaşırıq.

Cənab prezident və mən belə düşünürük və bu fikirdəyik ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məhz sülh yolu ilə aradan qaldırılmalıdır. Almaniya ATƏT-in Minsk qrupunun fəaliyyəti çərçivəsində bu işə öz töhfəsini verəcək və səylər göstərəcəkdir.

Bu gün hamımızın şahidliyi ilə dörd aerobusun alınmasına dair imzalanan müqavilə iqtisadi əlaqələrimizin bir təzahürüdür. Azərbaycan da bu müqaviləni çox ciddi hesab edir. Əlbəttə, məqsəd Avropaya inteqrasiya olmaqdan ibarətdir. Eyni zamanda, Avropa Birliyinin yeni qonşuluq siyasətini həyata keçirmək siyasətindən söhbət gedir. Yəni bunun arxasında çox böyük məqsədlər durur.

Almaniya şirkətlərinin Azərbaycandakı fəallığı barədə də danışmaq istəyirəm. Cənab prezident keçirdiyimiz görüşdə qeyd etdi ki, Almaniya şirkətləri ilə enerji və infrastruktur sahələrində əməkdaşlıq etmək və fəaliyyət göstərmək üçün çox gözəl şərait mövcuddur və onlar Azərbaycana xoş gəliblər. Məsələn, «Siemens» kimi şirkətlər nəzərdə tutulur ki, onlar orada bəzi layihələrin həyata keçirilməsində maraqlıdırlar.

Biz danışıqlar çərçivəsində belə bir şifahi razılığa gəldik ki, bu ilin payızında və ya gələn ilin əvvəlində Berlində Almaniya iqtisadiyyatı nümayəndələrinin iştirakı ilə Azərbaycana sərmayə qoyulması ilə əlaqədar bir konfrans keçirilsin. Burada konkret olaraq Azərbaycanda mövcud olan real imkanlar müzakirə edilsin, konkret layihələr təqdim olunsun və sıx iqtisadi əməkdaşlığa başlayaq. Mən tamamilə əminəm ki, cənab prezidentin Almaniyaya səfəri hər iki tərəf üçün faydalıdır və hər iki tərəf bundan bəhrələnəcəkdir.

## İlham Əliyevin bəyanatı

Hörmətli xanımlar və cənablar!

Mən ilk növbədə, qeyd etmək istərdim ki, bu mənim Almaniya Federativ Respublikasına ilk rəsmi səfərimdir və çox məmnunam ki, bu səfər çox yüksək səviyyədə keçir. Səfər çərçivəsində bu gün səhər Almaniyanın prezidenti ilə görüşüm olubdur. Eyni zamanda, bu gün cənab Federal Kanslerlə görüşüm olubdur. Demək istəyirəm ki, geniş fikir mübadiləsi aparılmışdır. Almaniya–Azərbaycan ikitərəfli münasibətləri müzakirə olunmuşdur.

Azərbaycanın Avropa Birliyi ilə münasibətləri sürətlə inkişaf edir. Bu həm bizi, həm də Avropa Birliyini qane edir. Almaniya Avropanın

və dünyanın aparıcı ölkələrindən biridir və çox güclü iqtisadi potensiala malikdir.

Son illər ərzində Azərbaycanda da aparılmış iqtisadi islahatlar nəticəsində ölkəmiz güclənibdir və bizim iqtisadi potensialımız ildən-ilə artır. Bizim regionda Azərbaycanın həm iqtisadi, həm də siyasi cəhətdən çəkisi artır, mövqeləri möhkəmlənir. Əlbəttə, belə olan halda ümid edirik ki, iki ölkə arasında bütün istiqamətlərdə yaşanan əməkdaşlıq bu səfərdən sonra daha da genişlənəcəkdir. Biz çox istəyirik ki, siyasi, iqtisadi və bütün digər sahələrdə Almaniya ilə Azərbaycan arasında əlaqələr genişlənsin, möhkəmlənsin və iki ölkə bir-birinə daha da yaxın olsun.

Konkret layihələr haqqında fikir mübadiləsi aparılmışdır. Bu gün aerobusların alınması haqqında müqavilə imzalanmışdır. Cənab Kansler qeyd etdi ki, bu müqavilə həm Azərbaycan, həm də Avropa ölkələri üçün çox vacibdir. Əminəm ki, bundan sonra başqa sahələrdə də Avropa ilə əməkdaşlığımız daha sürətlə inkişaf edəcəkdir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində Almaniya hökumətinin mövqeyi bizi çox razı salır. Bu gün cənab Kanslerin qeyd etdiyi kimi, Almaniya Azərbaycanın ərazi bütövlüyünə həmişə hörmətlə yanaşmışdır və bu indi də davam edir. Ümid edirəm ki, bu prinsip əsas tutularaq, Ermənistanla Azərbaycan arasında olan münaqişə tezliklə və sülh yolu ilə öz həllini tapa bilər.

İkitərəfli münasibətlərin daha da inkişafı üçün çox gözəl zəmin vardır və bu səfər gələcək əməkdaşlığın yeni istiqamətlərini müəyyən etdi. Əmin olduğumu bildirmək istəyirəm ki, bundan sonra da bütün istiqamətlərdə uğurlu əməkdaşlıq edəcəyik.

**S u a l: Cənab Kansler, Siz qeyd etdiniz ki, Azərbaycanla Almaniya arasında iqtisadi münasibətlər yüksək səviyyədədir. Bəs mədəniyyət sahəsində vəziyyət necədir? Bu sahədə də əlaqələri inkişaf etdirmək lazım gələrsə, Siz bunun üçün nə edərdiniz?**

**G e r h a r d  Ş r ö d e r:** Mən həmişə belə fikirdə olmuşam ki, ölkələr arasında münasibətləri bir-birindən ayırmaq olmaz. Siyasətdən, iqtisadiyyatdan söhbət getməsindən asılı olmayaraq, hər bir sahəyə böyük hörmətlə yanaşmaq lazımdır. Çünki bu, yaxşı əməkdaşlığın, dostluğun əsasını təşkil edir. Ona görə Azərbaycanla mədəni əməkdaşlıq da çox vacibdir. Təəssüf ki, indiki halda mən bu sahədə konkret olaraq nələrin nəzərdə tutulduğunu deyə bilmərəm. Amma bu sahədə hər hansı təşəbbüs olarsa, mən onu dəstəkləməyə hazıram. Məncə, biz bu məsələyə nikbin yanaşa bilərik, çünki sizin alman dilini bu səviyyədə bilməyiniz mədəniyyət sahəsində nə qədər irəli getdiyinizi göstərir.

**S u a l: Cənab Prezident, Siz qeyd etdiniz ki, Dağlıq Qarabağ münaqişəsini siyasi yolla həll etmək olar. Siz bunun üçün hansı vasitələri görürsünüz?**

**İ l h a m  Ə l i y e v:** Birinci vasitə ondan ibarətdir ki, beynəlxalq hüquq normalarına əməl edilməlidir. Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və onun ətrafındakı yeddi rayonumuzu işğal edib və bu uzun illərdir davam edir. Ermənistan silahlı qüvvələri işğal olunmuş bu torpaqlardan çıxmayınca, münaqişə öz həllini tapa bilməz. Ona görə də ilk növbədə, beynəlxalq hüquq normalarına əməl edilməlidir. Dünyanın müxtəlif ölkələrində milli azlıqlar yaşayır. Lakin bu heç də o demək deyil ki, milli azlıqlar separatizm yolu tutmalıdırlar. Azərbaycanda müxtəlif millətlər yaşayırlar, ermənilər də Dağlıq Qarabağda yaşaya bilərlər. Əgər beynəlxalq hüquq normaları öz ifadəsini taparsa, Azərbaycan torpaqları işğaldan azad olunarsa, Azərbaycan və Ermənistan sülh sazişinə yaxınlaşa bilər. Ermənistan tərəfinin irəli sürdüyü tezis ondan ibarətdir ki, Dağlıq Qarabağda yaşayan ermənilər öz müqəddəratını təyin etməlidirlər. Amma mən bildirmək istəyirəm ki, erməni xalqı artıq öz müqəddəratını təyin etmişdir və dünyada Ermənistan dövləti vardır. Onların bu siyasətinin gələcəyi yoxdur, bu, dünyada gedən proseslərlə ziddiyyət təşkil edir. Ümid edirəm ki, Ermənistan rəhbərliyi bunu tezliklə başa düşər və silahlı qüvvələrini özünə məxsus olmayan torpaqlardan geri çəkər.

**S u a l: Cənubi Qafqaz Avropa ailəsinə inteqrasiya edir, Avropanın bir hissəsi hesab olunmağa başlayır. Lakin Avropa Birliyi Cənubi Qafqazdakı münaqişələrlə, o cümlədən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı konkret mövqeyini bildirməmişdir. Almaniya Avropanın aparıcı dövlətlərindən biridir, Avropa Birliyində, Avropa Parlamentində öz çəkisi vardır. Bu baxımdan Almaniya nə kimi rol oynaya bilər?**

**G e r h a r d Ş r ö d e r:** Avropa Parlamenti birbaşa bu məsələyə qoşulsa, bunu həmin dövlətlərin siyasətinə müdaxilə kimi qiymətləndirə bilərlər. Amma mən cənab prezidentlə söhbət zamanı da qeyd etdim ki, biz Azərbaycanın ərazi bütövlüyünü həmişə tanımışıq və bu mövqeyimizdə də qalacağıq. Düşünürəm ki, bu təkcə bizim yox, eyni zamanda, Avropa Parlamentinin də mövqeyidir.

**S u a l: Siz beynəlxalq terrorizmə qarşı mübarizə ilə bağlı fikir mübadiləsi apardınızmı? Rusiyada sonuncu təyyarə qəzaları ilə əlaqədar nə deyə bilərsiniz?**

**G e r h a r d Ş r ö d e r:** Təəssüf ki, təyyarə qəzaları barədə dəqiq məlumatım yoxdur, yəqin ki, bununla əlaqədar təhqiqatlar gedir, ona görə də dəqiqsizliyə yol vermək istəməzdim. Qəzaların səbəbi təhqiqatlardan sonra məlum olacaqdır.

## BUNDESTAQIN ALMANİYA–QAFQAZ QRUPUNUN RƏHBƏRİ İLƏ GÖRÜŞ

*25 avqust 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev Berlində, onun üçün ayrılmış iqamətgahda AFR parlamentinin - Bundestaqın Almaniya–Qafqaz qrupunun rəhbəri Kristof Berqneri qəbul etmişdir.*

*Dövlətimizin başçısı ilə görüşmək imkanından məmnunluğunu söyləyən cənab Berqner Azərbaycan prezidentinin Almaniyaya səfərini yüksək qiymətləndirdi və bunun ölkələrimiz arasında münasibətlərin daha da inkişafına təkan verəcəyini bildirdi.*

*Görüşdə Cənubi Qafqazda vəziyyət, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, Azərbaycanın Avropa strukturlarına inteqrasiyası, regional təhlükəsizlik məsələləri diqqət mərkəzində olmuşdur.*

*Respublikamıza səfər edəcəyini bildirən parlament qrupunun rəhbəri münaqişə ilə bağlı ölkəsinin mövqeyindən danışaraq dedi ki, Almaniya bu problemin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyir və bu mövqe dəyişməzdir. Eyni zamanda, Almaniya ATƏT-in Minsk qrupu çərçivəsində səylərini artırmağa çalışacaqdır.*

*Bundestaqın nümayəndəsinə təşəkkür edən prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Avropaya inteqrasiya yolunu seçmişdir. Ona görə də biz Avropanın aparıcı ölkələrindən olan Almaniya ilə əməkdaşlığın genişləndirilməsində maraqlıyıq. Almaniyanın prezidenti və kansleri ilə keçirdiyi görüşlərdən söhbət açan dövlətimizin başçısı ikitərəfli əlaqələrin bundan sonra daha da inkişaf edəcəyinə əminliyini vurğuladı.*

## ALMANİYANIN MƏŞHUR «SİEMENS» ŞİRKƏTİ TƏRƏFİNDƏN AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ GÖRÜŞDƏ* NİTQ

*Berlin, «Adlon» hoteli*

*25 avqust 2004-cü il*

Əziz dostlar!

Hər şeydən əvvəl, bu görüşə dəvət etdiyinizə görə minnətdarlığımı bildirmək istəyirəm. Qeyd etmək istərdim ki, Almaniyaya rəsmi səfərin nəticələrindən çox məmnunam. Bu gün mənim prezidentlə, kanslerlə, digər rəsmilərlə görüşlərim oldu. Bir daha təsdiq edə bilərik ki, ikitərəfli münasibətlərimiz çox uğurla inkişaf edir. Siyasi səviyyədə çox yaxşı qarşılıqlı anlaşma var.

Almaniya və Azərbaycan arasında çox ciddi siyasi dialoq mövcuddur. Bizim üçün həm də çox önəmlidir ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Almaniyanın mövqeyi tamamilə beynəlxalq hüquq normalarına əsaslanıbdır. Bu gün kansler cənab Gerhard Şröder qeyd etdi ki, Almaniya Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında Azərbaycanın ərazi bütövlüyünü çox vacib amil hesab edir. Bizim üçün bu çox mühümdür. Çünki Almaniya yalnız Avropada deyil, bütün dünyada aparıcı ölkələrdəndir və sizin ölkənin

---

* Görüşü Şərqi Avropa Münasibətləri Komitəsi Rəyasət Heyətinin üzvü, «Siemens» şirkəti idarə heyəti sədrinin müavini Rudi Lamprext açmışdır.

Almaniyanın tanınmış şirkətlərinin rəhbərləri də görüşə dəvət olunmuşdular.

mövqeyi, ümumiyyətlə, gələcəkdə Qafqazın inkişafı üçün böyük əhəmiyyət kəsb edir.

Bu mövqe Ermənistanla Azərbaycan arasındakı münaqişənin həll olunmasında da əhəmiyyətlidir. Məlum olduğu kimi, Azərbaycan bu münaqişədən əziyyət çəkir. Bizim ərazinin 20 faizi Ermənistanın işğalı altındadır və bu işğalın nəticəsi kimi, 1 milyondan artıq qaçqın və köçkünümüz var. Bu bizim iqtisadiyyatımız üçün çətinlikdir. Həm Azərbaycan, həm də bütün region üçün ciddi siyasi mövzudur.

Amma bununla belə, Azərbaycan, burada qeyd olunduğu kimi, iqtisadiyyatının inkişafında, iqtisadi islahatların aparılmasında nəzərəçarpacaq irəliləyiş əldə edibdir. Bu islahatlar uğurla həyata keçirilib, iqtisadiyyatın davamlı və sürətli inkişafına gətirib çıxarıbdır. Biz Almaniya ilə iqtisadi əlaqələrimizə böyük əhəmiyyət veririk. Biz başa düşürük ki, ölkələrimiz arasında ticarət dövriyyəsinin indiki səviyyəsi imkanlarımızı əks etdirmir. Almaniya iqtisadiyyatı dünyada aparıcı iqtisadiyyat hesab olunur. Azərbaycan son 7-8 ildə iqtisadiyyatını inkişaf etdirir.

Ona görə də biz daha yüksək səviyyədə əməkdaşlıq edə bilərik. Düşünürəm ki, bu rəsmi səfər və hadisələrin səfərdən sonrakı inkişafı iqtisadi və ticarət əlaqələrimizi genişləndirməyə imkan verəcəkdir.

Bu gün həm də cənab kanslerlə mənim aramda razılıq əldə olunubdur ki, ilin sonunda və yaxud da gələn ilin əvvəlində burada, Almaniyada Azərbaycanda sərmayə qoyuluşu imkanları ilə bağlı bir konfrans keçirək. Azərbaycanın nailiyyətləri ilə bağlı əhatəli bir təqdimat hazırlayaq.

Nailiyyətlərlə yanaşı, biznes sahəsində mövcud imkanları da nəzərə çatdıraq. Bu gün iqtisadi əməkdaşlığımızın genişlənməsinə dair daha bir fakt da qeydə alınmışdır. Bizim tərəfimizdən 4 aerobusun alınması barədə razılıq əldə olunubdur. Bu da bizim ölkənin potensialını göstərir. Eyni zamanda, bizim Avropa Birliyi ölkələri ilə daha geniş iqtisadi əlaqələr qurmaq əzmimizə nümunədir.

Avropa Birliyinin Cənubi Qafqaz ölkələrini də əhatə edən yeni qonşuluq siyasəti vacib olmaqla yanaşı, həm də çox mühüm bir addımdır. Düşünürük ki, bu siyasətin praktiki bəhrəsi tezliklə özünü göstərəcək, müstəqil ölkə kimi, Azərbaycan Avropa strukturlarına daha çox inteqrasiya edəcəkdir. Bu bizim xarici siyasətimizin elementlərindən biridir. Azərbaycanın Avropa strukturlarına nə dərəcədə inteqrasiya etməsi ölkənin inkişafının göstəricisidir. Mən əminəm ki, ölkələrimiz arasındakı iqtisadi əməkdaşlıq artacaqdır.

Biz istərdik ki, daha çox alman şirkətinin Azərbaycana sərmayə qoymasını görək. Sizə deyə bilərəm ki, Azərbaycan müstəqil dövlət olduqdan sonra, əsas etibarilə, son 7-8 il müddətində bizim iqtisadiyyatımıza 20 milyard dolladək vəsait yatırılıbdır. Bu rəqəmi əhalinin sayına nisbətdə götürsək, onda Azərbaycanın yalnız keçmiş SSRİ ölkələri arasında deyil, həm də keçmiş sosialist bloku ölkələri arasında ən irəlidə olduğunu görərik. Adambaşına düşən birbaşa sərmayə yatırımı Azərbaycanda çox yüksəkdir. Biz ölkədə yaxşı sərmayə mühiti yaratmağı bacardıq. Xarici sərmayələr lazımınca qorunur, bu da çox mühüm amildir.

Çünki inam illər boyu yaranır. Amma xarici sərmayəçilərin inamı cəmi bircə günə, cəmi bircə səhv addıma görə itirilə bilər. Xoşbəxtlikdən, Azərbaycan səhv addım atmayıbdır. Hazırda sərmayəçilərlə hökumət arasında əməkdaşlığın səviyyəsi çox yüksəkdir.

Çox istərdik ki, iri alman şirkətləri Azərbaycana sərmayə yatırsınlar, xidmət şirkətləri, podratçı şirkətlər Azərbaycanda işləsinlər. Sirr deyil ki, Almaniyanın yüksək, müasir texnologiyası var. Azərbaycan isə müasirləşmə prosesini yaşayan ölkədir. Biz yeni infrastruktur, yeni imkanlar yaradırıq. Bu infrastrukturu ən mümkün yuxarı səviyyədə yaratmağı qarşımıza məqsəd qoymuşuq. Ona görə də alman texnologiyası, alman təcrübəsi bizim üçün çox gərəklidir. Mən inanmaq istərdim ki, gələcəkdə iki sahədə – sərmayə yatırımı proqramları və iqtisadi əməkdaşlıq sahəsində biz daha çox fəaliyyət və inkişaf görəcəyik. Düşünürəm ki, bu, hər iki ölkənin xeyrinə olacaqdır.

Azərbaycan hazırda nəhəng iqtisadi yüksəliş ərəfəsindədir. Əlbəttə ki, nailiyyətlərimiz çox sanballıdır. Ümumi daxili məhsul son 7 ildə 90 faiz artıbdır. Büdcənin illik artımı, orta əmək haqqının artması ölkəmizdə adi hal alıbdır. Ölkəmizdə nəzərdə tutulan əsas enerji layihələri tamamlandıqdan sonra iqtisadi inkişafın sürəti çox yüksək olacaqdır. Hazırda dünyada ən iri enerji layihəsi Azərbaycanda həyata keçirilir. Neft-qaz layihələrinin həyata keçirilməsi ölkəmizdə iqtisadiyyatın bütün digər  sektorlarını da inkişaf etdirməyə imkan verəcəkdir. İqtisadiyyatı şaxələndirmək bizə imkan verəcək ki, yalnız neft amilindən və ya neftin qiymətlərindən asılı olmayaq.

Gələcəkdə Azərbaycan həm də Avropanın vacib qaz təchizatçısı olacaqdır. Hazırda biz Azərbaycanda nəhəng qaz yatağının işlənilməsi üzrə layihəni həyata keçiririk və qaz boru xəttinin çəkilməsi bizə imkan verəcək ki, qazı Türkiyəyə, Yunanıstana və sonra digər Avropa ölkələrinə nəql edək. Ona görə də alternativ qaz təchizatı əldə etmək Avropa istehlakçıları üçün də əlverişli olacaqdır.

Əlbəttə ki, neft amili bizim iqtisadiyyatda çox mühüm rol oynayır və əminəm ki, bu hələ uzun illər davam edəcəkdir. Çünki neft sahəsinin inkişaf səviyyəsi və neftdən gələn gəlirlər digər sektorlarla müqayisə oluna bilməz. Amma eyni zamanda, bizim üçün ən böyük prioritet qeyri-neft sahəsidir, iqtisadiyyatın şaxələnməsidir, yeni infrastrukturun, yeni iş yerlərinin yaradılmasıdır. Biz nəhəng sosial-iqtisadi proqramın həyata keçirilməsinə başlamışıq. Regionların inkişafı proqramını həyata keçiririk. Həmin proqram bizə növbəti 5 ildə 600 min iş yeri açmağa ümid verir. 8 milyonluq ölkə üçün bu, nəzərə çarpan rəqəmdir. Sizə deyə bilərəm ki, oktyabrdakı prezident seçkilərindən sonra 70 min iş yeri açılıbdır, bunun da 50 mindən çoxu daimi iş yerləridir. Bu göstərir ki, bizim iqtisadi islahatlar siyasətimiz davam edir və yaxşı nəticələr verir. Məndə şübhə yoxdur ki, yaxın bir neçə ildə Azərbaycan iqtisadi baxımdan güclü ölkə olacaq.

Eyni zamanda, bizim çoxlu problemimiz var. Yoxsulluğa qarşı mübarizə aparmalıyıq. Beynəlxalq maliyyə qurumları ilə həyata ke-

çirdiyimiz yoxsulluğun azaldılması proqramı uğurludur. Bütün sadalananlar xalqımıza iqtisadi inkişafdan bəhrələnməyə imkan verəcəkdir.

İqtisadi inkişafa lazım olan digər vacib amil də şəffaflıqdır. Bəzi neft hasil edən ölkələrin uğursuz təcrübəsi bizə məlumdur. Şəffaflığın kifayət qədər olmaması həmin ölkələrdə milli sərvətin qeyri-bərabər bölünməsi ilə nəticələnmişdir. Belə halın qarşısını almaqdan ötrü, şəffaflıq mühiti yaratmaqdan ötrü Azərbaycan Neft Fondu təşkil etmişdir, neftin satışından alınan gəlirlər burada toplanır. Beynəlxalq auditorlar fondun işinə nəzarət edir və hər bir Azərbaycan vətəndaşı gündəlik dəyişiklikləri müşahidə edə bilir. Fonda daxil olan gəlirlər barədə məlumat vaxtaşırı dərc olunur.

Azərbaycan həm də hasilat sənayelərində şəffaflıq adlanan bir təşəbbüsün fəal iştirakçısıdır. Bu, hasilat sənayelərinə malik bütün şirkət və hökumətlərdən məsuliyyət və cavabdehlik tələb edən mühüm təşəbbüsdür. Bu da bizim uğurumuzun əsas elementlərindən biridir. Çünki hər bir Azərbaycan vətəndaşının həm neft sahəsindəki inkişafdan, həm də digər sektorlarda gedən inkişaf proseslərindən bəhrələnməyə haqqı vardır.

Mən qeyd etdim ki, qeyri-neft sahəsi hazırda hökumət üçün əsas məsələdir. Bu o demək deyildir ki, biz neft sektoruna diqqət yetirmirik. Məsələ ondadır ki, neft sektorunda, demək olar, hər şey öz yerini tapıbdır. Gələn il əsas ixrac neft kəmərinin tikintisinin tamamlanması qeyri-neft sektorunun, kənd təsərrüfatının, xidmət sahəsinin inkişafının daha bir əsaslı təməlini qoyacaqdır. Bunlar bizim üçün prioritet məsələlərdir. Bizə yeni yollar salmaq, yeni elektrik stansiyaları tikmək, rabitə sistemini yüksək səviyyəyə çatdırmaq lazımdır. Hökumət bunlarla məşğul olmalıdır. Bu mənada alman şirkətlərinin bizimlə birgə işləməsi üçün çox böyük imkanlar mövcuddur.

Mən bildirdim ki, biz infrastrukturu ən yüksək səviyyədə yaratmağa çalışırıq. Çünki yüksək səviyyədə yaradılmış infrastruktur uzun müddət xidmət edər. Əminəm ki, bizim ölkəmizdəki iqtisadi inkişaf alman şirkətlərində maraq oyadacaqdır. Artıq Azərbaycana gəlmiş

şirkətlər, əlbəttə ki, üstünlükləri və çətinlikləri bilirlər. Biz qanunvericilik üzərində işləməliyik ki, həm yerli sərmayələr, həm də xarici sərmayələr lazımınca qorunsun. Çünki bu, sərmayələri cəlb etməyin, orta sinfi yaratmağın yeganə yoludur. Güclü orta sinif olmadan heç neft sektoru da güclü, bazar prinsipləri əsasında işləyən iqtisadiyyat yaratmağa kömək edə bilməz.

Yeri gəlmişkən nəzərinizə çatdırım ki, Azərbaycanda ümumi daxili məhsulun 75 faizi özəl sektorun payına düşür. Bu çox mühüm amildir. Xüsusilə də nəzərə alsaq ki, ümumi daxili məhsula daxil olan neft dövlətin inhisarındadır.

Azərbaycanda bazar prinsiplərinə əsaslanmış iqtisadiyyatın inkişaf etdirilməsi, iqtisadi islahatlar davam edəcəkdir. Biz beynəlxalq maliyyə qurumları – Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı ilə sıx işləyir və ümid edirik ki, bu əməkdaşlıq doğru qərar çıxarmaqda bizə kömək edəcəkdir.

Əlbəttə ki, hər bir ölkənin öz xüsusiyyətləri, özəlliyi var və beynəlxalq maliyyə qurumlarının bütün vacib tövsiyələri yerli şəraitə uyğunlaşdırılmalıdır. Eyni zamanda, dünyadakı inkişaf prosesləri bizə məlumdur. Dünya iqtisadiyyatındakı inkişaf dinamikası ilə tanışıq. Azərbaycan da bu gün dünya iqtisadiyyatının bir hissəsidir. Bir neçə ilə Azərbaycanda bir sıra inkişaf prosesləri yer alacaqdır. Planlarımız və proqramlarımızla bağlı detallara varmaq istəmirəm, bu çox vaxt aparar.

Düşünürəm ki, Azərbaycanda sərmayə qoyuluşu imkanlarına dair Almaniyada konfrans keçirilərkən – bu yəqin ki, bir-iki günlük geniş təqdimat olacaq – müzakirələr aparıla bilər və konkret layihələr təklif ediləcəkdir. İlkin iqtisadi araşdırma, qanunvericilik bazası təqdim olunacaq ki, potensial alman sərmayəçisi vəsait qoyduqdan sonra nə nəticə əldə edəcəyini əvvəlcədən hiss edə bilsin.

Beləliklə, təfsilatla vaxtınızı çox almaq istəmirəm, sadəcə, ümumi prinsiplərimizi nəzərinizə çatdırdım. Bu prinsiplər ölkəmizdə tətbiq olunan yeni prinsiplər deyildir. İqtisadi islahatlar siyasəti hələ bizim

mərhum prezidentimiz Heydər Əliyev tərəfindən 1990-cı illərin əvvəllərində başlanmışdı. Bundan dərhal sonra Azərbaycan sabit cəmiyyət qurmağı bacardı. Müstəqillik əldə etdikdən sonra, təxminən 1995-ciilədək bir sıra problemlərlə üzləşirdik: Ermənistanın təcavüzü, vətəndaş müharibəsi, siyasi qarşıdurma, dövlət çevrilişi cəhdləri və digər dramatik hadisələr... Yalnız 1995-ci ilin axırında vəziyyət sabitləşdi. İqtisadi artımın dinamikasına fikir versəniz, görərsiniz ki, yalnız 1995-ci ilin axırlarına doğru vəziyyət düzəldi. 1991-ci ildən 1995-ci ilədək hər il həm ümumi iqtisadiyyatda, həm də istehsal sahəsində ciddi tənəzzül müşahidə olunurdu. 1995-ci ildə vəziyyət sabitləşdi və 1996-cı ildən artım başladı. Dediyim kimi, son 7 ildə ümumi daxili məhsulun artımı hər il 10 faizdən yuxarıdır. Başqa sözlə, ictimai-siyasi, iqtisadi sabitlik istənilən inkişaf üçün əsas amildir. Bu sabitlik olmasaydı, 1990-cı illərin ortalarında bizim prezidentimiz bu islahatları həyata keçirməkdə belə qətiyyət nümayiş etdirməsəydi, əlbəttə ki, bu uğuru əldə edə bilməzdik.

İndi bizim vəzifəmiz bugünkü dünyanın reallıqlarına uyğun olaraq həmin islahatları davam etdirmək, yeni mühit yaratmaq, özəl sektor üçün yeni imkanlar yaratmaqdır. Biz öz biznes ictimaiyyətimizə də eynilə yanaşırıq. Mən prezident seçildikdən sonra ölkədəki biznes icması ilə, yerli iş adamları ilə bir neçə görüşüm olubdur. Biz onlar üçün də şərait yaratmalı, mövcud şəraiti yaxşılaşdırmalıyıq. Hazırda onlara kreditlər verilməsi proqramı üzərində işləyirik. Hələ ki, bu proqram geniş tətbiq olunmur. Lakin ardıcıl yerinə yetirilir. Biz ümid edirik ki, yerli iş adamları xarici sərmayəçilərlə rəqabət apara biləcəklər. Bütün bunlar bizim planımıza daxildir və mən ümidvaram ki, bu planlar reallığa çevriləcəkdir. İndiyədək Azərbaycanda nəzərdə tutulan bütün layihələr, hətta yerinə yetirilməsi çox çətin sayılan, çoxlarının mümkünsüz hesab etdiyi planlar həqiqətə çevrilibdir. Ümidvaram ki, bizdə olan iradə ilə, xalqımızın dəstəyi ilə, dostlarımızın yardımı ilə planlarımızı yerinə yetirəcəyik və müasir demokratik, iqtisadi cəhətdən güclü, dünyada bütün ölkələrlə dostluq münasibəti saxlayan ölkə olacağıq. Diqqətinizə görə çox sağ olun. Ümid

edirəm ki, Almaniyada da, Azərbaycanda da daha çox görüşlərimiz olacaqdır.

**Görüşdən sonra jurnalistlərə verdiyi müsahibə**

**S u a l: Almaniyada görüşləriniz necə keçdi?**

**C a v a b:** Yaxşı keçdi, çox gözəl təmaslar oldu.

**S u a l: Dağlıq Qarabağ məsələsi ilə bağlı Almaniya tərəfi ilə danışıqlar oldumu?**

**C a v a b:** Əlbəttə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də müzakirə olundu. Almaniyanın mövqeyi ədalətli mövqedir. Almaniyanın kansleri cənab Gerhard Şröder bu mövqeyi bir daha təsdiqlədi. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bu münaqişə beynəlxalq hüquq normalarına əsasən həll edilməlidir.

**S u a l: İqtisadi əlaqələr haqqında nə deyə bilərsiniz?**

**C a v a b:** Əlbəttə, bizim iqtisadi əlaqələrimiz yüksək səviyyədədir. Biz Almaniya ilə çox səmərəli əməkdaşlıq edirik. Bilirsiniz ki, dünən dörd təyyarənin alınması barədə saziş imzalandı. Digər ikitərəfli iqtisadi layihələr də var. Almaniya nəinki Avropanın, həm də dünyanın aparıcı ölkələrindən biridir. Çox güclü iqtisadi potensiala malikdir. Azərbaycan da iqtisadi cəhətdən çox sürətlə inkişaf edir. Buna görə də qarşılıqlı surətdə faydalı iqtisadi əməkdaşlıq üçün çox gözəl şərait vardır. Bu baxımdan bütün məsələlər – həm siyasi, həm də iqtisadi məsələlər müzakirə olundu. Mən bu səfərdən çox razıyam.

**S u a l: Gürcüstandakı siyasi vəziyyəti necə qiymətləndirirsiniz?**

**C a v a b:** Ümid edirəm ki, bu məsələ öz həllini sülh yolu ilə tapa bilər. Gürcüstanda baş verən hadisələr Qarabağda baş verən hadisələrdən heç də fərqlənmir. Hər iki halda bu, təcavüzkar separatizmin təzahürüdür. Cənubi Osetiyada da, Dağlıq Qarabağda da bu halların mənşəyi eynidir. Bütün bunlar dövlətə qarşı, onun ərazi bütövlüyünə qarşı edilən zorakılıqdır. Əlbəttə ki, Gürcüstanın da, Azərbaycanın da ərazi bütövlüyü bərpa olunmalıdır və gec-tez bərpa ediləcəkdir.

Hər halda, Azərbaycan xalqı torpaqlarının itirilməsi ilə heç vaxt barışmayacaq, öz torpaqlarını geri qaytaracaqdır. Biz düşünürük ki, indiki məqamda sülh danışıqlarının imkanları, hələ ki, tükənməyibdir. Ona görə də sülh danışıqlarına üstünlük veririk. Nə vaxt görsək ki, aparılan danışıqların əhəmiyyəti yoxdur, onda biz başqa vasitələrə də əl ata bilərik.

**S u a l: Azərbaycan ilə Almaniya arasında iqtisadi və siyasi əlaqələr getdikcə genişlənir. Bununla belə, mədəni əlaqələr də inkişaf etməlidir. Azərbaycanın mədəniyyəti, incəsənəti, tarixi Almaniyada lazımınca tanınmır. Bunun üçün nə edilməlidir?**

**C a v a b:** Bunun üçün hamımız çalışmalıyıq. Azərbaycan hökuməti, burada yaşayan azərbaycanlılar, bizim diasporumuz Azərbaycanı daha da geniş şəkildə tanıtmalıdır. Bu iş təkcə Almaniyada deyil, bütün Avropada, dünyada aparılmalıdır. Bizim gözəl nailiyyətlərimiz, zəngin tariximiz və mədəni irsimiz var. Bütün bunları biz gərək daha da geniş şəkildə təqdim edək.

**S u a l: Bu gün qədim Azıx mağarası erməni işğalı altındadır. Ermənilər dünyada yaşayan erməniləri Qarabağa, Azıx mağarasına baxmağa dəvət edirlər ki, guya bu mağara ermənilərin tarixi ilə bağlıdır.**

**C a v a b:** Ermənilər həmişə tarixi təhrif ediblər. Onlara məxsus olmayan dəyərlərə sahib olmağa çalışıblar. Amma onlar buna nail ola bilməyəcəklər. Haqq-ədalət öz yerini tapacaqdır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsi beynəlxalq hüquq normaları əsasında həll edilməlidir. Ermənistanın işğalçı qüvvələri Azərbaycanın torpağından çıxmalıdır. Bundan sonra Ermənistan–Azərbaycan münasibətlərində hər hansı bir dəyişiklik ola bilər.

## BUNDESTAQIN XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ İLƏ GÖRÜŞ

*Avqustun 25-də Azərbaycan prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda Bundestaqın – Almaniya parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Fölker Rüheni qəbul etmişdir.*

*Səmimilik şəraitində keçən görüşdə Cənubi Qafqazda vəziyyət, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması, regional təhlükəsizlik məsələləri barədə ətraflı söhbət getdi, parlament qrupları arasında əlaqələrin genişləndirilməsinin vacibliyi xüsusi vurğulandı. Bundestaqın komitə sədri parlamentlərarası əməkdaşlığın Almaniya üçün çox əhəmiyyətli olduğunu bildirərək bu sahədə səyləri artıracaqlarını söylədi.*

*Prezident İlham Əliyev ölkəmizin ən çətin problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələrini xatırlatdı, eyni zamanda məsələnin ədalətli, beynəlxalq hüququn əsas prinsiplərinə əməl olunmaqla həlli üçün Azərbaycanın göstərdiyi səylərdən danışdı.*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Almaniyaya səfərinin sonuncu günü, avqustun 26-da, onun üçün ayrılmış iqamətgahda «Siemens» şirkətinin nümayəndələri ilə görüşmüşdür. Görüş işgüzar şəraitdə keçmişdir.*

## ALMANİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞ

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 26-da Berlində, onun üçün ayrılmış iqamətgahda Almaniyanın Xarici İşlər naziri Yoşka Fişeri qəbul etmişdir.*

*Görüşdə ikitərəfli münasibətlərə toxunuldu və bu münasibətlərin yüksək səviyyədə olduğu vurğulandı, regionda və beynəlxalq aləmdə vəziyyət, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli barədə fikir mübadiləsi aparıldı.*

*Almaniya xarici siyasət idarəsinin başçısı prezident İlham Əliyevin rəsmi səfərini yüksək qiymətləndirərək bunun ölkələrimizin əməkdaşlığının gələcək inkişafı baxımından əhəmiyyətli olduğunu söylədi. O bildirdi ki, Almaniya Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində Azərbaycanın mövqeyini dəstəkləyir və bu yöndə səylər göstərəcəkdir.*

*Prezident İlham Əliyev gələcəkdə Azərbaycan–Almaniya münasibətlərinin, əməkdaşlığının daha da inkişaf etdirilməsi üçün ciddi addımlar atılacağını vurğuladı.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlərə də toxunuldu.*

* * *

Almaniyanın Xarici İşlər naziri Yoşka Fişer görüşdən sonra jurnalistlərin suallarına cavab verdi.

**S u a l: Görüşdə hansı məsələlər barədə söhbət getdi?**

**C a v a b:** Hər şeydən əvvəl biz, Azərbaycan prezidenti başda olmaqla, Azərbaycan nümayəndə heyətinin burada olmasına sevinirik. Biz görüş zamanı ikitərəfli əlaqələr, iqtisadi əməkdaşlıq imkanları, regional problemlər, Dağlıq Qarabağ münaqişəsi barədə fikir mübadiləsi apardıq. Bundan əlavə, regionun inkişafı, Rusiya, Ermənistan və Gürcüstandakı vəziyyət, regional və beynəlxalq məsələlər haqqında söhbətimiz oldu. Apardığımız danışıqlarda regiondakı münaqişələrin

müharibə yolu ilə həllinin mümkün olmadığını bildirdik. Biz ümid edirik ki, regionda mövcud olan bütün münaqişələr qarşılıqlı razılıqlar əsasında və tərəflərin hüquqlarının qorunması çərçivəsində sülh yolu ilə həll ediləcəkdir.

**S u a l: Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hansı məsələlərə toxunuldu?**

**C a v a b:** Mən düşünürəm ki, prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bu məsələnin Minsk qrupu çərçivəsində həlli məqbuldur. Biz öz tərəfimizdən təklif edirik ki, hər iki ölkənin, yəni Azərbaycanın və Ermənistanın Xarici İşlər nazirləri mütəmadi görüşlər keçirsinlər. Hesab edirəm ki, belə görüşlər məsələnin Minsk qrupu çərçivəsində həllində öz bəhrəsini verəcəkdir. Biz isə öz tərəfimizdən bu konstruktiv görüşlərin baş tutmasına kömək göstərməyə hazırıq.

## AFİNADA XXVIII YAY OLİMPİYA OYUNLARININ QALİBİ FƏRİD MANSUROVLA VƏ YUNAN–ROMA GÜLƏŞİ ÜZRƏ MİLLİ KOMANDAMIZIN BAŞ MƏŞQÇİSİ ELÇİN CƏFƏROVLA GÖRÜŞ

*26 avqust 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasına rəsmi səfəri başa çatdıraraq Afinada keçirilən XXVIII Yay Olimpiya oyunlarını izləmək üçün Yunanıstanın paytaxtına yola düşdü.*

*Dövlətimizin başçısı Afina Olimpiadasında komandamıza ilk qızıl medalı qazandıran Fərid Mansurovu təbrik edərək onun bu parlaq qələbəsinin Azərbaycanın idman tarixində əlamətdar hadisə olduğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycan idmançısının ilk dəfə olaraq yunan–Roma güləşi yarışlarında olimpiya çempionu adını qazandığını xatırladaraq qızıl medalı Fərid Mansurovun boynundan asdı və dedi:*

**İlham Əliyev:** Bizim milli komandamıza birinci qızıl medalı Fərid gətirdi. Özü də çox gərgin şəraitdə. Rəqibləri də kifayət qədər güclü idi, olimpiya, dünya çempionu idilər. Fərid, sən Azərbaycan xalqına böyük bayram gətirmisən. Bu böyük bayramdır, bütün Azərbaycan xalqının bayramıdır. Bu, Azərbaycanın gücünü, idmanının səviyyəsini göstərir. Təkcə idmanın deyil, ölkəmizin səviyyəsini, şöhrətini göstərir.

**Abbas Abbasov** (*Baş nazirin birinci müavini, Azərbaycan Güləş Federasiyasının prezidenti*): Cənab Prezident, qazanılan uğurlar Azərbaycanda idmana olan Sizin şəxsi münasibətinizin, gərgin əməyinizin, bu yolda sərf etdiyiniz enerjinin nəticəsidir. Məhz bunun bəhrəsidir ki, Fərid Mansurov Azərbaycana ilk qızıl medalı qazandırıbdır.

**İ l h a m  Ə l i y e v:** Mən bir neçə dəfə bunu qeyd etmişəm ki, bizdə idmanda birlik var. Hamı – federasiyalar, idman cəmiyyətləri, nazirlik, olimpiya Komitəsi–vahid bir qurum kimi fəaliyyət göstərir. Bəzi ölkələrdə, hətta çoxunda belə deyildir, əksinə, ziddiyyət var, toqquşma var. Amma bizdə bu birlik uğurumuzun əsas səbəbindən biridir. Əlbəttə, Fəridin özünün və məşqçilərinin rolu böyük olubdur. İkinci dəfədir, ikinci olimpiya oyunlarıdır ki, Güləş Federasiyası Azərbaycana qızıl medal gətirir və ümid edirik, bu ənənə bundan sonra da yaşayacaqdır.

**Ə b ü l f ə s  Q a r a y e v** (*Gənclər, İdman və Turizm naziri*): Cənab Prezident, Azərbaycanın idman tarixində yunan–Roma güləşi üzrə heç vaxt olimpiya çempionu olmayıbdır.

**İ l h a m  Ə l i y e v:** Bəli, ilk dəfədir. Mənim xatirimdədir, Sidneydə bizim üç güləşçi mübarizə aparırdı. Deyəsən onlardan ikisi dəvət olunmuş güləşçilər idi. Amma Fərid bizim yetirməmizdir, Azərbaycan idman məktəbinin yetirməsidir. Özü də gəncdir, 22 yaşındadır. İdmanın səviyyəsini məhz bu göstərir. Uşaq, yeniyetmə idmanı çox vacibdir. Bu olmasa, əlbəttə, yaxşı idmançı yetişə bilməz.

Mən xatırlayıram, yadınızdadırmı, dünya çempionatının qalibi olanda biz Milli Olimpiya Komitəsində ona ev verdik, hədiyyə təqdim etdik. Azərbaycanın idmançısı bax, belə olmalıdır.

**A b b a s  A b b a s o v:** Cənab Prezident, Fəridin 22 yaşı var. Allah qoysa, Pekinə gedəndə 26 yaşı olacaqdır. Demək olar ki, ən təcrübəli vaxtı olacaqdır.

**İ l h a m  Ə l i y e v:** Pekində qələbələr çox olacaqdır.

**A b b a s  A b b a s o v:** Cənab Prezident, icazə verin, Güləş Federasiyasının prezidenti olaraq Milli Olimpiya Komitəsinin prezidenti kimi, dövlətimizin başçısı kimi, Sizə idmana göstərdiyiniz münasibətə, məhəbbətinizə görə dərin təşəkkürümü bildirim. İdman təkcə peşəkarlıq deyil, həm də millətimizin, xalqımızın, gənc nəslin, gələcək nəslin sağlamlığı deməkdir. Bu gün Sizin burada olmağınız, idmançılara diqqət yetirməyiniz hər bir azərbaycanlı üçün böyük fəxrdir.

Siz idmana çox böyük əmək sərf etmisiniz. Fərid Mansurov olimpiya çemionu kimi bir günə, bir aya, bir ilə formalaşmayıbdır. Siz Milli Olimpiya Komitəsinin prezidenti olduğunuz dövrdə Azərbaycanda onlarca idman kompleksi, qurğuları tikilmişdir. Əlbəttə, bütün bunlar öz nəticələrini büruzə verməli idi. Mən özüm təhlil aparıram. Olimpiya oyunlarında iştirak edən 202 ölkədən cəmi 61-i medal alıb, mükafata nail olubdur. Ötən olimpiya oyunlarından fərqli olaraq, Afinada Azərbaycanın hələlik ən azı 4 bürünc, 1 qızıl medalı vardır. Yəni artıq 5 medalımız vardır.

Hələ bizim beş güləşçimiz mübarizə aparmalıdır. Sərbəst güləşçilərimiz, taekvondoçularımız, boksçularımız mübarizəni davam etdirirlər. Hesab edirəm, Sizin rəhbərliyiniz altında Azərbaycanda idman daha da inkişaf edəcək, gənclərimiz idmanla daha çox məşğul olacaqlar. Onlar Fərid kimi oğullarımızın arxasınca gedəcək, küçələrdən yığışıb idman salonlarında öz sağlamlıqlarını möhkəmləndirəcəklər. Siz Azərbaycan xalqının gələcəyi üçün, Azərbaycan gəncliyi üçün çox böyük təməl qoyursunuz. Buna görə Sizə dərin minnətdarlığımı bildirirəm.

**İ l h a m Ə l i y e v:** Doğrudan da Azərbaycanda idman sürətlə inkişaf edir. Bunun üçün hər bir şərait yaradılıbdır. Çox sevinirəm ki, gənc idmançılar yetişir. Yəni idman kütləvi xarakter alır. Mən Milli Olimpiya Komitəsinə rəhbərliyə gələndə Fəridin 15 yaşı var idi. O vaxt idmanla məşğul olurdu?

**E l ç i n C ə f ə r o v** (*baş məşqçi*): Cənab Prezident, yeniyetmələr arasında çıxış edirdi.

**İ l h a m Ə l i y e v:** Bəli. Azərbaycanda keçirilən bütün beynəlxalq turnirlərin, yeniyetmələr, böyüklər arasında dünya, Avropa çempionatlarının da böyük əhəmiyyəti olubdur. Yəni bu, Azərbaycanda idmanın səviyyəsini göstərir.

Mən, eyni zamanda, Mehman Əzizovu qeyd etmək istəyirəm. Çox gözəl güləşdi, qələbəyə çox yaxın idi. Mövlud Mirəliyev də dördüncü yeri tutdu. Düzdür, bu, cüdoda beşinci yer hesab olunur, amma, əslin-

də, dördüncü oldu. Özü də çox iradə ilə, əzmlə güləşirdi. Turan Mirzəyev ağırlıqqaldırmada dördüncü yeri götürdü. Bunlar böyük nəticələrdir. Əlbəttə, hər bir ölkə istəyir ki, medalların sayı çox olsun. Mən də, hamımız da istəyirik. Çünki bu bizim idmanımızın səviyyəsini göstərir, ölkəmizi dünyada daha da gözəl təbliğ edir.

Mən medal qazanmayan idmançıları da qeyd etməliyəm. Yarışları izləyərkən çox sevinirdim ki, belə iradəli, cəsarətli idmançılarımız var. Düzdür, medal ala bilmirlər, amma ölkəmizi çox ləyaqətlə təmsil edirlər. Görülən işlər həm medallarda özünü göstərir, həm də Azərbaycanda idmanın kütləviliyində, yeni yaradılmış idman qurğularında. Yəni bu məsələyə kompleks şəkildə yanaşmışıq.

Abbas müəllim, siz düz deyirsiniz ki, görülən bütün işlər mütləq öz nəticəsini verməliydi, verdi və bundan sonra daha da çox verəcəkdir.

**Ə b ü l f ə s  Q a r a y e v:** Cənab Prezident, idmançılarımız çox yaxşı mübarizə aparırlar. Baxmayaraq ki, bəziləri uduzurlar. Məsələn Vitali Rəhimov çox güclü rəqiblərlə görüşüb və birinci görüşü çox yaxşı uddu. Yəni komandanın ümumi səviyyəsi kifayət qədər yüksəkdir və bu da ona əsas verir ki, baza olduqda, medal da əldə etmək olar. Hamısı gəncdir, Vitali isə çox gəncdir.

**A b b a s  A b b a s o v:** Cənab Prezident, bilirsiniz ki, olimpiadada zəif idmançı olmur. Bütün ölkələr öz peşəkarlarını, güclü idmançılarını buraya gətirirlər. Ona görə o biri idmançılarımızın da çıxışları yaxşı olmuşdur. Yəni gücləri nəyə çatırdısa, onu elədilər. Sağ olsunlar.

**Ə b ü l f ə s  Q a r a y e v:** Bokçularımız – Rövşən Hüseynov da, Cavid Tağıyev də, Ruslan Xairov da yaxşı döyüşdülər. Şahin İmranov da yaxşı döyüşdü. Əfsuslar olsun ki, onun zədəsi texniki məğlubiyyətə səbəb oldu.

**İ l h a m  Ə l i y e v:** Bəli, 31:21 udurdu. Qadınlarımız İradə və Zemfira ilk medalları qazandılar. Atıcılıq Federasiyası həmişə olduğu kimi, bu olimpiadada da medalları birinci qazandılar. Vaqif müəllimin rəhbərlik etdiyi federasiya keçən dəfə bir qızıl qazanmışdı, indi iki

bürünc medal qazanıbdır. Amma Atıcılıq Federasiyası iki idmançı ilə təmsil olunub, ikisi də medal qazanıbdır. Təbrik edirik. Bu da bir göstəricidir. Bizim müxtəlif idman növlərində idmançılarımız var. Güləş, boks, güllə atıcılığı, ağırlıqqaldırma, cüdo, bədii gimnastika, taekvondo və sairə.

**Ə b ü l f ə s  Q a r a y e v:** Cənab Prezident, əfsuslar olsun ki, bədii gimnastikada bizim əsas idmançımız zədələndi. Amma ehtiyat idmançımız çıxış edib, Azərbaycanı normal təmsil edibdir.

**A b b a s  A b b a s o v:** Cənab Prezident, dünən Azərbaycanın dövlət himni səslənəndə Fərid himnimizi oxuyurdu. Namiq Abdullayev də Sidneydə oxumuşdu. Bu dəfə də Fərid onu təkrar etdi.

**F ə r i d  M a n s u r o v:** Cənab Prezident, bu hər bir idmançının ən böyük arzusudur.

**İ l h a m  Ə l i y e v:** Əlbəttə, ölkənin himni səslənir. Bundan böyük sevinc ola bilməz!

## AFİNADA «LİDER» TELEVİZİYASININ MÜXBİRİNƏ VERDİYİ MÜSAHİBƏ

*26 avqust 2004-cü il*

**S u a l: Cənab Prezident, Fərid Mansurov ölkəmizə ilk qızıl medalı qazandırmışdır. Siz bu xəbəri necə qarşıladınız?**

**C a v a b:** Mən çox sevindim. Bilirsiniz ki, mən dünən Almaniyada rəsmi səfərdə idim. Fəridin final yarışı başlayanda Bakıdan xəbər tuturdum. Çünki orada televiziya vasitəsilə izləmək mümkün deyildi, veriliş getmirdi. Əlbəttə, bu xəbəri eşidəndə çox sevindim. Bu hamımızın böyük bayramı, qələbəsidir. Mən çox şadam ki, bu qələbəni, qızıl medalı Fərid qazandı. O doğrudan da həm peşəkar idmançıdır, həm gəncdir, həm də çox gözəl, təvazökar insandır, tərbiyəli, mədəniyyətli bir oğlandır. Çox şadam ki, qələbə məhz ona nəsib olubdur. Ümid edirəm ki, bundan sonra da medallarımız olacaqdır. Bilirsiniz ki, boksçularımızın ikisi yarımfinaldadır. Onlardan da qələbə gözləyirik. Digər idmançılar da çıxış edəcəklər. Yəni bu olimpiada artıq onu göstərdi ki, Azərbaycanda idman inkişaf edir və idmançılarımız da ölkəmizi ləyaqətlə təmsil edirlər.

**S u a l: Cənab Prezident, biz Fərid Mansurova belə bir sual verdik ki, Siz medalı onun boynundan asanda hansı hissləri keçirdi? O da öz fikrini söylədi. Biz bilmək istəyirik ki, Siz Azərbaycan idmançısının boynundan dünya idmanının ən ali, qızıl medalını asanda hansı hissləri yaşayırsınız?**

**C a v a b:** Bilirsiniz, mən sevinirəm. Həmişə belə məqamlarda qürur hissi duyuram. Çünki bu doğrudan da böyük qələbədir. Olimpiya oyunları dünyanın ilk yarışıdır ki, ölkələr bir-biri ilə rəqabət aparır. Nəticədə cədvəl tutulur və hər bir ölkə özünü cədvəldə müəyyən yerdə görə bilir. Hamımız istəyirik ki, Azərbaycanın yeri daha da yüksək olsun. İstəyirik ki, ölkəmizin idman şöhrəti, ümumiyyətlə, imici daha da yüksəklərə qalxsın. Hər dəfə Azərbaycanın bayrağı qaldırılanda,

dövlət himni səslənəndə hər bir Azərbaycan vətəndaşı qürur hissi keçirir, o cümlədən mən də. Ona görə bilirsiniz, bu hissləri ifadə etmək çətindir.

Yadınızdadır, mən demişdim ki, Sidneydə gözəl anlar yaşandı, o anları bir də yaşamaq istəyirik. İndi bu anları yaşayırıq. İnşallah, bundan sonra da belə anlar çox olacaqdır.

**S u a l: Cənab Prezident, Fərid Mansurov Azərbaycan Milli Ordusunun əsgəridir və hərbi xidmətdədir. Ümumiyyətlə, Azərbaycan əsgərinin dünya olimpiya oyunlarında qızıl medal qazanmasına hansısa rəmzi məna vermək olarmı?**

**C a v a b:** Əlbəttə, əlbəttə, olar. Mən həmişə qeyd edirəm ki, idmançılarımızın uğurlu çıxışları Azərbaycan gənclərində vətənpərvərlik ruhunu daha da yüksəldir. Biz gənclərimizi, yeniyetmələrimizi vətənpərvərlik ruhunda tərbiyə etməliyik, böyütməliyik. Əlbəttə, bunun çox böyük mənası var. Azərbaycan ordusu da güclənir, əsgəri də daha peşəkar olur. Bu baxımdan burada böyük məna var.

**S u a l: Cənab Prezident, indi güləşçilərimiz, taekvondoçularımız mübarizəyə qoşulurlar. Onlara arzularınız nədir?**

**C a v a b:** Onlara arzum budur ki, ləyaqətlə çıxış etsinlər. Qələbə ola da bilər, olmaya da bilər. Bu idmandır. İdmanda hər şey olur. Amma ən önəmlisi odur ki, hər bir idmançı daim yadda saxlasın – o təkcə özünü deyil, bütün ölkəmizi təmsil edir. O, döşək üzərinə çıxanda gərək bunu unutmasın. Bilsin ki, Azərbaycan xalqı ona baxır, onun qələbəsini arzulayır və o, Azərbaycanı ləyaqətlə təmsil etməlidir.

Mən bu fürsətdən istifadə edib, medal qazana bilməyən, lakin ləyaqətlə çıxış edən idmançıları bir daha qeyd etmək istərdim. Mehman Əzizov, Mövlud Mirəliyev, Turan Mirzəyev, Rövşən Hüseynov – onlar da medala layiq idilər. Onlar da medal qazanmağa yaxın idilər. Hesab edirəm, ən önəmlisi budur ki, onlar kişi kimi yarışdılar və Azərbaycanın idman şöhrətini yüksəklərə qaldırdılar. Medal qazanmağa bir balaca nəsə çatmadı, haradasa bəxt gətirmədi, amma qələbə yaxın

idi. Buna baxmayaraq, mən onların da çıxışlarını yüksək qiymətləndirirəm. Onlar bizim digər idmançılarla yanaşı, gənc nəslə, gənc idmançılara örnək, nümunə olmalıdırlar.

* * *

## Afinada XXVIII yay olimpiya oyunlarının bağlanış mərasimi

*Avqustun 29-da Afina Olimpiya stadionunda XXVIII Yay Olimpiya oyunlarının bağlanış mərasimi olmuşdur. Azərbaycan Respublikasının prezidenti, ölkəmizin Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Mərasim başlanmazdan əvvəl Azərbaycan dövlətinin başçısı Yunanıstan Prezidenti Konstantinos Stefanopulosla, bu ölkənin Baş naziri Kostas Karamanlislə, Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Jak Roqqla, Avropa Olimpiya Komitəsinin prezidenti Mario Peskante ilə, «Afina–2004»ün təşkilat komitəsinin sədri İoann Angelopulu-Daskalaki ilə görüşüb söhbət etmişdir.*

**RUSİYA İNFORMASİYA TELEQRAF AGENTLİYİ – İTAR–TASS-ın BAŞ DİREKTORU CƏNAB VİTALİ İQNATENKOYA**

Hörmətli Vitali Nikitiç!

Təkcə Rusiyanın deyil, eləcə də dünyanın ən aparıcı informasiya agentliklərindən biri olan İTAR–TASS-ın 100 illik yubileyi münasibətilə rəhbərlik etdiyiniz kollektivi və şəxsən Sizi səmimi-qəlbdən təbrik edirəm.

Tarixi ənənələrə və zəngin təcrübəyə malik İTAR–TASS özünün çoxminlik kollektivinin yüksək peşəkarlığı sayəsində MDB ölkələrində geniş auditoriya qazanmışdır və qlobal informasiya məkanında onun yüksək nüfuzu vardır.

Əminəm ki, həm ölkə daxilində, həm də beynəlxalq aləmdə baş verən hadisələrin qərəzsiz və operativ yayılmasını qarşısına məqsəd qoyan İTAR–TASS agentliyi ilə Azərbaycanın informasiya agentlikləri arasında qarşılıqlı surətdə faydalı əməkdaşlıq bundan sonra da davam etdiriləcəkdir.

Bir daha yubiley münasibətilə Sizi təbrik edir və fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *31 avqust 2004-cü il*

## AVRASİYA DÖVLƏTLƏRİ YEDDİNCİ İQTİSADİ ZİRVƏSİNİN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi–Avrasiya Dövlətləri Yeddinci İqtisadi Zirvə Toplantısının bütün iştirakçılarını səmimi-qəlbdən salamlayır və toplantının işinə uğurlar diləyirəm.

Artıq ənənəvi hal almış Avrasiya iqtisadi zirvələri xalqlarımız və dövlətlərimiz arasında iqtisadi, siyasi, humanitar və mədəni əlaqələrin inkişafına mühüm töhfələr vermişdir. Toplantıda türkdilli dövlətlərlə yanaşı, Avropa və Asiyanın əsas ölkələrinin, aparıcı beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı onun perspektivli müzakirələr və təşəbbüslər üçün əhəmiyyətli olacağını söyləməyə əsas verir.

Azərbaycanın ümummilli lideri, mərhum prezident Heydər Əliyev «Mərmərə» qrupunun təşkil etdiyi Avrasiya zirvə toplantıları ilə daim yaxından maraqlanır, region dövlətləri arasındakı qarşılıqlı əməkdaşlığa onun göstərəcəyi müsbət təsiri lazımınca qiymətləndirirdi. Odur ki, keçən zirvə toplantılarında Azərbaycanın geniş təmsil olunmasına hər cür şərait yaradılmış, toplantı iştirakçılarına Azərbaycan prezidentinin təbrikləri ünvanlanmış, regional əməkdaşlığın vəziyyəti və perspektivləri haqqında mülahizələri bildirilmişdir. Zirvə Toplantılarının daimi təşkilatçısı olan «Mərmərə Qrupu» Strateji və Sosial Araşdırmalar Vəqfi türkdilli dövlətlərin və digər Avrasiya ölkələrinin siyasi, iqtisadi və mədəni əlaqələrinin möhkəmlənməsində, regional əməkdaşlığın güclənməsində Heydər Əliyevin göstərdiyi xidmətlərini nəzərə alaraq, onu özünün fəxri sədri seçmişdi. Əmin ola bilərsiniz ki, ümummilli liderimizin əsasını qoyduğu bu xətt bundan sonra da dönmədən davam etdiriləcək, Azərbaycan rəhbərliyi ikitərəfli və regional əməkdaşlığın inkişafı, bölgəmizdə sülh və təhlükəsizliyin təmin olunması üçün bütün imkanlardan istifadə edəcəkdir.

Avrasiya ölkələrinin İqtisadi Zirvə Toplantısı dünyada gedən qloballaşma və inteqrasiya proseslərinin vüsət aldığı bir dövrdə xüsusi əhəmiyyət kəsb edir. Bugünkü dünyanın reallıqları bütün dövlətlərin və xalqların sıx iqtisadi, humanitar və mədəni əlaqələrdə olmasını, bütöv xalqların və ayrı-ayrı insanların təhlükəsizliyinin birgə səylərlə təmin edilməsini, təcavüzkar separatizmə, terrora, müharibələrə qarşı birgə fəaliyyət göstərməyi tələb edir. Bu baxımdan toplantıda region dövlətləri arasında iqtisadi, humanitar və siyasi əlaqələrin ətraflı təhlili və mövcud problemlərin həlli üçün əsaslandırılmış təkliflər verilməsi əhəmiyyətli olacaqdır.

Məmnunluqla qeyd edirəm ki, bu gün Azərbaycanla Türkiyə arasında əlaqələr və münasibətlər bütün sahələrdə uğurla inkişaf edir. İki dövlət arasında starateji müttəfiqlik münasibətləri mövcuddur. Türkiyənin iş adamları Azərbaycanda bütün sahələrdə – neft sektorunda, kənd təsərrüfatında, istehsal və xidmət sahələrində geniş təmsil olunmuşlar. İki ölkənin iqtisadi-coğrafi mövqeyi elədir ki, heç bir regional əməkdaşlıq layihəsi onların iştirakı olmadan həyata keçirilə bilməz. Azərbaycan dövlətinin mövqeyi ondan ibarətdir ki, regionun verdiyi imkanlardan bütün Avrasiya ölkələri öz xalqlarının rifahı naminə birgə istifadə etməli və maksimum yararlanmalıdır.

Müstəqilliyinin ikinci onilliyini yaşayan gənc Azərbaycan Respublikası regional və beynəlxalq inteqrasiya və əməkdaşlıq proseslərində fəal iştirak edir. Azərbaycan terrorizmə qarşı mübarizədə, regional təhlükəsizlik və əməkdaşlıqla bağlı tədbirlərdə fəal iştirak edərək, ümumbəşəri dəyərlərin, sülh və əməkdaşlığın hakim olacağı yeni dünya uğrunda hərəkata öz töhfələrini verir. Azərbaycan torpaqlarını işğal etmiş Ermənistan istisna olmaqla, ölkəmiz bütün region və dünya dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı iqtisadi və mədəni əlaqələr qurur, bir sıra beynəlxalq iqtisadi-enerji layihələrinin reallaşmasında əsas təşəbbüskarlardan və təşkilatçılardan biridir. Azərbaycanın mərhum prezidenti Heydər Əliyevin memarı olduğu əsrin ən böyük enerji layihəsi – Bakı–Tbilisi–Ceyhan artıq reallıqdır. Tezliklə

sizinlə birlikdə onun istismara verilməsini təntənəli surətdə qeyd edəcəyik. Biz Avropa ilə Asiyanı birləşdirən və «Böyük İpək yolu» adlanan digər nəhəng layihənin reallaşması, nəqliyyat-kommunikasiya xətlərinin qurulması, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin çəkilməsi üçün də bütün lazımi işləri görürük. Hər iki layihə üzərində işlər uğurla davam edir. Əminəm ki, regional əməkdaşlığa ciddi təsir göstərəcək bu layihələr bizi daha da birləşdirəcəkdir.

Bir daha zirvə toplantısının işinə uğurlar diləyir, onun regional və beynəlxalq əməkdaşlıq işinə müsbət təsir göstərəcəyinə ümid bəsləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *31 avqust 2004-cü il*

**TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EMOMƏLİ RƏHMONOVA**

Hörmətli İmaməli Şaripoviç!

Tacikistan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ötən illər ərzində dost Tacikistan öz müstəqilliyini qoruyub saxlamış və möhkəmləndirmiş, sosial-iqtisadi tərəqqi, Dünya Birliyinə inteqrasiya yolu ilə irəliləmişdir.

Ölkələrimiz arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri də yeni müstəvidə inkişaf etməkdədir. Əminəm ki, xalqlarımızın iradəsinə uyğun olaraq həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızı genişləndirmək üçün bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Hörmətli cənab Prezident!

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tacikistan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *31 avqust 2004-cü il*

**KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İRƏ**

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – Koreya Xalq Demokratik Respublikasının yaranması günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Koreya Xalq Demokratik Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *31 avqust 2004-cü il*

**BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LUİS İNASİU LULA DA SİLVAYA**

Hörmətli cənab Prezident!

Braziliya Federativ Respublikasının milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Braziliya Federativ Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Braziliya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *31 avqust 2004-cü il*

**MALTANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EDUARD FENEÇ ADAMİYƏ**

Hörmətli cənab Prezident!

Maltanın milli bayramı–Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Malta arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Malta xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *31 avqust 2004-cü il*

**MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİSENTE FOKS KESADAYA**

Hörmətli cənab Prezident!

Meksika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Meksika Birləşmiş Ştatları arasında dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyinə uyğun olaraq daim inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Meksika xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *31 avqust 2004-cü il*

**İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ,
SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI
ƏLAHƏZRƏT FƏHD BİN ƏBDÜLƏZİZ AL SƏUDA**

Əlahəzrət!

Əziz qardaşım!

Səudiyyə Ərəbistanının milli bayramı – Krallığın elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Səudiyyə Ərəbistanı ilə münasibətlərimizin inkişafına böyük əhəmiyyət veririk. Əminəm ki, ölkələrimiz arasında bərqərar olmuş dostluq və əməkdaşlıq əlaqələrinin genişlənməsi üçün qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Səudiyyə Ərəbistanı xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *31 avqust 2004-cü il*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN BİRİNCİ MÜAVİNİ, MİLLİ QVARDİYANIN RƏİSİ ƏLAHƏZRƏT ƏMİR ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət!

Səudiyyə Ərəbistanının milli bayramı – Krallığın elan edilməsi günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasındakı münasibətlər daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Səudiyyə Ərəbistanı xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *31 avqust 2004-cü il*

## Q E Y D L Ə R

**1. Yunanıstan,** Y u n a n ı s t a n  R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afinadır. – 5–25,80,118,248–261,307–314.

**2. Konstantinos Stefanopulos** (d.1926) – 1995–2005-ci illərdə Yunanıstanın prezidenti olmuşdur. – 5–25,80,118,256, 314.

**3. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 5,233.

**4. Heydər Əliyev,** H e y d ə r  Ə l i r z a  o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinini memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəh-

bərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may-iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldular. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda «Əsrin müqaviləsi» adı almış dünyanın aparıcı neft şirkətləri ilə mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən, Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 5,7,27,29,32,47–50,53,67,75,87,94,96,97,98, 99,116,120,121,122,124,135,137,138,146,148,149,150,151,153, 160,161,164,165,167,175,180,182,189,195,200,203,213,217,219, 226,235,236,239,241,251,277,280,301,316.

**5. Şəhidlər xiyabanı.** Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də sovet ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl – abidə qoyulmuşdur. – 5.

**6. Bakı Slavyan Universiteti** – 2000-ci ildə prezident Heydər Əliyevin fərmanı ilə M.F.Axundov adına Azərbaycan Rus dili və Ədəbiyyatı İnstitutunun bazası əsasında yaradılmışdır. İnstitutun beş fakültəsi var. Burada rus, bolqar, polyak, çex, yunan, ukrayna dilləri, roman–alman filologiyası öyrənilir. Universitetdə 40-dan çox elmlər doktoru, 200-ə yaxın elmlər namizədi fəaliyyət göstərir, üç min tələbə isə təhsil alır. – 8,12,13,24,88.

**7. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə Qarabağ separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822,853,874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyri-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 9,13,16,21,39,44,51,56,58,59, 65,67,70,71,73,75,77,79,95,105,106,107,111,113,115,124,125,126,129,131,133,136,141,150,154–155,202,204,208,209,211, 239,244,256,274,279,286,287,289,291,292,293,294,302,303, 304,305,306.

**8. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropada Atom Energetika Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər bir neçə mərhələ (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun – vahid valyuta qəbul etməsi – AVRO) keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986–1987-ci ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi – 1993-cü ildə isə Avropa Şurası yarandı. –13,14,15,17,54,56,58,66, 70,71,106,113,114,115,116,118–119,202,254,290,291,293, 296,297.

**9. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katib-likdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 13,17,21,70,78,106,133,202.

**10. Afina** – Yunanıstanın paytaxtı, əhalisi 2,5 milyon nəfərdən çoxdur. Afina Yunanıstanın ən qədim şəhərlərindəndir; salındığı tarix dəqiq məlum deyil. Qədim Yunanıstanda Afina mühüm iqtisadi, siyasi və mədəni mərkəz, şəhər-dövlət idi. E.ə. 146-cı ildən Romanın

tabeliyində, IV əsrdən 1204-cü ilədək Bizans imperiyasının tərkibində olmuşdur. 1204-1458-ci illərdə Afina hersoqluğunun paytaxtı idi. 1458-ci ildə Afinanı türklər tutmuşdu. 1834-cü ildən Afina Yunanıstanın paytaxtıdır.

Afina Yunanıstanın siyasi, iqtisadi və mədəni mərkəzidir. Afinada qədim yunan memarlığının abidələri qorunub saxlanılır. – 14,24,219,227,228,230,231,248–261,307–314.

**11. Olimpiya oyunları** – Qədim Yunanıstanda Olimpiya şəhərində e.ə.776-cı ildən Zevsin şərəfinə (ənənəyə görə 4 ildən bir) keçirilən ümumyunan bayramı və yarışları. Olimpiya oyunlarının keçirildiyi müddətdə bütün yunanlar üçün «Müqəddəs sülh» məcburi idi.

Müasir dövrdə ən böyük beynəlxalq kompleks idman yarışları. P.de Kubertenin təşəbbüsü ilə 1896-cı ildən keçirilir. Olimpiya oyunları proqramına Beynəlxalq Olimpiya Komitəsinin təsdiq etdiyi idman növbəti daxil edilə bilər. – 14, 24,226–232,248–261,307–314.

**12. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub–şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 15,28,47–81,111,112,118,121–122,158–159,197,259, 276,277.

**13. Rauf Denktaş** (d.1924) – hüquqşünas, dövlət xadimi. İkinci dünya müharibəsindən sonra London universitetində hüquq fakültəsini bitirmiş və Kiprə qayıtmışdır. Gündəlik hadisələr və senaratist EOKA təşkilatı tərəfdarlarının Kiprin Yunanıstana birləşdirilməsi çağırışları Kipr türklərinin səbr kasasını doldurdu və ingilis qubernatoruna protest məktubunu yazmağa vadar etdi. –

Yunanların mürtəce siyasətini Qərb dövlətləri də müdafiə edirdi. Məhz buna görə uzun müddət Türkiyədə yaşayan Denktaş 1963-cü il

(o Kiprdə non-qrat elan edilmişdi) hadisələri zamanı gizlin Kiprə qayıtdı. Kipr türklərinin xahişi ilə türk ordusu 1974-cü ildə Kiprə girdi, Şimali Kipr Türk dövləti yaradıldı. Bundan sonra Denktaş Şimali Kipr Türk Cümhuriyyətinin prezidenti seçildi. – 15.

**14. Şimali Kipr Türk Cümhuriyyəti** – 1974-cü ildə Yunanıstanda hakimiyyətə gəlmiş hərbi xunta Kiprin yunan irticaçıları ilə birlikdə Kipri Yunanıstana birləşdirmək məqsədilə ölkədə hərbi çevriliş etdilər və prezident Makariosu hakimiyyətdən uzaqlaşdırdılar. Bundan narahat olan Türkiyə Respublikası Kiprin türk icmasını müdafiə etmək məqsədilə oraya hərbi qüvvələr yeritdi və türk icması yaşayan ərazini yunan irticaçılarından təmizlədi. 1975-ci ildə Türkiyə-Kipr administrasıyası bu ərazidə federativ türk dövləti – Kipr Respublikasını elan etdilər. 1983-cü ildə bu dövlətin qanunverici orqanı Şimali Kipr Türk dövləti (ŞKTR) – Kıbrıs elan etdi. – 16,17,69.

**15. Heydər Əliyev fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev fondunun prezidenti – YUNESKO –nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasına məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramını ifadə etmək; Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək; Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim a aşılamaq məqsədidir.

Fondun icraçı orqanı prezidentdir. Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası fəaliyyət göstərir. Fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 18–19,94,137–138,245–247.

**16. «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanvarın 10–11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Havyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 21,54,71,77.

**17. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 21,47–80,98, 112,118,121,202,203.

**18. TRASEKA,** Transxəzər nəqliyyat dəhlizi – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 21,113,115.

**19. İpək yolu**, B ö y ü k İ p ə k y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 21,96,115,318.

**20. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 21,41,49,53,55,64,73,75, 79,105,109,110,117,121,151,169,281,318.

**21. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə

yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 21,56,70,98,195, 286,287.

**22. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 26,27,60,61,63,71,82–83,106,107,108,154–155, 217–219,276,277,279,282,283,293,305,315.

**23. İnquşetiya,** İ n q u ş e t i y a R e s p u b l i k a s ı – Rusiya Federasiyası tərkibində respublika. Sahəsi 19,3 min km$^2$, əhalisi 313,3 min nəfərdir. Paytaxtı Nazran şəhəridir. – 26.

**24. Putin,** V l a d i m i r V l a d i m i r o v i ç (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998–99-cu illərdə MTİ-in direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. – 26,61,82–83, 108,153,279,283.

**25. Kalmıkıya,** K a l m ı k i y a R e s pu b l i k a s ı – Rusiya Federasiyasında respublika (Cənubi Federal mahal). Sahəsi 76,1 min km$^2$, əhalisi 317,1 min nəfərdir. Paytaxtı Elista şəhəridir. – 27.

**26. Kirsan İlyumjinov** (d.1962) – Rusiya dövlət xadimi, Kalmıkiyanın hazırda birinci və vahid (1993-2005) prezidenti. 2005-ci ildən Kalmıkiya Respublikasının başçısı. 1995-ci ildən Beynəlxalq Şahmat Federasiyasının prezidentidir. – 27.

**27. Teymur Rəcəbov,** T e y m u r B o r i s o ğ l u (d.1987) – beynəlxalq qrossmeyster. Dünyanın böyüklər arasında 100 ən yaxşı şahmatçıları arasında 12-ci, gənclər arasında 20 ən yaxşı şahmatçıları arasında 1-ci yeri tutur. 2004-cü il dünya şahmat çempionatında 3-cü, 2005-ci il Avropa çempionatında 2-ci yeri tutmuşdur. – 27.

**28. Şəhriyar Məmmədyarov** (d.1985) – şahmat üzrə beynəlxalq qrossmeyster. Yeniyetmələrin Şahmat Olimpiadasının qalibi (1999) və gümüş mükafatçısı (2000), gənclər arasında Avropa çempionatının gümüş mükayatçısı (2001), 18 və 20 yaşadək oğlanlar arasında Avropa birinciliyinin qızıl (2002) və bürünc mükafatçısı (2002), Gənclər (2003) və 20 yaşadək oğlanlar arasında Dünya birinciliyinin qalibi (2003; 2005). – 27.

**29. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1993-cü ildə Türkiyə Kassasiya Məhkəməsinin, 1988-ci ildə isə Türkiyə Konstitusiya Məhkəməsinin üzvü seçilib. 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 28,73,74,197.

**30. Səfər Əbiyev,** S ə f ə r A x u n d b a l a o ğ l u (d.1950) – general-polkovnik. 1995-ci ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. – 29–34.

**31. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min $km^2$, əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim

şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində isə Albaniyanın, IV əsrdən isə Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olur. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən respublikanın paytaxtı oldu. – 38,181,241,244.

**32. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 km$^2$, əhalisinin sayına görə Bakıdan sonra ikinci şəhərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir. Gəncənin salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336-323) salındığını qeyd etmişlər. – 38,181.

**33. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 42,233–247,273,276,282.

**34. Xatəmi,** S e y i d M ə h ə m m ə d X a t ə m i (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989–92-ci illərdə İranın Mədəniyyət və İslam Orijentasiyası naziri, 1997–2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 42,233–247.

**35. Belarus,** Belarus Respublikası – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 10442 min nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minskdir. – 43,88,250.

**36. Lukaşenko Aleksandr Qriqoryeviç** (d.1954) – Belarus dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının prezidentidir. – 43.

**37. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon $km^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 44–45,50–51,57,58,68,76,77,79,104,106,111,112, 114,135,154–155,279,282.

**38. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 44,56,58, 70,71,95,98,106,154–155,277,287,289,294,306.

**39. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 44–45,76,79.

**40. İstanbul** (1453-cü ilədək Konstantinopol) – Türkiyədə ən böyük şəhər. İstanbul ilinin inzibati mərkəzi. Sahəsi 285,4 km2,

əhalisi 7,6 milyon nəfərdir. Mərmərə dənizi yaxınlığında Bosfor boğazının hər iki sahilindədir. Şəhərin çox hissəsi Avropada, az hissəsi Asiyadadır. Əsası e.ə. 660-cı ildə Bizans kimi qoyulmuşdur. Eramızım 330-cu ilində Roma imperatoru Konstantinin şərəfinə Konstantinopol adlandırılmışdır. 395-ci ilə qədər Roma imperiyasının, 395-1453-cü illərdə fasilələrlə Bizansın paytaxtı olmuşdur. 1453-cü ildə Türkiyə Konstantinolu tutmuş və İstanbul adlandırılmışdır. 1453-1918-cı illərdə Osmanlı imperiyasının, 1923-cü ilə kimi Türkiyə respublikasının paytaxtı olmuşdur. – 47–80,122.

**41. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə elmləri namizədi, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krasnov adına Moskva Elmi - Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talesimiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahı xalq yaradıcılığına və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə

Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. – 47,76,170,248–261.

**42. Bill Frist (d.1952) –** Amerika siyasətçisi, Amerikanın Tennissi ştatından (1995-2007) senator, Respublikaçılar partiyasının üzvü, kardioloq– cərrah. ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin sədri. – 50–51.

**43. Senat** – ABŞ-da (Konqresin) yuxarı palata nəzərdə tutulur. – 50–51.

**44. Mixail Saakaşvili,** M i x a i l N i k o l a y e v i ç (d.1967) – 2003-cü ildən Gürcüstan Respublikasının prezidenti. 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri olmuşdur. Vahid Milli Hərəkat partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biridir. – 53,54,62,65,79,82,104,314.

**45. Mirça Coane** (d.1958) – 2000-2004-cü illərdə Rumıniya Respublikasının xarici işlər naziri olmuşdur. Rumıniya Sosial-Demokrat partiyasının başçısıdır. – 53,62,65.

**46. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s.

ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 54,56,70,106,113, 158,195,202,211,281.

**47. SSRİ,** Sovet Sosialist Respublikaları İt-tifaqı – 1922–1991-ci illərdə dünyanın ən böyük və qüdrətli dövlətlərindən biri. Tərkibində 15 müttəfiq respublika, 20 muxtar respublika, 8 muxtar vilayət olmuşdur. – 54,57,58,98,104,109.

**48. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 55,101,211,280,299.

**49. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. –55,280,300.

**50. Ukrayna,** Ukrayna Respublikası – Cənub–Şərqi Avropada dövlət. Ərazisi 603,7 min $km^2$, əhalisi 51,3 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali RADA-dır. Paytaxtı Kiyev şəhəridir. – 62,63, 65,66,79,82,262,317.

**51. GUÖAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 62,63,64,65, 66,203.

**52. Moldova Respublikası** – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,7 min km$^2$, əhalisi 4,36 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 62,65,66,82,264.

**53. Almaniya Bundestaqı** – Almaniyada parlamentin aşağı palatası. – 67,294,304.

**54. Yaap de Hoop Sxeffer (**d.1948) – Niderlandiya siyasi xadimi, 2004-cü ildən NATO-nun Baş katibidir. – 74.

**55. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə ictimai, siyasi və dövlət xadimi. P.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1983-cü ildən siyasi fəaliyyətini Rifah partiyasında davam etdirir. 1994-cü ilin martında keçirilən bələdiyyə seçkilərində İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri seçilir. Bu arada Rifah partiyası bağlanır və onun bazasında Fəzilət partiyası yaradılır. Buna görə də Ərdoğanı dəstəkləyən partiya üzvləri Fəzilət partiyasından ayrılaraq Ədalət və İnkişaf partiyasını qurdular və onu özlərinə lider seçdilər.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində AKP təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri seçildi. – 75,76, 159.

**56. Osmanlı imperiyası,** Osmanlı imperatorlu-ğu – Sultan Türkiyəsinin rəsmi adı (Osmanlılar sülaləsinin əsasını qoymuş I Osmanın adındandır). XV əsrin 2-ci yarısından Osmanlı dövləti imperiyaya çevrilməyə başlamış, XV-XVI əsrlərdə Asiya, Avropa və Afrikanı fəth edərək dünyanın ən böyük dövlətlərindən biri olmuşdur. 1918-ci ildə Birinci dünya müharibəsində məğlubiyyətindən sonra tamamilə dağıldı, 1922-ci ildə Türkiyə sultanlığına da son qoyuldu. – 76.

**57. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 551 min $km^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici hakimiyyəti iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 74, 76,79,95,96–117,139–141,154–155,273–282.

**58. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri, 1995–2007-ci illərdə Fransa Respublikasının prezidenti. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 74,76,79,90.

**59. Böyük Britaniya,** Böyük Britaniya və Şi-mali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal–şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 76,79.

**60. Toni Bleyr,** Entoni Çarlz Linton (d.1953) – B.Britaniyanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1983-cü ildən

parlamentə deputat, 1994-cü ildən Leyboristlər partiyasının sədri seçilmişdir. 1997–2007-ci illərdə B.Britaniyanın Baş naziri olmuşdur. 2007-ci ildən BMT-nin İsrail ilə Fələstin probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etmək üçün vasitəçi təyin edilmişdir. – 76,79.

**61. Əfqanıstan,** Əfqanıstan İslam Dövləti – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 652,2 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. İnzibati ərazisi 29 vilayətə və 2 tabe mərkəzi mahala bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 74,112,131,225,242.

**62. Nursultan Nazarbayev,** Nursultan Abiş oğlu (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 79,82.

**63. Leonid Daniloviç Kuçma** (d.1938) – Ukraynanın siyasi və dövlət xadimi. 1994–2005-ci illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 79,82,262.

**64. Konstantines Karamanlis** (1907-1998) – XX əsrin 2-ci yarısında yunan siyasətçilərinin ən məşhuru. 1955-63, 1974-80-ci illərdə Yunanıstanın Baş naziri, 1980-85, 1990-95-ci illərdə Yunanıstanın prezidenti olmuşdur. – 80,256–257,314.

**65. Vayra Vike–Freyberq** (d.1937) – Latviya dövlət xadimi, 1999–2007-ci illərdə Latviya Respublikasının prezidenti. Psixologiya elmləri doktoru, professor. Kanadada emiqrant olmuş, 1997-ci ildə Latviyaya köçmüş və siyasi fəaliyyətə başlamışdır. – 80.

**66. Ramiz Rizayev,** R a m i z H ə s ə n q u l u o ğ l u (d.1939) – kimyaçı, kimya elmləri doktoru, professor. AMEA-nın müxbir üzvü. 1993–2007-ci illərdə Azərbaycan Respublikasının Rusiya Federasiyasında fövqəladə və səlahiyyətli səfiri olmuşdur. – 82,89.

**67. Qırğızıstan,** Qırğızıstan Respublikası – Şimal–Şərqi orta Asiyada dövlət. Sahəsi 198,5 min km$^2$, əhalisi 4526 min nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkekdir. – 82,250,253,265.

**68. Əsgər Akayev** (d.1944) – Qırğızıstanın dövlət xadimi. 1989–90-cı illərdə Qırğızıstan EA-nın prezidenti, 1990–2005-ci illərdə Qırğızıstan Respublikasının prezidenti olmuşdur. – 82,265.

**69. Böyük Teatr** – Rusiya Federasıyasında Dövlət Akademik Böyük Teatr. Əsası 1775-ci ildə Moskvada qoyulmuşdur. Burada xarici və rus operaları və baletləri tamaşaya qoyulur. XX əsrin əvvəllərindən teatrda çalışan vokalistlər və balet ustaları dünya şöhrəti qazanmışlar. – 82.

**70. Dmitri Şostakoviç,** D m i t r i D m i t r i y e v i ç (1906-1975) – böyük rus bəstəkarı, sənətşünaslıq elmləri doktoru – XX əsr dünya müsiqi sənətinin klassiki. Şostakoviçin yaradıcılığında simfonik musiqi başlıca yer tutur. Ən kamil əsərlərindən sayılan 7,11,12,14,15-ci simfoniyalarında həyat və ölüm mövzusu böyük emosionallıqla ifadə olunmuşdur. Bir çox dünya ölkələrinin milli, elm, incəsənət akademiyalarının fəxri üzvü olmuşdur. – 82.

**71. Özbəkistan,** Ö z b ə k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 23 206 min nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası

və 12 vilayət daxildir. Dövlətin başçısı – prezident, qanunverici orqanı – Məclisdir. Paytaxtı Daşkənd səhəridir. – 82,268.

**72. İslam Kərimov,** İ s l a m  Ə b d u q ə n i  o ğ l u (d.1938) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın birinci katibi olmuşdur. 1990-cı ildən Özbəkistan Respublikasının prezidentidir. – 82,268.

**73. Vladimir Voronin (d.1941) –** Moldova dövlət xadimi. 2001 və 2005-ci illərdə Moldova prezidenti. – 82,264.

**74. Tacikistan,** T a c i k i s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min km$^2$, əhalisi 5705 min nəfərdir. İnzibati ərazisi Bədaxşən Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə. – 82,250,319.

**75. İmaməli Rəhmonov,** İ m a m ə l i  Ş ə r i f  o ğ l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin sədri olmuşdur. 1992-ci ilin noyabrından Tacikistan Respublikasının prezidentidir. – 82, 319.

**76. Moskva** – Rusiya Federasiyasının paytaxtı. Ölkənin siyasi, inzibati və mədəni mərkəzi, mühüm nəqliyyat qovşağıdır. Əsası 1147-ci ildə Suzdal knyazı Yuri Dolqoruki tərəfindən qoyulmuşdur. – 82–83,86–94,107,279.

**77. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası –

Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt–Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 83,99,100,102, 108,109,195,203.

**78. Litva,** L i t v a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,2 min km$^2$, əhalisi 3797 min nəfərdir. İnzibati ərazisi 44 rayona və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüsdür. – 84.

**79. Valdas Adamkus** (d.1955) – 1998–2003 və 2004-2009-cu illərdə Litva Respublikasının prezidenti. – 84.

**80. Monqolustan,** M o n q o l u s t a n  R e s p u b l i k a s ı – Mərkəzi Asiyada dövlət. Sahəsi 1566 min km$^2$, əhalisi 2,3 milyon nəfərdir. İnzibati ərazisi 18 aymaka, Ulan-Bator, Dərhan və Erdenet şəhərləri xüsusi ərazi bölgüsünə daxildir. Dövlət başçısı prezident, ali dövlət hakimiyyəti orqanı Böyük Xalq Xuralıdır. Paytaxtı – Ulan Batordur. – 85.

**81. Natsaqinn Baqavandi** (d.1950) – 1997–2005-ci illərdə Monqolustan prezidenti. – 85.

**82. Lujkov Yuri Mixayloviç** (d.1936) – Rusiyanın ictimai və dövlət xadimi. 1992-ci ildən Moskva şəhərinin meridir. Moskva şəhəri ilə Azərbaycan arasında iqtisadi və mədəni əlaqələrin güclənməsi və möhkəmləndirilməsində yaxından iştirak edir. – 86–94.

**83. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)** – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 97,163.

**84. «Əsrin müqaviləsi»** – 1994-cü ilin sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 98.

**85. Ümumdünya Ticarət Təşkilatı** – 1947-ci ildə qəbul edilmiş müqavilə 23 ölkənin beynəlxalq ticarətdə gömrük rüsumlarının aşağı salınmasına və başqa çətinliklərin aradan götürülməsində hökumətlərarası qəbul etdiyi çoxtərəfli müqavilədir. Bu müqavilə 1995-ci ildə beynəlxalq ticarətdə rüsumlar haqqında qəbul edilmiş müqavilənin hüquqi varisidir.

Təşkilatın əsas prinsipi bütün iştirakçılar üçün münasib mühit yaratmaqdır. Təşkilata 130 ölkə daxildir. – 102,103.

**86. ATƏT-in Lissabon sammiti** – 1996-cı il dekabrın 2–4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in 54 üzvünün dövlət və

hökumət başçılarının iştirakı ilə növbəti Zirvə toplantısı keçirildi. Lissabon Zirvə toplantısında müzakirə olunan məsələlər arasında Azərbaycan Respublikası nümayəndə heyətinin təkidi ilə Ermənistan–Azərbaycan münaqişəsi geniş diskussiyaya səbəb oldu. Azərbaycan Respublikası nümayəndə heyətinin başçısı Heydər Əliyevin qəti, prinsipial mövqeyi və gərgin səyi nəticəsində yekun sənədə əlavə kimi qəbul edilən ATƏT sədrinin bəyanatında ilk dəfə olaraq ən yüksək səviyyədə münaqişənin həllinin əsası kimi Azərbaycan Respublikasının ərazi bütövlüyü 53 dövlət tərəfindən qətiyyətlə dəstəkləndi və Dağlıq Qarabağın statusunun yalnız Azərbaycan Respublikasının tərkibində müəyyən olunması öz əksini tapdı. – 106.

**87. Novorossiysk** – Rusiya Federasiyasının Krasnodar diyarında liman. Bakıdan Novorossiyskə neft kəməri çəkilmiş və 1997-ci ildə istifadəyə verilmişdir. – 108.

**88. Bakı–Novorossiysk neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. – 110.

**89. Bakı–Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsi Bakı–Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan dörd terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 110.

**90. «Şahdəniz» –** Azərbaycanın Xəzər dənizi sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 110.

**91. Donald Ramsfeld** (d.1932) – Amerika siyasi xadimi, respublikaçı, 1975–77, 2001–2006-cı illərdə ABŞ-ın müdafiə naziri olmuşdur. – 111,112,171.

**92. TASİS** – 1991-ci ildə Avropa Şurası tərəfindən MDB dövlətlərinə texniki cəhətdən kömək etmək üçün yaradılan proqram. Proqram 2 hissədən – hər bir ölkəyə, o cümlədən Azərbaycana, region ölkələrinə texniki köməkdən ibarətdir.

Azərbaycan Respublikası TASİS proqramına 1992-ci ildə daxil olmuşdur. – 113,114,115.

**93. Qırmızı körpü,** S ı n ı q   k ö r p ü – Azərbaycan Respublikasının Qazax rayonunda orta əsr memarlıq abidəsi. Qazax-Tbilisi yolunda Xramçayın üzərində salınmışdır (XII əsr). Dörd aşırımlı körpünün ümumi uzunluğu 175 m, keçid hissədə eni 4,3 m, girəcəyində isə 12,4 m-dir. Qırmızı körpünün hansı xalqa (Azərbaycan, cürcü) mənsub olması mübahisəyə səbəb olsa da memarlıq formaları və işlənmə xüsusiyyətləri onun sırf Azərbaycan memarlığına aidliyini göstərir. –115.

**94. «Total»** – məşhur fransız neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 117.

**95. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 120, 123–138.

**96. Pərviz Müşərrəf** (d.1943) – 2001–2007-ci illərdə Pakistan Respublikasının prezidenti, ordu generalı. 1988–90 və 1993–96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş qərargah rəisi olmuş, 1999-cu ildə hərbi çevriliş nəticəsində hakimiyyətə gəlmişdir. – 120,123–138.

**97. Kəşmir problemi** – Asiyada tarixi vilayət. Qədimdə və orta əsrlərdə Hindistan ərazisində yaranmış müxtəlif dövlət birləşmələrinin tərkibində olmuşdur. 1846-cı ildə ingilislər Kəşmiri işğal edib 7,5 milyon rupi ödənclə Sammi knyazlığına vermişlər. 1947-ci ilin avqustunda yaradılan müstəqil Hindistan dövləti Kəşmiri öz ərazisinə qatmağa çalışır. Hal-hazırda Kəşmirin şimal-qərbi Pakistanın, qalan hissəsi isə Hindistanın (1949) nəzarəti altındadır. 1956-cı ildə Kəşmir «Hindistan İttifaqının tərkib hissəsi» elan edildi. Hindistanla Pakistan arasında bir neçə dəfə hərbi münaqişə baş versə də bu problem hələ də öz həllini tapmamışdır. – 126,131,133, 136.

**98. Fələstin dövləti** – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən B.Britaniya mandatlığı ləğv edilərək Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsini 1948-49-ci illərdə, 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti Fələstin muxtariyyəti yaradıldı. – 131,241,243.

**99. İslam Konfransı Təşkilatı (İKT)** – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. – 133,203,242,243,244.

**100. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə tövsiyələr vermək səlahiyyəti var.

Baş Məslisin qərarları  tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas  komitə var. – 135.

**101. Azərbaycan Dövlət Filarmoniyası** – respublikanın ən böyük musiqi təşkilatı. Azərbaycanda Filarmoniya 1936-cı ildə təşkil olunmuşdur (həmin ildən də M.Maqomayevin adını daşıyır). Filarmoniyanın nəzdində Simfonik orkestr, Mahnı və rəqs ansamblı, Rəqs ansamblı, Xor kapellası, Simli kvartet fəaliyyət göstərir. – 137.

**102. İqtisadi Əməkdaşlıq Təşkilatı**. – Qərargahı Tehrandadır. 1992-ci ildən Azərbaycan Respublikası bu beynəlxalq təşkilatın üzvüdür. – 137,243.

**103. Təbriz** – İranda şəhər. Cənubi Azərbaycanın ən böyük şəhəri, iqtisadi və mədəniyyət mərkəzi, Şərqi Azərbaycan ostanının inzibati mərkəzi. Əhalisi 1,1 milyon nəfərdir.

Təbriz Azərbaycanın ən qədim şəhərlərindəndir. «Təbriz» sözünün etimologiyası və şəhərin  salınma tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Təbriz Rəvvadilər dövlətinin  (852), Eldəgəzlər dövlətinin (1174), Ağqoyunlular dövlətinin (1468), Səfəvilər dövlətinin (1501) paytaxtı olmuşdur. XV-XVII  əsrlərdə Təbriz Yaxın Şərqin mühüm sənətkarlıq və ticarət mərkəzlərindən idi. Təbrizi «Şərqin paytaxtı» da adlandırırdılar.

1826-28-ci illər Rusiya-İran müharibəsi nəticəsində  Türkmənçay müqaviləsinə (1828) görə Təbriz İranın hakimiyyəti altında qaldı. – 137,241,246.

**104. Misir Ərəb Respublikası** – Afrikanın şimal–şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1001,4 min km$^2$, əhalisi 61 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 142.

**105. Hüsnü Mübarək,** S e y i d  M ə h ə m m ə d (d.1928) – Misir Ərəb Respublikasının görkəmli siyasi və dövlət xadimi. 1975–81-ci illərdə Misir Ərəb Respublikasının vitse-prezidenti, 1981-ci ilin oktyabrından prezidentidir. – 142.

**106. Kolumbiya,** K o l u m b i y a  R e s p u b l i k a s ı – Cənubi Amerikanın cənub–qərbində dövlət. Sahəsi 1139 min km$^2$, əhalisi 35,7 milyon nəfərdir. İnzibati ərazisi 32 departamentə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Konqresdir. Paytaxtı Boqotadır. – 143.

**107. Alvaro Uribe Veles** (d.1952) – 2002-2009-cu illərdə Kolimbiya prezidenti olmuşdur. – 143.

**108. Belçika, B e l ç i k a  K r a l l ı ğ ı** – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüsseldir. – 144,145,216.

**109. II Albert** (d.1934) – 1993-cü ildən Belçika kralı. Saksen-Koburq sülaləsindəndir. III Leopoldın oğludur. – 144.

**110. Gi Verhofstadt** (d.1953) – Belçika siyasi xadimi. 1999–2008-ci illərdə Belçika Baş naziri. – 145,216.

**111. İTAR – TASS** – Rusiya İnformasiya Teleqraf Agentliyi. 1992-ci ildə SİTA-nın bazası əsasında yaradılmışdır. – 152–153,315.

**112. İqnatenko Vitali Nikitiç** (d.1941) – jurnalist. 1991-ci ildən İTAR-TASS agentliyinin baş direktorudur. – 152–153, 315.

**113. Stiven Mənn –** amerikan diplomatı. 2001–2009-cu illərdə ABŞ Dövlət katibinin koməkçisi. 2004-2006-cı illərdə ABŞ-dan ATƏT-in Dağlıq Qarabağ üzrə həmsədri. – 154–155.

**114. Merzlyakov Yuri** (d.1949) – Rusiya Federasiyasının fövqəladə və səlahiyyətli səfiri. 2003-2010-cu illərdə ATƏT-in Minsk qrupunda Dağlıq Qarabağ məsələsinin nizamlanması üzrə həmsədrlərindən biri olmuşdur. – 154–155.

**115. Maldiv,** M a l d i v R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət, Maldiv adalarında. Sahəsi 298 min km$^2$, əhalisi 266 min nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Şurasıdır. – 156.

**116. Məmun Əbdül Qəyyum** (d.1937) – 1978– 2008-ci illərdə Maldiv adalarının prezidenti. Diktator üsul-idarəsinə görə həmişə tənqid edilmişdir. – 156.

**117. Mərakeş,** M ə r a k e ş K r a l l ı ğ ı – Şimal–Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min km$^2$, əhalisi 26,7 milyon nəfərdir. İnzibati ərazisi 35 əyalətə və 8 prefektura bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Nümayəndələr palatasıdır. Paytaxtı Rabatdır. – 157.

**118. Məhəmməd VI,** B i n ə l – H ə s ə n (d.1963) – 1999-cu ildən Mərakeş kralı. Məhəmməd 1666-cı ildən Mərakeşi idarə edən Alautlar sulaləsindən 18-ci kraldır. – 157.

**119. Türkiyə Böyük Millət Məclisi (TBMM)** – Türkiyənin ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır.

BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. BMM iki palatadan ibarətdir: Senat (yuxarı palata) və Milli palata. BMM məclis üzvlərindən respublika prezidentini seçir. – 158–159.

**120. Dəvəçi** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Abşeron rayonuna verilmişdir. 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1739 $km^2$, əhalisi 59,9 min nəfərdir. Hazırda adı dəyişdirilərək Şabran adlandırılmışdır. – 164–165,190.

**121. Quba** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 2575 $km^2$, əhalisi 140,0 min nəfərdir. – 166–174,180,181,190,229.

**122. Qusar** (1938-cu ilədək Hil rayonu) – Azərbaycan respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1542 $km^2$, əhalisi 83,0 min nəfərdir. – 175–183,190.

**123. İsveçrə,** İsveçrə Konfederasiyası – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min $km^2$, əhalisi 7,1 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 178,198.

**124. Elçin Quliyev,** E l ç i n İ s a ğ a o ğ l u (d.1967) – hüquqşünas, general-leytenant. Bakı Dövlət Universitetini və Bakı Ali Hərbi Birləşmiş Komandirlər Məktəbini bitirmişdir. 2001-ci ildən Azərbaycan Respublikası Sərhəd Qoşunları Komandanıdır. «Azərbaycan bayrağı» ordeni ilə təltif olunmuşdur. – 184.

**125. Xaçmaz** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Quba və Qusar rayonlarına verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1045 $km^2$, əhalisi 148,4 min nəfərdir. – 189.

**126. Yozef Days** (d.1946) – İsveçrə dövlət və siyasi xadimi, iqtisadçı. 1999-2002-ci illərdə Xarici İşlər Departamentinin rəisi. 2004-cü ildən isə İsveçrənin prezidentidir. – 198.

**127. Makedoniya,** Makedoniya Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 25,7 min $km^2$, əhalisi 1,97 milyon nəfərdir. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Məclisdir. – 199.

**128. Branko Çrvenkovski** (d.1962) – 2004–2009-cu illərdə (marta qədər) Makedoniya Respublikasının prezidenti. – 199.

**129. Hacıbala Abutalıbov,** Hacıbala İbrahim oğlu (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika–riyaziyyat elmləri doktorudur. – 213–215.

**130. Leonid Tyaqaçov** (d.1946) – Rusiya dövlət və idman xadimi. 2001-2010-cu ilin martınadək Rusiya Olimpiya Komitəsinin sədri olmuşdur. – 219.

**131. Sinqapur,** Sinqapur Respublikası – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 639 $km^2$, əhalisi 3,05 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Sinqapurdur. – 220.

**132. Sellapan Ramanatan** (d.1924) – 1999-cu ildən Sinqapur prezidenti. – 220.

**133. Koreya,** K o r e y a   R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 98,5 min $km^2$, əhalisi 45,2 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə və 6 mərkəzi tabe şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı – birpalatalı Milli Məclisdir. Paytaxtı Seuldur. – 221,259.

**134. Roh Mu-Hyun (Ho Mu Xeyn)** (1946-2009) – 2003-2008-ci illərdə Koreya Respublikasının prezidenti. Dövlət başçısı olduğu dövr Cənubi Koreyada iqtisadiyyatın inkişafı və artım dövrü olmuşdur. – 221.

**135. Hindistan,** H i n d i s t a n   R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Millətlər Birliyinin tərkibindədir. Ərazisi 3,3 milyon $km^2$, əhalisi 953 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dehli şəhəridir. – 222,223.

**136. Manmohan Sinq** (d.1932) – Hindistan dövlət və siyasi xadimi, Hindistan Milli Konqress partiyasından Baş nazir. – 222.

**137. Əbdül Kalam** (d.1931) – 2002–2007-ci illərdə Hindistan Respublikasının prezidenti. Əbdül Kalam Hindistanda raket və yerətrafı peyk proqramının yaradıcılarındandır. 1980-ci ildə onun başçılığı ilə birinci hind SLV–3 yerətrafı süni peyki kosmosa göndərilmişdir. – 223.

**138. İndoneziya,** İndoneziya Respublikası – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 1904,5 min $km^2$, əhalisi 198,2 milyon nəfərdir. İnzibati ərazisi 24 əyalətə, əyalət statusu olan 2 xüsusi inzibati əraziyə, 1 metropoliten mahalına (paytaxt) bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 224.

**139. Meqavati Sukarnoputri** (d.1947) – 2001–2004-cü illərdə İndoneziyanın prezidenti olmuşdur. Birinci prezident Əhməd Sukarnonun qızıdır. – 224.

**140. Həmid Kərzai** (d.1957) – 2004-cü ildən Əfqanıstan İslam Dövlətinin prezidenti. 2001-2002-ci illərdə Əfqanıstanın Baş naziri olmuşdur. Kərzayi Əfqanıstanı 200 il idarə etmiş tanınmış Populzay qəbiləsindən olan puştu klanının nümayəndəsidir. – 225.

**141. Zemfira Meftahəddinova** (d.1963) – stend atıcısı. 1986-88,1990, 1993,1997-ci illərdə Avropa çempionu, 1995-ci ildə dünya çempionu, 2000-ci ildə Sidney Olimpiya oyunlarının çempionu, Qahirədə XXI əsrin ilk dünya çempionatında birinci yeri tutmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 227,310.

**142. Namiq Abdullayev** (d.1971) – sərbəst güləş ustası. SSRİ və Azərbaycanın Əməkdar idman ustası. 1994–95-ci illərdə Avropa çempionu, 1996-cı il Atlanta Olimpiya Oyunlarında gümüş, 2000-ci ildə Sidney Olimpiya Oyunlarında isə qızıl medal qazanmışdır. Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 227,331.

**143. Nizami Paşayev** (d.1981) – Ağırlıqqaldırma idmançısı. Yeniyetmələr arasında Avropa və dünya rekordçusu. 2001-ci ildə gənclər arasında dünya çempionu və dünya çempionatının mütləq qalibi olmuşdur. 2001-ci ildə dünya çempionatının gümüş mükafatçısı, 2002-ci ildə Avropa çempionatının bürünc medalını almışdır. – 227.

**144. Niyaməddin Paşayev** (d.1980) – taekvondo ustası. Azərbaycan çempionudur. 2001-ci ildə Koreyada dünya çempionatında 1-

ci yeri, 2002-ci ildə Yvponiyada dünya kuboku uğrunda yarışlarda 3-cü yeri tutmuşdur. – 227.

**145. Ağasi Məmmədov,** A ğ a s i   A ğ a g ü l o ğ l u (d.1980) – Azərbaycan boksçusu. Əməkdar İdman ustası. Avropa, dünya çempionu və Afina olimpiya oyunlarının bürünc mükafatçısı. – 227.

**146. Arif Abdullayev** (d.1969) –sərbəst güləş ustası. 1995-96 və 2002-ci illərdə Avropa çempionatında 3-cü yeri tutmuşdur. 1996-cı il Atlanta, 2000-cı ildə Sidney Olimpiya oyunlarında iştirak etmişdir. – 227.

**147. Almaniya,** A l m a n i y a   F e d e r a t i v   R e s - p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı – parlamentdən – bundestaq və bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 250,254,284–306.

**148. Jak Roqq** (d.1942) – Belçikalı orptoped-cərrah, məşhur yelkənli qayıqsürmə idmançısı. Belçika kralı II Albert tərəfindən rıtsar adlandırılmış və qraf tituluna layiq görülmüşdür. Hazırda Beynəlxalq Olimpiya Komitəsinin sədridir. – 250,251,253,314.

**149. Mario Reskante (d.1938) –** İtaliya dövlət, siyasi və Beynəlxalq Olimpiya hərəkatı xadimi. Hazırda Avropa Olimpiya Komitəsinin sədridir. – 250,314.

**150. Yanukoviç Viktor Fyodoroviç** (d.1950) – Ukrayna Respublikasının Prezidenti. 2003 və 2007-2008-ci illərdə Ukrayna Respublikasının Baş naziri olmuşdur. – 250.

**151. Samaranç Xuan Antonio** (d.1920-2010) – beynəlxalq idman hərəkatı xadimi, ispan diplomatı və sənayeçisi. 1966-cı ildən Beynəlxalq olimpiya komitəsinin üzvü, 1974–78-ci illərdə vitse–prezidenti, 1980–2000-ci illərdə isə prezidenti olmuşdur. – 250, 253.

**152. Vitali Smirnov** (d.1935) – 2001-ci ildən Pusiya Olimpiya Komitəsinin fəxri prezidenti, Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti. – 250.

**153. Vyaçeslav Fetisov** (d.1958) – rus idmançısı (şaybalı xokkey) – 1984,1988-cu illərdə olimpiya çempionu, 1978, 1981, 1983,1986,1989,1990-cu illərdə dünya çempionu, 1978, 1981-83,1985-89,1991-ci illərdə Avropa çempionu olmuşdur. – 255.

**154. Turan Mirzəyev** (d.1979) – ağırlıqqaldırma üzrə idmançı. 1995-ci ildə gənclər arasında Avropa çempionatında bürünc, 2001-ci ildə yenə Avropa çempionatında bu nəticəni təkrar etmişdir. – 259,260,309,313.

**155. Mehman Əzizov** (d.1976) – cudo üzrə idmançı, 1993-94-cü illərdə gənclər arasında beynəlxalq türnirlərin mükafatçısı, 2001-2002-ci illərdə isə qalibi olmuşdur. – 260,309, 313.

**156. Yelena Jemayeva** (d.1971) – Azərbaycan idmançısı. Oılıncoynatmanın sablya novü ilə məşğul olur. Dəfələrlə beynəlxalq turnirlərin və qran-pri yarıslarının qalibi olmuşdur. 1999-cu ildə Avropa, 1999-2000-ci illərdə dünya çempionatında birinci yeri tutmuşdur. 1999-2000-ci illərdə dünya kubokunun sahibidir. – 260.

**157. Uruqvay,** Uruqvay Şərq Respublikası – Cənubi Amerikada dövlət. Sahəsi 178 min km$^2$, əhalisi 3,14 milyon nəfərdir. İnzibati ərazisi 19 departamentə bölünür. Dövlət və hökumət

başçısı prezident, qanunverici orqanı ikipalatalı parlament (Senat və Nümayəndələr Palatası) Paytaxtı Montevideodur. – 263.

**158. Malayziya** – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min km$^2$, əhalisi 20,4 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala Lumpuq və Lavyan daxildir. Millətlər Birliyinin üzvüdür. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala – Lumpurdur. – 266,267.

**159. Abdulla Əhməd Badavi** (d.1939) – 2003-2009-cu illərdə Malayziyanın Baş və Maliyyə naziri olmuşdur. Hakim Milli Cəbhə partiyasının lideridir. – 267.

**160. Liviya,** Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi – Şimali Afrikada dövlət. Sahəsi 1759,5 min km$^2$, əhalisi 5,4 milyon nəfərdir. Liviyanın rəhbər orqanı–inqilabi rəhbərdir. Qanunverici orqanı Umumi Xalq Konqresidir. Dövlətin funksiyasını Ali Xalq Komitəsi yerinə yetirir. Paytaxtı Tripolidir. – 269.

**161. Müəmmər Əl–Qəzzafi** (d.1942) – Liviyanın dövlət və siyasi xadimi. 1970-ci ildən Liviyanın prezidenti. Hakimiyyətə gəldikdən sonra Qərbə yaxınlaşmağa daha üstünlük vermiş, təbii sərvətlərlə zəngin olan kasıb ölkəni inkişaf etdirməyə başlamışdır. – 269.

**162. Vyetnam,** Vyetnam Sosialist Respublikası (VSR) – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 322 min km$^2$, əhalisi 76,1 milyon nəfərdir. İnzibati ərazisi 50 əyalətə bölünür. Dövlət başçısı prezident, dövlətin və qanunvericiliyin ali orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Xanoydır. – 270.

**163. Çan Dik Lionq** (d.1937) – 1997-2006-cı illərdə Vyetnamın prezidenti olmuşdur. – 270.

**164. Slovakiya,** S l o v a k i y a R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 49 min km$^2$, əhalisi 3,4 milyon nəfərdir. İnzibati cəhətdən 3 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Milli Şuradır. Paytaxtı Bratislavadır. 1992-ci ilin noyabrına qədər Çexoslovakiyanın tərkibində olmuşdur. – 271.

**165. İvan Qaşparoviç** (d.1941) – Slovakiya dövlət xadimi, hüquqşünas-alim, 2004-cü ildən Slovakiya Respublikasının prezidenti. – 271.

**166. Qətər, Q ə t ə r d ö v l ə t i** – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 11 min km$^2$, əhalisi 59 min nəfərdir. Dövlət başçısı əmirdir. Paytaxtı Dəha. – 272.

**167. Həməd Bin Xəlifə əl-Tani** (d.1952) – 1995-ci ildən Qətər əmiri, 1997-ci ildə regionda – ilk dəfə Qətərdə qadınlara seçkilərdə iştirak etmək hüququ verdi. 1997-ci ildən həm də Müdafiə naziridir. Ordunu sivilizasiyalı etmişdir. – 272.

**168. Soros Corc** (d.1930) – məşhur amerikan maliyyəçisi, xeyriyyəçisi. 1966-cı ildən bizneslə məşğuldur. Dünyanın 25 ölkəsində onun xeyriyyəçi fondları fəaliyyət göstərir. Bu fondlar ancaq mədəniyyət və maarifə xidmət edir. Sorosun köməyilə Budapeştdə, Praqada, Varşavada Mərkəzi Avropa universitetləri açılmışdır. – 280.

**169. Berlin** – Almaniyanın paytaxtı. Sahəsi 890 km$^2$-ə qədər, əhalisi 3,5 milyon nəfərdir. 1990-cı ildən müstəqil inzibati ərazidir. Almaniyanın ən böyük sənaye, mədəni və elmi mərkəzidir. 1945-ci ildə faşist Almaniyası məğlubiyyətindən sonra Berlin SSRİ, ABŞ, Böyük Britaniya və Fransa tərəfindən zonalara bölündü. 1948-ci ildə

Qərb dövlətləri Berlin parlamentində seçkilər keçirdilər. Şərqi Berlin isə ADR-in paytaxtı elan edildi. 1961-ci ildə Şərqi Berlindən Qərbi Berlinə əhali axınının qarşısını almaq üçün Berlin divarı tikildi. (1990-cı ildə Berlin divarı söküldü, AFR ilə ADR birləşdi və Berlin birləşmiş Almaniyanın paytaxtı elan edildi). – 284–306.

**170. Horst Köler (**d.1943) – alman dövlət və siyasi xadimi, iqtisadçı – politoloq. 2000–2004-cü illərdə Beynəlxalq Valyuta Fondunun prezidenti, 2004-cü ildən indiyə qədər Almaniyanın prezidentidir. – 285,286.

**171. Ç e r h a r d Ş r ö d e r** (d.1944) – Almaniyanın ictimai və siyasi xadimi. 1980-cı ildən Almaniya Bundestaqının üzvü, 1990–98-ci illərdə Aşağı Saksoniya vilayətinin nazir-prezidenti, 2000–06-cı illərdə Almaniyanın federal kansleri olmuşdur. – 287–293,295,302.

**172. «Siemens» –** alman şirkəti. 1847-ci ildə yaradılmışdır. Bakıda numayəndəliyi 1998-ci ildə açılıb. Şirkət elektrik məhsulları və elelktroavadanlıqların hazırlanması və tətbiqi sahəsində dünya liderlərindən biridir. İllik dövriyyəsi – 118 milyard dollardır. Bütün dünyada işçilərinin sayı 140 min nəfərdir. – 290,295–303.

**173. Rudi Lamprext** (d.1948) – «Siemens»-in mərkəzi idarəetmə aparatının üzvü və vitse-prezidenti, «Siemens mobilin» prezidenti və Direktorlar Şurasının üzvü. – 295–303, 304.

**174. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta

Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 300.

**175. Beynəlxalq Maliyyə Korporasiyası** (BMK) – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1956-cı ildə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının filialı kimi yaradılmışdır. İnkişaf etmiş olan üzv ölkələrin xüsusi bölməsinə, başlıca olaraq, mənfəətli müəssisələrə kredit formasında kapital qoyur. Kredit 5 ildən 10 ilədək verilir. İllik faiz dərəcəsi 5-10%-dəkdir. Mənzil-qərargahı Vaşinqtondadır. – 300.

**176. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 57 üzvü var, həmçinin Avropa İnvestisiya Bankı və Avropa Birliyi ora daxildir. – 300.

**177. Cənubi Osetiya** – Cürcüstan Respublikasının tərkibində Cənubi Osetiya Muxtar Vilayəti. 1922-ci ildə yaradılmışdır. Sahəsi 3,9 min $km^2$, əhalisi 99 min nəfərdir. Mərkəzi Sxinvali şəhəri. – 303.

**178. Azıx mağarası,** Azıx kahası – Azərbaycanda ən böyük karst mağarası. Füzuli rayonundan 14 km şimal-qərbdə, Quruçayın sol sahilində, dəniz səviyyəsindən 900 m hündürlükdədir. Mağarada bir-biri ilə dar keçidlərlə birləşən 6 salon var. Ən böyüyü 3-cü salondur (sahəsi 104 $m^2$). Salonlar stalaktit və stalaqmitlərlə zəngindir.

Azıx mağarası Aşağı Paleolit dövrünə aid nadir mağaralardan biridir. 1968-ci ildə Aşöl dövründə yaşamış ibtidai insanın çənə sümüyünün bir hissəsi tapılmışdır. Bu Azərbaycanın qədim insanların formalaşdığı əraziyə daxil olduğunu sübut edir. Azərbaycan ərazisində təqribən milyon il bundan əvvəl yaşayış olduğunu sübut edən Azıx mağarası arxantropların və daha qədim adamların məskəni və ibtidai emalatxanası olmuşdur. – 303.

**179. Elçin Cəfərov** (d.1959) – Yunan –Roma güləşi üzrə əməkdar idman ustası. Azərbaycan Respublikasının əməkdar məşqçisi. Bədən tərbiyəsi və idman xadimi. Azərbaycan Respublikası Güləş Federasiüasının vitse-prezidenti və Baş məşqçi. Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. –307–311.

**180. Fərid Mansurov,** F ə r i d  S a l m a n  o ğ l u (d.1982) – Yunan –Roma güləşi üzrə Əməkdar idman ustası. 2002-ci ildə dünya çempionatında ikinci yeri, 2004-cü il olimpiyadasında isə birinci yeri tutmuşdur. 2007,2098-cu illərdə isə dünya çempionu olmuşdur. Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 307–311,312,313.

**181. Abbas Abbasov,** A b b a s  A y d ı n  o ğ l u (d.1949) – 1992-2006-cı illərdə Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 307–311.

**182. Əbülfəs Qarayev,** Ə b ü l f ə s  M ü r s ə l  o ğ l u (d.1956) – fəlsəfə elmləri namizədi. 1994-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən Mədəniyyət və Turizm naziridir. Respublika Olimpiya Komitəsinin birinci vitse–prezidentidir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmişdir. – 307–311.

**183. Mövlud Mirəliyev** (d.1974) – samboçu. Əməkdar məşqçi. Avropa çempionatlarında 1993,1998-ci illərdə ikinci, 1995,1999-cu illərdə üçüncü, 1996-97-ci illərdə birinci, dünya çempionatlarında isə 1997-98-ci illərdə üçüncü, 1999-cu ildə birinci, 2000-2001-ci illərdə isə ikinci yeri tutmuşdur. – 309, 313.

**184. Rövşən Hüseynov** (d.1975) – boksçu. 1993-cü ildə Avropa çempionatının, 1994-cü ildə isə dünya kuboku yarışlarının qalibi olmuşdur. – 310,313.

**185. Şahin İmranov** ( d.198) – boksçu. Altıqat respublika çempionu, bir sıra beynəlxalq boks turnirlərinin qalibi, 2002-ci il Avropa çempionatının gümüş mükafatçısı. – 310.

**186. «Mərmərə qrupu» Strateji və Sosial Araşdırmalar Vəqfi** – 1985-ci ildə İstanbulda yaradılmışdır. Hazırda 200-dən çox üzvü olan bu qrupa tanınmış sənət və iş adamları, nazirlər və millət vəkilləri daxildirlər. Qrup xarici ölkələrin prezidentləri, görkəmli dövlət xadimləri, nüfuzlu siyasətçiləri ilə mütəmadi olaraq görüşlər keçirir. – 316.

**187. Koreya Xalq Demokratik Respublikası** – Şərqi Asiyada, Koreya yarımadasında dövlət. 1948-ci ildə yaradılmışdır. Sahəsi 121,2 min $km^2$, əhalisi 23,9 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Pxenyan, Kesson şəhərləri əyalət hüququndadır. Dövlət başçısı prezident, ali qanunverici orqanı Ali Xalq Məclisidir. Paytaxtı Pxenyandır. – 320.

**188. Kim Çen İr** (d.1941 və ya 1942) – Koreya Xalq Demokratik Respublikasının başçısı, Koreya Əmək Partiyasının Baş katibi, Koreya Xalq Ordusunun Baş komandanı, KXDR-in Dövlət müdafiə Komitəsinin sədri, «dahi rəhbər» Kim İr Senin oğlu. Atasından fərqli olaraq «sevimli rəhbər» titulu var. Ona çox vaxt «sərkərdə» də deyirlər. – 320.

**189. Braziliya,** Braziliya Federativ Respublikası – Cənubi Amerikada dövlət. Sahəsi 8,5 milyon $km^2$, əhalisi 157,9 milyon nəfərdir. Braziliya fedarasiyası 26 ştata və federativ (paytaxta)

mahala bölünür. Dövlətin və hökumətin başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Braziliyadır. – 321.

**190. Luis İnasiu Luba da Silva** (d.1945) – 2003-cü ildən Braziliya prezidenti. Braziliyada həmkarlar İttifaqının yaradıcılarından biridir. – 321.

**191. Malta,** M a l t a R e s p u b l i k a s ı – Cənubi Avropada, Malta arxipelaqında dövlət. Sahəsi 316 km$^2$, əhalisi 372 min nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı Nümayəndələr Palasıdır. Paytaxtı Valletta şəhəridir. – 322.

**192. Eduard Feneç Adami** (d.1934) – Malta siyasətçisi. 1987-1996,1998-2004-cü illər Maltanın Baş naziri, 2004-2009-cu illərdə Maltanın prezidenti olmuşdur. – 322.

**193. Meksika,** M e k s i k a B i r l ə ş m i ş Ş t a t l a r ı – Şimali Amerikanın cənubunda dövlət. Sahəsi 1958 min km$^2$, əhalisi 91,1 milyon nəfərdir. Meksika federasiyadır, inzibati ərazisi 31 ştata və federal mərkəzi əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. (Deputatlar palatası və Senat). Paytaxtı Mexikodur. – 323.

**194. Visente Foks Kesada** (d.1942) – Meksikada olmuş prezidentlərin ən məşhuru. Müxalifət partiyalarından seçilən ilk prezident (2000-2006). – 323.

**195. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə Ə r ə b i s t a n ı K r a l l ı ğ ı – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 18,4 milyon nəfərdir. Paytaxtı ər-Piyaddır. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. – 324,325.

**196. Fəhd Bin Əbdüləziz,** A l S ə u d (1922–2005) – 1982-2005-ci illərdə iki müqəddəs ocağın xidmətçisi və Səudiyyə Ərəbistanının kralı. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 324.

**197. Abdullah Bin Əbdüləziz,** Al Səud (d.1924) – 2005-ci ildən Səudiyə Ərəbistanı əmiri. 1962-ci ildən Səudiyyə Ərəbistanı Milli Qvardiyasının komandiri olan birinci əmir. Abdul ibn Səudun oğludur. 1982-ci ildən Baş nazirin müavini, 1996-cı ildən 2005-ci ilə qədər Baş nazir olmuşdur. – 325.

## Şəxsi adlar göstəricisi

**Abbasov Abbas** – 307–311
**Abdullayev Arif** – 227
**Abdullayev Dağlar** – 31
**Abdullayev Namiq** – 227,311
**Abramov Yevda** – 178
**Abutalıbov Hacıbala** – 213–215
**Adami Eduard** – 322
**Adamkus Valdas** – 84
**Ağar Mehmet** – 80
**Akayev Əsgər** – 82,265
**Albert II** – 144
**Al Səud Abdullah** – 325
**Al Səud Fəhd** – 324
**Angelpulu–Daskalaki İoann** – 314
**Aşimov Fazil** – 31
**Aşimova İradə** – 260
**Avramopulos Dimitris** – 258
**Aydəmirov Yaşar** – 31
**Babirin Aleksandr** – 90
**Bakirov** – 91
**Baqabandi Natsaqin** – 85
**Badavi Abdulla** – 267
**Bereksi Əbdülhəmid** – 139–141
**Berqner Kristof** – 294
**Bleyr Toni** – 76,79
**Bubka Sergey** – 250
**Buş Corc** – 44–45,76,79
**Camalullai Tuanku** – 266
**Cekson Bryus** – 52–57
**Cəfərov Elçin** – 307–111

**Coane Mirça** – 53,62,65
**Çan Dik Lionq** – 270
**Çətin Hikmət** –80
**Çoudri Ənvər** – 250
**Çrvenkovski Branko** – 199
**Da Silva Luis** – 321
**Davudoğlu Əhməd** – 53,63
**Days Yozef** – 198
**Denktaş Rauf** – 15
**Dilbazoğlu Sezer** – 60
**Əbdül Kalam** – 223
**Əbiyev Səfər** – 29–34
**Əl-Qəzzafi Müəmmər** – 269
**Əl-Tani Həməd** – 272
– 5,7,27,29,32,47–50,53,67,75, 87,94,96,97,98,99,116,120,121, 122,124,135,137,138,146,148, 149,150,151,153,160,161,164, 165,167,175,180,182,189,195, 200,203,213,217,219,226,235, 236,239,241,251,277,280,301, 316
**Əliyev Lənkəran** – 31
**Əliyeva Mehriban** – 47,76,170,248–261
**Ərdoğan Rəcəb Tayyib** – 75,76,159
**Əzizov Mehman** – 260,309,310,313
**Fetisov Vyaçeslav** – 255
**Fişer Yoşka** – 305–306
**Frias Hüqo** – 46
**Frist Bill** – 50–51
**Hüseynov Rafiq** – 31
**Hüseynov Rövşən** – 310,313
**Xairov Ruslan** – 310
**Xatəmi Məhəmməd** – 42,233–247
**Xuri Nəsib** – 257
**İbanes Xorxe** – 263
**İlyumjinov Kirsan** – 27

**İqnatenko Vitali** – 152–153,315
**İmranov Şahin** – 310
**İpək Haluk** – 158–159
**Jakolen Anri** – 154–155
**Jemayeva Yelena** – 260
**Kalam Əbdül** – 223
**Karamanlis Konstantinos** – 80,256–257,314
**Kesada Visente** – 323
**Kərimov İslam** – 82,268
**Kərzai Həmid** – 225
**Kim Çen İr** – 320
**Köler Horst** – 285,286
**Köçəryan Robert** – 82
**Kuçma Leonid** – 79,82,262
**Qarayev Əbülfəs** – 307–311
**Qasparoviç İvan** – 271
**Qazaryan Karen** – 58
**Qəyyum Məmun** –156
**Qolubkov** – 89
**Qrevlix Klaus** – 284
**Quliyev Elçin** – 184
**Lamas Ernesto** – 139– 141
**Lamprext Rudi** – 295–303,304
**Lir Maykl** – 139–141
**Lujkov Yuri** – 86–94
**Lukaşenko Aleksandr** – 43
**Mahama Fransis** – 139–141
**Makfol Maykl** – 57
**Mansurov Fərid** – 307–111,312,313
**Marinetti Rafael** – 250
**Meftahəddinova Zemfira** – 227,310
**Merzlyakov Yuri** – 154–155
**Məhəmməd VI** – 157

**Məhəmməd əl-Geys** – 139–141
**Məmmədov Ağası** – 227
**Məmmədov Çingiz** – 31
**Məmmədov Vaqif** – 31
**Məmmədyarov Elmar** –233
**Məmmədyarov Şəhriyar** – 27
**Mənn Stiven** – 154–155
**Mirəliyev Mövlud** – 309,313
**Mirzəyev Hikmət** – 31
**Mirzəyev Turan** – 259,260,309,313
**Mübarək Hüsnü** – 142
**Müşərrəf Pərviz** – 120,123–138
**Nazarbayev Nursultan** – 79,82
**Nosenko** – 90
**Osmanov Nizam** – 31
**Pasban Cavad** – 246
**Paşayev Nizami** – 227
**Paşayev Niyaməddin** – 227
**Paulauskas Arturas** – 80
**Pene Osman** – 121–122
**Peskanto Mario** – 250,314
**Piriyev Heydər** – 31,35–41
**Potoçnik Yaneş** – 118–119
**Putin Vladimir** – 26,61,82–83,108,153,279,283
**Ramanatan Sellapan** – 220
**Ramsfeld Donald** – 111,112,171
**Rasizadə Artur** – 5,233
**Rəcəbov Teymur** – 27
**Rəhimov Vitali** – 310
**Rəhmonov İmaməli** – 82,319
**Rizayev Ramiz** – 82,89
**Roh Mu-Huyn** – 221
**Roqq Jak** – 250,251,253,314

**Rühen Folkner** – 304
**Rühe Volfqanq** – 67
**Saakaşvili Mixail** – 53,54,62,65,79,82,104,314
**Sadıqov Hüseynağa** – 284
**Saltanov Aleksandr** – 82
**Samaranç Xuan** – 250,253
**Sezər Əhməd Necdət** – 28,73,74,81
**Sxeffer Yaap de Hopp** – 74
**Sinq Manmohan** – 222
**Smirnov Vitali** – 250
**Sofiya** – 63
**Sokora Vladimir** – 68
**Soros Corc** – 280
**Stetsenko Natalya** – 217–219
**Stefanopulos Konstantinos** – 5–25,80,118,256,314
**Sukarnoputri Meqavati** – 224
**Şakir xan Nauriz** – 120
**Şevalerias Alən** – 273–282
**Şevardnadze Eduard** – 280
**Şirak Jak** – 74,76,79,90
**Şoştakoviç Dmitrii** – 82
**Şröder Gerhard** – 287–293,295,302
**Talvitiye Heyki** – 118
**Tarasyuk Boris** – 63
**Tyaqaçov Leonid** – 219
**Veles Alvaro** – 143
**Verhofstadt Çi** – 145,216
**Vike –Frayberq Vayra** – 80
**Vizir Marius** – 250
**Voronin Vladimir** –82,264
**Yanukoviç Viktor** – 250

## Coğrafi adlar göstəricisi


**Abşeron** – 122
**Afina** ...........................– 14,24,219,227,228,230,231, 248–261,307–314
**Almaniya** – 250,254,284–306
**Amerika Birləşmiş Ştatları** – 44–45,50–51,57,68,76,77,79, 104,106,111,112,114,135,154–155,279,282
**Ankara** – 121,122
**Asiya** – 282,318
**Ath** *(Belçikada şəhər)* – 216
**Avrasiya** – 316
**Avropa** – 10,15,17,21,52,53,54,57,62, 65,66,114,117,118,276,281, 282,286,290,293,294,318
**Bakı** – 9,26,27,35,42,45,46,52,53,59, 94,95,111,115,118,122,156,157,163,196,197,198, 199,206,213, 215,218,220,221,222,223,224, 225,247,262,263,264,265,266, 267,268,269,270,271,272,283, 284,318,319,320,321,322,323, 324,325
**Belarus** – 43,88,250
**Belçika** – 144,145,216
**Berlin** – 284–306
**Birləşmiş Ərəb Əmirlikləri** – 139–141
**Böyük Britaniya** – 76,79
**Braziliya** – 321
**Brüssel** – 71,118
**Buxarest** – 13
**Cenevrə** – 279
**Cənubi Avropa** – 66
**Cənubi Qafqaz** – 15,54,56,60,70,77,102,104, 105,107,111,113,116,119,243, 275,281,294,297
**Cənubi Osetiya** – 303
**Çin** – 259

**Dağlıq Qarabağ** – 9,13,16,21,39,44,51,56,58, 59,65,67,70,71,73,75,77,79, 95,105,106,107,111,113,115, 124,125,126,129,131,133,136, 141,150,154–155,202,204,208, 209,211,239,244,256,274,279, 286,287,289,291,292,293,294, 302,303, 304,305,306.
**Dəvəçi** – 164–165,190
**Əfqanıstan** – 74,112,131,225,242
**Əlcəzair** – 139–143
**Fələstin** – 131,241,243
**Fransa** – 74,76,79,95,96–117,139–141, 154–155,273–282
**Filippin** – 139–141
**Gəncə** – 38,181
**Gürcüstan** –54,60,61,62,64,79,82,104, 105,250,276,282,302,303,305
**Hindistan** – 222,223
**Xaçmaz** – 189
**Xəzər dənizi** – 27,63,64,96,108,109,110,111, 114,136,279
**Xorvatiya** – 259
**Xudat** – 184–188
**İndoneziya** – 224
**İnquşetiya** – 26
**İraq** – 74,112,131,241,243,279
**İran** – 42,233–247,273,276,282
**İspaniya** – 111,112
**İstanbul** – 47–80,122
**İsveçrə** – 178,198
**Kalmıkiya** – 27
**Kanada** – 139–141
**Kəşmir** – 126,131,133,136
**Kipr** – 16,17,69
**Kiyev** – 62
**Kolumbiya** – 143
**Koreya XDR** – 320

**Koreya Respublikası** – 221,259
**Kosovo** – 112
**Qafqaz** – 62,104,105,114
**Qana** – 139–141
**Qara dəniz** – 52,60,62,63,64,65
**Qars** – 61
**Qətər** – 272
**Qazaxıstan** – 79,82,109,250
**Qırğızıstan** – 82,250,253,265
**Quba** – 166–174,180,181,190,229
**Qusar** – 175–183,190
**Latviya** – 79
**Lənkəran** – 181
**Litva** – 80,84
**Liviya** – 269
**London** – 279
**Lüksemburq** – 115
**Makedoniya** – 199
**Malayziya** – 266,267
**Maldiv** – 156
**Malta** – 322
**Meksika** – 323
**Mərakeş** – 111,112,157
**Mərkəzi Asiya** – 52,114
**Misir** – 142
**Moldova** – 62,65,66,82,250,264
**Moskva** – 82–83,86–94,107,279
**Monqolustan** – 85
**Naxçıvan** – 38,181,241,244
**Naxçıvan M R** – 237,244
**Novorossiysk** – 108
**Nyu-York** – 13
**Özbəkistan** – 82,268
**Pakistan** – 120,123–138
**Paris** – 116,276
**Pekin** – 308

**Polşa** – 65
**Rumıniya** – 53
**Rusiya** – 26,27,60,61,63,71,82–83,106, 107,108,152–153,217–219,276, 277,279,282,283,293,305,315
**Sakarya** – 197
**Səudiyyə Ərəbistanı** – 324,325
**Sidney** – 219,227,228,232
**Sinqapur** – 220
**Siyəzən** – 160–163
**Slovakiya** – 271
**Şəki** – 181
**Şərqi Avropa** – 54,100,102,113,195,276
**Tacikistan** – 82,250,319
**Tbilisi** – 104
**Tehran** – 237
**Təbriz** – 137,241,246
**Türkiyə** –15,28,47–81,111,112,118,121–122,158–259,197,159,276,277
**Türkmənistan** – 250
**Ukrayna** – 62,63,65,66,79,82,262,317
**Uruqvay** – 263
**Vaşinqton** – 279
**Venesuela** –46
**Vyetnam** – 270
**Yaxın Şərq** – 52
**Yunanıstan** –5–25,80,118,248–261,307–314
**Zahedan** – 42

# MÜNDƏRİCAT


YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ
*20 iyun 2004-cü il……………………………………………………………………………….5*

YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOS İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ
*21 iyun 2004-cü il...........................................................................................................7*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ
*21 iyun 2004-cü il...........................................................................................................8*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*21 iyun 2004-cü il.........................................................................................................11*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ YUNANISTAN PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOS «HEYDƏR ƏLİYEV FONDU»NDA
*21 iyun 2004-cü il.........................................................................................................18*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ADINDAN YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ KONSTANTİNOS STEFANOPULOSUN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ
*21 iyun 2004-cü il.........................................................................................................20*

AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN İNZİBATİ BİNASINDA«OLİMPİYA RUHU» SƏRGİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*22 iyun 2004-cü il.........................................................................................................23*

YUNANISTAN TƏRƏFİNİN VERDİYİ ZİYAFƏTDƏ NİTQ
*22 iyun 2004-cü il.........................................................................................................25*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ
*23 iyun 2004-cü il.........................................................................................................26*

KALMIKİYA RESPUBLİKASININ PREZİDENTİ, FİDE-nin PREZİDENTİ KİRSAN İLYUMJİNOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*23 iyun 2004-cü il.........................................................................................................27*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NEC-DƏT SEZƏRƏ
*24 iyun 2004-cü il..........................................................................................................28*

SİLAHLI QÜVVƏLƏRİN BİR QRUP GENERAL VƏ ZABİTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*24 iyun 2004-cü il..........................................................................................................29*

HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİNDƏ ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*24 iyun 2004-cü il..........................................................................................................35*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ SEYİD MƏHƏMMƏD XATƏMİYƏ
*25 iyun 2004-cü il..........................................................................................................42*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA
*25 iyun 2004-cü il..........................................................................................................43*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ CORC BUŞ CƏNABLARINA
*25 iyun 2004-cü il..........................................................................................................44*

VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HU-QO RAFAEL ÇAVEZ FRİASA
*25 iyun 2004-cü il..........................................................................................................46*

NATO-nun ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN İSTANBULA İŞGÜZAR SƏFƏRİ
*26 iyun 2004-cü il..........................................................................................................47*

İSTANBULDA SİSLİ BƏLƏDİYYƏSİ ƏRAZİSİNDƏ HEYDƏR ƏLİYEV ADINA PARKIN VƏ BÜSTÜNÜN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*26 iyun 2004-cü il..........................................................................................................47*

«AVRATLANTİK İTTİFAQI YOL AYRICINDA» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ
*26 iyun 2004-cü il..........................................................................................................52*

ALMANİYA BUNDESTAQININ KOMİSSİYA SƏDRİ İLƏ GÖRÜŞ
*26 iyun 2004-cü il..........................................................................................................67*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MƏTBUAT KONFRANSI
*26 iyun 2004-cü il..........................................................................................................69*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN TƏKBƏTƏK GÖRÜŞÜ
*28 iyun 2004-cü il*............................................................................................................73

NATO-nun ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNÜN AÇILIŞI MƏRASİMİ
*28 iyun 2004-cü il*............................................................................................................74

NATO-nun İSTANBUL ZİRVƏ GÖRÜŞÜNDƏ ÇIXIŞ
*29 iyun 2004-cü il*............................................................................................................77

BİR SIRA XARİCİ ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARI İLƏ GÖRÜŞ
*29 iyun 2004-cü il*............................................................................................................79

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ
*2 iyul 2004-cü il*..............................................................................................................81

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA SƏFƏRİ
*2 iyul 2004-cü il*..............................................................................................................82

LİTVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VALDAS ADAMKUSA
*5 iyul 2004-cü il*..............................................................................................................84

MONQOLUSTANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NATSAQİYN BAQABANDİYƏ
*5 iyul 2004-cü il*..............................................................................................................85

MOSKVANIN MERİ YURİ LUJKOV BAŞDA OLMAQLA RUSİYA FEDERASİYASI PAYTAXTININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*5 iyul 2004-cü il*..............................................................................................................86

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JAK ŞİRAKA
*5 iyul 2004-cü il*..............................................................................................................95

FRANSANIN «LA LETR DİPLOMATİK» JURNALINA MÜSAHİBƏ
*5 iyul 2004-cü il*..............................................................................................................96

AVROPA BİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*7 iyul 2004-cü il*..............................................................................................................118

PAKİSTANIN YANACAQ VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ NAURİZ ŞAKUR XAN İLƏ GÖRÜŞ

*7 iyul 2004-cü il*........................................................................................................*120*

TÜRKİYƏNİN ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ MEŞƏ TƏSƏRRÜFATI NAZİRİ OSMAN PENE İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*8 iyul 2004-cü il*........................................................................................................*121*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN AZƏRBAYCANA SƏFƏRİ
*8 iyul 2004-cü il*........................................................................................................*123*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏF İLƏ TƏKBƏTƏK GÖRÜŞ
*8 iyul 2004-cü il*........................................................................................................*124*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ PAKİSTAN PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ
*8 iyul 2004-cü il*........................................................................................................*125*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ PAKİSTANPREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN BİRGƏ MƏTBUAT KONFRANSI
*8 iyul 2004-cü il*........................................................................................................*129*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ
*8 iyul 2004-cü il*........................................................................................................*135*

PAKİSTAN RESPUBLİKASININ PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏFİN AZƏRBAYCANA SƏFƏRİ
*9 iyul 2004-cü il*........................................................................................................*137*

BİR SIRA XARİCİ ÖLKƏLƏRİN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRLƏRİNİN ETİMADNAMƏLƏRİNİ QƏBUL ETMƏ MƏRASİMİNDƏ ÇIXIŞ
*12 iyul 2004-cü il*......................................................................................................*139*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ
*12 iyul 2004-cü il*......................................................................................................*142*

KOLUMBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİCƏNAB ALVARO URİBE VELESƏ
*12 iyul 2004-cü il*......................................................................................................*143*

BELÇİKANIN KRALI ƏLAHƏZRƏT II ALBERTƏ
*12 iyul 2004-cü il*......................................................................................................*144*

BELÇİKA KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB Gİ VERHOFSTADTA
*12 iyul 2004-cü il*......................................................................................................145

«AZBENTONİT» ZAVODUNUN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*14 iyul 2004-cü il*......................................................................................................*146*

RUSİYA İTAR–TASS İNFORMASİYA AGENTLİYİNİN BAŞ DİREKTORU İLƏ GÖRÜŞ
*15 iyul 2004-cü il*......................................................................................................*152*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ
*16 iyul 2004-cü il*......................................................................................................*154*

MALDİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMUN ƏBDÜL QƏYYUMA
*16 iyul 2004-cü il*......................................................................................................*156*

MƏRAKEŞİN MƏLİKİ ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ
*16 iyul 2004-cü il*......................................................................................................*157*

TÜRKİYƏ PARLAMENTİNİN QADIN DEPUTATLARINDAN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*19 iyul 2004-cü il*......................................................................................................*158*

AZƏRBAYCANIN ŞİMAL BÖLGƏSİNƏ SƏFƏRİ ZAMANI SİYƏZƏN SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*20 iyul 2004-cü il*......................................................................................................*160*

DƏVƏÇİ SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*20 iyul 2004-cü il*......................................................................................................*164*

QUBA RAYON KREDİT YARMARKASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*20 iyul 2004-cü il*......................................................................................................*166*

QUBA İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ
*20 iyul 2004-cü il*......................................................................................................*171*

QUBADA QIRMIZI QƏSƏBƏ SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ
*20 iyul 2004-cü il*......................................................................................................*175*

QUSAR ŞƏHƏR SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ
*21 iyul 2004-cü il*......................................................................................................*179*

XUDAT SƏRHƏD DƏSTƏSİNİN ŞƏXSİ HEYƏTİ İLƏ GÖRÜŞDƏ NİTQ

*21 iyul 2004-cü il*.........................................................................................................*184*

XAÇMAZ RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ
*21 iyul 2004-cü il*...........................................................................................................*189*

AZƏRBAYCAN RESPUBLİKASININ MƏTBUAT İŞÇİLƏRİNƏ
*21 iyul 2004-cü il*...........................................................................................................*194*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ
*23 iyul 2004-cü il*.............................................................................................................*197*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOZEF DAYSA
*23 iyul 2004-cü il*.............................................................................................................*198*

MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BRANKO ÇRVENKOVSKİYƏ
*23 iyul 2004-cü il*.............................................................................................................*199*

RESPUBLİKAMIZIN XARİCİ ÖLKƏLƏRDƏKİ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN BAŞÇILARI İLƏ GÖRÜŞDƏ NİTQ
*27 iyul 2004-cü il*............................................................................................................*200*

BAKIDA HEYDƏR ƏLİYEV ADINA SARAYIN QARŞISINDAKI PARKDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLARKƏN, PAYTAXT SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*27 iyul 2004-cü il*............................................................................................................*213*

BELÇİKA KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB Gİ VERHOFSTADTA
*31 iyul 2004-cü il*.............................................................................................................*216*

NƏ? HARADA? NƏ VAXT? ZƏKA OYUNU ÜZRƏ ÜÇÜNCÜ DÜNYA ÇEMPİONATI MÜKAFATÇILARININ TƏLTİF EDİLMƏSİ VƏ BAĞLANIŞ MƏRASİMİNDƏ ÇIXIŞ
*31 iyul 2004-cü il*.........................................................................................................*217*

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SELLAPAN RAMA NATANA
*2 avqust 2004-cü il*..........................................................................................................*220*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROH MU–HYUNA
*2 avqust 2004-cü il*...........................................................................................................*221*

HİNDİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB MANMOHAN SİNQƏ
*2 avqust 2004-cü il*......................................................................................................*222*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB AVUL PAKİR CAYNULABDİN ƏBDÜL KALAMA
*2 avqust 2004-cü il*......................................................................................................*223*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM MEQAVATİ SUKARNOPUTRİYƏ
*2 avqust 2004-cü il*......................................................................................................*224*

ƏFQANISTAN İSLAM KEÇİD DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ
*2 avqust 2004-cü il*......................................................................................................*225*

XXVIII YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK EDƏCƏK AZƏRBAYCAN İDMANÇILARININ YOLASALMA MƏRASİMİNDƏ NİTQ
*4 avqust 2004-cü il*......................................................................................................*226*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİ AZƏRBAYCANDA
*5 avqust 2004-cü il*...................................................................................................*233*

AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞDƏ NİTQ
*5 avqust 2004-cü il*...................................................................................................*235*

SƏNƏDLƏR İMZALANDIQDAN SONRA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD XATƏMİNİN BİRGƏ MƏTBUAT KONFRANSI
*5 avqust 2004-cü il*......................................................................................................*239*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ İRAN PREZİDENTİ MƏHƏMMƏD XATƏMİ HEYDƏR ƏLİYEV FONDUNDA
*6 avqust 2004-cü il*......................................................................................................*245*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AFİNAYA SƏFƏRİ
*12 avqust 2004-cü il*....................................................................................................*248*

XXVIII YAY OLİMPİYA OYUNLARI ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLMİŞ AZƏRBAYCAN GÜNÜ MƏRASİMİNDƏ NİTQ
*15 avqust 2004-cü il*....................................................................................................*250*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN YUNANISTANIN BAŞ NAZİRİ KONSTANTİNOS KARAMANLİSLƏ GÖRÜŞÜ
*16 avqust 2004-cü il*..........................................................................................................256

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YUNANISTANIN TURİZM NAZİRİ İLƏ GÖRÜŞÜ
*18 avqust 2004-cü il*..........................................................................................................258

OLİMPİADANIN AĞIRLIQQALDIRMA ÜZRƏ YARIŞLARININ KEÇİRİLDİYİ KOMPLEKSDƏ YARIŞ BAŞLANMAZDAN ƏVVƏL TÜRKİYƏNİN TRT TELEVİZİYA KANALI MÜXBİRİNİN SUALLARINA CAVAB
*18 avqust 2004-cü il*..........................................................................................................259

UKRAYNANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LEONİD KUÇMAYA
*20 avqust 2004-cü il*..........................................................................................................262

URUQVAY ŞƏRQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB XORXE BATLE İBANESƏ
*20 avqust 2004-cü il*..........................................................................................................263

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR VO-RONİNƏ
*20 avqust 2004-cü il*..........................................................................................................264

QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏSGƏR AKA-YEVƏ
*20 avqust 2004-cü il*..........................................................................................................265

MALAYZİYANIN ALİ BAŞÇISI ƏLAHƏZRƏT TUANKU SEYİD SİRACUDDİN PUTRA CAMALULLAİLƏ
*20 avqust 2004-cü il*..........................................................................................................266

MALAYZİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLA ƏHMƏD BADAVİYƏ
*20 avqust 2004-cü il*..........................................................................................................267

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİCƏNAB İSLAM KƏRİ-MOVA
*23 avqust 2004-cü il*..........................................................................................................268

LİVİYA İNQİLABININ RƏHBƏRİ, LİVİYA ƏRƏB SOSİALİST XALQ CƏMAHİRİYYƏSİNİN BAŞÇISI, ZATİ-ALİLƏRİ CƏNAB MÜƏMMƏR ƏL-QƏZZAFİYƏ
*23 avqust 2004-cü il*..........................................................................................................269

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇAN DİK LIONQA
*23 avqust 2004-cü il............................................................................................270*

SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İVAN QAŞPAROVİÇƏ
*23 avqust 2004-cü il............................................................................................271*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİYƏ
*23 avqust 2004-cü il............................................................................................272*

«LA POLİTİQUE İNTERNATİONALE» JURNALINA MÜSAHİBƏ
*24 avqust 2004-cü il............................................................................................273*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİ-NƏ
*25 avqust 2004-cü il............................................................................................283*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYA FEDE-RATİV RESPUBLİKASINDA
*25 avqust 2004-cü il............................................................................................284*

BERLİNDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ
*25 avqust 2004-cü il............................................................................................285*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ALMANİYA PREZİDENTİ HORST KÖLERİN GÖRÜŞÜ
*25 avqust 2004-cü il............................................................................................286*

ALMANİYANIN FEDERAL KANSLERİ GERHARD ŞRÖDER İLƏ GÖRÜŞ
*25 avqust 2004-cü il............................................................................................287*

ALMANİYA – AZƏRBAYCAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ALMANİYANIN FEDE-RAL KANSLERİ GERHARD ŞRÖDERİN BİRGƏ MƏTBUAT KONFRANSI
*25 avqust 2004-cü il............................................................................................289*

BUNDESTAQIN ALMANİYA–QAFQAZ QRUPUNUN RƏHBƏRİ İLƏ GÖRÜŞ
*25 avqust 2004-cü il............................................................................................294*

ALMANİYANIN MƏŞHUR «SİEMENS» ŞİRKƏTİ TƏRƏFİNDƏN AZƏRBAYCAN PRE-ZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ GÖRÜŞDƏ NİTQ
*25 avqust 2004-cü il............................................................................................295*

BUNDESTAQIN XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ İLƏ GÖRÜŞ
*25 avqust 2004-cü il..........................................................................................304*

ALMANİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞ
*26 avqust 2004-cü il..........................................................................................305*

AFİNADA XXVIII YAY OLİMPİYA OYUNLARININ QALİBİ FƏRİD MANSUROVLA VƏ YUNAN–ROMA GÜLƏŞİ ÜZRƏ MİLLİ KOMANDAMIZIN BAŞ MƏŞQÇİSİ ELÇİN CƏFƏROVLA GÖRÜŞ
*26 avqust 2004-cü il...............................................................................307*

AFİNADA «LİDER» TELEVİZİYASININ MÜXBİRİNƏ VERDİYİ MÜSAHİBƏ
*26 avqust 2004-cü il...............................................................................312*

RUSİYA İNFORMASİYA TELEQRAF AGENTLİYİ – İTAR–TASS-ın BAŞ DİREKTORU CƏNAB VİTALİ İQNATENKOYA
*31 avqust 2004-cü il..........................................................................................315*

AVRASİYA DÖVLƏTLƏRİ YEDDİNCİ İQTİSADİ ZİRVƏSİNİN İŞTİRAKÇILARINA
*31 avqust 2004-cü il..........................................................................................316*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİZATİ-ALİLƏRİ CƏNAB İMƏMƏLİ RƏHMONOVA
*31 avqust 2004-cü il..........................................................................................319*

KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İRƏ
*31 avqust 2004-cü il..........................................................................................320*

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LUİS İNASİU LULA DA SİLVAYA
*31 avqust 2004-cü il..........................................................................................321*

MALTANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EDUARD FENEÇ ADAMİYƏ
*31 avqust 2004-cü il..........................................................................................322*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİSENTE FOKS KESADAYA
*31 avqust 2004-cü il..........................................................................................323*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT FƏHD BİN ƏBDÜLƏZİZ AL SƏUDA
*31 avqust 2004-cü il..........................................................................................324*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN BİRİNCİ MÜAVİNİ, MİLLİ QVARDİYANIN RƏİSİ ƏLAHƏZRƏT ƏMİR ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA
*31 avqust 2004-cü il*.............................................................*325*

Q E Y D L Ə R.............................................................*326*

Şəxsi adlar göstəricisi.............................................................*369*

Coğrafi adlar göstəricisi.............................................................*374*

**Kitabı çapa hazırlayan** *Tofiq Babayev*

**Texniki redaktoru** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x1081/32. Ofset kağızı 1. Şərti çap vərəqi 24,5. Uçot vərəqi 25,0 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.